RÜSTƏM İBRAHİMBƏYOV

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

"AVRASİYA PRESS"
BAKI-2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "Rüstəm İbrahimbəyov. Park" (Bakı, Gənclik, 1987) nəşri əsasında təkrar nəşrə hazırlanmışıdır*

**894.3613-dc22**
**AZE**
**Rüstəm İbrahimbəyov. Seçilmiş əsərləri.** İki cilddə. I cild. Bakı, "Avrasiya press", 2006, 312 səh.

*Məşhur Azərbaycan yazıçısı Rüstəm İbrahimbəyovun əsərləri* dünyanın bir sıra dillərinə tərcümə olunmuş və özünə geniş oxucu kütləsi qazanmışdır. Hansı mövzuya müraciət etməsinə baxmayaraq R.İbrahimbəyov həmin əsəri müasir və real bir rakursdan təqdim etməyi ustalıqla bacaran yazıçıdır. Yazıçının oxuculara təqdim olunan iki cildliyinin birinci cildinə daxil edilmiş povestlər bu baxımdan olduqca qiymətli əsərlərdir.

**ISBN10 9952-421-76-X**
**ISBN13 978-9952-421-76-7**

© AVRASİYA PRESS, 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İNSANDA İNSANLIĞIN TƏRƏNNÜMÜ

Əsərləri dünyanın onlarca dilində işıq üzü görmüş Rüstəm İbrahimbəyovun Azərbaycan dilində ilk və son iri kitabı, yanılmıramsa hələ keçən əsrdə, 1987-ci ildə nəşr olunmuşdu. Yazıçının doğma dilimizdə çap olunan yeni kitabına onun povestləri, hekayələri daxil edilib.

Rüstəm rus dilində yazır, bu bəzən mübahisələr doğurur: – Başqa dildə yazıb yaradan müəllifi nə dərəcədə milli sənətkar saymaq olar? Ən radikal mövqedə duranlar ümumən yalnız doğma dildə yaradan yazıçını öz xalqının sənətkarı sayır. Məncə bu kökündən yanlış mövqedir. Əlbəttə, – bunu mən də dəfələrlə demişəm, yazmışam – hər bir ədəbiyyat ilk növbədə doğma dildə yaranır, nəsrin, şeirin əsas magistral yolu – ana dilindən keçir. Amma müəyyən tarixi, ictimai, hətta, ailə, şəxsi tale səbəblərindən başqa dildə təhsil almış, başqa dili mənimsəmiş adamları milli ədəbiyyatımızdan ayırsaq çox böyük itkilərimiz olar. Onda gərək bütün əsərlərini fars dilində yazmış Nizamini, Xaqanini, Məhsətini ədəbiyyat tariximizdən çıxaraq. Füzuli necə? Türkcə yazdığı şah əsərlərində Azərbaycan şairi, ərəbcə yazdıqlarında ərəb, farsca divanında fars sənətçisidir? Mirzə Fətəli Axundzadə Puşkinin ölümünə yazdığı "Şərq poeması"yla fars şairi, "Hacı Qara"sıyla Azər türk dramaturqudur? İyirminci əsrdə yetişmiş, rus dilində təhsil almış və rus dilində yazan neçə istedadlı şairi, nasiri ədəbiyyatımızdan xaric etməliyikmi? Yaxud kim rus dilində yazdıqları üçün Çingiz Aytmatovun qırğız yazıçısı, Oljas Süleymanovun qazax şairi olmadığını iddia edə bilər? Yenə də təkrar edirəm – dil ünsürü ədəbiyyatda ən mühüm, ən vacib, ən əsas ünsürdür, amma yeganə ünsür deyil. Müəllifin milli mənsubiyyəti, əsərlərinin məzmunu, mövzusu, ruhu, qaldırdığı milli problemlər, yaratdığı milli xarakterlər onun hansı ədəbiyyata mənsub olduğunun dəqiq göstəricisidir.

Hər hansı bir ədəbiyyatın fəxri sayıla biləcək Rüstəm İbrahimbəyovun beynəlmiləl mövzularda pyesləri, ssenariləri də var, bu və başqa əsərlərinə görə o keçmiş SSRİ-nin, indiki Rusiya Federasiyasının, bir çox Avropa ölkələrinin və ABŞ-ın ən yüksək mükafatlarını, o cümlədən "Oskar" ödülünü qazanıb. Amma Azərbaycan Xalq yazıçısı, Azərbaycanın Dövlət mükafatı laureatı Rüstəmin Azərbaycan həyatından yazdığı povestləri, hekayələri sırf milli və hətta məhəlli koloriti ilə, dedikləri rus kəlmələriylə ifadə olunmuş personajların dilindəki Azərbaycan özəllikləri, hər xarakterin milli səciyyəsi, əsərlərin ümumi ovqatı, ab-havası bu dəyərli sənət örnəklərini milli ədəbiyyatımızın qızıl fonduna daxil etmişdir. "9-cu Xrebtovıda", "Unudulmuş avqust", "Park", "Ad günü", "Nəğmə dərsi", "Ezamiyyətdə" – mənim fikrimcə, çağdaş nəsrimizin şah əsərlərindəndir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ çox illər bundan əvvəl Rüstəmin "9-cu Xrebtovıda" povestini oxuyarkən müəllifin ilk iri əsəri olan bu yazı məni heyran etmişdi: ən ağrılı ictimai və milli məsələlərə toxunan gənc nasirin cəsarəti, məişət səhnələrini bu qədər müfəssəl və yerli-yataqlı təsvir etmək məharəti, insan xarakterlərinin bunca ustalıqla açmaq bacarığı qibtəyə layiq idi. İlk yazılarından özünü ciddi qələm sahibi kimi tanıdan müəllif ömrü boyu sadiq qaldığı mənəvi mövqeyi elə ilk əsərlərindən bəyan etmişdi. Mən bu mövqeyi insanda insanlıq axtarışı kimi müəyyənləşdirərdim. Gördüyü, tanıdığı, müşahidə etdiyi hər bir insanda Rüstəm ilk növbədə onun insani cəhətlərini, bəzən ilk baxışda sezilməyən, çox dərin qatlarda gizlənən insanlığını axtarır və üzə çıxarmağa çalışır.

Eyni zamanda o bu insanlığa qənim kəsilən cəhətləri – qəddarlığı, əzazilliyi, zoru nəzərə çatdıra bilir. Adi bir şəhər həyətində, yaxud şəhər kənarında çöllükdə yeniyetmələr arasında baş verən qarşıdurma – ("Unudulmuş avqust" povesti), təmənnasız fədakarlıqla zülmün toqquşması ("Yaşıl qapı arxasındakı qadın" pyesi) daha qlobal problemlərin, insanlıqla tutalım elə faşizmin üzüzə gəlməsinin modelidir.

"Ezamiyyətdə" hekayəsində bəhs olunan hadisələr "9-cu Xrebtovı"da cərəyan edən olaylardan çox uzaqdır. Məkanlar da fərqlidir. Hekayənin qəhrəmanı elmi işçi Mərdanov Moskvada ezamiyyətdədir, "9-cu Xrebtovı"nın sakinləri öz məhəllələrindən kənara çıxmır. Beləliklə, müxtəlif məkanlar, müxtəlif mühit, müxtəlif maraqlar və müxtəlif davranış qaydaları. Amma buna rəğmən hekayə də, povest də dərəni mənəvi bağlarla bir-birinə bağlıdır, bir-birinə calanır, bir-birini tamamlayır. Onların ümumi cəhəti müəllifin insanda insanlıq axtarışlarının inikasıdır. Yəni mətləb eynidir – insanın həqiqi mahiyyəti, ona təlqin olunan yalançı əxlaq və rəftar ülgülərinə qarşı şəxsiyyətin təbii özlüyü, saxta xətt-hərəkətlərlə pərdələnmiş, zahiri əlamətlərin altında ya arxasında insanın üzvü varlığı, əsl mahiyyəti…

"Ezamiyyətdə" hekayəsinin sadə süjetini açıqlamayacam, hekayəni oxuyub orada nədən bəhs edildiyini bilmək olar. Yalnız ilk oxunuşda da, sonralar yenə bu hekayəyə qayıdarkən də məni həyəcanlandıran sonluqdan danışmaq istəyirəm. Mərdanovun şaxtalı Moskva küçələrində, qarlı qış gecəsində balaca oğlanı çağırması:

"O, gedir və hey oğlanı çağırırdı. Gedir və çağırırdı".

Hekayə bu cümləylə bitir. Soyuq Şimal. Gecə. İki tənha insan – yaşlı kişi və balaca uşaq. Çovğunun uğultusu və bu uğultuda eşidilib itən səs – insanlıq səsi.

"9-cu Xrebtovı"nın iqlim göstərici bambaşqadır. Mənə elə gəlir ki, yazıldığı dövrdə amansız və ədalətsiz tənqidlərə məruz qalmış bu əsərin belə müqavimətlə rastlaşması ilk növbədə bu cəhətiylə bağlı idi. Guya ki, milli adətlərimizi təhrif etməsi, xalqımızın mənfi cəhətlərini qabartması, işıqlı həyatımızı qara boyalarla təsvir etməsi kimi ittihamların arxasında rəsmi ideologiyanın və ona xidmət edən tənqidçilərin başqa qorxusu, ayrı xofu vardı – yazıçı ümumiyyətlə yaşadığımız cəmiyyətin paxırını açırdı, insan təbiətinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zidd olan ehkamlarını damğalayırdı. Bu povest əsasında çəkilmiş "Bir cənub şəhərində" filmi də (rejissor Eldar Quliyev, operator Rasim Ocaqov) məhz elə bu baxımdan ideoloji serberləri vahiməyə salmışdı. Amma nə yaxşı ki, elə o dövrdə həm povestin, həm filmin əsl dəyərini anlayan və qiymətləndirən adamlar tapıldı. O cümlədən Azərbaycanda da.

Bu ardıcıl müəllif mövqeyi Rüstəmin ondan sonra yazdığı əsərlərinin əksəriyyətində də izlənir, həm də bütün janrlarda – nəsrdə, dramaturgiyada, kinoda.

SSRİ Dövlət mükafatına layiq görülmüş "İstintaq" filmində də (rejissor Rasim Ocaqov), "Yaşıl qapı arxasındakı qadın" pyesində də, Müstəqil Azərbaycan Cümhuriyyətinin faciəvi taleyi haqqında ilk dəfə (əlbəttə o dövrün imkanları çərçivəsində) gerçəyi səhnəyə gətirən "Ultumatum" pyesində də, "Ad günü", "Nəğmə dərsi" kimi həzin qüssəli hekayələrdə də Rüstəm İbrahimbəyov İnsanda insanlığı tərənnüm edir.

Mən Rüstəm İbrahimbəyov haqqında dəfələrlə çıxış etmiş, yazılar yazmışam. "9-cu Xrebtovı" haqsız hücumlara məruz qalanda "Literaturnaya qazeta"da, "Ultimatum" pyesi haqqında yenə o qəzetdə yazılarım çıxıb, yazıçının 50 illiyi münasibətilə Bakı mətbuatında "Göndərilməmiş məktub"um dərc edilib.

Bu yazımı isə uzun illərin hər sınağından keçmiş dostumun insani keyfiyyətləri haqqında bir-iki kəlmə ilə bitirmək istəyirəm. Adi dillə desək Rüstəm əsl kişidir – mərd, cəsur, etibarlı, heç nədən qorxmayan, heç bir çətinlikdən çəkinməyən. Təhsili etibariylə kibernetikdir, Allah vergisiylə – sənətçi. Onun yüksək sənətkarlıq istedadına kibernetik dəqiqliyi, hər şeyi kibernetik maşın kimi tez dərk edib, nəticə çıxarmaq bacarığı da əlavə olunanda təkrarsız Rüstəm İbrahimbəyov fenomeni – çağdaş sənətimizin və həyatımızın unikal hadisəsi yaranır. Rüstəmin ömrünün bir qismi təyyarələrdə keçir, bir həftə ərzində şəhərdən şəhərə, ölkədən ölkəyə, qitədən qitəyə uça bilər. Mahir təşkilatçı, iş adamı kimi də fəaliyyət göstərir. Təbii ki, ilk növbədə ən müxtəlif mövzularda və janrlarda dəyərli bədii əsərlər yaradır, amma eyni zamanda heç vaxt bir dost təklifindən, dost məclisinə dəvətdən də imtina etmir. Mən həmişə iki şeyə təəccüb qalıram: bir müddət Bakıda olmayan Rüstəm şəhərimizə qayıdanda görürsən ki, burada baş vermiş hadisələr haqqında hamımızdan artıq məlumatı var. Bir də Bakıda olduğu zaman əsər yazmaqla, yaratdığı "İbrus" teatrının, rəhbərlik etdiyi Kinoçular İttifaqının fəaliyyətiylə bağlı bütün öhdəsinə düşənləri yerinə yetirməklə bərabər, çoxsaylı dostları, tanışlarıyla görüşməyə də vaxt tapa bilir...

***Anar***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# POVESTLƏR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HAVA MƏBƏDİ

Kişilər ikinci minilliyin sonlarındakı qədər heç vaxt başlarının tüksüz olmağıyla fəxr etməyiblər. Onlar hətta qışın oğlan çağında belə öz çılpaq kəllələrini hamıya nümayiş etdirməkdən çəkinmir, onun eybəcər görünməsindən utanıb eləmirlər.

Ancaq 1976-cı ilin yayında keçəllik hələ dəbə minməmişdi və qatar Kislovodsk vağzalının adamla dolu perronunda dayanan kimi mən öz tüksüz təpəmi sevimli kepkam ilə örtüb gizlətdim. Yalnız bundan sonra biz, – mən, arvadım, məktəbli qızım və dörd yaşlı oğlum – şeylərimizi götürüb vaqonun çıxış qapısına doğru irəlilədik.

Sərnişinləri qarşılayanlar perron boyu oyan-buyana qaçışır, vaqonların pəncərələrinə boylanıb öz tanışlarını axtarırdılar. Amma Əmirhüseyn müharibədən sonrakı dövrə xas ağ parusin kostyumda düz bizim vaqonun çıxış qapısının ağzında dayanmışdı. (Əmirhüseyn Fransadan qayıtdıqdan sonra uzun müddət "Bakı-Moskva" qatarında bələdçi işləmişdi və bu istiqamətdə olan vağzallara çox yaxşı bələd idi). Məni və uşaqları öpüb yaladıqdan sonra, üzünü ömründə bir dəfə, o da yalnız bizim toyumuzda gördüyü arvadımın da müqavimətini qıra bildi.

Perronda yükdaşıyan yox idi, ancaq istəsək də biz onu tuta bilməzdik, çünki hamıyla öpüşüb qurtardıqdan sonra Əmirhüseyn şeylərimiz arasından ən iri çamadanı qapıb, enli, yastı yanbızlarını oynada-oynada vağzal binasına doğru götürüldü. Biz də qalan çanta və çamadanlarımızı öz aramızda bölüşdürüb onun dalınca tələsdik. Tərdən tamam islanmış köynək iyrənc tərzdə bədənə yapışmışdı; burda da Bakıdakı qədər istiydi və bizim ondan qaçıb Kislovodskda xilas olmaq cəhdimiz, deyəsən, tamamilə mənasız bir işdi.

Nisbətən sərin vağzal binasından keçib onun önündəki meydana çıxdıq, burda Əmirhüseyn mənim taksi növbəsinə durmaq təklifimi qətiyyətlə rədd etdi.

– Ən böyük fırıldaqçı dövlətin özüdü, – deyə qulağıma pıçıldadı, dərhal da eyni vaxtda bir neçə "xalturşik"lə sövdələşməyə girişdi; nə danışdıqlarını eşitmirdik, ancaq onlar sifətlərini turşudub



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir-bir ondan uzaqlaşdılar. Sürücülərlə işini bitirdikdən sonra Əmirhüseyn evinin vağzala çox yaxın yerdə olduğunu bildirib piyada getməyimizi təklif etdi. Təbii ki, arvadım buna razı olmadı, amma Əmirhüseyn onunla mübahisəyə girmədən yenə də ən iri çamadanı yerdən qapıb, yastı yanbızları ilə qızmar kurort havasını yara-yara meydanın o biri tərəfinə doğru yollandı.

Bu günə qədər də başa düşə bilmirəm ki, tərs, inadkar arvadım nə üçün birdən-birə fikrini dəyişib onun dalınca düşdü, – bircə dəqiqə əvvəl isə adama elə gəlirdi ki, heç bir güc onu yerindən tərpənməyə məcbur edə də bilməz. Mən onun həmin yay Kislovodska getməyimizə də nə üçün razı olduğunu uzun illər anlaya bilməmişdim: arvadımın bu qərarını nə həmin ilin dəhşətli istisi, nə Əmirhüseynin inadcıl dəvətləri, nə hərdənbir də olsa bir şeydə mənə güzəştə getmək zəruriliyi, nə də hətta bunların hamısıyla bir yerdə izah etmək mümkün deyildi. Yalnız bu yaxınlarda, yarım əsrdən də çox bundan əvvəl başlayan hadisələr birdən-birə öz daxili əlaqəsini büruzə verməyə başlayanda başa düşdüm ki, 1976-cı ilin yayında Kislovodska səfərimiz zəruri və çoxdan təşəkkül tapmağa başlayan səbəb-nəticə zəncirinin çatışmayan bir həlqəsi imiş.

Əmirhüseyn Kislovodska, boydan bapbalaca, al-əlvan tutuquşuya bənzər arvadı Ksyuşa onu atıb, Pilipenko familiyalı yanğından mühafizə müfəttişinə qoşulub qaçandan sonra köçmüşdü. Dilini dinc qoymayanlar danışırdılar ki, Pilipenkonun bu qadına çoxdan gözü düşübmüş – neçə il imiş ki, o, yanğından mühafizə tədbirlərinin etibarlığını yoxlamaq bəhanəsiylə həftədə bir dəfə Əmirhüseyngilin İçərişəhərdəki birmərtəbəli binadan ibarət həyətinə gəlirmiş. Özü də bu adətən gündüz vaxtları, Əmirhüseyn işdə olarkən baş verirmiş. Əlbəttə, Ksyuşa bu müfəttişi evə buraxmırmış, ona qaz pilətəsini, elektrik sayğacını əri evdə olanda yoxlamağa gəlməsini deyərmiş. Amma vaxt aşiq Pilipenkonun xeyrinə işləmişdi və Fransada keçirdiyi iyirmi altı illik həyatın aşıladığı əxlaq sayəsində yanğınsöndürənin arvadına olan iltifatlarına heç bir əhəmiyyət verməyən Əmirhüseyn günlərin bir günü evə gələndə stolun üstündə bir məktub tapmışdı: Ksyuşa həmin məktubda bildirirdi ki, Əmirhüseynin onlara ayırdığı gündə bir manatlıq dolanışıq puluyla yaşamaq mümkün olmadığı üçün o, birinci nikahdan olan oğlu ilə birlikdə bu evi birdəfəlik tərk edir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadının bu xəyanəti artıq yetmiş yaşına çatan Əmirhüseynə o qədər pis təsir etmişdi ki, pəltəkləməyə başlamış, iki dəfə intihar etməyə cəhd göstərmişdi. Onu intihardan xilas edən qonşulara, çoxsaylı qohumlarına Ksyuşanı, onun faktiki olaraq öz övladı hesab etdiyi oğlunu necə ürəkdən sevdiyini bütün təfərrüatı ilə danışmış, hamını inandırmağa çalışmışdı ki, üç nəfərdən ibarət bir ailənin normal dolana bilməsi üçün gündə bir manat heç də az pul deyil.

Ksyuşa qaçandan bir il sonra Əmirhüseyn əlindən xata çıxmaması, xidməti vəzifəsi icabı ilə hələ də hərdənbir onların həyatində görünən Pilipenkonu vurub öldürməməsi üçün hamıya Bakıdan birdəfəlik çıxıb gedəcəyini elan etmişdi.

Kislovodska köçəndən sonra Əmirhüseyn hamıya tez-tez məktub yazıb, qonaq gəlməyi xahiş etməyə başladı. Belə məktublardan o öz ögey qardaşlarına da göndərirdi; onlardan biri elektronika sahəsində tanınmış alim idi, digəri dövlət simfonik orkestrində violonçel çalırdı. Ancaq təəssüf ki, yetmişinci illərdə Kislovodsk artıq bakılılar arasında müharibədən sonrakı dövrdə olduğu qədər populyar deyildi – adamlar indi Riqanın dəniz sahillərinə, Truskavesə üstünlük verirdilər, bəziləri hətta xarici ölkələrə səyahət etməyə başlamışdı.

Kislovodskdan göndərdiyi məktublarda Əmirhüseyn ölkədəki iqtisadi vəziyyət barədə öz fikirlərini açıqlayır, satın aldığı evin bir hissəsini kurorta gələnlərə kirayəyə verməklə bir təhər öhdəsindən gəldiyi maddi problemlərindən şikayətlənirdi. Hər məktubunda məni də qonaq çağırırdı, amma onun həqiqətənmi mənim üçün darıxdığını, yoxsa potensial bir kirayəçi kimi mənə maraq göstərdiyini o məktublardan anlamaq müşkül məsələydi.

Bizim toyumuzda dava saldığına görə arvadımın ondan zəndeyi-zəhləsi gedirdi. Bir-iki qədəh şərab içəndən sonra bir qədər mürgüləmiş, ayılanda isə ofisiantların bu arada süfrəyə kabab verib qurtardığını görmüşdü. Süfrədə kifayət qədər soyuq çərəz, dolma, qızardılmış nərə balığı vardı, bir-iki dəqiqəyə plov veriləcəkdi, amma kabab yeyilib qurtarmışdı, Əmirhüseyni də elə bu özündən çıxarmışdı.

– Hanı mənim kababım? – deyə əl atıb ofisiantın yaxasından yapışdı. – Bizə axı qoyun kababı vəd etmişdilər.

Ofisiant nə qədər çalışsa da kababın artıq qurtardığını ona başa sala bilmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadının bu xəyanəti artıq yetmiş yaşına çatan Əmirhüseynə o qədər pis təsir etmişdi ki, pəltəkləməyə başlamış, iki dəfə intihar etməyə cəhd göstərmişdi. Onu intihardan xilas edən qonşulara, çoxsaylı qohumlarına Ksyuşanı, onun faktiki olaraq öz övladı hesab etdiyi oğlunu necə ürəkdən sevdiyini bütün təfərrüatı ilə danışmış, hamını inandırmağa çalışmışdı ki, üç nəfərdən ibarət bir ailənin normal dolana bilməsi üçün gündə bir manat heç də az pul deyil.

Ksyuşa qaçandan bir il sonra Əmirhüseyn əlindən xata çıxmaması, xidməti vəzifəsi icabı ilə hələ də hərdənbir onların həyatında görünən Pilipenkonu vurub öldürməməsi üçün hamıya Bakıdan birdəfəlik çıxıb gedəcəyini elan etmişdi.

Kislovodska köçəndən sonra Əmirhüseyn hamıya tez-tez məktub yazıb, qonaq gəlməyi xahiş etməyə başladı. Belə məktublardan o öz ögey qardaşlarına da göndərirdi; onlardan biri elektronika sahəsində tanınmış alim idi, digəri dövlət simfonik orkestrində violonçel çalırdı. Ancaq təəssüf ki, yetmişinci illərdə Kislovodsk artıq bakılılar arasında müharibədən sonrakı dövrdə olduğu qədər populyar deyildi – adamlar indi Riqanın dəniz sahillərinə, Truskavesə üstünlük verirdilər, bəziləri hətta xarici ölkələrə səyahət etməyə başlamışdı.

Kislovodskdan göndərdiyi məktublarda Əmirhüseyn ölkədəki iqtisadi vəziyyət barədə öz fikirlərini açıqlayır, satın aldığı evin bir hissəsini kurorta gələnlərə kirayəyə verməklə bir təhər öhdəsindən gəldiyi maddi problemlərindən şikayətlənirdi. Hər məktubunda məni də qonaq çağırırdı, amma onun həqiqətənmi mənim üçün darıxdığını, yoxsa potensial bir kirayəçi kimi mənə maraq göstərdiyini o məktublardan anlamaq müşkül məsələydi.

Bizim toyumuzda dava saldığına görə arvadımın ondan zəndeyi-zəhləsi gedirdi. Bir-iki qədəh şərab içəndən sonra bir qədər mürgüləmiş, ayılanda isə ofisiantların bu arada süfrəyə kabab verib qurtardığını görmüşdü. Süfrədə kifayət qədər soyuq çərəz, dolma, qızardılmış nərə balığı vardı, bir-iki dəqiqəyə plov veriləcəkdi, amma kabab yeyilib qurtarmışdı, Əmirhüseyni də elə bu özündən çıxarmışdı.

– Hanı mənim kababım? – deyə əl atıb ofisiantın yaxasından yapışdı. – Bizə axı qoyun kababı vəd etmişdilər.

Ofisiant nə qədər çalışsa da kababın artıq qurtardığını ona başa sala bilmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hanı mənim kabab payım? – Əmirhüseyn daha sonra bu sualla inzibatçıya, mənim atama, arvadımın qohumlarına ilişdi və axırda, kababın həqiqətən qurtardığına qəti əmin olandan sonra hamının gözü qabağında acığından hönkür-hönkür ağladı.

Məşhur Kislovodsk mehi əsdi, amma heç bir sərinlik gətirmədi, əksinə qızmar istiyə ağappaq xırda toz dənəcikləri qatdı və bu dənəciklər dərhal tərli bədənimizə yapışdı.

Əmirhüseyn sərt yoxuşlu küçəylə üzüyuxarı qalxırdı; aradabir yanından keçdiyi evlərin qapısı ağzında dayanıb, sahiblərini səsləyir, onlardan boş otaqlarının olub-olmadığını, hansı qiymətə kirayə verdiklərini soruşurdu. Nəticədə biz onun evinə düz bir saatdan sonra çatdıq və yalnız qalın kölgəli albalı bağçasına girəndən sonra bu əzab-əziyyətdən axır ki, qurtulduğumuza əmin olduq.

Əmirhüseynin aldığı ev ikimərtəbəliydi. O, bizə ikinci mərtəbədə iki otaq ayırdı; birinci mərtəbədə hansısa moskvalı ər-arvad qalırdı, amma biz gəldiyimiz gün onlar Pyatiqorska ekskursiyaya getmişdilər.

– Bilirsən yolda mən nə üçün qiymətləri soruşurdum? – arvadım uşaqlarla birlikdə yuyunmağa gedəndə Əmirhüseyn məndən soruşdu.

– Yox.

– Bu il kirayə haqqı yaman yüksəlib.

İndi başa düşdüm – üç ildi məni bura ona görə çağırırmış ki, mənzili mənə daha baha qiymətə sırısın.

– Yox, yox, – Əmirhüseyn nə düşündüyümü dərhal duyub, əl-qolunu oynatdı. – Sən məni nə hesab eləyirsən?! Sən mənim qonağımsan! Sən də, sənin ailən də, – o dəqiqləşdirdi, sanki mənim özümü kirayə haqqından azad edib, onu arvadımdan, uşaqlarımdan tələb edə bilərdi.

– Bəs onda nə üçün qiymət öyrənirdin? – mən soruşdum.

– İstəyirəm ki, sən konyukturanı biləsən.

– O, mənim nəyimə lazımdı?

Əmirhüseyn mənim bu korafəhmliyimə doğrudan da məəttəl qaldı.

– Birdən sən elə bilərsən ki, burda mənzil tutmaq elə-belə, qəpik-quruşa başa gəlir. Yox, əzizim, sən mənim sənə olan dost münasibətimin, səni nə qədər çox istədiyimin dəyərini bilməlisən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mən özümü havayı yerə bu qədər ziyana salmıram ki? İstəyirəm sən də bunu biləsən. – Başını məğrur-məğrur dik tutub mətbəxə keçdi və bir dəqiqədən sonra geri qayıtdı. – Sən heç haçansa şərab sousunda dovşan əti yemisən?

– Yox.

– Mən indi sizə şərab sousunda provansal raqusu hazırlayacam.

Fransada yaşadığı iyirmi altı ilin altısını Əmirhüseyn Marseldə liman restoranında aşpaz işləmişdi. Bunu hətta, o, Bakıya qayıdanda cəmi dördcə yaşı olan mən də bilirdim. Qırx altıncı ildə atası Baladadaş hələ sağ idi və Əmirhüseyn tez-tez ona, ögey qardaşlarına baş çəkməyə gələrdi, digər sakinlər kimi onlar da böyük bir kommunal evdə hərəyə bir otaqda yaşayırdılar, inqilabdan əvvəl isə bu bina onların ailəsinə məxsus olmuşdu. Hər dəfə yaxınlarını görməyə gələndə Əmirhüseyn ona olan borcumuzun növbəti qismini almaq üçün bizə də dəyərdi. (Atam həmişə ona borclu olardı; mən də ya kostyum alanda, ya da yay səfərinə çıxanda Əmirhüseyndən borc götürür, sonra bu borcu il boyu tələbə təqaüdü hesabına ödəyirdim; tələbə olduğum üçün başqalarından fərqli olaraq mənə daha aşağı faizlə borc verməsi Əmirhüseynin ən böyük qürur yeriydi).

– Bəs arvadın necə? O da dovşan əti xoşlayırmı?

– İnanmıram.

– Bir təhər yola gətir, qoy bir dadına baxsın.

– Çalışaram.

Təzədən mətbəxə keçdi; mənsə divanı, televizoru olan otaqda özümə yer rahatladım.

– Heç bilirsən mən bu evi kimdən almışam? – Əmirhüseyn mətbəxdən otağa boylandı; əlindəki dərin boşqabda nəsə sarı-bənövşəyi bir şey qarışdırırdı.

Onun bu evi kimdən aldığı məni qətiyyən maraqlandırmırdı. Ancaq artıq çənəsi işə düşmüş, keçmiş xatirələrə dalmışdı, onu dayandırmaq qeyri-mümkün idi: 46-cı ildə atamın dostu Yusif müharibədən qayıdır, onun nişanlısı Gülya anamın ən yaxın rəfiqəsiymiş. Valideynlərim Əmirhüseyni onlarla tanış etdikdən qısa bir müddət sonra Yusiflə Gülya Bakıdan Kislovodska köçürlər. O vaxtdan otuz il keçdikdən sonra isə onların burda satın aldıqları ev taleyin hökmü ilə çox ucuz qiymətə ona qismət olur. Mən bütün bun-



Created with nitroPDF professional download the free trial online at nitropdf.com/professional

ları qulağımın bir ucu ilə dinlədim və nəhayət Əmirhüseyn sözünü bitirəndə ona dedim ki, bu gün Moskvadan birinci proqramla "Mürəbbəsiz çörək" filmini göstərəcəklər; Əmirhüseynin ögey qardaşlarından biri, violonçelçi, həmin filmdə şarmankaçı rolunu oynayırdı.

Televizoru açdım. Əmirhüseyn dovşan ətindən xörək hazırlamağına davam edə-edə aradabir mən oturduğum otağa gəlir, filmin əvvəlini buraxmamağa çalışırdı. Növbəti dəfə Əmirhüseyn mətbəxə qayıdanda arvadım başı can dəsmalına sarınmış halda hamamdan çıxdı. Çamadanları açıb ev əşyalarımızı yerbəyer edərkən birdən o, sanki sözün gəlişi, bayaq Əmirhüseynin xatırlatdığı Yusiflə Gülyanın həyatda qazandıqları hər şeyə görə məhz onun atasına borclu olduqlarını bildirdi. Bu mənə çox qəribə gəldi – mənim valideynlərimin dostları arvadımın onlardan xeyli yaşlı olan atası ilə necə, hardan tanış ola bilərdilər? Arvadım izah elədi ki, Yusifin atası onun atasının direktor olduğu çörək zavodunda işləyib; qırx dördüncü ildə Yusifin atasını nə səbəbəsə həbs eləyiblər, buna görə də kontuziyalı Yusif cəbhədən qayıdanda arvadımın atası ona pul verib, Kislovodskdakı bu ev də elə həmin o pula alınıb. Ancaq nanəcib adam olduğu üçünYusif bu köməyə görə arvadımın atasına heç sağ ol da deməyib; çıxıb Kislovodska gedib və bir daha ondan heç bir xəbər-ətər çıxmayıb.

Elə bu anda film başladı, Əmirhüseyn mətbəxdən çıxıb yanımıza gəldi, arvadımsa üz-gözünü turşudaraq dərhal yataq otağına keçdi. Əmirhüseyn mənə göz vurub, arvadımın davranışından inciyib eləmədiyini bildirdi; ümumiyyətlə, hiss olunurdu ki, nisbətən cavan, həm də yaxşı ətir saçan bir qadın təninin evdə dolaşması onun ürəyincədi.

Nəhayət onun qardaşı ekranda göründü; o, Bakı küçələrinin birində nəhəng bir qız qazanının fonunda şarmankasını fırladırdı, qazanın içində isə pıqqapıq qır – qatı neft qatranı qaynayırdı; o illərdə, – hətta bəzən indi də, – Bakı evlərinin damını həmin qırla örtərdilər. Əmirhüseyn ekranda qardaşını görən kimi vəcdlə çığırıb, uzun bir monoloqa başladı.

– Ah, mənim qardaşım! Mənim əziz, sevimli qardaşım, mən elə əvvəldən bilirdim ki, sən istedadlı adamsan, inanırdım ki, gec-tez sən bizim ailəyə şöhrət gətirəcəksən. Budur, axır ki, belə də oldu! Mən səni televizor ekranında görürəm! Milyonlarla insan indi sənə baxır, sənin böyük istedadına valeh olur. Sən bir buna bax! – O mənə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tərəf çevrilib əllərini göyə qaldırdı. – Gör sifətində nə dərin ifadə var! Necə böyük nəciblik ifadə olunub o sifətdə! O şarmanka da mənə tanışdı, neçə il idi Zevin küçəsindəki komisyon mağazada atılıb qalmışdı. – Əmirhüseyn qəfil susdu, burnuyla nəyisə iyləməyə başladı, sonra əsəbi halda qapıya tərəf boylandı, yenə bir neçə dəfə havanı fısıltıyla burun pərlərinin içinə çəkdi və birdən qorxunc bir bağırtı ilə mətbəxə doğru atıldı. Bir neçə saniyədən sonra geri qayıtdı.

– Sən bir bunun mundar sifətinə bax! – Əmirhüseyn əlindəki qaşığı televizora tərəf elə qeyzlə uzatdı ki, sanki onu indicə ekranın içinə soxacaqdı. – O orda öz şarmankasını fırladır, burda isə mənim dovşan ətim yanıb zay oldu. Görüm sizin hamınızı lənətə gələsiniz! Bütün sülalənizlə bir yerdə! Mən sizin əlinizdən doğulduğum şəhərdən, Bakıdan baş götürüb qaçdım, burda da məni rahat buraxmırsınız. Sizin ucbatınızdan heç yerdə mənə gün-dirilik yoxdur! Bu dovşanı düz iki aya böyüdüb əmələ gətirmişdim, ona nə qədər yem, su vermişdim. Bütün əziyyətim zay oldu, xörəyin yağı yandı, indi raqu zəqqutum kimi acı dadacaq...

Onu sakitləşdirməyə çalışdım. Hətta bu səs-küyə yataq otağından boylanan arvadımın baxışlarında belə onun bu halına acıdığı hiss olunurdu, görünür o da haçansa öz qohumları ucbatından nəyisə yandırmışdı. Amma Əmirhüseyn heç cür sakitləşmək bilmirdi; yalnız şam naharının sonuna yaxın, mənim özümlə gətirdiyim konyakdan bir-iki qədəh vurandan sonra yavaş-yavaş özünə gəlməyə başladı və yenidən keçmiş xatirələrə baş vurdu.

Dedi ki, rəhmətlik atası Baladadaş dəhşətli dərəcədə xəsis adam olub; ikinci arvadından olan oğlanlarına çox yaxşı baxsa da onu, Əmirhüseyni həmişə sıxıntı içində yaşamağa məcbur edib. Sonra mənim babama rəhmət oxudu. Sovet hökuməti tərəfindən Baladadaşın mənzilində yerləşdirilən babam Əmirhüseynə Batumiyə gedə bilmək üçün yol pulu verib. Əlbəttə, babam Əmirhüseynin xaricə qaçmaq niyyətindən xəbərsiz olub, görünür o, babama elə təsirli şeylər uydurub ki, kişinin ona yazığı gəlib, kömək əlini ondan əsirgəməyib; nəyisə hər halda Əmirhüseyn məhz mənim babamın puluna Batumiyə gedib çıxa bilib, orda birtəhər bir türk paroxoduna yol taparaq, onun anbarında gizlənib. Paroxod iki gündən sonra İstanbulda olmalıymış, Əmirhüseyn isə ordan Fransaya getməyi planlaşdırıbmış. Hər şey elə o cür də olur, amma indiyəcən heç



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kimin bilmədiyi bircə əhvalatdan başqa, – o dəhşətli sirrini Əmirhüseyn ilk dəfə o axşam məhz mənə açıb danışdı; hər halda yarısərxoş qoca özü məni buna inandırmağa çalışırdı. Paroxodda olduğu elə *ilk* gecə cantaraq bir türk bosmanı onu anbarda gizləndiyi yerdə yaxalayır və başa salır ki, sərt dənizçilik qanunlarına görə o onu burdaca dənizə atmalıdır. Qorxudan ödü partlayan Əmirhüseyn, sinəsini tük basmış nəhəngin önündə diz çökərək ona yalvarmağa başlayır. Görünür, o bu vaxt elə yazıq vəziyyətə düşüb ki, bosmanın ona yazığı gəlib, sərt dənizçilik qanununu pozaraq, onu bağışlayıb, bunun əvəzində isə Əmirhüseynə onunla qeyri-təbii cinsi əlaqəyə girməyi təklif edib.

– Bunu eşidəndə gözlərim qaraldı, – Əmirhüseyn möhkəm içki qoxuyan sifətini mənə tərəf əyərək dedi. Həyəcandan bərəlmiş gözlərində elə bir dəhşətli qorxu, təlaş vardı ki, sanki zorlama təhlükəsi əlli il bundan əvvəl İstanbula gedən paroxodda deyil, indicə, elə burda, mənim yanımda meydana çıxmışdı.

– Bəs sonra nə oldu? – Mən geriyə çevrilib yataq otağına tərəf boylanaraq, barmağımı dodağımın üstünə apardım ki, o bu əhvalatın yerdə qalan hissəsini bir qədər astadan danışsın.

– Mən onu inandıra bildim! Bəli, mən onu inandıra bildim! – sanki özünü dilə tutmağa çalışırmış kimi Əmirhüseyn bir neçə dəfə təkrar etdi. – Ona dedim ki, mən vətənimi, ailəmi, bütün var-dövlətimi itirmişəm, yeganə bir şeyim qalıbsa o da mənim namusum, şərəfimdi. Sənsə məni bundan da məhrum etmək istəyirsən. Yalvarıram, mənə *yazığın gəlsin, gəl bunu eləmə.* Və bu türkün mənə yazığı gəldi, amma bütün gecəni məni onunla mastrubasiyaya məcbur etdi...

Nəhayət Əmirhüseyn otaqdan çıxdı, mən də soyunub divanda uzandım. Amma yuxuya getməzdən əvvəl taleyin qəribə şıltaqlıqları barədə düşündüm: arvadımın atası ürəyiyumşaqlıqdan bir adama pul verib, o da o pula burda bir ev alıb, uzun illər keçəndən sonra isə biz ailəliklə gəlib məhz həmin evə düşmüşük. O gecə ilk dəfə olaraq ilk baxışdan bir-birilə heç bir əlaqəsi olmayan bu hadisələrin daxilən sirli şəkildə bir-birilə necə bağlı olduğuna diqqət yetirdim. O vaxtdan getdikcə daha tez-tez, bizim bir çox hərəkətlərimizin *zaman və məkan* anlamında bizdən xeyli uzaqlarda olan başqa adamların həyatına hökmən təsir etdiyini təsdiqləyən çoxlu dəlillər tapıram. (Məsələn, mən Kislovodska, Əmirhüseynin evinə ona



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görə gəlib düşmüşdüm ki, tanımadığım, üzünü belə görmədiyim bir yanğınsöndürən – Pilipenko haçansa onun arvadını qaçırmışdı. O gecə birdən-birə dili açılmış Əmirhüseyn Kislovodskda bu evi kimdən aldığını xatırlatmasaydı, mən arvadımın atasının cəbhədən qayıdan Yusifə pul verdiyindən və onun bu səxavətinin uzun illər sonra mənim özüm, ailəm üçün necə mühüm əhəmiyyət kəsb etdiyindən heç vaxt xəbər tuta bilməzdim).

Artıq göz qapaqlarım yumulmağa başlayanda dörd yaşımda bizə, valideynlərimi görməyə gələn Yusif necə var eləcə gəlib gözlərim önündə dayandı. Hərbi formadaydı, amma onun üstündən mülki palto geyinmişdi. Bir dəfə necə oldusa bir çox adamın yanında barmağımı ona tuşlayıb "Casus!" dedim. Hamı gülüşdü, Baladadaş məni sorğu-suala tutdu, dedi ki, axı mən niyə belə düşünürəm, mən də dedim ki, *atam-anam belə deyir.* Atam pörtüb qızardı, yalnız mənim hərbi forma üstündən mülki palto geyinən bir casusdan danışan film barədə onların söhbətini eşitdiyim üçün bu qənaətə gəldiyim aydınlaşandan sonra o sakitləşib özünə gəldi. Anam bu hadisəni və bir də bir dəfə o, evə yığışan qonaqlara dükandan yenicə aldığı şeyləri göstərərkən, mənim cəld yataq otağına qaçıb, anamın elə həmin gün aldığı, amma nədənsə yada salmadığı bir cüt qadın alt tumanını gətirib, heyrətdən gözləri bərəlmiş valideynlərimin gözü önündə qonaqlara göstərdiyimi tez-tez yadına salıb qəhqəhə çəkərdi.

– Bax bunu da, bax bunu da! – Tumanları əlimdə yellədə-yellədə qışqırdım. – Bax bunları da sən bu gün almısan!

Kislovodskdan qayıdandan sonra atam mənə Yusifin cəbhədən ciddi kontuziya alaraq qayıtdığını, bu səbəbdən tez-tez qarabasma keçirdiyini, bunun bəzən epileptik tutmalarla nəticələndiyini, belə tutmalar zamanı Yusifin *uzun müddət özünə gələ bilmədiyini* danışdı...

Yusifin epileptik tutmaları barədə artıq eşitmişdim, bunu mənə o yayı Əmirhüseynin evində qaldığımız zaman qonşuluqda yaşayan fotoqraf danışmışdı. Fotoqrafın dediyinə görə o, Yusiflə və Gülya ilə dərhal, onlar Kislovodska köçən kimi tanış olmuşdu. Kislovodskun mənzərəli yerlərində, – Şüşə şır-şırda, Məkr və məhəbbət qalasında, Hava məbədində ona ailəvi şəkillərimizi çəkdirərkən Edik dayı, – fotoqrafın adı belədi, – Yusiflə Gülyanın Kislovodskdakı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həyatından, onların çox fərasətli yeganə oğlundan mənə ətraflı söhbət açmışdı.

Uzun illərdən sonra, artıq Moskvada yaşayarkən Yusiflə Gülyanın oğlu ilə tanış olmağa çalışdım. 1977-ci ildə onun əlli yaşı tamam olmuşdu, bu müddət ərzində onun vəzifəsi xeyli böyümüş, Rusiyanın ən iri neft şirkətlərindən birinin prezidentinə çevrilmiş və onun bu yubileyi həm Bakıda, həm də Moskvada böyük təntənə ilə qeyd edilmişdi. Bundan iki il sonra isə atam ona uzun bir məktub yazaraq, rəhmətlik Yusifin ən yaxın dostu olduğunu, xəstə nəvəsinin ürəyində çox bahalı cərrahiyyə əməliyyatına ehtiyac duyulduğunu bildirmiş, bu əməliyyatı gerçəkləşdirə bilmək üçün bizə maddi köməklik göstərməsini xahiş etmişdi.

Valideynlərim bu məktubun diqqətsiz qalmayacağına ümid edir, arvadım isə bu işin müsbət nəticələnəcəyinə tam əminliklə baxırdı: Yusifin oğlu vaxtilə atasına kömək əli uzatmış bir adamın nəvəsinə hökmən kömək etməliydi, çünki o adamın maddi yardımı olmadan Yusif nə evlənə, nə də Kislovodska köçə bilərdi.

O vaxtacan mən artıq Yusif haqqında, onun arvadı Gülya, yeganə oğlu haqqında o qədər çox şey öyrənmişdim ki, heç öz doğmalarım haqda bu qədər bilmirdim. Demək olar ki, hər gecə bizim evdə onlardan söhbət açılır və bu söhbətlərin mövzusu daha çox Yusifin cəbhədən qayıtdığı, öz gələcək arvadı ilə görüşməyə can atdığı, yalnız mənim anamın köməyi ilə bu arzusuna yetişə bildiyi illər olurdu...

Yer titrəyirdi; ondan get-gedə güclənən və adamın qulağını cingildədən qəribə səslər gəlirdi. Üstüörtülü kuzovu gülədən dəlmədeşik olmuş "poluturka" alçaq təpələrin arasından qıvrıla-qıvrıla keçib gedən çala-çuxur yolla sürətlə şütüyürdü. Uğultu getdikcə güclənərək mərmi partlayışlarının səsini batırırdı. İrəlidə burumburum burulan qaranlıq tozanaqda nəhayət ki, zəif işıq göründü, atəş altından qaçıb qurtulmağa azacıq da olsa ümid yarandı. Amma birdən nəsə güclü bir qüvvə maşını göyə tulladı, o, havada mayallaq aşıb, arxası üstə, təkərləri göydə gurultu ilə yerə çırpıldı. Kapotun altından güclü alov dilimləri şahə qalxdı, kabinka alışdı. Hər iki qapı çərçivəyə pərçimləndi. Qulaq pərdəsini az qala yırtıb deşən uğultu səsi axır ki, kəsildi, ətrafa dərin bir sükut çökdü, Yusif də kabinkadan çıxmaq üçün göstərdiyi bütün səylərin faydasız oldu-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ğunu anlayıb hərəkətsiz qaldı. Dözülməz isti sifətini, əllərini yandırdı – alov dilimləri get-gedə ona yaxınlaşırdı...

Gözlərini açanda Yusif üzərinə əyilmiş qadın sifətini gördü, bunun mənim anam olduğunu dərhal anlaya bilmədi.

– Sənə nə olub? Niyə qışqırırsan?

Ürkək baxışlarını otaq boyu gəzdirərkən, Yusif köhnə, oyma naxışlı bufeti, üzərinə uzun xovlu məxmər süfrə çəkilmiş iri stolu, əyri-üyru, laxlayan ayaqlı stulları, elə həmin qırmızı məxmərdən pəncərələrə çəkilmiş pərdələri, hündür, yapma naxışlı, tavandan sallanan muncuq saçaqlı bürünc çilçırağı görüb, mənim atamgildə olduğunu yadına saldı. Sonra baxışlarının səmtini dəyişib, səkkizguşəli kepkasını dizləri üstə tutmuş halda stulda oturmuş olduğunu gördü.

– Yatmışdın nədi? – deyə anam, yaraşıqlı, peşəkar rəqqasə bədəninə yapışmış üstü güllü krepdeşin donunun ətəyini düzəltdi. – Dur gedək, sən də bir az yemək ye.

– Saat neçədir?

– Artıq doqquz olub... Gözləməyin mənası yoxdu, yəqin imkan eləyə bilmədi... Dur gedək.

Dəhlizin o biri, uzaq başındakı otaqdan patefon musiqisi, cürbəcür səslər gəlirdi.

– Mən burda oturub gözləyərəm.

– İndən belə o gəlməz, – anam dəsmalla tərləmiş alnını sildi, – dur gedək, camaatla bir yerdə otur.

– Bir az sonra gələrəm.

Anam enli, zəif işıqlanmış dəhlizlə (həyətə baxan pəncərədə sınmış şüşələrin yerinə vurulmuş faner parçaları qaralırdı) irəliləyib, onotaqlı mənzildə yaşayan bütün qonşuların xırda stolları yanyana düzülmüş ümumi mətbəxin yanından keçərək musiqi səsi gələn otağın qapısına doğru yollandı.

Yapma naxışlı tavanı və hündür "venetsian" pəncərələri olan, – o zaman hansı səbəbdənsə bu pəncərələrə bu cür ad qoymuşdular, – geniş, kvadratşəkilli otaqda Baladadaşın yetmiş yaşını qeyd eləmək üçün təxminən otuz adam toplaşmışdı.

Baladadaşın beş yaşlı qıvrımsaç qız nəvəsi Sonya, onun anası gonbul Xanım və bu mərasimin qarnı yarıboş tuluq kimi aşağıya sallanan xoşbəxt səbəbkarı rəqsə girişmişdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anam musiqinin taktina uyğun tərzdə əl çalan atama yaxınlaşdı, aşağı əyilib, pıçıltıyla onun qulağına Yusifin burda, ümumi şənlikdə iştirak etməkdən boyun qaçırmasından şikayətləndi.

– Oturur, qoy orda otursun, bunun sənə nə maneçiliyi var?

– Bəs orda tək qalıb axı? Heç olmasa gəlib burda bir qismət çörək yeyərdi.

Atam dərindən ah çəkdi, sonra elə həmin o uzun dəhlizlə öz otağına yollandı. Qapını açıb içəri girəndə Yusifin gözlərini örtmüş olan yorğun kirpikləri heç qımıldanmadı da.

– Mən sənin dalınca gəlmişəm, – atam qətiyyətlə başladı; uzun öyüd-nəsihətdən sonra axır ki, Yusifi otaqdan çıxara bildi. Dəhlizdəki döngələrdən birində anamı və arxası onlara tərəf olan bir kişinin dilləşdiyini gördülər.

– Özün bil, axırıncı dəfə sənə xəbərdarlıq eləyirəm, – kişi dedi və atam səsindən onun anamın qardaşı Cavad olduğunu anladı.

– Mənim ərim var, – anamın səsi qəzəblə cingildədi, – bu sənə qalmayıb, o özü bilər.

– Sənin ərin cındırdısa, – Cavad dayı etiraz elədi, – bu o demək deyil ki, sən ağlına nə gəlir, onu da eliyə bilərsən!

– Nə olub? – atam soruşdu. Məlum oldu ki, Cavad dayı anamın dırnaqlarını manikür etdirməsindən narazı qalıb.

– Bu adamlara nə olub görəsən? – dayım dönüb Yusifə müraciət etdi. – Hamısının ağlı çaşıb. Abır, həya qalmayıb. Bir bunun dırnaqlarına bax. Ərinin yerinə mən olsaydım o dırnaqları kökündən kəsib atardım...

– İndi hamı dırnağına rəng qoyur, – atam ona etiraz etdi.

Dayım kinli baxışlarla onu başdan-ayağa süzüb, üzünü Yusifə tutaraq acıqlı-acıqlı dedi:

– Sən bu dostunu başa sal ki, başqalarına rəva görülən bir şey heç də həmişə bizə rəva görülməz. – Dayım sonra anama tərəf döndü. – Bax, sən məni bir şeyi iki dəfə təkrar etməyə məcbur eləmə.

Dayım çiyni ilə atamı geri itələyərək, qapıya yönəldi.

– O, bunları hökmən kəsəcək, mən bilirəm, – anam azca parıldayan uzun dırnaqlarına baxaraq yazıq-yazıq dedi.

– Necə yəni kəsəcək?! – atam qəzəbləndi. – Onun buna nə haqqı var!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç bir haqqı olmasa da kəsəcək, – anam hıçqıraraq Yusifin üzünə baxdı. – Nə deyirsən, bir də onun dalınca gedim?

– Hə.

– Ancaq əvvəlcə gedək bir az çörək ye... Yeri, yeri gedək. Mənimlə rəqs də eləyərsən. – Anam sözün əsl mənasında Yusifi itələyib otağa saldı, Əmirhüseynin böyük qardaşının arvadı göyçək Nərminə onları görən kimi əllərini pianonun dilləri üstünə atdı.

Anam için-için ağlamağına davam etsə də, nəzakət xatirinə ona partnyorluq edən Yusifin üzünə gülümsədi və onun çevik, elə bil sümüksüz olan barmaqları musiqinin taktına uyğun olaraq ilan kimi qıvrılmağa başladı. Rəqs havası bitəndə Əmirhüseynin atası Baladadaş onların yanına gəldi; plovun süfrədə qalıb soyumasından bərk narahat olmuşdu.

– Əla plovdu,– o bildirdi, – xan düyüsündən, özü də ərimiş yağda bişirilib. Quzunu də özüm saxlayıb böyütmüşəm. Bax bu otaqda.

Anam Gülyanın dalınca qonşu binaya yollandı, Baladadaş isə Yusifin yaxasını buraxmayıb, heç olmasa bircə boşqab plov yemək üçün onu yola gətirməyə çalışdı.

O zaman Gülya ilə Yusifi görüşdürmək, axır ki, ona müyəssər olandan sonra onların ilk görüşdə bir-birlərinə nə dediklərini çox-çox illərdən sonra anam mənə danışdı; onlar möhkəm mübahisə eləmişdilər, özü də mübahisəni Gülya başlamışdı.

– Sən heç neylədiyini başa düşürsən? Mənim ərim, ailəm var. Bəyəm bunun nə demək olduğunu qanmırsan?! Ümumiyyətlə sən heç nə baş verdiyini anlaya bilirsən? Mən özgə arvadıyam, başa düşürsən? Başqa adamın arvadı! Məni dinc burax. Bu yazıq Nazanı niyə havayı yerə ora-bura qovursan? Bununla nəyə nail olmaq istəyirsən?

– Niyə sən məni gözləmədin?

Gülyanın sifəti qəzəbdən əyildi – bu sual ona çox pis təsir etmişdi; anam bunu danışarkən Gülyanın qəzəbdən əyilmiş sifətini olduğu kimi yamsılamağa çalışdı.

– Mənmi səni gözləməmişəm?! Mənmi?! Mən səni düz üç il gözləmişəm.

– Mən müharibə qurtarandan sonra deyirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Müharibə qurtarandan sonra da səni gözlədim. Hamı evinə qayıtdı: şikəst də, xəstə də, sağlam da – hamı, hətta əsir düşənlər belə... Bircə səndən başqa, xəbər-ətərin belə çıxmadı... İndisə birdən-birə hop eləyib ortalığa çıxmısan. “Hə, bəs budu, gəlmişəm”.

– Məni saxlamışdılar.

– Bilirəm kim saxlamışdı. Fotoşəklini görmüşəm.

– Nə fotoşəkil? Kimin fotoşəkli?

– Özün yaxşı bilirsən.

– O qadının mənə heç bir aidiyyəti yoxdu. O bizim starşinanın tanışıydı.

– O starşinadı, nədi, o da deyir ki, sənin tanışın olub.

– Sən onu hardan tanıyırsan?

– Mən onun üzünü də görməmişəm. Ərim hardasa tanış olub. Bizim toyumuzdan qabaq. Şəkili mənə gətirdi. “Sən burda onu gözləyirsən, dedi, o isə orda Polşada qızlarnan kef eləyir”.

– Mən o polyak qızını birinci və axırıncı dəfə elə o vaxt görmüşəm. Starşina xahiş etdi ki, onunla şəkil çəkdirim. Doğrudanmı sən mənə inanmırsan?

– İnandım, inanmadım – indi bunun heç bir əhəmiyyəti yoxdur. Bu haqda danışmaq artıq çox gecdir. Müharibənin üstündən bir il də keçmişdi.

– Mən gələ bilməzdim.

– Bəs nə üçün hamını buraxmışdılar, bircə səni yox?!

Yusif dərhal cavab verə bilmədi:

– Məni həbs etmişdilər, – ətrafa göz gəzdirib zorla dedi.

– Nəyə görə? Özünü yaxşı aparsaydın, həbsə atmazdılar...

– Evə gəldiyimə görə. Doqquz mayda almanlar təslim olan kimi silahımı bizim uşaqlara verib, Bakıya gəlmişdim. Biləcəridə məni yaxaladılar. Dərhal da tribunala verdilər.

– Niyə ki?

– Əmr çıxmadan evə qayıtmaq olmazdı. Mənsə gözləyə bilmədim... – Yusif bir anlığa susdu və birdən özü də gözləmədən dedi: – Sən ondan ayrılmalısan.

– Kimdən? Boş-boş danışma. Bu bizim axırıncı görüşümüz olacaq.

– Mən onu öldürəcəm.

– Bunu da müharibədə öyrənmisən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Biz orda düşmənlə vuruşarkən onlar burda bizim nişanlılarımıza evləniblər.

– Mən özüm ona ərə getmişəm, – Gülya dik-dik dedi, sanki bununla bildirmək istəyirdi ki, əgər o, kimsə öldürməlidisə, bu, əri yox, onun özü olmalıdır.

– Sən o şəkilə görəmi belə eləmisən? – Yusif soruşdu.

Gülya bu suala cavab vermədi, əlləriylə üzünü tutaraq sakitcə ağladı.

Bunları danışa-danışa anam da ağladı, az qala əlli il bundan əvvəl olmuş bir hadisə ona bu cür möhkəm təsir etmişdi...

Yusif Gülyaya yaxınlaşıb, onunla yan-yana dayandı, amma ona toxunmağa cəsarət etmədi; onun saçlarını sığallamaq üçün yuxarı qaldırdığı əli havada asılı qaldı...

Bu məqamda da anam özünü saxlaya bilməyib yenidən ağladı.

Eyni hadisələr barədə ömrünün sonlarına yaxın çox mehriban və müdrik bir qocaya çevrilən Cavad dayım da mənə danışmışdı.

Yarım saatdan sonra Yusif kələ-kötür dar küçəylə doğulub yaşadığı birmərtəbəli binaya tərəf addımlayırdı. Bir neçə məhəllə keçdikdən sonra dayandı, enli dəmir darvaza arxasından qaralan qapıya boylandı. Qulaq verdi. Sonra zəncirli kilidlə bağlanmış darvazaların arasındakı dar boşluqdan birtəhər sivişib içəri keçdi. Zil qaranlıqda bir neçə addım atıb, ayağı ilə zirzəmiyə düşən pilləkənləri axtarıb tapdı.

Aşağıdan çox da yüksək olmayan səslər gəlirdi. Ağ neft çırağının zəif sarımtıl işığında qızğın oyun gedirdi: yalnız ortalığa atılan aşıqları, sınıq kərpic parçası altında sıxılıb əzilən pulları və bir də aşıq atan, pul sayan əlləri görmək mümkün idi. Aşıq oynayanların sifətləri isə yarıqaranlıqda zorla, boz ləkə kimi görünürdü.

– Keç, – kimsə, qapıdan bir qədər aralıda dayanmış adam Yusifə dedi; həyəcan siqnalı verilmədiyi üçün deməli onu tanımışdılar.

Yusif çırağa yaxınlaşdı, salam verdi, çömbəlib Cavad dayımın yanında oturdu. Oyuna tamaşa elədi.

– Oynamaq istəyirsən? – dayım əlindəki aşığı atıb ondan soruşdu.

– Yox... Səninlə söhbətim var.

Onlar zirzəminin dərin yerinə çəkildilər. Burda ayaqlarının altında su şappıldadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirəm nə üçün gəlmisən, – Cavad dayım Yusifi qabaqladı. – Sən nahaq bu işə qarışırsan. O mənim bacımdı və özünü ədəbli aparmalıdı.

– Mən heç nəyə qarışıb eləmirəm, – Yusif dedi, – mən yalnız sənə bir məsləhət vermək istəyirəm. Sonrasını özün bilərsən, istəsən qulaq asarsan, istəməzsən heç qulaq asma. Kişi qadın dırnağı kimi xırda şey üstündə əsəbləşməməlidi. – Yusif haqlı olduğuna o qədər əmin olmasa da bunu əminliklə dedi. – Keçmişdə Azərbaycan qadınları saçlarına da, dırnaqlarına da rəng qoyublar. Heç kim də buna görə onları ittiham etməyib.

– Bəlkə o, saçlarını altıaylıq zavivka da elətdirə bilər? – Cavad dayım soruşdu.

– Sən bunun əleyhinəsən?

– Eləsin də halına baxsın.

– Yaxşı, – Yusif razılaşdı, – sənin xatirinə o, zavivkadan imtina edəcək, amma sən də bunun əvəzində dırnağına rəng qoymağını ona bağışlayassanmı?

– Sən niyə belə əl-ayağa düşmüsən? – dayım narazı halda təəccübləndi. – Sən niyə onun əvəzinə xahiş eləyirsən?

– Mən xahiş eləmirəm. Mən ancaq məsləhət görürəm. Xahiş eləyən o özüdü. Və mənə elə gəlir ki, sən onun bu xahişini yerinə yetirsən çox düzgün iş tutmuş olarsan. Onun öz əri var. Bütün adət-ənənəyə görə öz arvadının necə davranmağına yalnız o cavabdehdi.

– Bəs bu o ərin heç vecinə də deyilsə?

– Bu onun arvadıdır.

Dayım ikicə dəqiqədən çox fikirləşmədi.

– Bilirsən ki, bizim hamımızın – bütün uşaqların sənə böyük hörməti var! – o, Yusifə dedi. – Amma indi sən haqlı deyilsən. Və sənin bu məsləhətini mən qəbul edə bilmərəm. Onun ansamblda rəqs etməsinə birtəhər dözərəm. Amma, buna yox, axı biz insanlar arasında yaşayırıq. Mənim yaxşı-pis bir nüfuzum var, bəs məndən soruşsalar ki, sənin bacın niyə belə eləyir, onda onlara nə cavab verim. Heç soruşmasınlar da. Belə ki, düşünəcəklər. O günü görməkdənsə, belə bacını öz əlimlə boğub öldürərəm. Buna görə də incimə, sənin bu məsləhətini heç cür qəbul edə bilmərəm. Hələ orası da məlum deyil ki, o sənin öz bacın olsaydı, sən neynəyərdin, – dayım öz aləmində çox inandırıcı səslənən bu nitqini başa çatdırıb, oynayanlara tərəf yollandı; aşıq atmaq növbəsi indi ona çatmışdı.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– O həqiqətən məni öldürmək istəyirdi, – anam qəmli-qəmli gülümsündü və rəng çəkilmiş gözü ilə mənə göz vurdu; artıq yetmiş beş yaşını haqlamış olsa da, hələ də müntəzəm surətdə dırnaqlarını manikür elətdirir, üz-gözünə qatı rəng çəkirdi.

Yusif vidalaşmadan gözəgörünməz "keşikçi"nin yanından ötüb, pilləkənlə yuxarı qalxaraq küçəyə çıxdı...

Tini dönəndə anasını gördü; çoxdan ağardılmamış birmərtəbəli binanın taxta qapısı ağzında onun xımxırdaca fiquru qaralırdı.

– Sən burda neyləyirsən? – Yusif anasının arıq çiyinlərini qucaqlayaraq təəssüf qarışıq mehribanlıqla soruşdu. – Mən ki, səndən xahiş eləmişdim. Bəlkə mən səhər tezdən gələydim?

Onlar kiçik bir həyətə daxil oldular, – burda yaşayan ailələrin qapıları birbaşa həyətə açılırdı, – ümumi su kranının və Yusifin uşaqlıqda həvəslə başına dırmaşdığı tut ağacının böyründən keçdilər.

– Sən gəlmədən mən necə yuxuya gedə bilərəm, ay bala? – Ana da öz növbəsində təəccüblə ondan soruşdu. – Bəlkə sənə çay lazım oldu? Ya da elə başqa bir şey? –

Darısqal bir dəhlizə girdilər, onun həyətə baxan divarı, pəncərəsi dəhlizə açılan otağa bol günəş işığı düşsün deyə tavana kimi şüşələnmişdi. Divanın böyründəki kiçik stolun üstündə iri bir qəzet bükülüsü var idi.

– Bu nədir? – Yusif soruşdu.

– Seyidrza göndərib, – ana qəzet bükülüsünü açmağa başladı, – oğlu gəlmişdi... Yenə də xahiş edir ki, bir onun yanına gedəsən... – Ana sualedici nəzərlərlə Yusifə baxdı.

– Nə üçün?

– Niyə nə üçün? Bu nə deməkdir, oğul?! – Ana bükülünü açdı, içində ayrı-ayrı kağız kisələrə yığılmış qənd, çay, un, düyü vardı. – Bunları hər ay göndərir, – ana hiss ediləcək bir məmnunluqla dedi. – Seyidrza olmasaydı, heç bilmirəm, mən neyləyərdim. Atan evdən aparılanda özümü təmiz itirmişdim, – axı ona yemək aparmaq lazım idi. Mənsə kartoçkasız qalmışdım. Evdə nə vardı hamısını satdım. Qəpik-quruşa. Çay içirsən?

Yusif çay içmək istəmədi. Ancaq ana çox istəyirdi ki, o heç olmasa bir stəkan çay içsin, fəxrlə onu da xatırlatdı ki, qənd də var.

– Yaxşı, süz, – Yusif razılaşdı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana çay stəkanını bir az da Yusifə tərəf sürüşdürb, ondan Seyidrzanın yanına getməsini, onlar üçün elədiyi hər şeyə görə ona öz təşəkkürünü bildirməsini xahiş elədi.

–Yaxşı, – Yusif anasını sakitləşdirdi, – gedib dəyərəm.

– Bəlkə elə o sənə iş tapmaqda da kömək eləyər.

Yusif dinmədi. Diqqətcil, sevgi və qayğı ilə dolu ana gözləri onun necə çay içdiyinə tamaşa edirdi.

– Qulam bütün axşamı səni gözlədi. Nəsə səninlə bir işi var deyir... Sabah da gələcək...

– Yerimi aç, – Yusif anasından xahiş elədi.

Mənim arvadımın rəhmətlik atasının adı Seyidrza idi.

Poliklinikada həmişəki kimi adam çoxudu, elə ətraf küçələrdə də o cürdü – bazarın yaxınlıqda olması öz işini görmüşdü. Milis basqınından qorxan şirni, halva, yanıq şəkər, kartof pirojkisi satanlar bu küçələrdə toplaşmışdı.

Yusif qonşudan tapıb aldığı şüşə parçasını divara söykəyib, qeydiyyat pəncərəsinin önündə növbə tutdu. Kartoçkasını və növbə nömrəsi yazılmış kağızı alandan sonra şüşəni qoyduğu yerdən götürüb, nevropatoloqun kabinetinə yollandı, burda artıq iki qadın və gözü pensneli bir qoca skameykada oturub öz növbələrini gözləyirdilər. Yusif əlindəki şüşə parçasını dəhlizin bir küncündə yerə qoyub, divardan asılmış plakatın önündə dayandı; burda yaralanma və sınıq zamanı ilk yardımın necə göstərilməsindən bəhs edilirdi. Sarğı qoymaq qaydaları barədə bəndi oxuduqdan sonra pəncərənin önünə keçdi; ordan bazar görünürdü – çörək mağazasının önündə nəhəng bir növbə vardı. Hər iki ayağını itirmiş bir neçə əlil əldəqayırma arabalarda hay-küylə asayişə nəzarət edən milislərin üstünə cummuşdular, – görünür, növbəsiz buraxmalarını tələb edirdilər.

Öz qonşusu olan terapevt qadın Yusifi hələ müharibəyə getməmişdən qabaq tanıyırdı; o, Yusifin gözlərinin içinə baxıb, əlindəki taxta çəkiclə onun dizlərinə döyəclədi, irəli uzatdığı əllərinin titrəyib-titrəmədiyini yoxlayarkən, sanki sözarası bəzi suallar da verdi.

– Necə yatırsan?

– Məncə, normal...

– Hallüsinasiya hələ də davam edir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə? – Yusif anlamadı.

Həkim gülümsündü.

– Maşın hələ də yanır?

– Hə. – Yusif cavabında gülümsündü.

– Bombardman da davam eləyir?

– Hə.

– Demək belə. Əllərini irəli uzat. Bəs anan necədir?

– Yaxşıdı. Sağ olun.

– Atan məktub yazır?

Yusif dinmədi, həkim bunun səbəbini dərhal və doğru anladı.

– Bağışla... Mən bilmirdim. Çoxdan olub?

– Artıq üstündən yarım il keçib.

Çəkic tutan əl aşağı endi, asılı qaldı; üzünü Yusifdən azca yana döndərən həkim öz kreslosunda sanki yerindəcə dondu. Stolun üstündəki mürəkkəbqabının böyründə Budapeşt yaxınlığında həlak olan oğlunun portreti vardı. Yusif də susdu, nə deyəcəyini bilmədi.

– Bir xeyli yaxşılaşmısan, – həkim özünü zorla ələ aldı, – belə getsə, tfu-tfu, göz dəyməsin, ilin sonuna qədər öz ixtisasın üzrə işləyə bilərsən...

– Deməli, hələ ki, olmaz?

– Hələ ki, olmaz, – həkim köks ötürdü. – Daha tutmaların olmayıb ki?

– Yox, – Yusif dilxorçuluğunu gizlətmədən, yalvarıcı baxışlarla həkimə baxdı.

– Çox sağlam görünürsən, – həkim gümrah səslə dedi, – göstəricilər də xeyli yaxşılaşıb. Ancaq sükan arxasında oturmaq sənin üçün hələ tezdir. Başa düş... Əgər azacıq da olsa, epileptik tutma ehtimalı varsa, bu, çox təhlükəlidir. Bir-iki ay da gözləyək.

Yusif qalxdı.

– Hələlik başqa işdə çalışa bilərsən. Amma gərək ağır iş olmasın. Ən yaxşısı isə sanatoriyaya getməkdir. Mən sənə göndəriş də verərəm. Sənə düşür.

– Çox sağ olun, – Yusif dedi.

– Niyə inciyirsən? Axı mən sənə tam sağlam kağızı verə bilmərəm. Xeyli yaxşılaşmısan, amma sənin kontuziyan elədir ki, hələ müalicə olunmalısan.

– Sağ olun, hələlik, – Yusif nəzakətlə dedi və kabinetdən çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Poliklinikanın çıxış qapısına aparan pilləkəndə Yusif atasının keçmiş iş yoldaşı Qulamla rastlaşdı; görüşmədikləri üç il ərzində bu adamın saçları tamam ağarmışdı; o, tələsə-tələsə, iki pilləni birdən çıxaraq, tövşüyə-tövşüyə ona sarı qalxırdı.

– İki gündü səni axtarıram, – Qulam nəfəsini dərib dedi, Yusifə arxasınca gəlməyi işarə elədi. Yusif, pilləkənlə qalxan adamlardan kiməsə dəyməsindən ehtiyat edərək, əlindəki şüşəni başı üzərinə qaldırdı.

Küçədə Qulam müəmmalı tərzdə ətrafına göz gəzdirdi, tindəki su köşkünə tərəf üz tutdu, sonra fikrini dəyişib başqa səmtə yönəldi, küçənin o biri tərəfinə keçib ağacların kölgəsinə çatanda dayandı. Nəfəsini dərib, həyəcanlı bir pıçıltıyla bildirdi ki, mühüm xəbərlər var. Görünür, Qulamın bu cür qəribə davranmasının nəsə bir ciddi əsası vardı.

– Anana heç nə deyə bilmədim, – o, sözünə davam etdi. – Heç sən də demə. Ciddi şeyləri qadınlara etibar etmək olmaz. Hərçənd sənin anan, əlbəttə ki, etibarlı adamdı.

– Nədi, de görüm, nə olub? – səbri tükənən Yusif hövsələsiz soruşdu.

– Mənim borcum sənə deməkdir. Əvvəlcə demək istəmirdim. Sonra başa düşdüm ki, buna haqqım yoxdu... Elə şeylər var ki, onları gizlətmək mümkün deyil. Bir də ki, qoy Firuz özü sənə desin.

– Firuz qayıdıb? – Yusif eşitdiyinə inanmaq istəmədi. – Bəs cəza müddəti?

– Azaldıblar. Yaxşı işlədiyinə görə. İndi ailəsi ilə birlikdə nəsə Solikamsk deyilən bir yerə gedir... Üç illiyinə. O xahiş etdi ki, səni axtarıb tapım. Axşam yola düşür. Bir günlüyə gəlib.

– Nəsə atamla bağlıdı? – Yusif soruşdu.

– Başqa nə olacaq? Atan onun qucağında keçinib.

– Firuz indi hardadı?

– Qohumlarıgildə gizlənir. Mən sənə göstərərəm.

– Getdik.

– Yaxşısı budur gecə gedək. Qonşular yatandan sonra. O, Bakıya icazəsiz gəlib... Bu şüşəni neynirsən?

– Pəncərəyə salacam, uyğun ölçüdə kəsdirmək lazımdı.

Qulam yaxınlıqdan keçən arabalı əlilə əl elədi; o arabasını dərhal onların yanına sürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Almaz varındı? – Qulam ondan soruşdu. Əlil bir əlini asfalta dirəyib arabasını irəli itələdiyi taxta kündədən azad etdi (onun barmaq üçün xüsusi yarıqları vardı) və cibindən "almaz" çıxardı.

– Kəsmək lazımdı, – Qulam hökmlə dedi və şüşəni göstərdi.

– Hansı ölçüdə? – əlil soruşdu.

Yusif evdən götürdüyü sapla lazımi uzunluğu ölçdü, əlil cəld, ani bir hərəkətlə şüşəni iki yerə böldü.

– Ona bir papiros ver, – Qulam Yusifə dedi.

Əlil papirosunu alıb, arabasını itələyərək ordan uzaqlaşdı; pis yağlanmış podşipniklər cır-cır cırıldayırdı, amma iki əllə birdən itələnən əldəqayırma əlil arabası enişə çatanda tezliklə yüksək sürət götürdü...

Yusif şüşəni pəncərəyə salanacan anası kökələri bişirib qurtardı; bir az əvvəl isə halva çalmışdı.

– Hər şey hazırdı, – o, bişirdiyi kökələri boşqaba yığaraq dedi; başqa bir nimçəyə isə halva çəkdi. – Səndən çox xahiş edirəm, ona xoş üz göstər. Başa düşə bilmirəm, axı o niyə sənin xoşuna gəlmir? Elə uşaqlıqdan onnan aran yox idi. Köynəyini də dəyiş.

Yusif təmiz köynək, atasının ağ ayaqqabılarını geyindi, onlar diş sürtgəci sürtülüb tər-təmiz təmizlənmişdi.

– Atanı qurtarmaq üçün o, əlindən gələni etdi, – ana dedi, – hətta hakimə pul da təklif elədi. Ancaq atan hər şeyi boynuna aldı. Deyirlər, belə olan halda heç nə eləyə bilməzsən. – O, dərindən köks ötürdü. – Atan çox sadəlövh adam idi, yalan danışa bilmirdi.

– Bəs onda o, niyə yalan danışmalı olub, – Yusif dedi, – bir halda ki, özünə bir qəpik də götürməyib.

– Bilmirəm, – ana yenidən köks ötürdü, – ancaq evə maaşından savayı bir qəpik də gətirməzdi. Bəzən bir buxanka, yarım buxanka çörək qalardı ona. Orda isə yüz, iki yüz kilodan danışırdılar. Hələ bəlkə də daha çox.

– Deməli o, bütün bunları təsdiq elədi?

– Hə, – ana dedi, – öz qulaqlarımla eşitdim. Amma pulu kimə verirmiş, bu barədə bir kəlmə də dilinə gətirmədi. Nə qədər məcbur eləsələr də...

– Yaxşı mən getdim, – Yusif, hətta doğru olsa belə, atası haqda bu cür söz-söhbətləri eşitmək istəmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadımın rəhmətlik atası Seyidrza Baksovet yaxınlığında inqilabdan əvvəl tikilmiş çoxmərtəbəli bir binada yaşayırdı. Lift Yusifi dördüncü mərtəbəyə, təzəcə rənglənmiş, üstündən iri qıfıllı poçt qutusu asılmış qapıya qaldırdı.

Qapını qayınanam Səltənət açdı və Yusifi gördüyünə həqiqətən şad oldu, hər halda mənim xahişimlə bu hadisədən danışanda o özü belə dedi.

Yusif əlindəki kökə və halva bağlamasını telefon stolunun üstünə qoyub, ayaqqabılarını çıxardı; qapı şaqqıltı ilə açıldı, hündürboy, yekəpər bir adam olan qayınatam Seyidrza dəhlizə çıxdı.

– Yusif, əzizim, haralarda itib-batmısan? Səni gözləməkdən gözlərimin kökü saraldı ki... – bunu deyib Yusifi qucaqladı, sinəsinə sıxdı. – Dayan, dayan, qoy bir sənə əməlli-başlı tamaşa eləyim. Deyirlər yaralanmısan? Heç nə olmaz, necə deyərlər, toy gününədək keçib gedər. Gəl içəri görüm.

Divarları xalça ilə süslənmiş qonaq otağında o, Yusifi stol arxasında əyləşdirdi, onların ardınca içəri girən arvadından çay gətirməyi xahiş elədi.

– Sənin haqqında az-maz məlumatım var, – o, Yusifin stəkanına mürəbbə tökə-tökə dedi, – sonra özün hər şeyi ətraflı danışarsan. Amma əvvəlcə iş barədə: harda işləmək istəyirsən?

– Hələlik bilmirəm.

– Bir yer var. Amma müvəqqətidir. Sən arayış alandan sonra isə sükan arxasına keçərsən, – Seyidrza Yusifin işlərindən əməlli-başlı xəbərdar idi. – Zavoddakı bütün maşınlar sənə qurbandı. İstəyirsən atanın öz maşınını verək. Ya da hansını istəsən. Ancaq hələlik avtobazada anbardar işləyərsən.

– Hansı avtobazada?

– Bizim idarənin avtobazasında.

– Məndən anbardar olar?

– Öhdəsindən gələrsən. Sən də atan kimi təvazökarlıq etmə... – o, bir anlığa susdu. – Anan sənə danışıb?

– Hə.

– Heç nə eləyə bilmədik, – Seyidrzanın səsində heç də saxta olmayan təəssüf hiss olundu, – bilmirəm nədənsə kişi hər şeyi etiraf etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yusif hansı etirafdan söhbət getdiyini, atasının nəyi etiraf etməli olduğunu heç cür anlaya bilmirdi.

– Axı o, hansı cinayəti işləmişdi?

– Bəyəm sən bilmirsən?

– Mən buna ömrümdə inanmaram.

– Mən özüm də inana bilmirdim, – Seyidrza onunla razılaşdı. – Amma neynəyəsən? Müharibə! Bu andıra qalmış müharibə insanları nələrə sövq eləməyib.

– Bu qədər çörək onun nəyinə lazım idi? Bəlkə onu camaata paylayırmış? Ac-yalavac adamlara...

– Bəlkə də... bilmirəm. Hamı məəttəl qaldı. Tər-təmiz bir adam idi. Onu qurtarmağa çalışdım. Adam tapdım. Amma özü hər şeyi boynuna aldı, öz əliylə imzaladı. Anan özü məhkəmədə eşitdi bunları. Biz təmiz sarsıldıq... Bəs sən necə? Sənin başına nələr gəlib? Qəhrəman kimi döyüşmüsən, yəqin çoxlu ordenin var?

– Medalım var, – Yusif dəqiqləşdirdi.

– Medal da pis deyil. Bəs nə üçün fərarilik etmisən?

– Mən fərarilik etməmişəm, – Yusif etiraz etdi, – müharibə qurtaranda evə gəlmişəm.

Seyidrza bərkdən qəhqəhə çəkdi.

– Eşitmişəm, bunu da eşitmişəm. Lap düz eləmisən: səngərdə boş-boşuna oturmayacaqdın ki?! Bəs buna görə sənə neçə il iş verdilər?

– İki il. Sonra əfv elədilər.

– Kim səni qurtardı?

– Bilmirəm.

– Əgər əfv olunmusansa, kimsə sənin üçün xahiş eləyib. Belə şeylər elə-belə həll olunmur. Çayını iç, soyuyur.

– Sağ olun.

– Deməli, biz səninlə razılaşdıq. Düzünə qalsa, az qalsın səndən incimişdim. Gözləyirəm, gözləyirəm, gəlib çıxmaq bilmirsən. Biz ki, bir-birimizə yaxın adamlarıq, atanla bir yerdə böyümüşük.

– Bilirəm, – Yusif çaydan bir qurtum içib ayağa qalxdı...

Arvadım mənə də, uşaqlara da tez-tez atasının qayğıkeşliyindən danışırdı; Kislovodsk səfərindən sonra Seyidrzanın qeyri-adi xeyirxahlığının ən parlaq nümunəsi onun Yusifə göstərdiyi təmən-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nasız yardım oldu, amma Yusif bu xeyirxahlığa naşükürlüklə cavab vermişdi. Doxsanıncı illərin sonlarında, oğlumuzun həyatı Yusifin oğlunun bizə kömək edib-etməməsindən asılı olanda və biz də taleyin bir hökmü kimi atamın məktubuna ondan aylarla cavab gözləyəndə arvadım bizi topa-tüfəngə tuturdu ki, bəs məktubda, onun fikrincə, ən vacib məsələ Yusifin oğlunun diqqətinə çatdırılmayıb: Yusifin ən ağır günlərində ona başqa heç kim deyil, məhz onun atası ev almaq üçün külli miqdarda pul verib, o pul olmasaydı, Yusif Gülyanı Kislovodska apara bilməzdi. Arvadımın məntiqinə görə Yusiflə Gülyanın oğlu anadan doğulmasına görə də onun atasına, Seyidrzaya borclu idi...

Qulam bir ayağını çəkə-çəkə qabaqda şaytıyırdı, arabir bir geri dönüb, Yusifin çox arxada qalıb-qalmamasına nəzarət edirdi, birdən dayandı.

– Mən hardan sağa dönəcəyimizi yadda saxlamaq üçün buralarda bir yerə nişanə bir daş qoymuşdum, indi onu heç cür tapa bilmirəm.

Hər dəqiqə daha da qatılaşan ala-toranlıqda onların keçib getdikləri biyabanın ətrafındakı evlər sanki qaranlıqdan qorxub geri çəkilir, sanki bu biyabanı bir az da genişləndirdi.

– O daş buralarda olmalıydı, – Qulam kələ-kötür gilli torpağa göz gəzdirə-gəzdirə burnunun ucunda inamsız mızıldandı, – dəqiq yadımdadı, – nəhayət onun gözləri hansısa daşa ilişdi, – budu bax! Sənə dedim axı!

– Bu ki, futbol qapısıdı, – Yusif dedi, – görürsən o yanda da belə bir daş qoyublar...

Qulam qapı dirəyini əvəz edən o biri daşa da baxıb başını buladı.

– Düz deyirsən, bu, o deyil.

Birinci daşın yanına qayıdıb biyabanın ətrafındakı evlərə göz gəzdirdi və qətiyyətlə sağ tərəfə üz tutdu. Bir qədər sonra, daş hasarın böyrü ilə irəliləyərkən, birdən yuxarı sıçrayıb hasarın üstündən bir ağac parçası götürdü.

– Qabaqda it var, – o, Yusifə izah elədi, – bu ağacı gündüz özüm ora qoymuşdum, birdən it üstümüzə cumsa, ondan qorunmaq üçün...

O, sözünü bitirməmiş it hürüşünün səsi gəldi, təzəcə bərabərinə çatdıqları darvazadan iri bir həyət iti onların üstünə cumdu. Qulam cəld kənara sıçradı, əlindəki ağacla naümid iti qovmağa çalışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yusif itdən qorxan deyildi, buna görə də darvazanın önündən sakitcə keçib getdi. O biri darvazaya çatanda Qulam ayaq saxlayıb ehtiyatla ətrafa göz gəzdirdi; heç kimin onları görmədiyinə əmin olandan sonra onu açmağa çalışdı. Amma darvaza içəridən bağlanmışdı. Bir qədər sonra içəridən kimsə kişi səsilə ehtiyatla soruşdu:

– Kimdi?

– Qulamdı.

– Hansı Qulam?

– Qışqırası deyiləm ki... – Qulam sakitcə, nəzakətlə dedi, – aç qapını...

Darvaza yavaş-yavaş, cırıldaya-cırıldaya bir neçə santimetr aralandı.

– Mən dünən burda olmuşam, – Qulam astadan dedi, – Firuzun yanında.

– Burda yoxdur, – həminki kişi səsi dedi.

– Necə yəni yoxdu? Axı biz onunla şərtləşmişdik.

– Sabah tezdən saat doqquzda vağzalda olacaq. Qaynanmış su kranının yanında.

– Bəs o mənə demişdi ki...

–Tez olun, burdan gedin, – həmin səs onun sözünü ağzında yarımçıq qoydu, – indi bura basqın olacaq.

Qulam yerindən dik atıldı və daha heç nə demədən dərhal biyabana tərəf götürüldü...

Evə qayıdandan sonra Yusif söykəmə taxta nərdivanla dama qalxdı, qonşuluqdakı ikimərtəbəli binanın divarına yaxınlaşıb, köhnə daş hörgünün çıxıntılarından yapışaraq onun damına dırmaşdı. Burada damdan-dama keçərək, məhəllənin qurtaracağına çatdı. Ensiz küçənin o biri tərəfində bələdlədiyi pəncərədən işıq gəlirdi.

İkinci mərtəbənin balkonu küçədən keçənlərin təsadüfən onu görə bilməsinə imkan vermirdi, hər dəfə eyni vaxtdan sonra alışıb sönən kibrit odunu yalnız qarşıdakı pəncərədən görmək olardı. Ordan diqqətlə baxsaydılar, damın kənarında dayanmış çox da hündür olmayan adamı da görə bilərdilər, amma bu yalnız hər dəfə kibrit alışıb qısa bir müddətə anq, qarabəniz sifətə işıq salanda mümkün ola bilərdi. Yusif isə önündə kibrit çaldığı pəncərədən evin içini, orda, rahat, səliqə-sahmanlı otaqda kimin nə etdiyini çox yaxşı



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

görürdü; sağlam bədənli, bir az kök bir oğlan olan Gülyanın əri stolda süfrə arxasında oturmuşdu, Gülya isə onun qabağına nəsə qoyub otaqdan çıxdı, bir qədər keçəndən sonra əlində çaydan geri qayıtdı.

Sonra o, yenə otaqdan çıxdı və geri qayıdanda pəncərəyə yaxınlaşdı. Yusifi gördü.

Gülya bir müddət gözünü qaranlığa zilləyib durdu, kibritin yenidən alışmasını gözlədi, o alışanda bir daha əmin oldu ki, onu qara basmır – qonşu evin damında dayanan həqiqətən Yusifdi. Buna qəti əmin olandan sonra cəld pəncərədən çəkildi, ərinə nəsə deyib otaqdan çıxdı.

Yusif kibriti cibinə soxub, gəldiyi yolla – damların üstüylə geri qayıtdı.

– Üstünü harda belə batırmısan?! – anası dedi və tez pəncərəyə tərəf qaçıb ordakı şotkanı əlinə aldı. – Vitya qayıdıb, – oğlunun şalvarındakı toz ləkəsini təmizləyə-təmizləyə son xəbəri ona çatdırdı. – Lap Berlinəcən gedib çıxıb. Bir kisə tum gətirib özüynən.

– Nə tumu? – Yusif şotkanı anasının əlindən almağa çalışaraq təəccüblə dedi.

– Adi günəbaxan tumu. Bütün həyət indi tum qovurur. Deyir, hərbi qənimətdi.

Yusifi gülmək tutdu.

– Onu görməyə getmişdin?

– Əlbəttə. Düz iki dəfə səni soruşdu. Hamı onlara yığışıb. Evə qayıtmağı münasibətilə təbrik eləyirlər.

– Mən sonra ona dəyərəm, – Yusif şotkanı bir kənara qoydu. – Sən məni gözləmə, ana, yaxşımı... xahiş eləyirəm... Uzan yat.

Yusif dəqiq bilirdi ki, Gülya hökmən mənim valideynlərimin yanına qaçacaq, bu hərəkətinə görə ondan onlara şikayət edəcək. Buna görə də uzun dəhlizin sonunda bizim qapıya yaxınlaşarkən Gülyanın hirsli səsini eşidəndə təəccüblənmədi.

– Təsəvvür eləyirsən? Tamam ağlını itirib...

– Bu da özü, – Yusif içəri boylananda anam dedi və mələfəni ütülədiyi ütünü bir kənara qoydu. Gülya Yusifi görən kimi susdu; stolüstü saatın tıqqıltısı eşidilməyə başladı.

– Sən başa düşürsən neyləyirsən? – Anam otaqdan çıxan kimi Gülya dərhal sükutu pozdu; çox astadan, az qala pıçıltıyla danışırdı;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaşla dolu gözlərini yalvarıcı nəzərlərlə ona zilləmişdi. – Sən tamam ağlını itirmisən?

– Biz bir yerdə yaşamalıyıq, – Yusif dedi.

– Sən nə danışırsan? Bir özün fikirləş! – Gülya nəsə ona xas olmayan yazıq, yalvarıcı bir ahənglə davam etdi.

– Bəlkə burdan çıxıb gedək?

– Hara?

– Hara olur olsun... Getməyə yer azdı bəyəm?

– Sən orda, yad yerdə neynəyəcəksən?

– Yaşayacam.

– Sən heç burda işə düzələ bilmirsən, – Gülya dedi. – Kim səni orda işə götürəcək?...

– Sən bunun dərdini çəkmə...

– Bəs mənim valideynlərim? Təsəvvür eləyirsən onlar nə hala düşəcək? Bir də axı bu rüsvayçılıqdır! Bütün şəhər biləcək. Mənim haqqımda heç bilirsən nələr danışacaqlar?! Bütün ömrüm boyu rüsvayçılıq içində yaşayacam. Heç vaxt bunu mənə bağışlamayacaqlar.

– Bəs elə bilirsən mən səni bağışlayacam?

Gülya Yusifin bu sualına cavab vermədi; üzünü divara tərəf çevirib ağladı.

Yusif ona yaxınlaşdı, əlini çiyninə qoydu, Gülya geri çevrilib sifətini onun sinəsində gizlətdi.

– Bəs neynəyək? Bəs biz neynəyək? – o, ara vermədən təkrar etdi, gözlərindən sel kimi axan yaşlar Yusifin köynəyini islatdı.

1999-cu il martın 20-də Moskvada Azərbaycan səfirliyində Novruz bayramı münasibətilə təşkil olunmuş ziyafətdə axır ki, Yusifin oğlu ilə tanış ola bildim. Mənə xoş üz göstərib nəzakətlə dinlədi, amma hansı məktubdan söz getdiyini uzun müddət heç cür yadına sala bilmədi. Axırda, atamın göndərdiyi məktubun gedib heç ona çatmadığı tamam aydın olandan sonra mən, əllərində qədəh ağızlarını marçıldadan bir xeyli adamın əhatəsində tələm-tələsik oğlumun xəstəliyi barədə danışdım. Əlbəttə ki, bu arada atalarımızın yaxın dost, analarımızın yaxın rəfiqə olduqlarını da xatırlatmağı unutmadım. Amma onun anlaşılmaz reaksiyasından belə anladım ki, "Siboyl"un prezidenti öz doğma atası haqda, demək olar ki, heç nə bilmir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Viktor qonşuların, qohumların və dostların əhatəsində oturmuşdu. Atamla, növbəti amerikan mal əti konservini açan dayım yanaşı düşmüşdülər və göz-gözə gəlməməyə çalışırdılar.

– Sən haralarda itib-batmısan? – Viktor sevindi. – Hamı burdadı, bircə sən yoxsan, – o, azərbaycanca təmiz, aksentsiz danışırdı. – Otur görək.

Yaşlı qadınlardan biri yerini Yusifə verdi, önünə təmiz boşqab qoydular, araq süzdülər.

– Sənin qayıtmağının şərəfinə, Vitya, –Yusif rusca dedi, – Marusya xala səni təbrik edirəm.

– Sağ ol, oğlum, sağ ol, – Marusya xala Yusifin boşqabına bir neçə soyutma kartof qoydu, – görürsən də bizim necə xoş günümüzdü...

– Sən necəsən? Çoxdan qayıtmısan? – Viktor bığına tumar çəkib mehriban nəzərlərlə Yusifi süzdü.

– On gün olmaz, – Marusya xala Yusifin əvəzinə cavab verdi.

– Bir yerdə işləyib eləyirsən?

– Hələ yox.

– Axı o, kontuziyalıdı, – Marusya xala izah etdi.

– Bu, o qədər də qorxulu şey deyil. Allahın köməkliyi ilə hər şey keçib gedər. – Viktor gülümsündü. – Deyəsən sən nəsə demək istəyirdin? – o, üzünü Cavada tutdu.

– İstəyirəm ki, bu badələri Marusya xalanın sağlığına qaldıraq, – Cavad rus dilində səlis danışırdı, amma bəzi sözlərin məzəli şəkildə qol-qanadını qırırdı.

– Mənim sağlığıma artıq içmisiniz, – Marusya xala zahiri canfəşanlıqla etiraz elədi, amma oğlunun dostlarının ona bu cür diqqət göstərmələrindən çox xoşlandığı açıq-aşkar hiss olunurdu.

– Marusya xala bizim hamımız üçün doğma ana kimi olub, – Cavad dedi, – ta uşaqlıqdan bəri birimizə bir şey olan kimi təcili onun yanına qaçmışıq. Bu gün biz böyük sevinc içindəyik, amma hamımızdan çox o sevinir. Gəlin, onun bu sevincinin sağlığına və onun şəxsində bütün anaların sağlığına içək.

Hamı bir yerdə qədəhləri qaldırdı.

– Deyirlər, sənin Gülyan ərə gedib? – Cavad öz tostunu deyib qurtaranacan Viktor astadan soruşdu. – Zərgərin oğluna?

– Sənə kim dedi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əclaflar. Biz orda düşmənlə döyüşəndə bunlar burda kefə baxıblar. Neynək, biz burda da qayda-qanun yaradarıq. İndi də kef eləmək növbəsi bizimdi!

Perronda qaynamış su paylanan yerdə əllərində çaydan, butulka, tayqulp xeyli insan toplaşmışdı. Yusifin atasının dustaq həmkarı Firuz Bakı-Rostov qatarının tərpənməyinə bir neçə dəqiqə qalmış bir neçə qohumunun əhatəsində gəlib çıxdı. Onlardan biri bileti təqdim edərkən, digərləri isə izlənməkdən qorxduqları üçün buraya toplaşan adamlara göz qoyarkən Firuz tələm-tələsik Yusifi qucaqlayıb dedi:

– Sənin atanın heç bir günahı yoxdu. Onu aldadıblar. Qaimələrin saxta olduğundan xəbəri yox imiş.

– Bəs məhkəmədə niyə bunları boynuna götürüb?

– Seyidrza onu belə başa saldı. Bütün bunlar onun işidi: bu illər ərzində milyonları oğurlayıb, bizimsə heç nədən xəbərimiz olmayıb, mağazalara çörək daşımışıq. Biz tutulanda da Seyidrza müstəntiqi ələ alıb, qaimələri dəyişdiriblər, buna görə də artıq çörək bir növü oğurluq hesab olunub; qaimədə qeyd olunmayıbsa, deməli, biz sürücülər onu zavoddan oğurlamışıq.

– Bəs siz niyə susdunuz?

– Seyidrza bizi başa saldı ki, saxta qaimələrə görə zavodun yarısından çoxunu tutub dama basacaqlar. Amma biz sussaq, o bizi məhkəmədə qurtaracaq, bizim ki, heç bir günahımız yoxdu. Bir də dedi ki, bu oğurluq çörək ac uşaqlar üçün, hansısa yetimxana üçün nəzərdə tutulubmuş. Biz də ona inandıq. O isə heç məhkəməyə də gəlmədi. Beləcə hərəmizin belinə onca il yapışdırdılar.

– Atam nədən öldü? – qohumları Firuzu dartıb vaqona salanda Yusif soruşdu.

– Ürəyindən. Çox fikir eləyirdi, deyirdi ki, camaat əsl həqiqəti heç vaxt bilməyəcək. – Firuz artıq vaqonun pilləkənində dayanmışdı: qatar tərpəndi. – Mən hara lazımdı hamısını yazmışam. Cavabını gözləyirəm, – bələdçi çəkib onu tambura saldı. – Əgər mənə bir şey olsa, bil ki, bu, Seyidrzanın əliynən olub. – Firuzun son sözləri təkcə Yusifə deyil, həm də perronda qalan qohumlarına ünvanlanmışdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecə Yusif, bir neçə aydı onu rahat buraxmayan eyni qarabasmadan ayıldı: yenə onun "polutorka"sı kəlləmayallaq aşmışdı, maşının qapıları pərçimlənmiş, açılmır və o, alova bürünmüş kabinkadan heç cür çıxa bilmirdi. Deyəsən yuxuda qışqırmış, anasını da oyatmışdı. Anası təzədən yuxuya gedənəcən gözləyib yerindən qalxdı, şalvarını geyinib bayıra çıxdı.

Sübh çağına az qalmışdı. Viktor həyətdə dəmir çarpayıda yatmışdı. Yusif öz qapılarının önündəki daş pilləkənə çökdü, siqaret yandırdı. Həyətdəki ağacın altındakı xırda hində iki qonşu toyuğu mürgü vururdu; ondan bir az aralıda həyət iti Tuzik özünə yer eləmişdi; o, tənbəl-tənbəl göz qapaqlarını aralayıb Yusifə quyruğunu buladı və təzədən yuxuya getdi.

Yusif siqaretini çəkib qurtarandan sonra geyinib mənim atamın yanına yollandı. Artıq tək-tük də olsa küçədə harasa tələsənlər vardı; o illər Bakıda hətta bir-birini tanımayan adamlar belə küçədə rastlaşanda salamlaşırdılar. Kiminsə salamını aldıqdan sonra Yusif alaqapıya daxil oldu, enli, mərmər pilləkənlərlə ikinci mərtəbəyə qalxdı, üst-üstə düzülmüş altı düymədən birini basdı. Atam zəngin ilk səsinəcə ayıldı.

– Nə olub? – atam alt paltarındaydı, əlində isə müharibədən polkovnik rütbəsində və sağ qolundan məhrum qayıdan babamın ona hədiyyə etdiyi qənimət alman saatı parıldayırdı.

– Söhbət eləmək lazımdı.

– Heç bilirsən indi saat neçədi?

– Neçədi?

– Altının yarısı.

– Bağışla. Qorxdum birdən instituta getmiş olarsan.

– Bu qədər tezdən? Mən dəliyəm, nədi? Keç içəri.

– Yaxşısı budur, küçədə gəzişək.

– Heç olmasa geyinə bilərəm?

– Geyinə bilərsən, – deyə Yusif gülümsündü. Onlar Qız qalasının yanından dənizkənarı bulvara düşdülər, skamyada əyləşdilər.

– Mən burdan getmək istəyirəm, – Yusif sükutu pozdu.

– Hara? – atam təəccübləndi.

– Elə bunu səndən soruşmaq istəyirəm. Səncə hara yaxşı olar?

– Nə mənada?

– Axı sən atanla çox şəhərlərdə olmusan, çox yer görmüsən...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən özün də müharibədəykən az yerdə olmamısan, – atam gülümsündü.

– O qədər uzaqlara getmək istəmirəm. Bəs Kislovodsk necə? Yaxşı şəhərdi?

– Baxır nəyinə görə.

– Siz ki, hər yay ora gedirdiniz? Gülya da tərifləyirdi.

– Pis yer deyil... Ancaq sən orda neyləyəcəksən?

– Burda neyləyirəm onu. Mənimlə gedərsən?

– Bəs institut?

– Bir günlüyə deyirəm. Orda mənə bir ev tapıb elə o gün də birbaş geri qayıdarıq.

– Evi neyləyirsən?

– Satın almaq istəyirəm.

– Pulu hardan tapassan?

– Pul olacaq. Bu gün gedə bilərik?

– Lazımdırsa gedərəm. Yaxşı o pul hardandı?

– Miras qalıb.

– Yox bir. Ciddi deyirsən?

– Ciddi deyirəm. Atamdan qalıb.

– Bu qədər pul?

– O pul ona həyatı bahasına başa gəlib. Sən iki bilet ala bilərsənmi? O baş-bu başa. Qayıdanda qaytararam.

– Kislovodska bir neçə qatar gedir. Moskva qatarı, Rostov qatarı.

– Gec çıxan yaxşıdı. Bəs "Hava məbədi" nədi? – Yusif soruşdu.

– Kislovodskda bir restoranın adıdı. O nəyinə lazımdı?

– Gülya mənə ondan danışıb.

Yanlarından bərkdən ayaqlarını yerə döyə-döyə bir dəstə dəniz kursantı keçdi.

Viktor dərhal, Yusif onun çarpayısının qırağında əyləşən kimi yuxudan ayıldı. Bir müddət çaşqın-çaşqın üzünə baxdı, deyəsən harda olduğunu dərhal anlaya bilməmişdi...

– Mənəm, Yusifdi.

– Görürəm, – Viktor gülümsündü, – saat neçədir?

– Hələ çox tezdi. Sən məni bağışla... Sənə işim düşüb. Səndə silah var?

– Odlu silahmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə.

– Kortik var, zabit kortiki... Qənimətdi. Yoxsa nəsə daha ciddi bir şey lazımdımı? – Viktor soruşdu.

Yusif başı ilə təsdiqlədi.

– Cavaddan soruş.

– Ona ağız açmaq istəmirəm, – Yusif dedi.

– İstəyirsən mən istəyim ondan?

– Yaxşısı budu bir yer tapıb pulla alım... Yaxşı, Vitya, sən yatmağında ol.

– Axşam neynəyirsən?

– Görüşərik, –Yusif evlərinə girmədən yenidən küçəyə çıxdı.

Axşam isə o, atamla birlikdə Kislovodska gedən qatarın tamburunda dayanmışdı, Gülyanın ərindən danışırdılar.

– O qədər də pis oğlan deyil, – atam dedi və pivə şüsəsinin ağzını açdı. - Məndən bir kurs yuxarıda, mədən fakültəsində oxuyur.

– O qədər də pis olmayan oğlanlar cəbhədə vuruşurdular.

– Bağışla, – atam bir az incik dedi. – Bəs bron verilənlər nə etməliydi? Elə bilirsən biz cəbhəyə getmək üçün könüllü ərizə yazmamışıq? Cəbhəyə neft də lazım idi...

– Mən səndən danışmıram, – Yusif öz şüşəsindən bir qurtum pivə içib pəncərədən bayıra boylandı: qatar hansısa zəif işıqlanan stansiyadan keçirdi. – Onu zorla məcbur ediblər. Mən dəqiq bilirəm. Valideynləri zorla məcbur edib.

– Bilmirəm, – atam onunla mübahisə etmək istəmədi, – ola bilər.

– Bəs bu Kislovodskda yaxşı nə var? Niyə hamı ora gedir?

– Yəqin ki, təmiz hava.

– Biz gərək o "Hava məbədi"nə yaxın yerdə ev tapıb alaq.

– Axı heç demədin bu qədər pul səndə hardandır?

– Bilməsən yaxşıdı... Sənə də pul lazımdımı?

– Kimə lazım deyil?

– Nə qədər istəyərdin?

– Ciddi deyirsən?

– Tamamilə.

– Bir manatdan yüz min manata qədər.

– Yüz min sənin nəyinə lazımdı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Drap palto altı minədir. Kostyum da o qiymətə... Hələ Nazadan danışmıram... Ümumiyyətlə,... heç olmasa bir il adam kimi yaşayardıq...

– Yüz minin olacaq.

– Motosiklet almaq olardı, – atam xəyala dalaraq dedi. – Bu *yaxında "Harley" satırdılar.*

– "Harley"in də olacaq, – Yusif dedi.

Atam qəhqəhə çəkdi:

– Gəl, gedək yataq.

Öz yerlərinə yatmağa getdilər; vaqon plaskart vaqon idi, hamı artıq yuxuya getmişdi.

Şəhərə gələnləri qarşılamaq üçün vağzal meydanına toplaşan, əksəriyyəti də otaq və ya yer təklif edən qoca qarılardan ibarət çox da böyük olmayan bir kütlə qatarı gözləyirdi. Atam həsir şlyapalı, naxışlı yanyaxa köynək geyinmiş mötəbər görkəmli bir kişiyə yaxınlaşdı.

– Ev lazımdı, – atam onu bir kənara çəkib mümkün qədər zəhmli səslə dedi.

– Məndə bir otaqdı, – kişi cavab verdi, – pəncərəsi bağçaya açılır, üç çarpayısı var.

– Biz mənzil kirayələmək yox, – Yusif söhbətə qarışdı, – satlıq ev almaq istəyirik. Bir-iki mərtəbəli, çox da iri olmayan bir ev.

– Siz onda Narzan qalereyası deyilən yerə gedin. Orda fotoqrafdan soruşun. Adı Edikdir. Deyəsən, onda nəsə belə bir şey var. *Burda sizə heç kim ev satmaz. – Kişi onlardan uzaqlaşdı.*

Narzan qalereyasındakı fotoqraf bəstəboy, dilli-dilavər, qatı brialin çəkilən saçları səliqə ilə tən ortadan yana ayrılmış bir oğlan idi. (Onun artıq ağarmağa başlamış bu saç düzümü 1976-cı ildə, mən Ediklə tanış olanda da neco vardı elə də qalmışdı).

– Yaxşı bir ev var, – o əminliklə dedi. – Amma çox bahadı.

– Neçəyədi? – Yusif soruşdu.

– İki yüz minə.

– "Hava məbədi"indən çox uzaqdı?

– Nə çox uzaqdı, nə də çox yaxın. Elə siz deyəndi.

– Baxmaq olar? – Atam soruşdu.

– Saat altıda gələrsiniz... Növbə kimindi buyursun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağzından alov püskürən əjdahalarla bəzədilən təmtəraqlı ipək don geyinmiş koppuş bir qadın pərdənin arxasına keçdi; pərdənin üstündəki şəkildə bir cüt uzun hörüklü, incəbel bir qız çərkəzi qiyafəli bir igidə bardaqdan su tökürdü. Qızın da, igidin də baş hissəsi yox idi, bunun əvəzinə pərdədə dairəvi boşluq vardı. Tezliklə koppuş qadının və onun yol yoldaşının başları o boşluqları tutub doldurdu.

Ev Yusifin xoşuna gəldi. Səliqə ilə ağardılmış bu ev sanki arxadakı təpəni basmış kolluğa söykənmişdi. Pəncərədən bütün şəhər görünürdü.

– Bəs "Hava məbədi" hanı? – Yusif soruşdu.

– Bax odur e, orda, – fotoqraf barmağını irəli uzatdı.

Fotoqraf evi onlara göstərib qurtaranacan ev sahibəsi qadın nədənsə susub danışmadı.

– Mebellərin də bəzilərini sizin üçün saxlaya bilərik, – fotoqraf dedi, – onsuz da almalısınız. Yoxsa özünüzlə gətirəcəksiniz?

– Stol, stullar, çarpayı... bir də şkaf... əgər özünüzə lazım deyilsə, mən onları da almaq istərdim.

– Lazımdı, niyə lazım deyil? – Ev sahibəsinin əvəzinə fotoqraf cavab verdi. – Amma sizə daha vacib lazımdı. Buna görə də əvvəl bizimdi, indi oldu sizin. Deməli, stol, beş stul, dəyişək şkafı, çarpayı... Bufet lazım deyil? Qoz ağacından, naxışlı...

– Bufet də lazım ola bilər.

– Elədisə, divanı da götür, oğlum – nəhayət ev sahibəsinin dili açıldı, – bir də mən onu özümlə başqa şəhərə daşımalı olmayım.

– Divanla bir yerdə əlavə on min də verməli olacaqsınız, – fotoqraf haqq-hesaba yekun vurdu.

– Sağ ol, – ev sahibəsi dedi.

– Başqa şəhərə köçürsünüz? – atam ondan soruşdu.

– Oğlumun yanına gedirəm.

– Bəs bu sizin nəyinizdir? – atam fotoqrafı göstərdi.

– Bura bax, bunun sənə nə dəxli? – Fotoqraf qeyzləndi. – Bundan sonra di gəl adamlara yaxşılıq elə. Bu müsəlmanların hamısı belədi: gərək hər şeyi biləl期!.. Mən heç sizdən soruşuram ki, bu qədər pulu hardan almısınız? Kimi öldürmüsünüz? Kimi qarət eləmisiniz? Heç sizdən pasport da soruşmamışam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı, hirslənmə, – Yusif barışdırıcı bir tərzdə əlini fotoqrafın çiyninə qoydu. Bizim pasportumuz qaydasındadır. Biz dərhal evə köçəcəyik, sonra hər şeyi necə lazımdı rəsmiləşdirərik.

– Bir də haçan gələcəksiniz? – fotoqraf soruşdu.

– İki gündən sonra.

– Beh verməlisiniz.

– Hökmən?

– Qayda belədir.

– Mən özümlə pul götürməmişəm, – Yusif utandı, – pasportumu girov qoya bilərəm.

–İndi mən neyləyim sizinlə? – fotoqraf dedi. – Hər halda yerlimsiniz... amma arada yalan olmasın.

– Sabah yox birisi gün gündüz vaxtı pulunuzu gətirəcəm, – Yusif dedi. Onlar elə həmin gecə Kislovodsku tərk etdilər..

Ertəsi gün Cavad dayım Yusifi mayor poqonlu hərbi geyimdə təkqol bir adamın yanına gətirdi, o poçtun həyətində yaşayırdı. Üçlükdə zirzəmiyə düşdülər, təkqol qapının kilidini açıb işığı yandırdı. Zirzəmi qupquruydu, yüksək tavanı, arabir küçədən keçən adamların ayaqları görünən pəncərəsi vardı.

Təkqol küncdə, çarpayının böyrünə qoyulmuş kamodun siyirməsini çəkib açdı. Siyirmədə iki tapança və qısalüləli, fırlanan barabanlı xırda bir revolver vardı.

– Buldoqdu, – təkqol mayor barmağını qısalüləli revolverə tuşlayaraq dedi, – anam demişkən, həm ucuz, həm də çox qəzəbli. Heyif ki, gülləsi azdı.

– Neçə dənədi? – Cavad dayım soruşdu.

– Sərrast atsan, bəs eləyər... bir on dənə.

– Bəsindi? – Cavad dayım Yusifdən soruşdu.

– Hə. – Yusif parabellumu əlinə götürüb dedi. – Bəs bu neçəyədir?

– Üç minə – əla şeydi.

Tapançanın dəstəyi sədəflə işlənmişdi, ovucun içində rahat otururdu.

– Pulunu qabaqcadan istəyirsiniz, yoxsa sabah verərik? – Yusif soruşdu.

– Sabaha qalsa, beş min verəcəksiniz, – mayor dedi.

– Olsun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mayor tapançaya iki dolu patron darağı əlavə elədi, hamısını əvvəlcə bir əskiyə, sonra isə qəzetə büküb Yusifə uzatdı.

– Başqa nəsə bir şey lazım deyildi ki? – onlar mayoru zirzəmidə qoyub pilləkənlərlə yuxarı qalxanda Cavad dayım soruşdu.

– Saat da lazımdı.

– Onda son get. Mənim onunla bir balaca ayrı işim də var. Saatı sonra özüm gətirərəm. Cib, yoxsa qol saatı olsun?

– Qol saatı. Pullar sabah Vityada olacaq, – Yusif vidalaşarkən dedi. – Nə qədər lazımdı götürərsən.

Poçtun həyətində dayımdan ayrılandan sonra Yusif küçəyə çıxdı.

Bizim otağın qapısı bağlıydı – atam işə, anam məşqə getmiş, məni isə uşaq bağçasına aparmışdılar, – Yusif açarın yerini bilirdi.

O, Seyidrzaya zəng vurdu; azca aralı qalmış qapının arasından ümumi mətbəxdə Baladadaşın iri bir qazançada qaynadılmış vermişeli necə aşırdığı aydın görünürdü.

– Eşidirəm. Kimdi? – Seyidrza bir xeyli əsəbi halda soruşdu.

– Mənəm, Yusifdi.

– Yusif? Hansı Yusif?

– Səmədin oğlu.

– Hə-ə... bu sənsən, oğlum, – Seyidrza açıq-aşkar Yusifin ona zəng vurmasına təəccüb qalmışdı. – Nədi, bir şey olmayıb ki?

– Hə, – Yusif dedi. – Mən sizinlə harda söhbət edə bilərəm?

– Axı nə olub?

– Görüşəndə hamısını deyəcəm.

– Onda elə bura gəl.

– Saat neçədə?

– Altıda. İş gününün axırında.

– Yaxşı, – Yusif dəstəyi asıb qonşuya təşəkkür elədi.

Gülya anamın dediyi vaxtda, düz saat on ikidə gəldi. Çox işgüzar görkəm almışdı, tələsidiyini hiss etdirmək üçün barmağıyla çiyninə keçirdiyi yeni çantasına döyəcləyirdi.

– Mən ev almışam, – Yusif dedi. – Kislovodskda.

Gülya bu xəbəri tamamilə biganə qarşıladı; hər halda Yusifə belə gəldi.

– Bu gün gedirik, – Yusif sözünə davam etdi. – Sən mənə qulaq asırsan? Qatar saat onda yola düşür. Altıncı vaqonda olacam. Səni



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qatarın tərpənməsinə on beş dəqiqə qalmış düz vaqonun önündə gözləyəcəyəm. Hər halda evdən bir az tez çıx. Heç kimlə vidalaşma. Sonra onlara məktub yazarıq. Özünlə heç nə götürüb eləmə də. Nə lazımdı orda alaram.

– Hardandı bu pul səndə?

– Nə fərqi var?

Elə bu vaxt Gülyanın sifətindəki sakitlik maskası bir andaca dağıldı; o çığırmağa başladı.

– Çox böyük fərqi var! Sən elə bilirsən mən ailəmi, valideynlərimi atıb, hara gəldi səninlə gedəcəm?! Niyə axı mənə belə baxırsan? Heç başa düşürsənmi məndən nə tələb eləyirsən? Mən sənin üçün Polşada şəkil çəkdirdiyin qızlardan deyiləm! Gözlə, bu dəqiqə ... biri kimi durub düşəcəm yanına. Mənə elə baxıb eləmə. Neyniyirsən elə, kimi öldürürsən öldür, amma mən səninlə heç yana gedən deyiləm!

Yusif yerindən qalxdı, dinməzcə onun yanından keçib otaqdan çıxdı. Bir neçə dəqiqədən sonra Gülya sakitləşib qapını kilidlədi, açarı mətbəx stolunun siyirməsində gizlədib evlərinə yollandı...

Oğlumun ürəyindəki qəribə xüsusiyyəti – birdən genişlənib həcmcə böyüməyə başlamışdı, – həkimlər ürək əzələlərinin elastikliyinin qəfil zəifləməsi ilə izah etdilər. Rublevski şosesindəki kardioloji mərkəzdə laxtalanmanın qarşısını almaq üçün müntəzəm heparin vuraraq qanını duruldurdular, ancaq onu da anlatmışdılar ki, mənim zahirən tam sağlam görünən iyirmi yeddi yaşlı oğlumun sağalmağına ümid çox azdır. Məşhur Burakovskinin şagirdlərindən və ardıcıllarından biri, – məni onunla dostlarım tanış etmişdilər, – o qədər əminliklə olmasa da yeganə xilas yolu kimi oğluma yeni ürək köçürülməsini tövsiyə etmişdi. Ancaq Rusiyada uzun illər bu cür cərrahiyyə əməliyyatları qadağan olunmuşdu; belə cərrahiyyə əməliyyatları yalnız son vaxtlar aparılırdı və heç də həmişə uğurlu olmurdu. Bu əməliyyatı xaricdə gerçəkləşdirmək üçün isə külli miqdarda pul lazım idi; bu həkim mənə elə bir məbləğ söyləmişdi ki, nə mən, nə də bizim bütün ailə üzvlərimiz bir yerdə bu məbləği ömrü boyu yığıb toplaya bilməzdi.

Buna görə də Yusifin, heç birimizin üzünü belə görmədiyi oğluna müraciət etmək ideyası tamamilə naümid qalmaqdan irəli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gəlmişdi – çarəsizlik insanı ən bihudə hərəkətlərə təhrik edir. Atam kömək üçün tanımadığımız bir adama məktub göndərmiş və biz aylarla bir möcüzə ümidilə yaşamışdıq. Səfirlikdəki söhbət məni bir qədər ayıltsa da Yusifin oğlundan qəti bir cavab almadığımız üçün hələ də ümidimizi tam itirməmişdik.

*Bir neçə ay ərzində* oğlumun ürəyinin diametri üç santimetr böyümüşdü; genişlənmiş mədəciklərdəki qan nehrə südü kimi çalxanaraq laxtalanır, xırda qırmalar kimi qan damarlarıyla ciyərlərə axır, onları məhv edirdi...

Anası köynəkləri, maykaları, corabları ütüləyib, onları səliqəylə üstünə dermantin çəkilmiş, dəmir künclü taxta çamadana qablaşdırdı.

– Haçan qayıdacaqsan?

– Tezliklə. Bəlkə sən də mənim yanıma gələsən.

– Axı bu hardadı?

– Mən sənə xəbər göndərəcəm. Pul lazım olsa Vityadan götürərsən; onunla danışmışam, sonra göndərəcəm.

– Tez qayıt, oğlum.

Yusif yerindən qalxdı, *anasını qucaqladı.*

– Sən heç nigaran qalma, ana.

– Heç bir yer adama öz doğma şəhəri qədər yaxşı ola bilməz.

– Bilirəm...

Yusif anasını öpdü, o, stəkanla krandan su götürənə qədər gözlədi, sonra çamadanını götürüb evdən çıxdı.

Anası stəkandakı suyu onun dalınca atdı – uğurlu olsun deyə.

*Viktor tində*, qoca akasiya ağacının altında dayanıb onu gözləyirdi, hələ də hərbi formadaydı. Yusif çamadanı ona verib, axşam saat doqquzda "Qızıl şəfəq" kinoteatrının yanındakı kafeyə gəlməsini xahiş etdi.

– Sən o qıza görə şəhərdən gedirsən? – Viktor soruşdu. – Uzun müddətəmi?

– Bilmirəm...

Saat altıya hələ bir neçə saat vardı, amma Yusif tək qalmaq istəyirdi...

Bulvarda, hələ müharibədən də əvvəl burda dayanan qoca tərəziçidə özünü çəkdirdi; elə boyunu da ona ölçdürdü, burdakı hər iki güc ölçəni sıxıb qüvvəsini yoxladı. Yaxt-klubda tum aldı, Stalin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

prospektinə çıxıb, atasının həbs olunmazdan əvvəl işlədiyi çörək zavodu istiqamətində hərəkət edən tramvaya gedə-gedə sıçrayıb mindi.

"Bədaye" kinoteatrına çatanda tramvay hərəkətdəykən yerə sıçradı, çünki yeni "Yuz kişi və bir qadın" filminin afişası yanında anamı görmüşdü. Yusifə elə gəldi ki, anam da onu gördü, amma başı afişaya qarışdığından tanımadı.

– Naza, – ona yaxınlaşıb qulağına pıçıldadı.

Anam diksinib ona tərəf çevrildi.

– Nədi, nə olub, özününküləri də tanımırsan?

Anam bərkdən güldü.

– Mən səni görmədim.

Bu son görüşləri haqda danışarkən anam Yusifdən onu evə ötürməyi xahiş etdiyini xatırladı. Onlar Böyük dəniz küçəsiylə Bakı limanına doğru gediblər. Tezliklə Yusif ona küçənin o biri tərəfinə keçməyi təklif edəndə anam buna bərk təəccüblənib. Amma küçənin ortasından keçərkən qarşıdan gələn bir dəstə içkili kişi görəndə hər şeyi anlayıb.

– Görürsən mən nə qədər ehtiyatlı adamam? – Yusif gülümsündü. – Ağızlarından sarsaq bir söz çıxara bilərdilər, onda gərək mən də onları cəzalandıraydım. Bu gün isə belə bir imkanım yoxdu.

– Sən Gülyadan nə istəyirsən? – anam soruşdu. – Onu dinc burax. Qatar artıq çoxdan gedib.

– Hansı qatar?!

Anam bərkdən güldü.

– Bilmirəm: səninkimi yoxsa onunkumu. Çox gec əl-ayağa düşmüsən. Bəlkə də o, səni sevir... Ancaq artıq onun yaxşı-pis bir ailəsi var. Bir kitabda yazıldığı kimi: "Neynəyim ki, başqasına verildim, bundan sonra ömrüm boyu yalnız ona sadiqəm". Bu bizim haqqımızda, Azərbaycan qadınları haqqında yazılıb... Bəlkə bir su içək.

– İstəyirsən içək, – Yusif razılaşdı. Anamı siroplu qazlı suya qonaq edib, həmişəlik onunla vidalaşdı...

Altıya beş dəqiqə qalmış Yusif çörək zavodunun giriş qapısının ağzındaydı; bir neçə məhəllə aralıdakı keçmiş məktəb binasına baxdı, müharibədən qabaq o məktəbdə oxumuşdu: indi orda hərbi hospital yerləşirdi.

– Kimin yanına gedirsən? – gözətçi onu saxladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Direktorun.

– Gözlə, zəng vurum sonra.

Gözətçi qoşulana kimi telefonun çarx dəstəyini bir xeyli fırlatmalı oldu.

– Burda bir oğlan direktorun yanına gəlib, buraxım?

Telefonda gözətçiyə nəsə dedilər, o, dəstəyi yerindən asıb, bir neçə dəqiqə fikirli-fikirli Yusifin üzünə baxdı, sonra ona içəri keçməyə icazə verdi.

Qəbul otağında katibə Yusifdən gözləməyi xahiş etdi. Seyidrza kabinetində kimisə qəbul edirdi.

Yusif pəncərəyə yaxınlaşdı. Zavodun həyəti qatardan açılmış iki vaqondan boşaldılan un kisələrinin ağappaq toz-dumanına bürünmüşdü. Sanki qara batmış kimi üst-başı ağappaq ağaran dörd yükboşaldan un kisələrini sürətlə bir-birinə ötürürdü. Başqa iki nəfər onları arabada talvarın altına daşıyır, orda səliqə ilə üst-üstə yığırdı; un kisələrindən yaranan təpəcik Yusifin gözləri önündə get-gedə böyüyürdü. Nəhayət kabinetin qapısı açıldı, içəridən əlində kağız bir neçə kişi və bir qadın çıxdı. Yusif dönüb katibəyə sarı baxdı.

– Buyurun, keçə bilərsiniz.

Yusif mavi sətin iş köynəyinin altından kəmərinə taxdığı tapançanı dirsəyiylə bədəninə sıxıb, niyyətini həyata keçirmək üçün içəri keçdi.

Seyidrza burda – kabinetdə evində olduğu qədər gülərüz deyildi, görünür işi çox idi.

– Otur, – o, tələsik stolun üstündən əlini uzadıb dedi.

Yusif, sanki ona tərəf uzanan əli görmürmüş kimi göstərilən yerdə əyləşib, diqqətlə atasını güdaza verən adamın sifətinə baxdı.

– Nədi? – Seyidrza soruşdu. – Sənə nə olub?

– Mən hər şeyi bilirəm, – Yusif dedi.

– Bunlar hamısı ağ yalandır, – Seyidrza dedi və bir əli stolun altındakı zəngə sarı uzandı.

– Əlini ordan çək və mənə diqqətlə qulaq as, – Yusif iş köynəyini azca aralayıb, dəstəyi kəmərin üstündən çıxan "parabellum"u Seyidrzaya göstərdi, – bunu görürsən? Darağı tam doludur. Hərçənd sənə bircə güllə də kifayətdir. Buna görə də nə deyirəm onu elə... Kağız-qələm götür...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyidrza itaətlə bir vərəq kağızı önünə çəkib, qələmi sağ əlinə aldı.

– Yaz, – Yusif dedi və əvvəlcədən hazırladığı sözləri diqtə etməyə başladı. – "Mən, Seyidrza Şükürov etiraf edirəm ki, Səməd Vəliyevi aldadıb, onu günahı öz boynuna götürməyə razı salmışam. Əslində isə bütün çörəyi mən oğurlamışam. Pulu da mən özüm mənimsəmişəm. – Yusif bir anlığa fikrə gedib əlavə etdi: – Səməd Vəliyev təmiz adamdır, günahsız yerə ölüb, mən isə fırıldaqçının biriyəm. Bütün bunları öz imzamla təsdiq edirəm..."

Yusif, Seyidrza onun dediklərini yazıb qurtaranacan gözlədi, sonra dedi:

– İndi o kağızı imzala, altından isə bu günkü tarixi qoy...

– Nə deyirsən onu da eləyəcəm, – Seyidrza dedi, – amma sən buna sonra çox peşman olacaqsan. Çünki mənə şər atırlar. Bu Firuzun işidir. O burdaydı, şəhərdə... Mən hər şeyi bilirəm.

Yusif stolun üstünə əyilərək, imzalanmış kağızı dartıb Seyidrzanın əlindən aldı.

– İndi isə mənə beş yüz min manat lazımdı, – o, mümkün qədər zəhmli səslə dedi.

– Mənə ondan çox lazımdı, – Seyidrza istehzayla gülümsündü, – amma bu qədər pulu hardan tapaq? – O, əlini stolun üstündəki ağ çörək buxankasına uzatdı. – Bu çörəyə and olsun, mən bir qəpik də özümə artıq götürməmişəm.

Yusif duruşunu dəyişmədən qəfil, sağ əlinin ani bir hərəkətiylə tapançanı belindən çıxardı.

– Nəyə deyirsən and içim ki, – Seyidrza təkrar etdi, amma tapançanın lüləsini stolun üstündə görəndə valı dəyişdi:

– Mən burda pul saxlamıram. Axşam evə gəl.

– Səni gərək dərhal öldürəydim, – Yusif dedi, – mənsə hələ burda səninlə çənə döyürəm, – kabinet sahibinin gözünü bir an belə çəkmədiyi sağ əlinin şəhadət barmağı yumulmağa başladı.

– Mən razıyam, – Seyidrza tələm-tələsik dedi, – vurma, əl saxla. Nə qədər vaxtım var?

– İki saat.

Seyidrza yerindən qalxdı, seyfə yaxınlaşdı, onu açarla açıb ordan yoğun iplə sarınmış bir qəzet bükülüsü çıxardı.

– Burda üç yüz mindir, – o, qəzet bükülüsünü stolun üstünə qoyub dedi, – qalanı üçün gərək gedəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yusif Seyidrzanın dalınca qəbul otağına çıxdı.

– Mən yarım saatdan sonra qayıdacam, – Seyidrza katibəsinə dedi.

– Xudahafiz, –Yusif də katibə ilə vidalaşdı.

– Xudahafiz.

Onlar zavodun həyətindən, un kisəsi daşıyan yükboşaldanların yanından, sonra isə giriş qapısından, əli silahlı gözətçinin böyründən keçib getdilər.

– Seyfdə mənim də tapançam vardı, – Seyidrza küçədə dedi, – həyəcan siqnalını da işə salmaq olardı.

– Bəs niyə salmadın?

– Sənə yazığım gəldi.

– Özünə necə?

– Əlbəttə ki, özümə də. Amma mən bir təhər sudan quru çıxa bilərdim. Elə indi fikirləşib nəsə eləyə bilərəm. Hər tərəf adamla doludu. Odur, bax milisioner. Amma sənə pislik eləmək istəmirəm. Vicdan haqqı. Özüm onsuz da sənə pul verəcəydim. Nəyə deyirsən and içim.

– Sus, – Yusif dedi, – yoxsa bu saat hövsələm tükənəcək, heç nəyə baxmadan səni o dünyaya göndərəcəm...

Yolun qalan hissəsini dinməz-söyləməz getdilər. Fioletov klubuyla üzbəüz evə çatanda dayandılar.

– Burdan o yana mən tək gedəcəm, – Seyidrza dedi, – sən məni burda gözlə.

Yusif başını qaldırıb tərs-tərs onun üzünə baxdı.

– Yaxşı, yaxşı, – Seyidrza tələsik razılaşdı, – gəl bir yerdə gedək. Ancaq elə bilirdim, sənin üçün bu qədər elədiklərimdən sonra mənə azca da olsa etibarın olar. Axı mən sənə öz oğlum kimi münasibət bəsləyirəm. Bir də istəyirəm onu da biləsən ki, mən sənin atanı aldatmamışam. Onu məhkəmədə buraxmalıydılar. Sadəcə alınmadı – son anda hakimi dəyişdilər.

Onlar çoxlu pilləkənləri olan bir həyətə girdilər, onlardan biri ilə sıx sarmaşığa bürünmüş xırda bir balkona qalxdılar. Seyidrza qapını bir neçə dəfə taqqıldatdı; bu, şərti işarəydi – çünki zərbələr müxtəlif gücdə, müxtəlif tezlikdə vuruldu. Qapını xeyli cavan, qəşəng bir qız açdı, onun çənəsinin altında güclə seziləcək çapıq yeri vardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu gün nəysə çox tez gəlmisən, – o, mehribancasına gülümsəyərək Seyidrzaya dedi. – Salam.

– Təksən?

– Kimnən ola bilərəm ki?

– O aşağıdakından iki yüz min gətir.

Qız Yusifə qıyqacı nəzər saldı, amma heç nə demədən içəri keçdi.

– İstəyirsən, onu sənə bağışlayım? – Seyidrza soruşdu. – Konfet kimi qızdı... Pulu ehtiyatlı yerdə saxla, salıb itirərsən, – deyə o, Yusifin iş paltarının cibindən bayıra çıxmış qəzet bükülüsünü əliylə basıb cibin içərisinə saldı. – Bu pulla nə eləmək istəyirsən?

Yusif cavab vermədi, Seyidrza incidi.

– Qəribə oğlansan, – o, təəccüblə dedi, – mən bir yaxın adam bilib sənnən səmimi olmaq istəyirəm, sənsə mənə düşmən kimi baxırsan. Mən ki, sənə dedim: bu iş atanın başına təsadüfən gəldi. Onlar bütün müharibə boyu bu çörəyi daşımışdılar, hər şey normal gedirdi. Altı maşından yalnız biri ilişdi.

– Sən əclafın birisən, – Yusif dedi, – insanlar acından ölərkən çörəklə alver eləyirmişsən.

– Mən kimə satırdım? İnsanlara deyilmi?

– Kilosunu iki yüz manata?

– Kimin pulu vardı ona satırdım.

– Özün kimi əclaflara.

– Sən heç nə anlamırsan, – Seyidrza təəssüf hissiylə dedi, – birinin pulu var, birinin yoxdu. Həmişə belə olub, indi də belədi, bundan sonra da belə olacaq...

Pul dalınca göndərilən gözəl geri qayıtdı, yenə də Yusifə qıyqacı nəzər salıb, astadan Seyidrzanın qulağına nəsə pıçıldadı.

– Necə yəni açılmır? – O təəccübləndi.

– Bəlkə mənim gücüm çatmır.

Seyidrza qapıya tərəf bir addım atdı, sonra dərhal Yusifi xatırladı.

– Gəl içəri... – dar, alaqaranlıq dəhlizdən keçib, anbara oxşayan iri bir otağa girdilər – burda nə çatışmırdı ki: əsasən də müxtəlif qutular, sandıqçalar, iki ədəd şkaf. Bir divar boyu aralıq bir qədər boş idi: oraya bir qoşa çarpayı və onun yanında isə dəyirmi stol qoyulmuşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Görürsən, mən sənə necə etibar eləyirəm! – Seyidrza Yusifə dedi, – lap öz oğlum kimi, – və çömbəlib sandıqçalardan birinin önündə oturdu. – Açarı bura ver, – o, qıza dedi və kilidə sarı əyildi.

Bir qədər əlləşəndən sonra sandığın qapağını azca araladı, əlini onun içinə salıb, oraya baxmadan, kabinetdə Yusifə verdiyi qəzet bükülüsü kimi üstü eyni iplə sarınmış yeni bir qəzet bükülüsü çıxardı.

Seyidrza sandığını qapağın örtüb, stola yaxınlaşdı.

– Otur, – Yusifə təklif etdi.

– Heç nə olmaz, mən ayaq üstə duraram.

– Otur, otur, hələ bunları saymaq lazımdı. Əlimə yanlış paçka gəlib.

Seyidrza stolun arxasına keçib, əvvəlcə ipi, sonra isə qəzet bükülüsünü açdı, usta bir əl vərdişiylə ordakı pulları cəld saymağa başladı.

Yusif iyrənirmiş kimi təəccüblə Seyidrzanın əllərinə tamaşa edirdi; heç şübhəsiz ki, pul əsginazları ilə təmasda olmaq bu adama xüsusi bir fiziki ləzzət verirdi. İki yüz mini sayıb qurtardıqdan sonra o, qızdan qəzet gətirməyi xahiş etdi; qız qəzet gətirənəcən pulun qalan (daha çox) hissəsini səliqəylə əvvəlki qəzetə büküb üstünü iplə sarıdı.

Qız qəzetlə birlikdə ip də gətirdi. Seyidrza Yusif üçün nəzərdə tutduğu pulu da səliqəylə dəstələyib qəzetə bükdü, amma bu pulu Yusifə verməmişdən əvvəl bir daha onu öz səmimiyyətinə inandırmağa çalışdı.

– Mən qəsdən səni bura gətirdim ki, – o, pul bükülüsünü əlində tutaraq dedi, – mənim sənə tam etibar etdiyimə əmin olasan. Pul nədi? Əl çirki... Bu gün var, sabah yoxdu. Adama nə qalır? Bircə şey – sədaqət! İnsanlar bir-birlərinə sədaqətli olmalıdırlar. Bax bu mənə qarşı çox sədaqətlidir, – qızı göstərdi, – mənim üçün canından keçər. Keçərsənmi? – o soruşdu.

– Əlbəttə, – qız hazırmış kimi cavab verdi.

– Görürsən, – Seyidrza məmnun-məmnun gülümsündü. – Amma, gör mənim neçə yaşım var! Məhəbbət də pul kimidi – bu gün var, sabah yoxdu. Sədaqət isə həmişə qalır. Mən ona nə desəm onu da eləyir. Bilirsən nə gözəl oynayır?

– Mən getməliyəm, – Yusif dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Beş dəqiqə gec getsən dünya dağılmaz, – Seyidrza etiraz etdi. – Mən səndən ötrü bütün işimi atıb gəlmişəm, sənsə beş dəqiqəni mənə sərf etmək istəmirsən. İndi elə bir ləzzət alacaqsan ki, ömrün boyu unuda bilməyəcəksən, – o, başı ilə qıza işarə elədi.

Yusif qalxıb getməyə hazırlaşırdı, amma birdən qızın soyunmağa başladığını görüb heyrətə gəldi; daha doğrusu qız bunu bir göz qırpımında elədi –bircə hərəkətlə ipək donunu dartıb başından çıxardı və tamam çılın-çılpaq qaldı.

Yusif yerindəcə dondu, boğazı qurudu, qıçlarında əcaib bir zəiflik hiss etdi, indi istəsəydi də yerindən qalxa bilməzdi.

Seyidrza stola çırtma vurub ağır bir hava çalmağa və eyni zamanda cır, amma gözəl səslə qəmli bir mahnı oxumağa başladı – mahnıda ana həyatdan çox cavan, nakam köçmüş oğluna ağı deyirdi.

Seyidrzanın ürəkdən oxuduğu bu mahnının taktı altında qız yanbızlarını, döşlərini oynada-oynada otaq boyu quş kimi süzürdü...

Bunun nə qədər davam etdiyini Yusif anışdıra bilmədi, çünki reallıq hissini itirmişdi – ömründə ilk dəfəydi ki, çılpaq qadın bədəni görürdü.

– Hə, necədi? – Seyidrza oxumağını bitirib ondan soruşdu; donuyla üstünü örtməyə çalışan qız dar dəhlizə qaçdı.

Yusif yerindən qalxdı.

– Pulun olmağı hələ az şeydi, – Seyidrza dedi, – onu necə xərcləməyi də bacarmaq lazımdı. Ehtiyatlı ol. Çox adamlar tanıyıram ki, pul onların sonda axırına çıxıb.

Qız geyinmiş halda otağa qayıtdı.

– Bu pullarla neyləmək istəyirsən? – Seyidrza axır ki, pulu Yusifə uzadıb sualını təkrar etdi. – Mən səndən atan kimi soruşuram.

Yusif ona heç bir cavab vermədən dəhlizə, ordan da qapıya doğru yollandı, artıq sarmaşıqlı balkona çıxanda Seyidrzanın arxadan qeyzli səsini eşitdi:

– Gedəndə sağollaşmaq lazımdı!...

Düz saat doqquzda Yusif "Qızıl şəfəq" kinoteatrının yanındakı kafeyə yaxınlaşdı. Bu çox da isti olmayan yay axşamında küçə adamla doluydu, onların arasında hərbiçilər xeyli çox olduğundan Yusif Viktoru dərhal görə bilmədi.

MDB jurnalistləri nümayəndə heyətinin tərkibində Bakıya gəlmişdim. Ermənistanı bu tərkibdə qətiyyətli cavan bir xanım təmsil



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edirdi və ictimai münaqişələrə çox meyilli olduğunu bildiyi üçün heyət rəhbəri onu Azərbaycan Prezidenti ilə qarşıdakı görüşdə çıxış etməkdən çəkindirməyə çalışdı. Ancaq nümayəndə heyəti rəhbərinin gətirdiyi dəlillər ermənistanlı həmkarımıza heç bir təsir göstərmədi. Belə olan halda qərara alındı ki, onu qəbula götürməsinlər, həmkarımız bundan incik qalmasın deyə məndən də bu görüşdə iştirak etməməyimi xahiş etdilər. Bu müdrik gediş başqa bir problemin də həllinə kömək elədi: qəbul edən tərəf nümayəndə heyətinin siyahısında azərbaycanlı familiyasını görüb, mənim kim olduğumu, nə üçün Moskva jurnalistlər birliyini təmsil etdiyimi, milli müxalifətlə və yaxud başqa bir düşmən qüvvə ilə bağlı olub-olmadığımı uzun-uzadı araşdırmışdı. Prezidentlə görüşdə mənim də iştirak etməyəcəyim məlum olandan sonra bu şübhələr də öz əhəmiyyətini tamamilə itirdi. Beləliklə, mən də, ermənistanlı həmkarım da bir neçə saat asudə vaxt qazanmış olduq. Həmkarım məndən onu erməni qəbiristanlığına aparmağımı xahiş etdi, orda onun hansısa uzaq qohumları dəfn edilmişdi, mən isə günün yarısını şəhər zooparkında keçirdim – Cavad dayımla Viktor buradakı hələ sovet dövründən qalma, vəhşi heyvan qəfəsləri arasında tikilmiş kababxananın daimi müştərilərindən idilər.

Axşama yaxın valideynlərimi görməyə getdik. (Onlar mənim doğulub yaşadığım elə həmin kommunal binada ikiotaqlı mənzildə yaşayırdılar. Ikinci otağı və ümumi dəhlizin künc tərəfində tikilmiş tualeti mən ailəmlə birlikdə Moskvaya köçəndən sonra almışdılar).

Yetmiş beş yaşını haqlamasına baxmayaraq atam hələ də böyük məmnuniyyətlə içə bilirdi, buna görə də mənim o günü kiminlə və harada keçirdiyimi biləndə bir balaca incidi. Əlbəttə, əvvəllər hərdənbir onun yanında bir iki qədəh içdiyim olmuşdu, amma onun gözü önündə, zooparkda elədiyimiz kimi heç cür "küpünə girə" bilməzdim – utanardım.

Köhnə, cır-cır cırıldayan balkonda əyləşib, – məhəccərdən əyilib baxanda burdan dənizi görmək olurdu, – çay için-içə keçmişdən-gələcəkdən söhbət edirdik. Nəhayət, söhbətimiz hərlənib-fırlanıb başlıca məsələnin – atamın Yusifin oğluna göndərdiyi məktubun üzərinə çıxdı.

Dilim həmişəkindən daha çox açıldığı üçün (içdiyim arağın təsirindən) arvadımın təhər-töhmətini xatırlatdım, onun bu məktubda atası Seyidrzanın, hamıya yaxşı məlum olduğu kimi, vaxtilə Yusifə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

böyük yaxşılıqlar elədiyinin qeyd olunmamasından çox narazı qaldığını bildirdim.

Bütün günümü zoopark ərazisində keçirmiş olmasaydım, əlbəttə ki, atamın yanında onun zəndeyi-zəhləsi getdiyi arvadımın adını belə çəkməyə cürət etməzdim. Ancaq hadisələrin dərin daxili qarşılıqlı əlaqəsi növbəti dəfə öz təsirini göstərmişdi: erməni həmkarımın münaqişəli xasiyyəti ucbatından mən günümü prezident sarayı əvəzinə atamın dostları və heyvanlar arasında keçirmişdim; istədiyimdən az, amma içə bildiyimdən çox içdiyim üçün atamın yanında arvadımın onun məktubu barədə fikrini dilə gətirməyə cəsarət eləmişdim. Bu da öz növbəsində Viktorla Cavad dayımın dilinin açılmasına gətirib çıxarmışdı. Və beləliklə, mən axır ki, rəhmətlik qayınatam Seyidrzanın Yusifin taleyində oynadığı rolun həqiqi tarixçəsini, hisslərimə toxunmamaq üçün uzun illər məndən gizlətdikləri tarixçəni öyrənə bilmişdim.

Moskvaya qayıtdıqdan sonra, Bakıda öyrəndiklərimi arvadıma da danışdım, hətta deyəsən, danışarkən ondan nəsə hayıf alırmış kimi gizlincə içimdə buna bir az sevindim də. Mənim üçün nə qədər təəccüblü görünsə də, atasının Yusifə nəinki yaxşılıq etmədiyi, hətta onun heç bir günahı olmayan atasını həbsə saldırdığı xəbəri arvadımın halına heç bir təsir göstərmədi. Bütün deyilənləri bədxah adamların bəd niyyətli şər və böhtanı kimi xarakterizə edərək bildirdi ki, hətta faktların bu cür qərəzliklə saxtalaşdırılması halında belə Yusif öz həyatının ən yaxşı anları üçün onun atasına borcludur, çünki istənilən halda Kislovodskda aldığı evin pulunu ona Seyidrza verib, bu da Gülyanı Bakıdan getməyə razı salmaqda Yusifə kömək edib və nəticədə onun oğlu bu işıqlı dünyaya gələ bilib.

Arvadımın bu dəlillərini dinləyərkən, öz övladlarımın damarlarında Seyidrzanın da qanının axdığı, bu əclafın qızının isə onlara körpəlikdə süd əmizdirdiyi və indi də tərbiyələri ilə məşğul olduğu barədə düşünüb dilxor-dilxor qəmli düşüncələrə daldım....

Viktor kafenin giriş qapısında əsəbi halda o baş-bu başa gəzişirdi.

– Cavad Nazanın dırnaqlarını kəsib, – o, çamadanı Yusifə verərək dedi. – İndi də evin qabağında Eldarın haçan çölə çıxacağını gözləyir.

Alçaq tavanlı yarıqaranlıq salona girdilər, uzaq küncdə stola əyləşdilər.

– Cavad tamam ağlını itirib, –Yusif dedi. – Bəs Eldardan nə istəyir?

– Eldar onu vurub. Evə gəlib, Nazanı nə hala saldığını görüb və hamının gözü önündə ona bir şillə ilişdirib.

(Atam həyatının bu epizodunu xatırlamağı çox xoşlamırdı, amma hiss edirdin ki, hətta qocalandan sonra belə o vaxt içindəki qorxunu dəf edib öz kişi ləyaqətini müdafiə edə bildiyinə görə özüylə çox qürur duyur).

– Az qalmışdı onu gülləylə vursun. Biz olmasaydıq, hökmən vuracaqdı. Onu da başa düşmək olar.

– Sən belə hesab eləyirsən?

– Əlbəttə. Qərbdə belə şeylərəi çox görmüşəm...

Yusif Viktorla mübahisəyə girişmək istəmədi; çamadanın qapağını qaldırıb, Seyidrzadan aldığı iki qəzet bükülüsündən birini ordan çıxardı, onu açıb içindəki pulları iki yerə böldü.

– Bunu Eldara verərsən, – Yusif paçkanın yarısını Viktora uzatdı. – Bəlkə də siz Cavadı sakitləşdirənəcən o, çıxıb bir yerə getsə yaxşıdır? ...

Viktor heyrətlə pullara baxırdı.

– Bu anam üçündü, qoy səndə qalsın, – Yusif qalan pulu da yarıbayarı bölüb sözünə davam etdi, – arabir az-az ona verərsən. Guya mən ona göndərmişəm.

– Bəs sən özün hara gedirsən?

– Xəbər göndərəcəm. Al, bu da sənin, – o, sonuncu əlli mini Viktora tərəf itələdi.

– Mənə nə üçün?

– İlk vaxtlar, iş tapanacan dolana bilmək üçün. Axı sən də mənim kimi müharibədən qənimətsiz qayıtmısan.

– Qənimət hardandır... – Viktor əlini yellətdi. – Amma mənə pul lazım deyil. Özümdə var.

– Götür, səndən xahiş edirəm.

– Bu qədər mənim nəyimə gərəkdi?

– Nə qədər istəyirsən götür.

– Mənim özümün pulum var.

– Uşaqlarnan xərcləyərsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı. Amma bir az. – Viktor önünə qoyulmuş paçkadan bir neçə əsginaz götürdü.

– Sən məni görməmisən, – Yusif dedi və çamadanın ağzını bağladı; yerlərindən qalxdılar. – Eldar bilir mən harda olacam. Əgər Cavadla aranı düzəldə bilməsə qoy mənim yanıma gəlsin. İstəyirsən, sən də gəl. Hamımıza yer çatar.

– Sən də birdəfəlik itib-batma, – Viktor onu qucaqladı, – hər yer yaxşıdı, amma öz evin onların hamısından yaxşıdı.

– Yaxşı, hələlik.

Yusif yavaş-yavaş, tələsmədən sıx kütlənin arasından keçib uzaqlaşan Viktorun arxasınca baxdı; bu görüşün onlar üçün sonuncu görüş olduğunu o hələ bilmirdi.

Vaqonun giriş qapısındakı adamalr mötəbər görkəmdəydilər – yumşaq vaqonda iki yerli kupedə gedənlər elə belə də olmalıydılar. Yola çıxanlarla onları yola salanlar yavaş-yavaş, tələsmədən vidalaşırdılar. Yusif bir kənara çəkilib siqaret yandırdı. Eybəcər, çətin anlaşılan qadın səsi qatarın yola düşdüyünü elan edəndə o, biletin birini bələdçiyə göstərib, ikincisini kənara tulladı – yüngül meh axınına düşən kağız bilet perronun üstündən uçub düz qatarın altına düşdü.

– Sən neynəyirsən? – bələdçi qadın hirsləndi. – Niyə onu tullayırsan?

– Artıqdır, – Yusif bir-birinə möhkəm sıxılmış dişlərinin arasından zorla mızıldanıb vaqona qalxdı.

Öz kupesini tapıb, çamadanını bahalı divana oxşayan yatağın üstünə atdı, yaşıl məxmər üzlü kresloya çökdü. Gözlərini yumub, başını stolda əllərinin üstünə qoydu. Qatar tərpəndi, yavaş-yavaş sürət götürməyə başladı, relslərin bir-birinə birləşdiyi calaqlarda vaqonləngər vurduqca, Yusifin başı da o ahənglə yellənirdi. Bələdçi qadın içəri girdi, ancaq onu yatmış zənn edib kupedən çıxdı.

Qatar birinci stansiyasında – Biləcəridə dayananda Yusif pozasını dəişmədən əvvəlki kimi oturmaqda davam edirdi. Birdən bələdçi qadının səsi eşidildi.

– O bileti tulladı, sizə deyirəm axı, öz gözlərimlə gördüm. Mən indi məlumat verərəm ki, bir yer boşdu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç bir məlumat vermək lazım deyil, – deyə bələdçiyə cavab verən səs Yusifi, başını stoldan qaldırmağa məcbur etdi, – o yer artıq tutulub.

Kupenin qapısı şəstlə açıldı və Gülya, sanki çərçivəyə salınmış şəkil kimi, qapıda peyda oldu. Onun əlində yalnız məktəbli portfelinə bənzəyən bir çanta vardı.

– Sən bileti niyə tullamısan? – o, hökmlə soruşdu. – Bəs mənə niyə o cür əmrlər verirdin: bunu elə eləyərsən, onu belə eləyərsən. – Qapını örtüb divanda əyləşdi. – Amma mən hər şeyi sən dediyinin əksinə elədim, valideynlərimlə vidalaşdım, ərimə də dedim ki, onunla bir yerdə yaşamayacam, çünki onu sevmirəm. Bircə paltar-pultarımı götürmədim. Sən indi gərək mənim üçün hər şeyin təzəsin alasan, əgər yalan demirdinsə.

– Ərin nə dedi? – Nəhayət Yusif dilləndi.

– Dedi ki, boş-boş danışma. O heç mənə inanmadı da.

– Bəs evdən necə çıxa bildin?

– Qapını çırpıb çıxdım. Amma hər ehtimala qarşı Biləcəriyə gəldim. Vağzal tez ağıla gələn yerdi. Nədi, sən elə beləcə də oturub qalassan?

Yusif özünü itirmiş halda ayağa qalxdı.

– Yaxın gəl, – Gülya dedi. – Amma əvvəlcə qapını bağla.

Yusif qapını bağlayarkən xeyli əlləşdi; nəhayət gəlib Gülyanın yanında oturdu.

– Qucaqla məni, – Gülya xahiş etdi.

Yusif onu sinəsinə sıxdı.

– Bizim halımız necə olacaq? – Gülya sakitcə soruşdu, – mən elə qorxuram ki.

– Hər şey yaxşı olacaq, – Yusif əminliklə dedi, – bir halda ki, bir yerdəyik, deməli hər şey yaxşı olacaq.

Gecə Yusif, Gülyanı öz çığırtıları ilə qorxutmamaq üçün yuxuya getməməyə çalışdı. Yusifin oxşamalarından sonra yorulub əldən düşən Gülya başını onun dizləri üstünə qoyub yuxuya getdi, Yusif özü isə yerindən tərpənmədən səhərə kimi eləcə oturulu qaldı. Dəsmala bükülmüş parabellum stolun üstündəydi.

Onlar vaqondan hamıdan sonra çıxdılar. Vağzalın önündəki meydanda, üç gün bundan əvvəl olduğu kimi, kirayə yer təklif edən qadınlar və qocalar toplaşmışdı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən doğrudanmı ev almısan? – Gülya soruşdu.
– Hə, – Yusif brezentli at arabasına sarı getdi; başı şlyapalı bir kişi ona qutuda nəsə yükləyirdi. Yusif ondan təsadüfən Günəşli küçəsi tərəfə gedib-getmədiyini soruşdu.
– Sənə nə? – kişi çəp-çəp onlara baxdı.
– Yolüstü bizi də ora atardın.
– Nə qədər verəcəksən?
– Nə qədər istəsən.
– Oturun.
Atlanıb arabaya mindilər və at arabası onları Kislovodskda gəzdirməyə başladı.
– Biz park tərəfə gedirik, – Gülya dedi.
– Ev ordan uzaq deyil.
– Doğrudan? – Gülya sevindi.
– "Hava məbədi" də yaxındı. Yadındadı, sən mənə ondan danışmışdın?
– Əlbəttə, yadımdadı. Axı sən bu pulu hardan tapdın?
– Sonra deyərəm.
– Barı çoxdumu?
– Çoxdu.
– Kimisə qarət eləmisən? – Cavab gözləmədən başını buladı, – yox, vallah mən dəliyəm! Hara gedirəm? Kimə qoşulmuşam?
– Təəssüf eləyirsən? – Yusif dedi.
– Əlbəttə, təəssüf eləyirəm. Bilmirəm səndə nə tapmışam. Yaraşıqlı deyilsən, əməlli-başlı savadın da yoxdu, xuliqanın birisən. İndi də məlum olur ki, ya oğru, ya da quldursan. Bu tapança nəyinə lazımdı?
– Hər ehtimala qarşı.
– Burda yerləşib rahatlaşan kimi onu rədd eləyərsən.
– Oldu.
– Bir də səndən belə sözlər eşitməyim: öldürəcəm, kəsəcəm. Bildin! Müharibə qurtardı! Bakını unut getsin! Yeni bir həyata başlayırıq. Razılaşdıq?
– Razılaşdıq.
– Pyatiqorskda xarici dilər institutu var, qiyabi ora düzələrik. Bir yerdə oxuyarıq...
Araba Yusiflə Gülyanı həyət qapısının ağzında düşürüb, qənbər döşənmiş küçəylə yoluna davam etdi; Yusifin səxavətindən xeyli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məmnun qalan arabaçı, gur səslə atı hayladı, onun fikrincə yazıq at yoxuşu kifayət qədər həvəslə qalxmırdı.

Ev sahibəsi gavalı gölgəsinə bürünmüş cığırda onları qarşıladı.

– Baxın, sizə söz verdiyim kimi biz gəldik, – Yusif ona dedi. – Bu da mənin arvadımdır.

– Xoş gəldiniz. Bəs yoldaşınız hanı?

– O sonra gələcək.

Ev sahibəsi Gülyadan çantaların birini alıb götürdü və onları evə gətirdi.

– İndi mən sizə hər şeyi göstərərəm, – ev sahibəsi üzünü Gülyaya tutub dedi, – iki otaq aşağıda, ikisi də yuxarıdadır, mətbəx, hamam həyətdədir, tualet də orda.

Yusif çamadanı açdı.

– Bu da sizin pulunuz.

– Onu mənə verməli deyilsiniz, – ev sahibəsi qorxmuş halda əllərini yellətdi, – pul barədə Ediklə danışın.

– O sizin nəyinizdi? – Yusif maraqlandı.

– Oğlumun yoldaşıdı. Siz narahat olmayın, bütün sənədləri dərhal qaydasına salacaq, burda onu hamı tanıyır.

– Mən heç nədən narahat deyiləm.

Onlar yataq otağına keçdilər, pəncərənin iç qapaqları bağlı olduğu üçün bura bir az qaranlıqdı.

– Rahatlana bilərsiniz, – ev sahibəsi dedi. – Mən rəfiqəmgildə gecələyəcəm. Şkafda təmiz mələfə var.

– Bizə bəzi şeylər almaq lazımdı, – Gülya, ev sahibəsi çıxıb gedəndən sonra Yusifə dedi.

– Bəlkə əvvəlcə bir səhər naharı eləyək?

Onlar balla çay içdilər, yağ-pendirlə adama bir buterbrod yeyib mağazaya yollandılar. Kislovodskda gəzmək Gülyaya ləzzət eləyirdi: arabir uşaq vaxtı valideynləri ilə birlikdə burda olduğu yerləri xatırlayırdı.

– Hökmən Şüşə şır-şırda şəkil çəkdirərik, – o, Yusifə dedi. – Məndə bir şəkil var: anam, bacım bir də mən, orda çəkdirmişik. Müharibədən azca qabaq...

– Neçə yaşındaydın?

– Yəqin ki, on beş. Ya da on altı... – O, paltarı əyninə tutub yoxlayırdı, söhbət mağazada gedirdi. – Məncə pis deyil. Sən necə bilirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənim xoşuma gəlir.

O paltarı və Gülyanın fikrincə, yeni yerdə yaşamaq üçün zəruri olan bir çox şeyləri alıb evə qayıtdılar; Yusif ağzınacan təpili iki iri çantanın hərəsini bir əlinə almışdı.

Gülya bir dəfə də otaqlara baş çəkdi, bağçaya açılan pəncərəyə yaxınlaşdı.

– İnana bilmirəm, – o, üzünü divanda yayxanıb oturmuş Yusifə tərəf çevirdi. – Doğrudanmı bu bizim evimizdir. Doğrudanmı biz bu evdə tək yaşayacayıq. Heç kim bizə maneçilik törətməyəcək.

– Qoy bir sınasınlar, baxsınlar nə olur, – Yusif gülümsündü.

– Odey, gəlirlər, – Gülya dedi.

– Kimlər?

– Ev sahibəsi ilə bir kişi.

– Bu Edikdi, – Yusif pəncərəyə yaxınlaşdı. – Fotoqraf..

Edik içəri girən kimi cibindən pasportu çıxardı və sualedici nəzərlərlə Yusifə baxdı.

Yusif başı ilə pulları göstərdi – stolun üstündəydi, elə həmin qəzetə bükülüydü.

– Burda iki yüz mindi, danışdığımız kimi.

Edik pulu götürdü, ağırlığını yoxlayırmış kimi bir müddət əlində saxladı, sonra onu ev sahibəsinə uzatdı.

– Klava xala, özün say.

Qadın qorxu içərisində bir addım geri çəkildi.

– Sən nə deyirsən! Sən nə deyirsən! Bu qədər pul! Özün say.

– Yaxşı, – deyə Edik pulu yerinə qoydu, – sonra bir yerdə sayarıq. Sizi ürəkdən təbrik edirəm. Yaxşı evdi. Sağlığınıza qismət. – Edik təqdiredici bir maraqla Gülyanı süzdü. – Sənədləşdirməni öz boynuma götürürəm. Beş gündən sonra evin kupçasını alacaqsınız. Amma belə bir hadisəni qeyd etmək də lazımdı. Təzə evə köçmüsünüz axı.

– Bu mümkün olan şeydir, – Klava xala cəld əl-ayağa düşdü, – bu saat sizə bir yaxşı süfrə açaram.

– Bəlkə şəhərdə bir yerə gedək?

Yusif Gülyanın üzünə baxdı, buna özü qərar verməsini istədi.

– Sən axı deyəsən, "Hava məbədi"ini görmək istəyirdin, – Gülya tərəddüdlə dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əla, – Edik əlini əlinə sürtdü. – Özü də indi ora yeni orkestr gəlib. Klava xala, dur geyin.

– Mən ömrümdə orda olmamışam, – ev sahibəsi qətiyyətlə bundan boyun qaçırdı.

Edik saatına baxdı və pulu stolun üstündən götürdü.

– Siz hələlik dincəlin, saat altıya hazır olarsınız. – Edik, Klava xalanı önə buraxıb otaqdan çıxdı.

– Bəlkə heç getməyək? Bu "Hava məbədi" bizim nəyimizə lazımdı? – Onlar evdə tək qalanda Gülya dedi, – evdə rahat otarardıq.

– Yaxşı deyil,– Yusif etiraz etdi, – söz danışıqdan keçər, artıq söz vermişik.

Gülya dərindən köks ötürüb divana baxdı.

– Dincəlsəydik pis olmazdı. Sən heç yatmamısan.

– Hardan bilirsən?

– Mən də yatmamışdım.

Yusif gülümsündü.

– Doğrudan yatmamışdım. Bir az mürgüyə gedən kimi dərhal ayılırdım.

– Nə üçün?

– Xoşbəxtlikdən. – Gülya onu qucaqladı. – Bilirsən Cavad yazıq Nazaya neynəyib?

– Bilirəm.

– Heyvandı elə bil. İndi necə olacaq? Eldar üçün qorxuram. Nəyə lazım idi ona əl qaldırmaq? Nə mənası var idi bunun?

– Bəs neyləməliydi? Durub baxmalıydı?

– Doğrudan da çıxılmaz vəziyyətdi, – Gulya onunla razılaşdı. – Sən bir Nazanın halını görəydin. Dırnağının hamısın lap dibindən, mayasından kəsib atmışdı, heyvanın biri heyvan... özü də öz cib bıçağıyla...

– Yazıq Eldar.

– Əgər sən orda olsaydın, – Gulya Yusifə qısıldı, – hökmən ona qahmar çıxardın. Elə deyil?

– Başqa cür hərəkət edə bilməzdim, – sanki özü-özünü inandırmağa çalışaraq Yusif dedi, – belə bir şeyə dözməkdənsə ölmək yaxşıdı...

Gülya ona bir az da möhkəm sıxıldı.

– De görüm, – sifətini onun sinəsində gizlədərək dedi, – sən məni məzəmmət eləməyəcəksən ki? Sonralar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəyə görə?

– Ona görə ki, ərdə ola-ola başqasına qoşulub qaçmışam...

– Sən ki, bunu mənə görə eləmisən.

– Hər halda. Mən dəqiq bilirəm: bu, həmişə bizim üstümüzdə ağır bir yük olacaq. Sən daim özünə dərd eləyəcəksən ki, mənim birinci ərim başqası olub.

– Heç vaxt.

– İndi sənə elə gəlir.

– Nəyə desən and içərəm.

– And içib eləmə... Mən özüm də eləyəm. Elə bilirsən, mən özümü düz hərəkət etmiş hesab eləyirəm? Əlbəttə, yox. Abırlı qadın belə hərəkət eləməz.

– Sən mənim üçün ən abırlı qadınsan.

– Mən bilirəm ki, sənin üçün həyatda ən dəyərli şey ar-namus, ləyaqət, abır-həyadır.

– Nə olsun? – Yusif onun nəyə işarə vurduğunu anlaya bilmədi.

– Sən özün indi dedin ki, belə yaşamaqdansa ölmək yaxşıdır.

– Mən bunu tamam başqa məqsədlə dedim: həyatda elə anlar var ki, kişi həyatını riskə atmış olsa belə öz ləyaqətini qorumalıdır. Eldar kimi.

– Qadınlarda da o cürdür. Ancaq siz kişilər üçün bu, özünü kişi kimi aparmaqdısa, biz qadınlar üçün abır-həyalı olmaqdır.

– Bunu düz deyirsən, – Yusif onunla razılaşdı.

– Görürsən, yavaş-yavaş sən də mən deyənə gəlirsən, – Gülya güldü. – Bəs sonrası necə olacaq? Başqaları bizim haqqımızda danışmağa başlayanda?

– Nə danışanda? – Yusif çaşqın halda dedi.

– Sənin özgə arvadı ilə, ərindən boşanmamış bir qadınla yaşadığından danışanda.

– Kim danışacaq bunu?

– Ətrafımızdakıların hamısı. Camaat həmişə hər şeydən xəbərdar olur. Sən elə bilirsən ki, Kislovodsk dünyanın o biri başıdı? Gələn yay Bakıdan burda nə qədər adam olacaq...

– Sən ki, ondan boşanacaqsan...

– Əlbəttə boşanacam. Ancaq bu o qədər də sadə bir iş deyil. Bakıya getməlisən. Məhkəmədə iştirak etməlisən. Orda isə mən, dəqiq bilirəm ki, hamı üçün abırsızın, həyasızın biri olacam... Mən elə belə də varam. – Gülya Yusifi öpdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sarsaq-sarsaq danışma, – Yusif hirslənməyə başladı.

– Bəli, bəli, abırsızam, həyasızam, – Gülya sanki Yusifi cırnadırmış kimi dedi və onu bir də öpdü, – sən özün bunu lap yaxşı bilirsən.

– Mən heç nə bilmirəm.

– Bilirsən! – Gülya Yusifi öpməyə davam etdi. – Öz istəyinə çatdın... Mənim həyatımı bərbad elədin, amma sonra atıb gedəcəksən. Abırlı, həyalı bir qızla evlənəcəksən.

– Heç vaxt belə şey olmayacaq.

– Olacaq.

– Sənə deyirəm olmayacaq, özüm ki, bilirəm sən necə qadınsan, elə bu mənə kifayətdi.

– Sən məni bu qədər çox sevirsən? – Gülya gözünü qaldırıb Yusifə baxdı, bu gözlərdəki titrək qaranlıqda ümidlə özünəistehza bir-birinə qarışmışdı.

– Hə.

– Sən məni atmayacaqsan ki?

– Yox.

– Heç vaxt?

– Heç vaxt.

– Və biz uzun, uzun illər boyu bu evdə bir yerdə yaşayacayıq?

– Hə.

– Çoxlu uşaqlarımız olacaq?

– On dənə.

– Birdən hamısı qız oldu?

– Olsun, qız da pis deyil.

– Amma oğlan daha yaxşıdı, eləmi?

– Yaxşıdı.

– Onda biz də oğlan doğarıq. – Gülya yenə onu öpdü.

– Yaxşısı budu, mən pəncərəni bağlayım. – Yusif dedi.

– Bağla, – Gülya razılaşdı.

Yusif pəncərənin iç qapaqlarını örtüb Gülyaya yaxınlaşdı. Və gözləri otaqda hökm sürən yarıqaranlığa alışanacan, onların bədənləri bir-birinə qovuşub bütövləşən iki kölgəyə bənzədi.

“Hava məbədi”ndə rəqs musiqisi gurlayırdı, müharibədən bezib yorulmuş xalq ürəkdən şənlənirdi. Səhnədə əyləşmiş estrada



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fokstrotla ləzginkanı bir-birinə qarışdırmışdı. Müsafirlər öz masalarını tərk edib ortalığa çıxır, bir-birilə mehribancasına rəqs edirdilər.

Edik və onun sarışın nişanlısı Zina bir rəqsi belə buraxmırdılar. Ləzginka oynamağı Edikdən öyrənən Zina bu rəqsin oynaq sədaları altında heç də pis süzmürdü.

Yusiflə Gülya rəqs edənlərə məmnunluqla tamaşa edirdilər. Edik arabir onları da rəqsə qaldırmağa çalışırdı, amma onun bu şən əhval-ruhiyyəsi birdən avazıdı, rəqsə ara verdi. Yusif istər-istəməz bunu bir neçə oğlanın salonda peyda olması ilə əlaqələndirdi, onlar rəqs edənlərə buranın ağası kimi göz gəzdirəndən sonra keçib estradanın böyründə özləri üçün açılmış ayrıca masada əyləşdilər.

– Bilirsən nə demək istəyirəm, bəlkə burdan gedək? – Birdən Edik təklif etdi.

Yusif Gülyanın üzünə baxdı. O, başı ilə buna etiraz etmədiyini bildirdi.

– Getdik, – Yusif dedi.

– Son sağlığı demək istəyirəm, – Edik əlindəki qədəhi qaldırdı, – mən bu yeni evinizdə sizə, – o, əlindəki qədəhin hərəkətiylə Yusiflə Gülyanı birləşdirdi, – uzun-uzun illər bir yerdə, böyük xoşbəxtlik içərisində yaşamağı arzulayıram.

– Mən də ürəkdən bu sağlığa qoşuluram, – Zina öz qədəhini qaldırıb Gülya ilə toqquşdurdu. – Xoşbəxt olasınız.

Elə bu vaxt ayağında cır-cır cırıldayan ayaqqabı, irisifət bir oğlan onların stoluna yaxınlaşıb Edikin qulağına nəsə dedi. O, dərhal yerindən sıçrayıb gələn oğlanın dalınca getdi.

– Mən bir dəqiqəliyinə gəlirəm, – deyə Edik gedərkən üzr istədi və həqiqətən də tez qayıtdı: o, bayaq gələn kampaniyanın oturduğu stola yaxınlaşdı, ehtiramla baş əyərək, restoran çilçırağının işığında qızıl dişləri par-par parıldayan otuz beş yaşlarında qarabəniz bir kişiylə nəsə danışıb geri döndü...

– Yenə də başladı, – Zina narazı-narazı dedi. – Mən bilmirəm onlar bundan nə istəyirlər?

– Axı kimdi onlar? – Gülya soruşdu.

– Rostov qoçularıdı... Burda ağalıq edirlər...

Edik həyəcandan ağarmış bənizində saxta bir təbəssüm stola yaxınlaşdı.

– Bəlkə bir az da oturaq? – o, Yusifə tərəf baxmadan dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilmirəm, – Yusif Gülyanın üzünə baxdı; o isə tərəddüd içərisində çiyinlərini çəkdi.

– O yenə səndən nə istəyir? – Zina Edikdən soruşdu.

– Yarımca saat da oturub gedək, – Edik Zinanın sualına cavab vermədi, təlaş içərisində, indicə yanından ayrıldığı masaya tərəf göz atdı. Yusifə elə gəldi ki, qızıldiş kişinin yanındakılar da onlara baxırlar.

– Bax, sənə xəbərdarlıq eləyirəm, – Zina alnına düşən kəklini əsəbi halda yana atıb Edikə dedi, – bir də o hoqqalar olmasın... keçənsəfərki kimi...

– Sən bir sus görüm, – Edik xeyli kobudcasına onun sözünü kəsdi.

Onun bu ahəngi Yusifin xoşuna gəlmədi.

– Mən sənə bəri başdan deyirəm, – Zina sözünə davam etdi, – bir də belə şeylər olmayacaq... Mən sənin üçün nəsə....

– Bağışla, – Edik Yusifə tərəf döndü, – kefimizi pozdular. İndi keçib gedər. Bəlkə siz bir rəqs eləyəsiniz? – o, baxışlarını Gülyaya sarı çevirdi.

Orkestr çalmağa başladı. Qızıldiş yerindən qalxdı, köynəyinin ətəyini düzəldib, tələsmədən, asta-asta onların stoluna tərəf gəldi.

– İcazə verin xanımızı rəqsə dəvət edim? – O, Yusifə gülümsündü və Gülyaya tərəf əyildi.

– İcazə vermirəm, – Yusif astadan dedi.

Qızıldiş narazı-narazı Edikin üzünə baxdı, o, sanki nəyisə izah eləmək üçün yerindən azca dikəldi, amma deməyə söz tapa bilmədi.

– Niyə ki? – Qızıldiş Yusifdən soruşdu. – Özün rəqs etmirsən, qoy başqaları şənlənsinlər. Gedəkmi? – O, əlini Gülyanın çiyninə qoydu.

– Çək əlini, – Yusif dedi; Gülya sərt bir hərəkətlə çiynindəki əli geri itələdi.

– Ay səni Edik, – qızıldiş ittihamedici tərzdə başını buladı, – sən niyə bizi pis vəziyyətdə qoyursan? – Sonra o, elə həmin narazı tərzdə də Yusifin üzünə baxdı. – Sən hardan belə xoruz kimi pırtlayıb çıxmısan?

– Get burdan, – Yusif xeyli nəzakətlə dedi.

– Bizi qovursan deməli? – qızıldiş hırıldadı, – getməsəm nə edəcəksən?

– Bağışla Jora, mən dedim axı: o gəlmədi. Xahiş edirəm, – Edik cəld Yusiflə qızıldişin arasına girdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən məndən heç nə xahiş eləmə, – qızıldiş gülməyini kəsdi, – mən burda xahiş dükanı açmamışam. – O geri dönüb öz stoluna tərəf getdi.

– Xahiş edirəm... siz burdan getməlisiniz, – Gülya ilə Zina eşitməsin deyə Edik Yusifə pıçıldadı. – Ancaq elə çıxın ki, görən olmasın. Rəqs zamanı.

– Niyə ki? – Yusif baş verənlərdən sonra Edikdən xoşlanmadığını gizlətmədən dedi.

– İnan mənə, yaxşısı burdan...

Edik gerçəkdən Yusifə elə yalvarıcı nəzərlərlə baxdı ki, Yusifin ona yazığı gəldi.

– Axı nə olub, nə məsələdi? – deyə o, bu dəfə başqa, daha yanımcıl tərzdə soruşdu. – O səndən nə istəyir?

– Ona borcum var, – Edik dedi. – Siz getsəniz yaxşıdır.

– Uduzmusan yəqin, eləmi?

– Hə.

– Nə qədər?

– Çox. Rəqs başlayan kimi durub bax, o tərəfə gedərsiniz, – Edik restoranın mətbəx tərəfini göstərdi. – Ordan parka çıxış var. Dərhal da o aradan sağa dönün. Lap axıracan gedin.

– Sən ona nə qədər uduzmusan?

– Hər şeymi.

– Bunu necə başa düşək?

– Dedim axı: hər şeyimi, – Edik cavab verdi. – Pulumu da, evimi də, atelyeni də, onu da, – Edik Zinanı göstərdi, – hətta özümü də... İstənilən an o məni öldürə bilər. Haçan kefi istəsə. Sən pulundan narahat olma. Hamısını Klava xalaya vermişəm.

– Mən narahat-zad deyiləm, – Yusif dedi.

– O, mənim dostumun anasıdır.

– Bilirəm.

Orkestr növbəti dəfə ləzginka çalmağa başladı.

– Hə vaxtdır, qızı da götür, dediyim kimi, dərhal aradan çıx.

– Biz bir yerdə gedəcəyik, – Yusif etiraz etdi, – bura bir yerdə gəlmişik, bir yerdə də gedəcəyik. Özü də normal qaydada, qapıdan keçib gedəcəyik.

– Mən gedə bilmərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəlkə də onun sənin həyatına haqqı var, – Yusif dedi, – amma bir halda ki, sən bu gün bura mənimlə gəlmisən, o sənə toxunmayacaq.

Yusif stola qayıtdı.

– Gedəkmi? – O, yeməyin pulunu stolun üstünə qoyaraq Gülyadan soruşdu.

Gülya qalxdı, Zinaya baxdı, o da tələm-tələsik stoldan qalxdı; Yusif gözünün bir ucuyla qızıldişin oturduğu stoldakıların açıq-aşkar onlara göz qoyduqlarını gördü.

Gülya ilə Zina Yusifin yanına gəldilər.

– Sən getmək istəmirsənmi? –Zina Edikdən soruşdu, o isə cavab vermədi, sifətinə ciddi bir tərəddüd ifadə çökmüşdü.

– Dur gedək, Edik, – Yusif sakitcə dedi və onlar giriş qapısına tərəf yönəldilər. Zina bir addım geridə qalıb, Edikin köynəyinin yaxasından yapışaraq, arxasınca dartdı.

– Sən neyləyirsən? – o, Zinaya itaət edərək dedi, – heç başa düşürsən neyləyirsən?

Zina sakitcə onu arxasınca qapıya tərəf sürüklədi.

Onlar enli pilləkənlərlə aşağı düşdülər, ortasında nəhəng çiçək ləki olan meydancadan keçib, mərkəzi parkın xiyabanına çıxdılar.

– Nə oynayırdınız? – Yusif Edikdən soruşdu.

– İyirmi bir.

– Burda aşıq atmırlar ki?

Edik cavab verməyə macal tapmadı, çünki elə bu anda qızıldişi müşayiət edən dörd nəfər kolluqdan çıxıb onların qabağını kəsdi.

– Dedim axı, – Edik öləziyən səslə dedi, – mən sizi xəbərdar elədim axı.

Dördlük ayaqqabılarını cırıldada-çırıldada onlara yaxınlaşdı.

– Bəlkə rəqs edək, – qabaqda gələn irisifət dedi; onlar yolun bütün genişliyini kəsmişdilər; onlara toxunmadan keçib getmək mümkün deyildi.

– Yol verin, – Yusif onlardan xahiş etdi.

– Əvvəlcə rəqs edək sonra, – irisifət Gülyaya tərəf getdi; ondan solda dayanan iki nəfərin ikisi də birdən Yusifin üstünə atıldı.

Atəş səsi eşidildi. Hamı yerindəcə donub qaldı. Zina qiyyə çəkib şarappp... kolluğa yıxıldı.

– Yol verin, – Yusif öz parabellumunu irəli uzadıb təkrar etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd nəfərin dördü də eyni anda əllərini ciblərinə atdılar; yenə dalbadal bir neçə atəş açıldı. Gülya dəhşət içərisində gözlərini qapadı. Qorxudan səkidəki çınqıla çökmüş Edik dörd nəfərdən ikisinin necə yerə sərildiyini gördü; üçüncünün, irisifətin əlində tapanca vardı, dördüncü isə bıçaq çıxarmışdı.

– At silahı, –Yusif əmr etdi.

Cavabında irisifət atəş açmaq istədi, amma Yusif ondan cəld tərpəndi. İrisifətin yaralanmış əlindən tapança yerə düşdü, o, cəld özünü kolluğa atdı; əli bıçaqlı da onun arxasınca götürüldü.

Restoran tərəfdə milis fitlərinin səsi eşidildi.

– Cəld aradan çıxmaq lazımdı, – deyə Edik irisifətin əlindən düşən tapançanı yerdən götürdü. Yaraladığımı, öldürdüyümü adamın yanında yerə düşüb qalmış başqa bir tapançanı isə Yusif təpiklə vurub kolluğa atdı.

– Bu tərəfə, – Edik parkı yaxşı tanıyırdı; onlar xiyabanı tərk edib, xeyli sərt yoxuşu sürətlə, demək olar ki, qaça-qaça çıxdılar; sonra ağacların arasıyla əks tərəfə getdilər; hər halda Gülyanın ovcunu əlindən buraxmayan Yusifə elə gəldi. Nəhayət gəlib hündür dəmir hasara dirəndilər.

– Üstündən aşmalı olacayıq, – Edik dedi.

– Mən bunu bacarmaram, – Gülya yalvarıcı baxışlarla Yusifin üzünə baxdı.

– Çıxış hansı tərəfdədir? – Yusif Edikdən soruşdu.

– O tərəfdə, – Edik əliylə göstərdi, hasarın dibiylə o tərəfə yollandılar.

– Hə, deyəsən aradan çıxa bildik, – onlar parkın gur işıqlı çıxışına yaxınlaşanda Edik dedi; o, uzaqdan eşidilən milis fitlərinə qulaq verdi. – İndi sakitcə burdan çıxıb getmək lazımdı, – o, qənimət tapançanı gizlətdi, şalvarının belini dartışdırıb Yusifə, qadınlara baxdı. – Getdik.

İşıqlı yerə çıxıb, tələsmədən parkın çıxışına doğru getdilər.

Küçə tərəfdən gələn iki motosikletli milisioner fit səslərinə qulaq verib, parkdan çıxan adamlara baxa-baxa həyəcan içərisində bir-birinə nəsə dedilər.

– Orda nə baş verib? – Onlardan biri soruşdu. – Deyəsən atəş açırdılar?

– Restoranda dava düşüb, – əli əsalı qoca kişi dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dava yox, – Edik dedi, – soyğunçuluq olub. İnkassatora hücum ediblər.

Milisionerlər bir-birinin üzünə baxdı.

– Tfu, – onlar artıq küçəylə gedəndə Edik yüngülləşib dərindən nəfəs aldı. – Deyəsən, doğrudan da aradan çıxa bildik, – o, Yusifə göz vurdu. – İndi başqa bir şəhərdə ev almaq lazım gələcək. Zinayla məni də özünüzlə aparарsınız.

Bu ana qədər sükutunu pozmayan Yusif bir neçə addım atıb, sonra qəribə bir tərzdə bütün bədəni əsə-əsə cibindən dörd qatlanmış bir vərəq çıxarıb Gülyaya uzatdı.

– Anama verərsən... mənim tut...mam, – yalnız bunu deməyə macal tapdı və güclü ağrı çəkirmiş kimi qıvrılmağa başaldı.

– Sənə nə olub? Yusif! – Gülya onun qolundan yapışıb ayaq üstə saxlamağa çalışdı, hansı bir qüvvə isə sinəsinə vurduğu güclü bir yayvarı zərblə Yusifin gövdəsini iki qatlayıb, onu yerə çırpdı. Gülya, Edik, Zina eyni anda onun yanına atıldılar. Onun ağzından, bir-birinə sıx kilidlənmiş iki çənəsinin arasından ağ köpüklə yanaşı əcayib böyürtü səsi tökülürdü.

Bədən qıç içində qıvrılırdı. Adamlar onların başına yığışdılar. Milis fitlərinin, motsikletlərin səsi get-gedə lap yaxınlaşdı...

Edik özünü burdan aralanmağa çalışan kütlənin arasına verdi.

Milislər gəlib çıxanda Gülya ilə Zina hələ də Yusifi ayağa qaldırmağa çalışırdılar...

Epileptik tutma daha da gücləndi. Bir neçə milisioner Yusifin yerdə tir-tir titrəyən bədənini yerə sıxıb güclə saxlamağa çalışdı. Parabellum düz böyründə yerə düşüb qalmışdı.

Milis "qazik"ini gətirdilər. Zina Gülyanı orda qoyub onları əhatə edən adamların arasında itib batdı.

– Xahiş edirəm, vətəndaş xanım, – milis zabiti Gülyanı maşının yanına apardı. – Bu adam sizin nəyinizdir?

– Mən onun arvadıyam, – Gülya dirsəyini milis zabitinin güclü caynağından dartıb çıxarmağa çalışdı. – Mən onsuz heç yana gedə bilmərəm.

– Həyəcanlanmayın, onu da ora gətirəcəklər.

– O yaralıdır, – Gülya dedi, – cəbhədə olub.

– Aydınlaşdırarıq. Xahiş edirəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İtaət etməli oldu. Gülya yalnız maşına minəndə Zinanın buraya yığışmış adamların arasında olduğunu gördü, o ona nəsə anlaşılmaz işarələr edirdi.

– Bu nədir? – zabit Gülyanın ovcunu açıb, əzilmiş kağız vərəqini onun əlindən aldı.

– Siz məni hara aparırsınız? – Gülya soruşdu.

– Narahat olmayın. Növbətçi şöbəyə. Necə olub hamısını yazarsınız, sizi buraxarıq.

"Mən, Seyidrza Şükürov etiraf edirəm ki, Səməd Vəliyevi aldatmışam, – zabit gərgin halda əzilmiş kağıza baxaraq oxudu. – Bütün günahı öz boynuna götürməyə onu mən razı salmışam. Əslində isə çörəyi mən oğurlamışam..."

Zabitin oxuduğu mətndən heç nə anlamayan Gülya kabinkanın arxa pəncərəsindən Yusifi görməyə çalışdı. Nəhayət buna müyəssər oldu, yerindən bir qədər dikəldi, kökü ağrıyanacan boynunu geri qanırıb, onun hələ də həmin yerdə bir neçə milisin gücüylə asfalta sıxılmış halda qaldığına əmin oldu...

Gülya 1989-cu ildə, Yusif İrkutsk yaxınlığındakı ciddi rejimli həbs düşərgəsində öləndən otuz beş il sonra vəfat etdi. (Məhkəmənin qərarı ilə Yusifə on il iş kəsilmişdi, amma oğlu anadan olandan bir il sonra qəfil tutulduğu ağ ciyər vərəmindən elə ordaca vəfat etmişdi).

1950-ci ildə Gülya Tatarıstandan Kislovodska gəlmiş bir neft mühəndisinə ərə getmişdi. Kurort putyovkasının imkan yaratdığı qısa bir müddət ərzində qətiyyətli neftçi-mühəndis ona və onun oğluna öz soy adını verə bilmiş və onları özüylə Tuymazıya aparmışdı. (Fotoqraf Edik Gülya ilə neftçi-mühəndisin nikahını bir neçə gün ərzində necə kəsdirdiyini böyük məmnunluqla xatırlayırdı; bütün təfərrüat yadındaydı: "Krasnaya Moskva" ətrini bükdüyü kağızın rəngi də, bu ətri stolun siyirməsinə qoyarkən VVAQ müdirəsinin kövrək müqavimətinin necə tez qırılması da).

Daha sonra vəzifəsi böyüdülən neftçi-mühəndis öz təzə ailəsini Tüymazıdan Tümenə aparmışdı.

Kislovodskdakı ev Əmirhüseynə satılanda Yusifin oğlu artıq Moskvada işləyirdi.

Mən Mixail Nikolayeviç Dozortsova, onun nəsil-kökünün sirrini açmağa çalışmadım. Səfirlik ziyafətinin qələbəliyində bu heç



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerinə düşməzdi, bir də ki, bütün ömrü boyu özünü rus hesab eləmiş adama birdən-birə atasının həbs düşərgəsində vəfat edən bir azərbaycanlı cinayətkar olduğunu bilmək çətin ki, xoş gələydi. Amma Kislovodskdakı evlərinin taleyi həmsöhbətimi yaman maraqlandırdı; biz bir-birimizlə vizit vərəqələrimizi dəyişdirdik, mən lap yaxın vaxtlarda bu ev haqqında ona konkret məlumat göndərəcəyimə, o isə atamın məktubunu tapdırıb oxuyacağına söz verdi.

Əmirhüseyn Bakıda bizim Kislovodsk səfərimizdən beş il sonra peyda oldu. Belindəki ağrılar onu möhkəm incidirdi, güclə gəzirdi və öz xəstəliyinə qəribə bir ad qoymuşdu – "işias". Təsadüfi mistik əlaqələr mexanizmi yenə işə düşmüşdü: güc-bəlayla özünü qohumlarının yanına çatdırmaq istəyən Əmirhüseyn onları evdə tapmamış, dəhlizdə anamla rastlaşmışdı; onun vəziyyəti o qədər ağır imiş ki, anam onu bizə gətirib yemək otağındakı divana uzandırmışdı və o, öldüyü günəcən, düz dörd ay o divanda yatmışdı. (Onu xəstəxanaya götürməmişdilər – bağırsaq xərçəngi baxımsızlıqdan artıq ağ və qara ciyərdə, onurğa sütununda çoxlu metastaz vermişdi).

Son nəfəsinəcən Əmirhüseyn öldüyünə inanmırdı; anamın əllərindən öpür, ona göstərdiyi qayğıkeşliyə görə elə hey anama minnətdarlıq edir, onunla gələcək planlarını bölüşürdü. Artıq bütün gücünü itirib, mumiya kimi qupquru quruyanda qohumlarının çağırmağı xahiş etdi və sonra pıçıltıyla dedi ki, Kislovodskdakı evi anama bağışlayır.

Ölümündən sonra onun yazılı vəsiyyəti tapıldı, həmin vəsiyyətnamədə Əmirhüseyn bütün ömrü boyu yığıb topladıqlarının hamısını bir mühasib dəqiqliyi ilə öz qohumları arasında bölüşdürmüşdü; mənim anamın adı o siyahıda yox idi.

Mərhumun iradəsi həmin siyahıya uyğun olaraq çox ciddi şəkildə yerinə yetirildi. Yalnız Kislovodskdakı ev məsələsi həll olunmamış qaldı. Vəsiyyətnamədə Əmirhüseyn onu "Hava məbədi" adlandırmışdı və əgər orda onun dəqiq ünvanı göstərilməsəydi, söhbətin məşhur restorandan getdiyini güman etmək olardı.

Anam vəsiyyətnamədən xəbər tutandan sonra, adı nə olur olsun, o evdən imtina etdi. Ancaq Əmirhüseynin qohumları da o evə elə bir həvəs göstərmədilər: bu "Hava məbədi"ni sata bilmək üçün Kislovodska getmək, miras hüququnu sənədləşdirmək, dövlətə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vergi ödəmək lazım idi. Nəticədə "Hava məbədi" uzun müddət dünyasını çoxdan dəyişmiş Əmirhüseynin adında qalmaqda davam etdi, hərdənbir onun qohumlarından kimsə bir-iki aylığına Kislovodska gedib, artıq xeyli qocalmış olsa da hələ də çox fəal olan fotoqraf Edikin nəzarəti altında orda yaşayırdı. (Bayramlarda Edikdən evin vəziyyəti barədə də xəbər verən təbrik açıqcaları gəliridi, SSRİ dağılandan sonra onunla əlaqə tam kəsildi).

Səfirlikdəki söhbətdən bir neçə gün sonra mən Ediki axtarıb tapdım və ondan ev haqqında tam informasiya aldım. Məlum oldu ki, Əmirhüseynin qohumları razılıq verdikləri təqdirdə "Hava məbədi"ni öz adına keçirmək "Siboyl"un prezidenti üçün o qədər də çətin olmayacaq. Köməkçisi mənim Ediklə bu söhbətimi prezidentin diqqətinə çatdıracağına söz verdi, mənsə öz növbəmdə ondan atamın məktubunu da prezidentə xatırlatmasını xahiş etdim. Cavabında telefonda nəsə mızıldandı; təkrar xahiş eləməyə çalışdım, amma macal tapmadım – dəstəyi artıq asmışdı. Mən də dəstəyi yerinə qoyub yazı stolundan aralandım, pəncərənin önünə keçdim.

Yaz günəşi Moskvanı, hər yerdə səki boyu yığılmış çirkli qar qalaqlarından azad etməyə başlamışdı. Şüşə köşkdə gülsatan qız bizim pəncərəyə tərəf baxırdı – bu səhər oğlumun yanına gəlmiş, ona nəsə, tanış ara həkiminin məsləhət gördüyü quru bir dağ çiçəyi gətirmişdi. Oğlumun xəstəliyindən xəbər tutan hər kəs ona nə iləsə kömək eləməyə çalışırdı. Son aylar o, vaxtının çoxunu dərin düşüncələrə dalaraq yataqda keçirirdi; içinə zillənmiş gözləri heç kimi görmürdü, sanki öz orqanizmində nələr baş verdiyini dinləməyə çalışırdı. Ancaq kimsə ona müraciət edəndə əhəng kimi ağappaq ağarmış bənizində dərhal mehriban, bir az günahkar təbəssüm oyanırdı.

Onunla söhbət eləyəndə heç nə yoxmuş kimi qayğısız, şən görünmək getdikcə mənim üçün daha çox çətin olurdu. Ancaq oğlumu həmişəlik itirmək qorxusu istər-istəməz məni, onun açılmamış yorğan-döşəkdə, yarıçılpaq vəziyyətdə uzanıb qaldığı yataq otağına girmək üçün min cür bəhanə axtarıb tapmağa məcbur edirdi. Mümkün ürək köçürmə əməliyyatı barədə ona heç nə deməmişdim, amma Dozortsovla tanış olmağım, Kislovodskdakı evlə bağlı danışşıqlar haqda hər şeyi bilirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çarpayının bir qırağında əyləşib, oğlumun yeniyetmə sifətinin tər-təmiz çizgilərini gözlərimlə oxşaya-oxşaya ona dörd yaşı olarkən Kislovodskdakı həmin evin enli daş hasarı üstündə necə gəzdirdiyimdən danışmağa başladım. Həyət tərəfdən hasar o qədər hündür olmasa da bayır tərəfdən içini gicitkən basmış dərin bir xəndəyin üzərindəydi. Onu hasarın üstünə çıxarıb yanınca addımlayırdım; ancaq əlimi buraxan kimi otuz santimetrlik daş zolağın üzərində qorxudan donub qalır, yerindən tərpənə bilmirdi.

– Yeri, – deyə ona əmr etdim, qorxudan bərəlib hədəqəsindən çıxmış gözləri ilə mənə tərs-tərs baxsa da, əmrə tabe olub hasarın üstilə yeriməyə məcbur oldu.

Bir dəfə o, faciəvi bir ciddiliklə məndən soruşdu:

– Ata, sən istəyisən ki, sənin oğlun olmasın?

Bununla da hasar üstündə gəzişmələrə birdəfəlik son qoyuldu.

Həyatının bu anı oğlumun özünün də yaxşı yadındaydı, amma mənə həvəslə qulaq asırdı. Mən ona başqa bir məzəli hadisəni də xatırlatdım: Bakıdan Moskvaya köçəndən bir-iki ay sonra onu uşaq bağçasına qoymuşduq, orda isə dələduz bir oğlan oğlumun, bir şüşəsinin üstünə qara örtük yapışdırılmış eynəyini lağa qoymuşdu. (Helmholts İnstitutunda "tənbəl" hesab edilən gözü məşq etdirmək üçün uşağa belə bir eynək yazmışdılar – bəbək vaxtaşırı burun tərəfə meyil etdiyindən yaxşı işləmirdi. Biz bu eynəyi taxmaq üçün onu güc-bəlayla yola gətirmişdik, indi isə bağçada problem başlamışdı. Əlbəttə, mən, yaxud arvadım, gedib bağça müdirinə bu barədə şikayət edə bilərdik, amma Bakının ətraf məhəlləsində böyümüş bir adam kimi mən bunu düzgün hesab etmirdim: beş yaşında oğlan uşağı, hətta o, dəyişkən göz çəpliyindən əziyyət çəkdiyi üçün "dördgöz" olsa belə, gələcəyin kişisidir və öz yaşıdları olan bütün problemlərini heç bir valideyn müdaxiləsi olmadan özü təkbaşına həll etməlidir).

Biz o vaxt Preobajenkada mənim dostlarımın yanında yaşayırdıq, oğlumu yatağa qoyarkən, mən ona əgər o oğlan bir də sataşsa necə hərəkət etmək lazım gəldiyi barədə məsləhət verdim.

– Daşdan ya da kərpicdən bir şey tap, – sakit, işgüzar bir ahənglə ona dedim, – əgər o bir də sənə nəsə desə, onu göstərib de ki, "Yaxamdan əl çək, yoxsa bununla vurub beynini dağıdaram".

Oğlum çəpəki mənə baxıb dərindən köks ötürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İnanmayacaq.

– Kim?

– O inanmayacaq ki, mən onu vura bilərəm.

– Sən də elə de ki, inansın.

O, gözünü yumdu, belə başa düşdüm ki, mənim bu təklifim keçmədi.

Səhər naharı zamanı, uşaqlar süfrədən qalxıb evdən çıxandan sonra dostumun arvadı Angelina Dmitriyevna çay süzə-süzə çox səmimi bir təəssüflə dedi:

– Mən sizi bir ziyalı adam hesab edirdim. Siz bu uşağa nə öyrədirsiniz?! Belə də şey olar?! Axı siz jurnalistsiniz.

Amma mən bu gün də haqlı olduğuma əminəm.

Oğlum mənə həvəslə qulaq asırdı, mən bərkdən, gülə-gülə danışır, dayanmaq bilmirdim, beynimi isə yalnız bir fikir didib-dağıdırdı: ilahi, nəyə görə, nəyə görə məni bu cür cəzalandırırsan? Nə üçün bu bədbəxtlik məhz bizə tuş gəlib? Kim bu, bir-birindən xeyli uzaq olan hadisələri belə bir faciəvi zəncirə düzüb ki, o zəncirin də növbəti həlqəsi mənim oğlumun ölümü olmalıdı? Nə üçün məhz o, qurban seçilib? Bu əcaib xəstəliyi nə doğurub? Əcdadlarının işlətdikləri günahlarmı? Irsi faktorların uyuşmazlığımı? Ətraf mühitin aqressivliyimi? Özünün təbiətən həddsiz dərəcədə həssas olmasımı? Virus xəstəliyimi? Axı nə üçün bizim son ümidimiz Kislovodskdakı bu qəribə evlə bağlıdı? Nə üçün bu ev yarım əsr ərzində ədən-ələ keçərək son nəticədə mənim anama bağışlanıb?

Oğlumun könlünü keçmiş xatirələrlə ovutmaqda davam edirdim, birini bitirməmiş, dəhal o birinə keçirdim, o da bu danışdıqlarıma həqiqətən həvəslə qulaq asırdı, azca qızarmağa başlamış sifəti bir müddət öz solğunluğunu itirmiş, beli azca dikəlmişdi...

Uşaqlıqda məni çox sevirdi; bir dəfə arvadımın növbəti hoqqasından təngə gəlib evdən bir dəfələik getmək qərarına gəlmişdim və gedəcəydim də, əgər oğlumun öz anasına dediyi bir sözü eşitməsəydim:

– Ana, əgər atam getsə, mən də gedib onunla qalacam...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onda o, ikinci sinifdə oxuyurdu və artıq mənim məsləhətlərim olmadan da sinif yoldaşları arasında özünə böyük hörmət qazana bilmişdi...

Məktəbi bitirdiyi il müəllimlərindən biri bir dəfə məni televiziya kanallarından birində görüb, onuncu sinif şagirdlərilə görüşə dəvət etdi. 1990-cı ilin yazıydı. Bir neçə gündən sonra onların buraxılış imtahanları başlayacaqdı, ölkənin siyasi həyatı *günəşli günlərin tez-tez küləkli, soyuq günlərlə əvəz olunduğu* hava şəraitinin özü kimi qeyri-müəyyən, təbəddülatlı idi. Sokolnikidə metrodan çıxıb yanğın qülləsinin yanından keçərək məktəb binasına yaxınlaşanda bir ölkədə böyüyüb, tamamilə başqa, on il ərzində beyinlərinə yeridilənlərin artıq mənasız bir şeyə çevrildiyi bir ölkəyə düşən bu yazıq uşaqlara nə deyəcəyim barədə hələ heç bir qərara gələ bilməmişdim.

Akt zalı kimi də istifadə olunan bədən tərbiyəsi salonuna azı yüz nəfər şagird tolanmışdı. Bəzilərini tanıyırdım, bizim evdə olmuşdular; amma əksəriyyət üçün mənim adım heç nə demirdi, iştirak etdiyim veriliş efirə hələ təzəcə çıxmışdı.

Məktəb müdirəsi məni auditoriyaya təqdim etdi və sözümü nəylə bitirəcəyimi dumanlı da olsa təssəvürümə belə gətirmədən danışmağa başladım. Bir-iki cümlə demişdim ki, nitqimin müdirəyə heç də xoş gəlmədiyini hiss etdim, amma özümlə bacara bilmədim – uşaqları aldatmaq böyükləri aldatmaqdan qat-qat çətindir.

Mən onlara dedim: on il sizi burda ona öyrədiblər ki, məktəbi bitirəndən sonra siz sevgi, sədaqət, ədalət dolu bir həyata qədəm basacaqsınız, öz ölkəniz üçün lazımlı şəxsiyyətlər olacaqsınız. Amma ola bilsin ki, siz uzun illər boyu heç kimi sevə bilməyəcəksiniz, ən yaxşı dostunuz sizi satacaq, vətənə məhəbbətiniz isə haqsızcasına cavabsız qalacaq. Nə qədər kədərli olsa da belə bir şey mümkündür. Ancaq bu o demək deyil ki, ümumiyyətlə həyatda sevgi, məhəbbət yoxdur, sədaqətli dostlar ızsiz-tozsuz yox olublar, sizə qarşı haqsız münasibətinə görə vətəndən üz döndərmək olar. Bizlərdən hər birimizin həyat təcrübəsi min illərlə yığılıb toplanmış ümumbəşəri təcrübənin yalnız kiçicik bir zərrəsidir. Sizin, çox güman ki, həyatları öz istəklərinə uyğun şəkildə təşəkkül tapmamış müəllimləriniz sizə o



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şeyləri öyrədirlər ki, onların özlərinə də onu öyrədiblər. Buna görə də şəxsi həyat təcrübəniz nə qədər acı olsa da öz müəllimlərinizə inanmalısınız...

O vaxt mənim bu çıxışım oğlumun çox xoşuna gəlmişdi, danışarkən özüm ona göz qoyurdum. İndi, on ildən sonra da, hələ heç kimi əsl sevgi ilə sevməyə macal tapmayan və artıq ölüm ayağında olan oğlum yenə də mənim dəlillərmlə razılaşırdı. Və mən onun qəmli gözlərinə baxaraq, özümü inandırmağa çalışırdım ki, əgər bütün dinlərin vəd etdiyi o biri dünyada onunla yenidən görüşə bilməsəm, bunun günahı heç də ümumiyyətlə belə bir dünyanın yoxluğunda deyil, mənim, kim tərəfindənsə, haçansa qabaqcadan müəyyən edilmiş alın yazımda olacaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İNTİQAM

Əlbəttə, bacısı nəyisə şişirdə və bəzi şeyləri deməyə bilərdi, qadın qadınlığında qalır. Amma doğurdan da günahkardırsa, onu cəzalandırmaq üçün əri və qardaşı var, yeri gəlsə onlar bir əncam çəkərlər bu işə. Belə sadə şeyləri anlamayan və ya yulafı artıq düşdüyündən harınlaşan və qadına əl qaldırmağa cəsarət edənlər isə əməllərinin altını çəkəcəklər. Hökmən, vəzifələrindən asılı olmayaraq cəzalarını çəkəcəklər.

Alik qarpız qabıqlarını ləyənə doğraya-doğraya ayağıyla ləyəni çarpayıya bağlanmış quzunun qabağına itələdi. Nazik dəri xaltadakı zınqırov astadan zınqıldadı, çarpayının başındakı üç dənə nikelli kürəcik cingildədi. Əvvəllər onlar çox idilər (hər başda iki böyük və səkkiz balaca kürəcik vardı), amma asanlıqla burulub açıldıqları üçün tədricən itə-bata düşdülər – uşaqlıqda Alik və bacısı onlarla oynamağı xoşlayırdılar.

Alik boşqabından bir neçə dilim qarpız götürüb ləyənə atanda, quzu ona minnətdarlığı andıran qıyqacı bir nəzər saldı və qabıqlara məhəl qoymadı. Alik gülümsündü, -- qırx beşinci və ya qırx altıncı ildə (indi dəqiq yadında deyil, o vaxtdan səkkiz il keçib) ağ çörək gələn kimi mağazaların qabağında uzun növbə düzülürdü. Lap əvvəllər isə adamlar indi bol olan qara çörəkdən ötrü bütün gecəni növbədə dururdular. Bir ay da keçməmişdi, camaat isə artıq ağ çörəksiz keçinə bilmirdi.

Alik quzunu tumarladı və əllərini yumaq üçün arakəsmənin arxasına keçdi. Vedrədəki suyla əlüzyuyanı doldurub, suyun qalanını uzunboğazlarının üstünə tökdü: həyətə qaz çəkirdilər və uzunboğazlar torpağa bulaşmışdı. Qazı hardansa uzaqdan çəkirdilər, sakinlərdən pul yığmışdılar, amma mənzili yanğın normalarına cavab vermədiyinə görə Aliki siyahıdan çıxarmışdılar, ya mənzil sahəsi az idi, ya da otaqda taxta-tuxta çox idi. Dəhlizdəki divarın həyətə baxan hissəsi tamam ağacdan idi, əlüzyuyan ilə mətbəx stolunu otaqdan ayıran arakəsmə isə fanerkadan qayrılmışdı. Arakəsmənin o üz-bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üzündəki döşəmə asfalt idi, amma mühəndis və bığlı yanğınsöndürən bunu hesaba almırdılar...

Qaz məsələsinin mürəkkəbləşməsi Aliki çox da dilxor eləmədi, norma-zad boş şeydir. Hamıya qaz çəkilib, heç ola bilməz ki, o qazsız qalsın. Doğrudan da, iki gün bundan əvvəl dayaqlar üçün həyətdə səngər qazan qazçəkən uşaqlar ona boyun oldular ki, əgər faner arakəsməni sökərsə, mühəndisin və yanğınsöndürənin icazəsi olmadan da onunçün plitə qoyacaqlar. O, razılaşdı, arakəsmə əslində ona heç lazım da deyil, bacısının onlarla birgə yaşadığı vaxtlarda arakəsməni anası qoydurmuşdu, indi isə arakəsmə maneçilik törədirdi – anasının evə gələrkən üstündə yatdığı çarpayı otağı darısqal eləmişdi.

Alik əllərini yuyandan sonra paltarını dəyişib həyətə çıxdı. Qazçəkənlər həyəti borularla doldurmuşdular, tingliyin altındakı köşkdə onların üstü alətlərlə dolu uzun iş stolları dururdu. Bu səbəbdən qonşular daha həyətə çıxıb oturmurdular. Adətən belə küləksiz sentyabr axşamı həyət adamla dolu olurdu, indi isə pəncərələrdə də bir kimsə görünmürdü. Yalnız Xanmana qarı şənbə günləri həmişə olduğu kimi ikinci mərtəbənin eyvanı altında xəmir yoğururdu; pilləkənlə köşkün arasında, həyətin küncündə olan təndir Alik işdən gələndə artıq tüstülənirdi.

Xanmana təndiri iki il bundan əvvəl, Bilgəhdən onların həyətinə köçən kimi yapmışdı. Bir aydan sonra isə gil tamam quruyub, çırtma vuranda metal kimi cingildəyəndə, qonşular ağızlarını heyrətlə ayırdılar: qarı od qaladı, bir qədər gözləyib, birinci kökəni təndirin qızmar divarına yapışdırdı və bir neçə dəqiqədən sonra istinin buxarlandığı dəlikdən sarı-qırmızı, qıraqları azacıq yanmış çörəyi çıxartdı. Həyətdəkilərdən heç biri çörəyin necə bişirildiyini görməmişdi, həmişə mağazadan hazır çörək almışdılar.

Amma Xanmananı hər şeydən çox təəccübləndirən bu oldu ki, Alik kökəni yayıb, təndirin divarına yapışdırmaq üçün başını təndirin ağzına soxdu. Onun kökəsini özünkü ilə yanaşı görəndə, qarı gözlərinə inanmadı. Qonşular da əvvəl-əvvəl təəccübləndilər, sonra yadlarına düşdü ki, o nə vaxtsa çörək zavodunun nəzdindəki çörəkçilər məktəbində oxuyub. Qırx dördüncü ildə, yeddinci sinifdən sonra. Onda bacısının uşağı olmuşdu, bacısının əri Nadir cəbhədə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

idi, atasının isə qara kağızı gəlmişdi və ailəyə birtəhər kömək eləmək lazım idi. Bu vaxt atasının yoldaşı (o da atası kimi müharibədə əvvəl çörək maşını sürürdü, cəbhədən isə çox tez, ayaqsız qayıtdı) özünün bir ildən artıq çilingər işlədiyi həmin o çörəkçilər məktəbinə Aliki düzəltməyi təklif elədi: yeməklə, təqaüdlə təmin olunacaqdı, qurtarandan sonra isə maaşdan əlavə gündəlik yarım buxanka qara çörəyi olacaqdı. Elə həmin bu yarım buxankaya görə də Alikdən çörəkçi çıxmadı – keşikçilərin gözünü oğurlayıb o yarım buxankanı ərazidən çıxartmağı bacarmaq lazım idi; hamı çıxarırdı, o isə hətta balaca bacısı oğlunun xatirinə belə özünü buna məcbur edə bilmirdi. Avtoməktəbi qurtarmalı oldu.

...Xanmana xəmiri dişli qıraqları olan iri mis səncərdə yoğururdu, yanındakı kiçik oturacaqda əldəqayırma ələk qoyulmuşdu, qarının əlindən nə iş desən gəlirdi: ayaqqabıları özü yamayır, sandıq və taburetkaları düzəldirdi və evin özülündəki boşluq hesabına öz zirzəmisini tədricən genişləndirmişdi, iki il ərzində divarı on metrədək artırmışdı, təzə bir otaq əmələ gəlmişdi.

Alik yaxın gəlib, xəmirə baxdı və zarafatla üz-gözünü turşutdu.

Qarı tutuldu:

– Niyə mısmırığını sallayırsan?

– Duzu azdı.

Xanmana əlli yaş böyük olsa da, Alikin zarafatlarından incimirdi və ona zarafatla cavab vermək imkanını da heç vaxt əldən buraxmırdı.

– Evlənərsən, öz arvadını öyrədərsən... Yaxşısı budu de görüm quzu necədi?

– Sənin dualarındı onu saxlayan...

– Yəqin arıqlayıb...

– Sən onu yemləməyəndə arıqlayar də.

– Sənin qoyununu mən niyə yemləməliyəm?

– Sən gətirmisən, sən də yemlə!

– Hardan bileydim ki, ona belə isinişəcəksən. Qonaqlar çox idi?

– Hə.

– Niyə belə tez qayıtdın?

– Hardan bildin?

– Mən hər şeyi bilirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Gecələr gözünə yuxu getmir. Görərsən, sənə qarovulçulardan yaxşı bir ər tapacağam, on altı yaşında qız kimi yatacaqsan.

- Nə vaxtdandı söz verirsən.

- Bir nəfər münasibi var, Nikolaydan qalıb. O vaxtdan evlənmək istəyir, hələ də evlənməyib, amma fit çalmağı yaman xoşlayır. Bir şey olan kimi fit çalmağa başlayır.

Qarı gülüb, saçlarını düzəltdi, ona elə gəldi ki, saçlarının ucları bərk düyün vurulmuş və qulaq kimi dik duran ağarmış ipək yaylığın altından çıxıb.

Quzu əhvalatı doğrudan da gülməli idi. Onun xahişilə Xanmana quzunu Bilgəhdən hələ avqustun əvvəlində bacısı oğlunun qarşıdakı kiçik toyuna gətirmişdi. Artıq bir neçə ildi ki, bu iş gecikirdi, indi isə münasib vaxt idi: bacısının əri Nadir ezamiyyətə getmişdi və Alik bir də cəhd eləməyi qərara aldı. Bacısı yenə qorxa-qorxa əllərini yellədi, sonra bu işi əri qayıdana saxlamaq istədi, amma Alik uşağın cərrahiyyə əməliyyatından sonra bir-iki həftə evdə oturmalı olacağını, yayın isə artıq qurtarmaqda olduğunu izah edəndə nəhayət təslim oldu; o ki qaldı Nadirə, bu işin onunçün qəti fərqi yox idi, ona görə də onun səfərdə olması yaxşıydı, əlavə qayğılardan canı qurtaracaqdı.

Bilgəhdən quzu gətirdilər, amma sünnət eləməklə çörək pulu qazanan və öz xidmətini təklif edə-edə həyətləri daima gəzən ləzgi yayın axırında gözlənilmədən harasa yox oldu və onun gəlişini gözləyincə, oğlan quzuya öyrəşdi. Elə Alikin özü də heyvana öyrəşmişdi. Ləzgi axır ki, gəlib çıxdı. Ailə, kiçik toy münasibətilə çağırılmış qonaqlar üçün kababı Alikin tanış qəssabdan təcili tapdığı ətdən çəkdilər. Ət təzə, yağlı idi və qabırğasından bilinirdi ki, cavandır, amma Alik qəssaba xatırlatdı ki, iki ay bundan əvvəl burdan alınan və zahirən beləcə yaxşı görünən ət nədənsə tamam dadsız çıxdı. Qəssab qapıdan asılmış cəmdəyi çapmaqda ona kömək eləyən bacısı oğluyla baxışıb acıdilliklə Alikdən soruşdu ki, onun fikrincə elektrik işığı yanan mənzildə yaşayan, ağ çörək yeyən və onun, qəssabın ailəsi ilə birlikdə radioya qulaq asıb, televizora baxan qoyunun dadı necə olmalıdı.

Xoşbəxtlikdən kabab dadlı alındı. Qonaqlar çox idilər, əsasən qohumlar və qonşular gəlmişdilər, buna görə də rəngi ağarmış, qorxmuş, amma ciddi sınaqdan üzüağ çıxdığına görə sevinən bacıoğlunun uzandığı çarpayının başına qoyulmuş hədiyyələr də çox idi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alik küçəyə çıxdı. Xanmana ilə söhbət xoşuna gəlməmişdi, onun qorxduğu şey baş vermişdi: məclis günü gəlib çıxmış və küy qaldırmış Nadirin ona qarşı axmaq və təhqiramiz hərəkəti həyətdəki qonşuların hamısına məlum olmuşdu, yoxsa Xanmana məclisin qızğın çağında onun o axşam evə niyə belə tez qayıtdığını soruşmazdı.

Əlbəttə, Nadirin ondan zəhləsi getməsinin səbəbi vardı: öz qapındaca on altı yaşlı bir oğlanın az qala qarnını mətbəx bıçağı ilə yırtacağını unutmaq çətin idi. Qalan hər şey: hansısa macar, polyak və ya çex qadınlarıyla, Allah bilir kimlərdilər, qol-boyun çəkdirdiyi şəkillər, bacısının yanında onun şən Avropa həyatı barədə həyasız sərxoş cəfəngiyatı, poçtun həyətində yaşayan iridöşlü məşuqəsi Tosya və bacısının az qala əliuşaqlı tək qalmasına səbəb ola biləcək bir çox başqa şeylər isə, aydındı ki, unudulmuşdu, yalnız alçaldığı üçün nifrət və qorxu qalmışdı. Sonrakı illər ərzində Nadirin ona qarşı münasibətini daha nəylə izah eləmək olardı axı?

Zibil yeşikləri ilə su sayqacı arasında divara dirədilmiş Avropanın xilaskarı müqavimət belə göstərmədi, bircə anda yeganə düzgün qərar qəbul eləmək hərbi vərdiş idi və o, tərəddüd eləmədən həmişəlik nümunəvi ər və qayğıkeş ata olmağa söz verdi. Yoxsa öz qapısının ağzında qaranlıqda qarnı yırtılmış halda qalacaqdı – Alikin başqa çıxış yolu yox idi, onun yerinə kim olsaydı belə hərəkət edib, kiməsə bir xətər yetirməliydi...

Darvaza ağzındakı zibil yeşiklərinə bütün həyət pişiklərini ikinci mərtəbəyə qovmuş, nəsə, tünd rəngli pis qoxulu bir maye səpmişdilər: həyəti dövrəyə alan dar eyvanda iki qonşu qadın döşəklərin qışdan sonra yapırxmış yununu çırpırdılar və Alik, onlar uzun, elastiki çubuqlarını yerə qoyanacan gözləməli oldu...

Bacıoğlu artıq bir neçə gün idi ki, belində qırmızı sarğı, ehtiyatla mənzili gəzirdi. Bu vaxt Nadir evdə olmurdu, amma otaqdan səs eşidən Alik yenə də ehtiyat etdi: bacısının əri və onun dostlarıyla qarşılaşmağa onun heç həvəsi yox idi. Bacısının günün çox hissəsini keçirdiyi mətbəxə girərkən, Alik otaqdakı söhbətə qulaq asdı və başa düşdü ki, qonaqlar bacıoğlunun yanına gəlib.

Bacısı mətbəxdə yox idi, fışıltıyla yanan primusun üstündə iki mis qazanda nəsə qaynayırdı.

Bacıoğlu otaqdan çığırdı:

– Kimdir orda?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bacıoğlunun yanına gələnlər sınaqdan çıxmış yoldaşları idi. Onlar stolun başına yığışıb Nadirin cəbhə rəfiqələrinin şəkillərini saxladığı alboma çox oxşayan bir albomda nəyəsə baxırdılar.

Alik stola yaxın oturandan sonra sakitləşdi – alboma konfet kağızları yapışdırılmışdı, çoxunu da onlar bacıoğluna bağışlamışdılar (bunların arasında məşhur Amerika kino artistləri Meri Pikford və Duqlas Ferbenksin portretləri olan iki nadir kağız vardı).

Bacısının dediyi kimi köynəkdə doğulan bacıoğlu cəmi on üç yaşı olmasına baxmayaraq, artıq bəxti gətirən adam sayılırdı və tamam haqlı olaraq ona Bəxtəvər ləqəbi verilmişdi. Dostlarının fikrinə görə, onun hər şeydən çox dayı sarıdan bəxti gətirmişdi, yəni Alik sarıdan və əllərinə imkan düşən kimi Alikə öz hörmətlərini bildirirdilər; elə indi də, onu görən kimi hamısı birdən stullardan qalxdılar (bacıoğludan başqa, əlbəttə, o həmişə hər şeydə özünə bəraət qazandırırdı bu dəfə də bəhanəsi vardı).

– Əyləşin, əyləşin, – Alik bacıoğlunun ən yaxın dostunun (adını da Dost qoymuşdular) çəkdiyi stula çökdü və məmnuniyyətlə uşaqları nəzərdən keçirdi. Uşaqlar valideynlərindən heç də geri qalmır, ağıllı-kamallı böyüyürdülər. Bəlkə onlardan da irəli gedəcəkdilər.

Alik onları çoxdan, özünün on iki-on üç yaşı olan vaxtlardan tanıyırdı, analarının qaranlıq düşənədək həyətdə özbaşına qoyub getdikləri uşaqların onda üç-dörd yaşları vardı. On üç yaşlı oğlan o vaxt öz-özünü dolandırmağı bacarmalıydı, buna görə də uşaqlıqdan ala-babat yadında qalan nağılları bacısı oğluna və onun dostlarına danışır, həm də anasının fabrikdən gətirdiyi saplardan qadın corabı toxuyurdu; gündüz o, işdən qayıdanda milləri götürüb işlətməkdən özünü saxlaya bilmirdi.

Uşaqların içində ən çox xoşuna gələni Marat idi. Onun anası bütün gecəni köhnə makinada işləyirdi. Dost da xoşuna gəlirdi. O, yoldaşlarına sadiq oğlan idi. Hətta bu gün, bacıoğlunun anası ilə Dostun valideynləri arasında baş verən şeylərə baxmayaraq, o yenə də burdadır... Maraqlıdı, Fariz oğlunun harda olduğunu bilirmi?..

Bacıoğlu və dostları Alikin yanında söhbət eləməkdən utanır, onun nə vaxt danışmağa başlayacağını ehtiramla gözləyirdilər. O, bunu başa düşür, amma nədən başlayacağını bilmirdi; bacıoğlunun kefini xəbər almağın mənası yox idi, sifətindən görünürdü ki, onun kefi kökdür. İşlər necədi və ya həyat necə keçir kimi şablon suallar isə vermək istəmirdi. Əlbəttə, onların Mətbuat evi nəzdindəki dram



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dərnəklərində hansı əsəri hazırladıqları ilə maraqlanmaq olar, amma elə məhz onu həqiqətən də maraqlandıran bu yeganə sualı vermək onunçün çətin idi. Uşaqların düzdü, heç nədən xəbərləri yox idi, yalnız Con Ağayev əhvalatı üstüörtülü bilirdi; Maya çətin ki, hər şeyi açıb demiş olsun, amma buna baxmayaraq dili gəlmirdi...

Susub oturmaq da yaxşı çıxmırdı:

– Anan hanı?

– Aleksandra Sergeyevnanın yanındadı.

Bacısı boş dəqiqəsi olan kimi birinci mərtəbədə yaşayan, kukla fabrikinin işçisi, yaşlı, kimsəsiz qonşu qadının yanına qaçırdı.

Dost dedi:

– Biz "Qartopu" pyesini hazırlayırıq.

Zənci oğlanın həyatından danışan bu pyes barədə hələ qışda, *bacıoğlunun və onun dostlarının təkidilə Alikin bir neçə ay Mət*buat evi nəzdindəki dram dərnəyinə gəlib-getdiyi vaxtlardan söhbət gedirdi. İndi o bilirdi ki, həmin o qış ayları onun həyatında ən yaxşı günlər imiş. O vaxt isə əksinə düşünürdü. Sergey Mixalkovun "Mühüm tapşırıq" pyesini məşq edirdilər. Böyüklərin roluna aktyor çatışmırdı, buna görə də dərnəyin rəhbəri alçaqboy, qarayanız yoldaş Emil Alikin kapitan Qorkoşu oynamasına razı oldu. Bu zabitlərdən birinin famili idi; ikincisini, Strelsov familiyalını isə sənaye institutunun tələbəsi Con Ağayev oynayırdı. Alik onu yeddinci sinifdən tanıyırdı. Con hələ o illər böyük ümidlər verirdi və məktəb gecələrində (o gecələrə Aliki keçmiş sinif yoldaşları dartıb aparırdılar) daima müvəffəqiyyətlə qənimət italyan akkordeonunda "Silva" operasından "Bu dünyada qadınsız yaşamaq mümkün deyil" ariyasını çalırdı. (Dərnək üzvləri arasında onun böyük hörməti vardı: yoldaş Emil ona, başı instituta qarışdığına və dərnəkdəki köhnə xidmətlərinə görə məşqlərə gəlməməyə icazə vermişdi. Con sübut elədi ki, belə bir etibara doğrudan da haqqı var. Alikin üç aydan çox vaxt sərf elədiyi mətnin öhdəsindən tünd-göy, dərnək qızlarının dediyi kimi boston pencək geymiş Con ikicə məşq ərzində gəldi.

Nəyisə çaş salmamağa və sözləri qarışdırmamağa çalışdığından Alik hər dəfə yoldaş Emilin məşq vaxtı ona verdiyi göstərişləri unudurdu. Mayanı vals oynamağa dəvət etdiyi səhnə (rolda Vera adlanırdı) xüsusilə çətin idi, – o bu yerdə özünü elə itirirdi ki, yoldaş Emilin tələb etdiyi kimi nəinki inamla və təkəbbürlə gülüm-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sünə bilmir, əksinə, qızarır, dili topuq çalır və rəqsə başlayarkən ayaqları dolaşırdı. Yoldaş Emilin alnında makaron kimi yoğun, şişmiş bir damar vardı, adətən xeyirxah olan gözləri acıqla bərəlirdi, qalın, əyri türk qılınclarına oxşar qaşları burnunun üstündə birləşirdi. O, ucadan fısıldamağa başlayırdı və sağ əlinin yumruğuyla gərilmiş sol ovcuna vururdu. Sonra, düzdü, üzr istəyirdi, amma o dəqiqələrdə özünü saxlaya bilmirdi və adama elə gəlirdi ki, indicə ürəyi partlayacaq.

Con məşqlərə gələn kimi hər şey nəsə asan və şən keçməyə başladı. O, yoldaş Emili tez sakitləşdirir, Aliki isə kənara çəkib, ürək-dirək verirdi ki, sıxılıb-eləməsin, onda kifayət qədər aktyorluq qabiliyyəti var, hər şey qaydasındadı, o ki qaldı əsəbi Emilə, onun iradları o qədər yersizdi ki, onlara fikir vermək sadəcə axmaqlıqdı. Alik yaxşı başa düşürdü ki, Con yalan deyir, amma bu sözlər onu sakitləşdirirdi. Ən dözülməzi də bu idi ki, Emil bacıoğlunun və onun dostlarının yanında Alikin üstünə qışqırırdı. Amma nə olursa olsun, əgər Conun təşkil etdiyi o dəhşətli hadisə olmasaydı, Alik dərnəyi heç vaxt atmazdı. Bunu ifadə etməkçün başqa söz tapmaq çətin idi...

Alik onu iyirmi fevraldan bu günə qədər dünyada hər şeydən çox maraqlandıran dərnək barədə soruşmadan stuldan qalxdı və bacıoğlunu arxasınca çağırıb, dəhlizə çıxdı.

Diribaş Bəxtəvər o saat, sualsız-zadsız bu səhər Alikin bacısının başına gələn əhvalatı danışmağa başladı. Onu doğrudan da, Dostun atası, Fariz itələmişdi, elə itələmişdi ki, o, məhəccərə dəymiş və bir böyrü sıyrılmışdı. Fariz isə öz "villis"inə əyləşib, maşınından və cibli boz frençindən göründüyü kimi böyük vəzifədə işlədiyi Dəvəçiyə çıxıb getmişdi.

Farizin kiçik oğlu beş yaşlı İzik yenə də ikinci mərtəbənin eyvanından həyəti "sulamışdı". Alikin bacısı onu yumşaq yerindən şappıldatmışdı. İzikin özünə, onun anası Xalidəyə də dəfələrlə izah eləmişdilər ki, camaatın başını "islatmaq" yaxşı deyil, amma Xalidə cavabında yalnız gülmüşdü, oğluna isə bir kəlmə belə deməmişdi. Onda uşaqlar Dostun razılığı ilə onu özləri cəzalandırmağı qərara aldılar – həyətdə tutub, təpədən dırnağadək "islatmaq" istədilər ki, bunun necə xoşagəlməz bir şey olduğunu uşağa başa salsınlar, – amma bu vaxt Alikin bacısı araya girmiş, balacanı xilas



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edərkən, yüngülcə onun yanını şappıldatmışdı. Uşaq bağırmağa başlamış, bu vaxt Fariz evdən bayıra atılmış və soruşub eləmədən öz gücünü göstərmişdi, qadına əl qaldırmışdı... İndi nə olacağını heç kim bilmir; bacısı bütün günü ağlayır, Fariz Dəvəçiyə gedib, bacısının əri isə dünəndən qospitalda növbədədir və axşam evə gec qayıdacaq...

Alik bacıoğlunu sakitləşdirdi, izah elədi ki, qonşu səhvə yol verib, – qadına əl qaldırmağa heç kimin hüququ yoxdur. Səhvə görə isə vəzifələrindən asılı olmayaraq, hər bir kəs cavab verməlidir. Bu Farizə heç kimin gücü çatmayacağı barədə qonşuların çərənləməsi isə boş söhbətlərdir, ədalətsiz hərəkətlərinin altını çəkməyən adam yoxdu. Yalnız atanın növbədən gəlməsini gözləmək lazımdı, söz düşmüşkən, o da balaca adam deyil, müharibədən keçib, Farizdən də betərlərinin başına ağıl qoyub...

Belə bir izah bacıoğlunu tamam təmin edirdi, o hətta şənləndi də, Alik isə onun qıvrım başını tumarlayıb, həyətə çıxdı.

İstiyə baxmayaraq, Farizin qapısı örtülüydü; nə aşağı mərtəbədə yaşayanların başını "islatmağı" sevən uşaq, nə də onun valideynləri görünürdü. Xırda yun parçaları havada uçuşaraq batmaqda olan günəşin şüaları altda parıldayırdı. Qonşu qadınlar çubuqlarını bir dəqiqəliyə saxladılar və aşkar bir maraqla Alikə baxdılar.

Alik dolama pilləkənlə qaranlıq giriş yoluna enib, ordan küçəyə çıxaraq, sağa bir nəzər saldı: orda, tində, akasiyaların altında, günün bu vaxtında həmişə olduğu kimi bir neçə adam toplaşmışdı. Buna görə də Alik sola döndü və dik küçəylə yuxarı getdi. Şübhəsiz, Farizin onun bacısının üstünə hücum çəkməsindən artıq hamının xəbəri vardı və bu barədə söz-söhbətdən yaxasını qurtara bilməyəcəkdi. Məhəllənin axırınacan gedib, tini buruldu, sonra bir də buruldu və paralel küçə ilə geriyə, şəhərin mərkəzinə tərəf getməyə başladı...

Ərzaq mağazasının yanında – burda dala-qabağa vurnuxan adamların arasında onu sezmək çətin idi, – dayanıb müşahidəyə başlayanda, Təzə bağın iri, yumru saatı yeddiyə on beş dəqiqə qaldığını göstərirdi. Təxminən on dəqiqədən sonra Maya giriş qapısından çıxmalıydı. Yeddiyə beş dəqiqə qalmış qız gödək pilləkənin yuxarı pilləsində göründü və mağaza tərəfə baxdı. Qızın onu görmədiyinə əmin idi. Alik qeyri-ixtiyari gözlərini yayındırdı və bir addım gerilədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maya səkiyə düşüb enli çiyinlərini yellədə-yellədə Mətbuat evinə tərəf getdi. Bir az gözləyib, qızın arxasınca yollandı, onu gözdən itirməməyə çalışır, arada məsafə saxlayırdı.

Su köşkünün yanında qız bir stəkan su içdi, yenə ətrafına boylandı, hər halda Alikə belə gəldi, yoluna davam elədi. Bir məhəllə keçəndən sonra qız bir dəqiqəliyə zərgərlik məmulatı qoyulan vitrinin önündə ayaq saxladı. Orda qızı maraqlandıran nə idi? Yaxınlaşıb soruşa biləydi, özü də yoldaş Emilin məşqlərdə öyrətdiyi kimi gülümsəyəydi. Niyə də yox? Qızdan beş yaş böyük olar, qızın cəmi on səkkiz yaşı var, deməli bu yaş fərqi heç də az deyil. Pul isə tapardı. Yerin deşiyindən də olsa tapardı.

Qız addımlarını yeyinlətdi, o da cəld getməyə başladı. Əlbəttə, ən yaxşısı bu olardı ki, qızı kimdənsə qəfil müdafiə eləmək ehtiyacı çıxaydı ortaya. Bu vaxt gülümsəmək və suallar vermək lazım gəlməyəcəkdi, onun kişiliyi və qıza necə münasibət bəslədiyi o saat aydın olacaqdı. Bəlkə də bundan sonra qızla danışmağa mane olan utancaqlıq keçəcəkdi. Dəfələrlə görmüşdü ki, başqaları – tanışlar da, yadlar da – hamı bunu asanlıqla edir. Con Ağayev isə o saat, tanış olduqlarının elə birinci axşamı qucaqlaşmağa girişdi. Qız onu itələmədi də. Düzdü, yaxşı bəhanə tapılmışdı. Söz yox. Deyəsən, ona, Alikə yaxşı münasibət bəslədiklərinə görə belə elədilər. Onlara haqq qazandırırdı, onun nəbzi dayandı, nəfəsi gəlmədi və meyit kimi gözləri qaralıb, guppultuyla parket döşəməyə dəydi. Özü günahkardır: həmişəki kimi gedib zalın axırındakı yerində oturmalıydı, yoldaş Emil birinci dəfə deyildi ki, onun üstünə qışqırırdı? Amma bu vaxt məşqlərə təzə gəlmiş həmin o Con Ağayev araya atıldı, onu kənara çəkib, çərənləməyə başladı ki, onda anadangəlmə aktyorluq qabiliyyəti var, amma Emil əsəbiləşib çığırdığına görə o həyəcanlanır və nəticədə bu qabiliyyət boğulur. Birdən hər şey kəsildi – elə bil uçuruma yuvarlandı, qaranlıq və sükut. Ona elə gəldi ki, Con cəmi bir saniyədi susur, əslində isə guppultuyla döşəməyə yıxılandan sonra ən azı beş dəqiqə huşsuz halda uzanıb qalmışdı; Con düşünüb ki, Alik ayaqları altda nəsə görüb və onu qaldırmaq üçün əyilir, Alikinsə başı qəfildən parketə dəydi. Bütün bunları ona onda danışdılar, gözlərini açdığı ilk anlarda isə heç nə anlaya bilmirdi. Heç cürə başa düşə bilmirdi ki, niyə səhnədən bir az aralı döşəmədə uzanıb, hamı onun başına yığılıb, yoldaş Emil isə onun əlindən tutub və titrək dodaqları tez-tez tərpənir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra başına yığılan adamlar sevincdən atılıb-düşməyə başladılar, Con Ağayev isə Mayanı qucaqlamağa cumdu. O bunu aşkar görürdü, gözünə görünüb eləməmişdi...

Sonuncu sütunun yanında durub, qıvraq, dolu bədənli Mayanı baxışlarıyla Mətbuat evinin fırlanan şüşə qapılarınadək ötürdü. O yenə də qızın çiyinlərinin yellənməsinə fikir verdi. Başqa heç nə görə bilmədi, çünki nəzərləri onun kürəyinə dikilmişdi.

İndi saat doqquza qədər boş idi. Məşq iki saat çəkirdi, bunu öz şəxsi təcrübəsindən yaxşı bilirdi. Mətbuat evinin sərin, mastika iyi gələn zalında keçən o gözəl qış axşamları barədəki xatirələrdən ürəyi gizildədi – ömründə birinci dəfə ağıllı adamlarla yanaşı oturmaq imkanını o vaxt necə olub ki, qiymətləndirə bilməyib?! Təkcə yoldaş Emil nəyə desən dəyərdi! Xüsusən dənizçilər klubuna gedirdilər ki, onun "Nəsrəddin Buxarada" filmində, başında çalma, – sifəti bütün ekran boyu – eşşək belində çapmasına baxsınlar! Onların məşqləri necə də maraqlıydı! Emilin çığırtılarından xəcalət çəksə də, maraqlıydı. Hələ Mayanı valsa dəvət eləyəndə paraşüt qülləsinin yuxarı meydançasından tullananda olduğu kimi içində hər şey donurdu! Bunlar bir də heç vaxt təkrar olunmayacaq! Eh, Con, Con, hər şeyi korladı! Hər şeyi korladı! Amma özü də düz eləmədi, gərək razı olmayaydı! Axmaq.

Alik öz-özünə deyindi, atılıb, örtülü bazardan çuvallarını sürüyüb çıxaran iki nəfər yaşlı kolxozçunu relslərdən qovmaq üçün aramsız zəng çala-çala yanından ötən tramvayın pilləsinə mindi.

Niyə Conun sözünə qulaq asdı?

Qarşıdan əsən sərin meh üzünü oxşayırdı, buna baxmayaraq, özünü vaqona girməyə məcbur etdi. Boş yer yox idi və Alik parıldayan tutacaqdan tutub ayaq üstə durdu və o vaxt Conun təklifinə razı olduğuna görə fikrində özünü bir də söydü: "Bu, tipik klinik ölümdü, sən o dünyadan qayıtmısan, bunu qeyd etmək lazımdı!" Budur, qeyd etdilər. O axşam ölsəydi bundan yaxşıydı!

Con bir neçə günə hər şeyi təşkil etdi. Əvvəlcə qızlarla, sonra hansısa bir yoldaşıyla danışdı: yoldaşı anasının ölümündən sonra dayısının yanında yaşayırdı və Qara şəhər körpüsünün yanında bir neçə ildi ki, boş qalan mənzili vardı.

Əvvəlcə ona elə gəlirdi ki, bütün bunlar boş söhbətlərdi, çərənçilikdi, heç cür inanan olmurdu ki, qızlar (xüsusən də qaradinməz onuncu sinif şagirdi Valya Quryanova) onun, Alikin iştirak edəcəyi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gecəyə gəlməyə razı olsunlar. Amma Con bu işin uğurla qurtaracağına şübhə eləmirdi.

Onlar qəlyanaltı və şərab alıb, Telefonnı küçəsində, əczaxananın yanında qızları gözləyəndə, o, işgüzarlıqla maraqlandı ki, Alik qızlardan hansını seçmək istəyir.

– Bu gün sənin günündür, – elə dedi ki, guya qızların ikisi də çoxdan ona mənsubdurlar. – Hansını istəyirsən, seç.

Alik söhbəti kəsməyə çalışdı:

– Orda ayırd elərik.

– Yox, – Con etiraz etdi. – Burda çaşbaşlıq ola bilməz. Şəxsən mənimçün fərqi yoxdur, amma mən aydınlıq tərəfdarıyam. Hansı daha çox xoşuna gəlir?

Alik etiraf eləməli oldu.

– Əla, – Conun kefi duruldu. – Düz seçmisən. Maya etibarlıdır!

Əlbəttə, onun "etibarlıdır" deməkdə nəyi nəzərdə tutduğunu aydınlaşdırmaq pis olmazdı, amma elə bu vaxt qızlar trolleybusdan düşdülər, qəti bir-birlərinə oxşamırdılar, – əvvəlcə hündürboy, ciddi, uzun saçları olan Valya, sonra isə çevik, üzügülər, saçları qısa vurulmuş Maya düşdü – ikisi də geyimli-kecimli, səliqəli və nəsə təmtəraqlı idilər.

– Əhsən, – Con onları təriflədi və Alikin qış ərzində bircə dəfə də (yoldaş Emilin cidd-cəhdinə baxmayaraq) bacarmadığı bir tərzdə gülümsündü. – Əla təsir bağışlayırsız. Başlıcası isə gecikməmisiz...

Qapısını zor-bəla ilə açdılar. Çoxdan qızdırılmayan mənzilin soyuq otağında Con cəld şərabı, kolbasanı və çörəyi stolun üstünə düzüb, paltodaca oturmağı əmr etdi.

– Qızınandan sonra, – o hiyləgər bir təbəssümlə dedi.

Otaqda stoldan başqa divan, şkaf və üstündə patefon olan tumboçka, stolun ətrafında isə, kifayət qədər stul vardı, amma Con nədənsə stolu divanın yanına sürüşdürməyi təklif etdi. Sürüşdürmək lazım gəldi; Alik olmasaydı, Cona qızlar kömək edəcəkdilər – çünki eyni vaxtda, itaətlə ikisi də stola tərəf atılmışdılar.

– Valeçka, mənə yaxın otur, – Con əmr elədi və əlini divana çırpdı. Elə bil küçüyü çağırırdı. Amma ciddi Valya Quryanova incimədi və itaətlə ona göstərilən yerdə oturdu. Maya və Alik stulda oturdular.

Maya dedi:

– Bura soyuqdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alik təsdiqlədi.

Onlar şkafdan tapdıqları qədəhlərə şərab süzüb içdilər.

– Yaxşı mənzildi, – Maya otağı nəzərdən keçirə-keçirə dedi. – Bura yemək otağıdır, orda isə, yəqin, yataq otağı yerləşir.

– Düz düşünürsən. Mayeçka, – Con gülümsədi. – Təqdir edirəm. Bəlkə Aliklə yataq otağını bir gözdən keçirəsiz? Maya çiyinlərini çəkdi və Alikə çəpəki nəzər saldı, o isə gözlərini yerə dikdi. Kimin ağlına gələrdi ki, Con belə həyasızdır!

– Hə, gəlin, son badəni də vuraq, – Con qədəhini qaldırdı, – və ayrılaq. Özünüzlə ora şərab götürməyi unutmayın, daha şən keçər.

Əgər bu vaxt qızlardan biri belə həyasıza bir dənə ilişdirsəydi, Alikə təəccüblü gəlməzdi. Amma qızlar ona bir kəlmə belə demədilər; düzdü, şəraba əl vurmadılar.

Maya təklif elədi:

– Bəlkə, musiqi qoyaq?

– Əşi, bunun harası musiqidi, – Con patefona doğru uzanmaq istəyən Aliki dayandırdı, – o nə vaxtdandır ki, işləmir, hə, ora gedirsiz, ya yox?

– Hara? – Alik söhbətin onun Maya ilə yataq otağına keçməsindən getdiyini bilə-bilə küt-küt soruşdu.

Con təəssüflə ona baxdı və Valyaya tərəf döndü.

– Valyuşa, – o, əlini qızın çiyninə qoydu, – dostlara güzəştə getmək lazımdı. Onlar istəmirlərsə, biz gedək. Getdik?

Qürurlu Valya Quryanova onun əlini öz çiynindən atmaq əvəzinə dinməzcə Conun ardınca o biri otağa keçdi.

Hər şeyi həll edən də elə bu oldu. Aydın oldu ki, Alik bu dünyada hələ çox şeyləri başa düşmür. Conun dayanacaqda dediyi "etibarlıdı" sözünün mənasına şübhə yox idi. Qoy olsun "etibarlı". Necə deyərlər, canavarla yaşayırsansa, canavar kimi də ulamalısan. Hər halda belə vəziyyətlərdə nə eləmək lazımdısa, o, hamısını eləyəcək. Onu ələ salıb gülməsinlər deyə, eləyəcək. Onsuz da bunu yoxlamaq istəyirdi, kişi deyildimi məgər? Bu ürək nə yaman döyünür belə!

Sonra elə bil kiminsə əmrini yerinə yetirirmiş kimi hərəkət eləməyə başladı: "Sənə soyuq deyil ki?" – deyə, sual verib, cavab gözləmədən yaxınlaşdı və Mayanı qucaqladı. Qızın təəccüblü baxışlarına əhəmiyyət vermədən onu qucağından buraxmadan divana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tərəf çəkdi: bəlkə də qız müqavimət göstərmişdi, amma o, bunu sezmədi; bircə hərəkətindən sonra qız artıq divanda onunla yanaşı idi...

Sol əli yumşaq yun bluzkanın altında yumru çiyini sıxır, sağ əli isə qızın dizini tumarlayırdı. Mayanın böyrünə qısıldığından, qızın bütün bədəninin gərginləşdiyini duyurdu.

Qız soruşdu:

– Hə, sonra nə olsun? – onların baxışları qarşılaşdı.

– Heç nə.

– Nə istəyirsən?

– Bəs sən bilmirsən? – Nəhayət bütün qışı onda alınmayan bir tərzdə gülümsündü, yoldaş Emil burda olaydı! İstədiyinə nail olacağına əmin olan bir adamın təbəssümüydü bu.

Qız bu təbəssümə elə bir baxışla cavab verdi ki, Alikin əlləri az qala öz-özünə boşalacaqdı, amma qonşu otaqdan Valya Quryanovanın pıqqıltısı eşidilirdi.

Maya dedi:

– Burax!

O, qızı öpməyə cəhd elədi, dalbadal bir neçə dəfə cəhd göstərdi, amma bunlar uğursuz oldu: qız başının qısa və dəqiq hərəkətləriylə dodaqlarını qaçırırdı – o gah yanağa, gah da çənəyə düşürdü.

– Burax!

Qızı arxası üstə yıxdı; indi onlar yanaşı uzanmışdılar, sol əli qızın başı altda qalmışdı, amma sağ əlinin hərəkət eləmək imkanı vardı. Böyrü üstə çevrilib nəfəsi təngiyə-təngiyə qızın üzünə baxdı.

Qız soruşdu:

– Hə, sonra nə olsun?

– İndi görərsən.

*Qız sakit halda istehzayla gülümsündü və birdən aşkar əsnədi.*

– Hə, tərpən görək, – qızın bədənində duyduğu həyəcan birdən yatdı, donunu aşağı dartan əli heysizləşib kənara düşdü, gözləri laqeydliklə qapandı.

Belə hallarda nə eləmək lazım olduğunu Alik az da olsa bilirdi, artıq iyirmi üç yaşı vardı və bu mövzuda söhbətləri çox eşitmişdi; buna görə də yubanmadan qətiyyətlə əlini donun altına soxdu. Geniş açılmış əli müharibə vaxtı anası və bacısıyla toxuduğu coraba heç oxşamayan bir corabın ipəkvari səthinə toxundu, ayaq boyu yuxarı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qalxdı, corabın qırağına çatdı, qızla təmasdan ona hərarət gəldi, qızsa astadan içini çəkdi, onun əli soyuq idi.

Qız gözlərini açmadan tərpənməz halda uzanıb qalmışdı. Qısa tünd-xurmayı və azacıq burulmuş saçları qızın dolu qadın bədəninə uyğun gəlməyən oğlan sifətini daha da dəyirmiləşdirirdi.

Alik birdən bayaqdan duymadığı bir şeyi – bir neçə il qızdırılmayan bu mənzilin qəbir soyuqluğunu hiss etdi.

Qız elə uzanmışdı ki, sanki baş verənlərin ona qəti dəxli yox idi. Hətta soyuğun belə.

Qonşu otağa sakitlik çökmüşdü.

Qızın qarnını bərk sıxan bu kəməri bir də dartıb, əlini götürdü və kənara çəkildi...

Qız nədənsə durmaq imkanından istifadə eləmədi və qarnınadək qaldırılmış paltardaca uzanılı qaldı. Hətta ətəyini belə dartmadı. Bunu Alik özü elədi. Oturdu. Bərk şaxtaya düşübmüş kimi titrəyirdi. Amma məsələ soyuqda deyildi. O, soyuğu duymurdu. Əksinə, istilənmişdi – qəfildən, baş verən şeyi kənardan gördü və ürəyini sıxan odlu bir xəcalət bədənini qızdırmalı kimi titrətdi...

Tramvay iti gedirdi, buna görə də Üçüncü Paralelninin tinində yerə atılanda bədənini, xeyli dala verdi ki, müvazinətini itirib yıxılmasın.

Anasının çox gedib-gəldiyi professor-nevropatoloqun evinə yarım məhəllə qalmışdı. Hələ qaranlıq düşməmişdi, amma bürkü yatmışdı, sərin meh əsirdi və köynəkdən qara ləkələr şəklində çıxan tərin səbəbini xoşagəlməz xatirələrdən başqa bir şeylə izah etmək mümkün deyildi.

Geniş daş pilləkənlə qalxıb, zəngi basmazdan əvvəl bir az təri soyusun deyə, tində durdu.

Əlbəttə, o axşam istədiyinə nail olsaydı, indi hər şey başqa cür olardı – Con Ağayev ki, heç kimdən gizlənmir. Amma yaxşı, alınmadı, alınmadı, bəs onda niyə qaçdı? Lap xəcalətdi! Yaxşı ki, ağlına gəldi, özünü acıqlı kimi göstərdi. Qapını çırpıb getməyi unutmadı. Conu söyməyi də yerində oldu; yazıqdı, amma düzgün elədi. Bir də ki, bu Con heç vaxt onun xoşuna gəlmirdi, o axşamkı həyasız davranışına görə lap ona yaxşıca bir ilişdirmək də olardı. “Nə olub



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sənə? Hara belə?! Əşi bir gözlə!" – yalnız Con kimi bir həyasız bircə alt paltarında həyətə qaça bilərdi. Üstəlik bağıra-bağıra əlindən də yapışırdı. Amma onu söyən kimi o saat susdu. Yaxşı ki, onu vurmaqdan özünü saxlaya bildi. Əli yaman gicişirdi! Hər şeyə görə: boston pencəyinə, italyan akkordeonuna, Valya Quryanovanın o axşamkı itaətkarlığına, öz uğursuzluğuna görə vurmaq istəyirdi Conu.

Bir yandan baxanda Conu əclaf adlandırmaq olmazdı. Sonralar dəfələrlə gəlib, dərnəyə qayıtması üçün dilə tutmuşdu onu. Bacıoğlu və onun dostları da Aliki dilə tuturdular. Yazıqlar nə baş verdiyini anlaya bilmirdilər. Yalnız Maya uşaqların vasitəsilə ona salam göndərəndə – məlum deyildi, qız niyə belə eləmişdi – bəzi şeyləri başa düşməyə başlamışdılar. Bununla belə yaman fikir çəkirdilər. O lap gözlənilmədən, premyeraya az qalmış məşqləri atmışdı. Özü də o qədər əziyyətdən sonra. Yazıq Emil...

Qapını professor özü açdı. O, qısaqol tor maykada və zolaqlı pijama şalvarında idi.

– A-a-a, Alik, keç, keç, əzizim, çox şadam.

Professor həmişə hamıya şad idi, buna görə də belə mehriban qarşılanmağında Alik üçün təəccüblü heç bir şey yox idi. Elə uşaqlıqda da onu burda beləcə qonaqpərvərliklə qarşılayırdılar. Kiminsə ev sahiblərini anlaşılmaz "kosmopolit" sözüylə qorxutduğu o illər – kimsə professora belə ad qoymuşdu – arvadıyla (o da nevropatoloq idi) mənzildə səslərini qısıb gəzir, hər qapı zəngindən diksinirdilər. Amma qonaqlara sevinməkdən qalmırdılar. Hətta Alikin anasının gəlişinə də sevinirdilər – bunlar yeganə adamlar idilər ki, anasının başlarına nə oyunlar açmasına baxmayaraq, neçə il idi ki, ona dözürdülər. Üstündən bir ay keçirdi, anası yenə onların yarasına toxunurdu.

Bu gün də eləydi. Otağa girən kimi aydın oldu ki, anası yenə bir oyun çıxarıb. Alik çay içərkən professor və arvadı gülümsəməyə çalışaraq, anası barədə danışırdılar, amma qanlarının qara olduğu görünürdü. Professorun noxudla fal açan doxsan yaşlı anası belə narazılıqla başını bulayır, falla məşğul olduğuna görə söhbətə qarışmayıb, nırçıldayırdı.

Anası, əlbəttə, lap ağlını itirib! Buna şübhə ola bilməz! Professorun doxsan yaşlı anası yox, onun, Alikin heç altmış yaşı tamam olmamış anası. Yəqin ağlını itirib! Onun hərəkətini başqa cür izah



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etmək mümkün deyil. Evdə yaşamamağı, özgə mənzillərini gəzməyi az deyilmiş, – belə çıxır ki, onun köməyi olmadan keçinmək olmaz! – indi təzə şıltaqlığı çıxıb ortaya: beyninə düşüb ki, guya professor öz anasına yaxşı baxmır.

Alikin yadına düşdü ki, anası bunu ona da deyirdi:

– Arvadın təqaüdü yoxdu.

– Nə olsun ki? O ki heç vaxt işləməyib. Nəyə görə ona təqaüd verməlidirlər?

– Mən də ona görə deyirəm. Onunçün kim palto alacaq?

– Nə palto? Palto qarının nəyinə lazım? Qarı artıq on ildi ki, taxtdan durmur.

Amma anası yenə təkid edirdi ki, qarıya palto vacibdi. Nəhayət, özünün xadimə maaşıyla qarıyçün palto aldı. Alik anasının işlərinə qarışmamağa çalışırdı. Buna görə da professor ondan anasına təsir göstərməyi xahiş edəndə, Alik o saat rədd cavabı verdi.

Sonra anası qarıyçün qış ayaqqabıları və qıraq-bacaqçün yun kofta aldı. Amma ən dəhşətlisi buydu ki – bu yerdə professor və arvadı kədərlə bir-birlərinə baxıb gülümsündülər – Alikin anası bütün bunlar barədə "Komsomolskaya pravda"ya yazmışdı. Üstəlik professoru bunda günahlandırmışdı ki, onun mənzilinin damı damır, professorsa damı düzəltmir və bununla da qarının səhhətini korlayır.

Dam doğrudan da çoxdan damırdı, amma professorun dəfələrlə xahiş eləməsinə baxmayaraq, evlər idarəsinin rəisi nədənsə təmiri yubadırdı. Alikin anasısa belə hesab edirdi ki, hər şeydə günahkar professordur və "Komsomolskaya pravda"ya məktubunda elə beləcə də yazmışdı.

– Ən gülməlisi budu ki, – professor utancaqlıqla gülümsündü, o indi girdəyanaq eynəkli uşağa oxşayırdı, – bu məktubdan sonra damı təcili olaraq düzəltdilər. Amma mən nə haldayam?

– Onun məsələsini institutda müzakirəyə qoymağa hazırlaşırlar, – arvadı ah çəkdi.

– Buna hələ şükür, – professor məzəmmətlə arvadına gülümsündü. – Dözülməzi budu ki, anan bizim barəmizdə pis fikirdədir.

– Əşi, ona niyə fikir verirsiz? – Alik özündən çıxdı. – Xəstə adamdı.

Alikin anasının doğrudan da qəribəliklərdən xali olmadığına etiraz etməyən professor və arvadı uzun-uzadı onun xeyirxahlığını və başqa insani keyfiyyətlərini təriflədilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu həqiqət idi: anası son tikəsini də bölüşdürən adam idi. Amma professor və arvadı da xeyirxah adamlar idilər. Alik öz şəxsində buna dəfələrlə əmin olmuşdu. Uşaq vaxtı da, böyüyüb tamam sərbəst adam olandan sonra da. Bax elə indi də, professor arvadının mətbəxə keçməsini gözləyib, canıyananlıqla onun işləriylə maraqlandı, sonra astadan Alikin əsəbi tərzdə düyünlənmiş yumruğuna toxundu və rus dilinə keçərək, çox ciddi tərzdə xahiş elədi ki, onunla açıq danışsın.

Yarımsərsəm anası olan bir adam burda ehtiyatlanmasın neyləsin? Əgər anası yenə nəsə bir şey çərənləməmişdisə, professor ondan açıq danışmağı niyə xahiş edirdi?

Bu dəfə anası lap ağını çıxartmışdı.

Professor sualı sual dalınca verirdi və istədin-istəmədin cavab verməli olurdun... Bəli, doğrudan da bu, qışda olmuşdu. Fevralın axırında. Beş yox, üç dəfə. Hə, soyuq idi. Səbəbi? Səbəbini izah eləmək çətindi. Yox, bəlkə deyəsən?.. Məgər Alikin susmağı düzgünmüdür? Anasından inciməməlidir. Bu barədə professora deməkdə ana lap düzgün hərəkət edib. Məgər Alikin özünə qəribə gəlmirmi ki, on dərəcə şaxtada beş dəfə, ah, hə, bağışla, beş yox, bir gecə ərzində üç dəfə həyət kranının soyuq suyuyla yuyunub?

Yox, qəribə gəlmir. Niyə? Çünki bunun səbəbi var. Nə səbəbi? Həkimin suallarına cavab verilməlidi. Məgər Alik bunu bilmirmi? Onda niyə susur? Hə, di yaxşı. Belə şey bir də təkrar olunmadı ki? Yox. Heç vaxt? Heç vaxt.

Professor köksünü ötürdü və nəzakətli olmasına baxmayaraq, Alikin qəribə gecə yuyunmalarının səbəbini aydınlaşdırmaq üçün bir də cəhd elədi, amma yenə heç nəyə nail olmadı.

Alik deyə bilməzdi ki, o mənzildən qaçandan sonra bütün gecəni Mayanı yuxusunda görüb! Gözlərini qapayan kimi eyni şey təkrar olunurdu: yenə həmin yerə düşürdülər, amma artıq Con və Valya qonşu otaqda olmurdular, onlar tək idilər və qız tamam çılpaq halda yanında uzanıb, onu qucaqlayır, özünə sıxır, sığallayır, sığallayırdı... Bu o qədər davam edirdi ki, ayılandan sonra həyətə qaçıb, soyuq suyun altına girməyə məcbur olurdu.

O gecə soyuq sudan az qala ölmüşdü.

Anası fikirləşirdi ki, Alik ağlını itirib, ona görə də hay-küy qaldırmışdı. Onu güclə sakitləşdirmişdilər, amma görünür, ana tamam sakitləşməmiş və professora şikayətlənmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saat doqquza az qalmış Alik Mətbuat evinin yanındakı tramvay dayanacağında durmuşdu. Burdan giriş qapılarını yaxşı görürdü və hər an tramvaya minmək və ya sezilmədən örtülü bazara tərəf geri çəkilmək olardı. Amma adətən qız küçənin bu tərəfinə keçmirdi, qapıdan çıxandan sonra "Fantaziya" hamamının yanından keçib, Vorontsov küçəsiylə evlərinə qayıtmaq üçün "Nizami" muzeyinə tərəf burulurdu. Qız heç vaxt, hətta qışda da tramvaya minmirdi.

Alikə yenə elə gəldi ki, qız qapıda görünəndə ona tərəf baxdı və baxışlarıyla dayanacaqdakı adamların arxasında onu tapandan sonra tini buruldu. O buna əmin idi. Amma küçəni keçib, qızın cəld uzaqlaşan fiqurunu görəndən sonra sakitləşdi və addımlarını yeyinlətdi. Əlbəttə, qız birdən dönüb onu görməsin deyə aralı gedirdi. Aralarında baş verən hadisədən sonra Alikin onun dalınca necə düşdüyünü görmək, lap ağ olardı. Əgər onlar hardasa təsadüfən qarşılaşsaydılar, başqa məsələ. Özü də elə-belə, ayaqüstü, salaməleyküm, sağ ol, yox, yaxşı olardı ki, qıza bir qulluq göstərəydi, qoy qız ona necə münasibət bəslədiyini bilsin...

Vorontsov küçəsində axşamlar gedib-gələn az olurdu, bunun əksinə olaraq, hər həyətin ağzında adamlar otururdular: söhbət edir, tum çırtlayır, loto, domino oynayırdılar. Kişilər gözə az-az dəyirdilər, səsləri gəlmirdi, onlar astadan, ciddi söhbətlər edirdilər. Buranın sakinləri qarışıq idi – azərbaycanlılar, ruslar, ermənilər – özü də o qədər də təmkinli deyildilər: bir şey olan kimi kömək üçün milisə qaçırdılar. Özləri başlayır, amma onlara cavab qaytaran kimi bütün şəhərə həşir salırdılar. Alikin doğma küçəsi başqa məsələ – burda artıq milisə qaça bilməzsən. Hərə özünə cavabdehdir. Bacarmırsa, dözür. Necə deyərlər, ailədə hamı eyibsiz olmur ki...

Bu yerdə Alikin yadına bacısı düşdü. Bacısı Farizlə tutaşmağa məcbur olub: elə əvvəllər də ona bel bağlamaq olmazdı, indi isə lap etibarsızdı, hər nə desən gələr əlindən.

Maya küçə qapılarına çatdı. Alik hər ehtimala qarşı addımlarını yavaşıtdı – birdən qız çönüb baxa bilər. Qız ətrafa baxmadan həyətə girdi, Alik addımlarını yeyinlətdi ki, qızı pilləkəndə tutsun.

Küçə qapısının alaqaranlığında qız demək olar ki, görünmürdü və pilləylə iki yeyin addım atandan sonra pillərənin döngəsində tamam görünməz oldu, amma səni görəcəklərindən qorxmadan qıza



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir də baxmaq xoş idi. Sonra həmin xoş əhvalla üçüncü mərtəbədə qapının döyülməsinə, kilidin çıqqıltısına qulaq verdi. Bundan sonra qapı zərblə çırpıldı və sakitlik çökdü. Qayıtmaq olardı...

Alik küçə qapısına aparan, üç pillədən ibarət kiçik pilləkəni bir dəfəyə atılıb dəf etdi və Maya ilə üz-üzə gəldi. Qız gülümsəyirdi...

Geriyə yol yox idi – ikinci dəfə isə qaça bilməzdi, – irəli getməli oldu: salamlaşdı, gözlərini yayındıraraq qızı keçdi və işgüzar bir yerişlə pilləkənə tərəf yönəldi. Daha neyləməliydi ki? Dayana bilməzdi axı.

– Mənim yanıma gəlmisən? – arxadan verilən sual sanki iti, soyuq bir bıçaq kimi kürəyinə sancıldı, addımını yavaşıtdı.

"Hə, sənin yanına", demək istədi, necə deyərlər, qoy nə olur-olsun, amma o, "yox" dedi. Allah eləməmiş qızın baxışlarıyla qarşılaşmasın deyə, heç o tərəfə çönmədi də...

Qız tənbəllik eləməyib, onu qabaqladı və gülümsər gözlərini düz onun gözlərinə zillədi.

– Bəs kimin yanına gəlmisən?

– Elə-belə gedirəm, – öz cavabının axmaqlığına özü də təəccübləndi.

– Aydındı, – qız düz onun gözlərinin içinə baxmaqda davam edirdi. – Dalımca hələ çoxmu düşəcəksən? – deyib, üst dodağından nəsə yüngül bir şeyi, bəlkə də hörümçəyi, ya da ağcaqanadı qovurmuş kimi əlini yellədi. – Niyə dalıma düşmüsən?

– Düşməmişəm, – bu cavabı əvvəlkindən də axmaq oldu. Gözləri yerə dikildi, elə bil məktəbliydi və dərsi bilmədiyi aydın olmuşdu.

– Di yaxşı, – Maya Alikin adını çoxdan unutduğu ibtidai sinif müəlliməsinə oxşar bir tərzdə dedi. Alik onun suallarına cavab verməyib, gözlərini partaya zilləyəndə, o qadın da bu sözü lap beləcə deyirdi. Bundan sonra çoxdan gözlədiyi "əyləş" kəlməsi eşidir və onu uzun müddət narahat eləmirdilər. Amma burda, küçə qapısında oturmalı bir yer yox idi.

Maya dedi:

– Biz danışmalıyıq.

Doğrudanmı qız Alikin onun dalınca necə gəldiyini görürdü? Bu fikir də Alikə iti bıçaq kimi, amma bu dəfə sinəsinə sancıldı;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sinəsini yandıran hərarət boynuna və üzünə keçdi. Yaxşı ki, heç olmasa küçə qapısının ağzı qaranlıq idi.

– Eşidirsən məni? – Mayanın səsi sanki hardansa, uzaqdan gəlirdi. – Biz danışmalıyıq.

– Nə barədə? – Bundan küt cavab ağla gəlməzdi, yanğı güclənirdi.

– Guya ki, bizim danışmağa sözümüz yoxdu?

– Niyə? Danışmaq olar.

– Sağ ol, – qız "Eşikağasının bacısı" filmindən Dina Durbin kimi hərəkət elədi. – Getdik.

Qız dönüb küçə qapısından çıxdı və yavaş-yavaş addımladı. Alikin sifəti od tutub yanırdı. Təxminən onun yarısı olmasına baxmayaraq, lənətə gəlmiş yay günü qurtarmaq bilmirdi.

– Nə olub sənə? – Maya güldü, o saat da özünü yığışdırdı və ciddi görünmək üçün qaşqabağını tökdü.

Bu qısa gülüş onun közərən sifətinə çilənən su kimi fışıldadı və tərə dönüb boynundan, kürəyindən axmağa başladı.

Qızın gülməyinə ara verdiyinə baxmayaraq, Alik qaşqabaqla soruşdu:

– Nəyə gülürsən?

– Nə yaman qızarmısan! – Maya gülümsündü və qəfil əlini onun əlinə uzatdı.

Alik bu gözlənilməyən hərəkətdən hətta diksindi də. Nəsə ağ bir şey alnına toxundu və o, gözlərini yumdu, başa düşdü ki, qız yaylıqla onun tərini silmək istəyir.

Qız onun boynunu, üzünü siləndən sonra köynəyinin yaxasına da əlini uzatmaq istəyirdi ki, o kənara çəkildi.

– Hə, hara gedəcəyik? – Qız yaylığını sarafanının cibində gizlədərək soruşdu. – Bəlkə bulvara gedək?

O, güclə eşidilən bir səslə:

– Gedək, – dedi və onlar çənə döyən, tum çırtlayan, loto və domino oynayan adamların yanından ötüb Vorontsov küçəsiylə qayıtmağa başladılar.

– Gözlərini necə də bərəldiblər, – Maya narazı halda deyindi, – lənətə gəlmiş sözbazlar.

– Onlar səni tanıyırlar, nədi? – Alikə elə gəldi ki, öz səsini uzaqdan eşidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Tanıyırlar da sözdü! İş-gücləri yoxdur, oturub adam güdürlər. Kimlə getdi? Hara getdi? Hər şeylə maraqlanırlar. Əvvəllər hirslənirdim, sonra fikirləşdim ki, tüpürüm onlara, qoy çərənləsinlər ürəkləri istəyəni... Amma arvad narahat olur.

Qız Vitebskdən gəlmişdi və nənəsiylə yaşayırdı. Alik bunu bilirdi, amma söhbəti davam etdirməkçün soruşdu:

– Hansı arvad?

– Mənimki.

Qızın atası cəbhədə həlak olmuş, anası ikinci dəfə ərə getmişdi. Maya isə atalığı ilə düz gəlmirdi. – Alik bunu da bilirdi.

Qız soruşdu:

– Necə bilirsən, məndən aktrisa çıxar?

Alik qızın baxışlarını tutdu, düşündü ki, gözləri çox qəşəngdi, gözlərinin rəngi elə aydındı ki, səma kimi açıq-mavidir. Doğma rəngdi.

– Əlbəttə, çıxar. Yoldaş Emil səni çox tərifləyirdi.

– Guya onun bir şeydən başı çıxır? – Maya istehzayla gülümsədi. – Bircə təhsili var. Səhnədə heç vaxt oynamayıb.

– Bəs film?

– Qruplaşdırma səhnələrində, – Maya əlini yellədi, – mənim özümü də çəkilməyə dəvət eləmişdilər. Kütləvi səhnələrə hamı düşə bilər.

– Bəs onda niyə o deyən şeylərin hamısını edirdin, indi isə dalınca danışırsan?

– Dalınca danışmıram. O, pis adam deyil. Amma nüfuz sahibi də deyil. Mənə isə məni düz istiqamətləndirəcək adam lazımdı. Odur, İyirmialtılar klubunda Lejnyov dərnək aparır. GTT-dəndir. Tanımırsan? Tamam başqa adamdı. Əsl aktyordur.

– Bəs onun yanına niyə getmirsən?

– Mən mətbəədə işləyirəm axı. Buna görə də Mətbuat evinə gəldim. Hər şeyi öyrənib biləndən sonra isə nəsə yaxşı çıxmır yarımçıq qoyub getməyim. Uşaqlara da öyrəşmişəm. Elə Emilə də. Dəridən-qabıqdan çıxır.

– Hə, – Alik məmnuniyyətlə razılaşdı. – Nüfuz sahibi olmasa da, yoldaş Emili Lejnyovun yüzünə dəyişmərəm.

Beləcə, ordan-burdan söhbət edə-edə bulvara çatdılar. Axır ki, qaranlıq düşmüşdü. Camaatın çoxu cüt-cüt gəzirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maya soruşdu:

– Studençeskiyə gedək?

Görünür, xiyaban nəzərdə tutulurdu, çünki bir az gedəndən sonra Maya ağacların altında qaranlıq bir yerə buruldu və boş skamyada əyləşdi.

– Bura rahatdı, – qız dedi. – Veyllər də azdı.

Alik dinmədi. Studençeski deyir, qoy olsun, hərçənd bu xiyaban başqalarından fərqlənmirdi: ağacların altındakı elə həmin skamyalar, ayaq altdakı həmin asfalt idi və bura da dayanan, oturan, gəzən cütlüklərlə doluydu.

– Mənim salamımı yetirdilər sənə?

– Yetirdilər.

– Niyə bir cavab vermədin?

– Qoyun susuz qalıb, – Alik qəfil xatırladı.

– Nə?!

– Saat onda ona su vermək lazımdı. Öyrəşib.

– Hansı qoyun?

– Mənimki.

– Sənin qoyunun var?

– Hə.

– Bəs onu harda saxlayırsan?

– Dəhlizdə.

– Evdə?

– Hə.

Qız ucadan güldü. Ətrafda oturanlardan bir neçəsi narazı-narazı boylandı.

– İridi?

– Yox, çox iri deyil. Altı aylıqdı.

– Onu neyləyəcəksən?

Quzu əhvalatını başdan danışmalı oldu. Bacıoğlunun kiçik toyunu danışdı. Əhvalatın bu hissəsini qız heç cürə anlaya bilmirdi.

– Sən niyə əl-ayağa düşmüşdün?

– Necə niyə? Onun bütün yoldaşlarını sünnət ediblər, tək o qalmışdı.

– Nə olsun ki?

– Yaxşı deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimin yanında.

– Qonşuların yanında.

– Sənə nə düşüb? Sən axı russan.

– Rusam.

– Ya yox?

– Niyə yox?

– Sənə baxanda anlamaq olmur! Gözlərin düzdü, açıq rəngdədi, dərin isə qarayanızdı.

– Gün qaraldıb.

– Saçların da qaradır.

– Rusun saçları hökmən sarışın olmalıdı?

Qız yenə güldü.

– Bacın deməli, azərbaycanlıya ərə gedib?

– Hə.

– Şikayətlənmir ki?

– Yox.

– Deyirlər ki, bir şey olan kimi bıçağa əl atırsan?

– Mən?!

– Bəli, sən! Hətta əlində bıçaq damdan da tullanmısan. Belə şey olubmu?

Bu əhvalat barədə bacıoğlu, ya da onun dostlarından biri danışa bilərdi, danmağın mənası yox idi.

– Olub.

– Hə, görürsən, – qız razı halda gülümsündü. – Sənin barəndə hər şeyi bilirəm. Kobud adamsan, bir göz qırpımında öldürərsən adamı.

Bu yerdə o, təbəssümünü gizlədə bilmədi. O, kobud adamdır? Əşi onu məcbur eləməsələr, milçəyi belə incitməz. Qoy qız bilsin ki, qarşıdan bir sərxoş və ya xuliqan gələndə, o, küçənin başqa tərəfinə keçir.

– Niyə?

– Baş qoşmamaqçün. Bir yava söz deyərlər, cavab verməli olaram.

– Gör necə ehtiyatlısan. – Qız ona azacıq istehzalı bir təbəssümlə baxırdı. – Bəs damdan niyə tullandın?

– Onları xəbərdar elədim ki, söyüş söyməsinlər. Veclərinə almadılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kim? Üstlərinə əlində bıçaq tullandığın?
– Onların da bıçaqları vardı.
– İki nəfərdilər?
– Üç nəfər. Gecəylə küy salıblar. Ana söyüşü söyürlər. Bıçaq oynadırlar. Biz isə bacımla damda yatmışdıq. Onlara deyirəm: sakit, hər yanda qadınlar, uşaqlar yatıb. Onlarsa məni söydülər. Tullanmalı oldum.
– Dam hündür idi?
– Hə. Qıçımı sındırdım.
– Bəs, onlar neylədilər?
– Demə tanış imişlər. Üzr istədilər.
– Əgər üzr istəməsəydilər?
– Bilmirəm. Bunu fikirləşməmişəm, tullandım – vəssalam.
– Sənin qəhrəmanlıqların barədə mənə danışıblar.
– Kim danışıb?
– Hamı. Sən peyda olan kimi, o saat söz-söhbət başlandı. Emil də bizi xəbərdar elədi ki, hər ehtimala qarşı səninlə bir az nəzakətli olaq.
– Emil? Ola bilməz!
– O şəxsən mənə demişdi.
– Bəs özü niyə üstümə bağırırdı?
– Əsəbidir. Sən də əsəbisən?
– Hə, yəqin ki.
Onun hamının gözü qabağında həyəcandan guppultuyla yıxılmasını xatırladılar, amma bu barədə danışmadılar, qızın ona yazığı gəldi.
– Mənim sənə bərk acığım tutmuşdu.
– Nə vaxt?
– Orda... Sən üstümə cumanda. Boğaza yığılmışam: kiminlə görüşürsən, heyvan kimi üstümə atılırlar. Dedim bu da hamının tayıdır. Öpüşməyi bilmir, amma girişir. Ömründə öpüşməmisənmi, nədi? Niyə susursan? Görürəm axı.
Onlar susdular. Budaqların xışıltısı və ətrafda oturanların pıçıltısına qulaq asa-asa dinməzcə oturdudar.
– Di yaxşı, – qız dedi, – gedək sənin qoyununa su verək.
Alik o saat qalxdı, qız isə oturmaqda davam edirdi. Sonra ağır-ağır durdu. Qaranlıqda bulanıq görünən baxışlarında anlaşılmaz bir ifadə vardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Öp məni, – qız onun boynunu qucaqladı.

Alik quru və bərk sıxılmış dodaqlarını qızın ağzına yapışdıranda utancaqlıqdan başqa bir şey duymurdu. Qız isə onun başını buraxmır, əksinə, daha qüvvətlə özünə sıxırdı. Ağrıdanadək. Birdən onun dodaqları tərpəndi, qızın dişlərinə toxundu.

Qız Alikin başını buraxmırdı, amma indi bu, oğlana xoş gəlirdi. Əlləri öz-özünə qızın kürəyi arxasında birləşdi. Qarnından bir az yuxarı qızın döşlərinin yumşaq təmasını duyurdu, döşlər elə bil ehmalca onu itələyirdi, amma o aralanan kimi, onlar tələsik yenə həmin yerə söykənib, nəsə şirin və əriyən bir duyum oyadırdılar.

Evlərinə gedən yolda öpüşməkdən qalmırdılar, qarşılarına çıxan hər qaranlıq yerdə ayaq saxlayırdılar. Amma qız çox dözə bilmirdi, soyuq su altına düşübmüş kimi nəfəsi təngiyirdi. O, qızı buraxanda, qız hərisliklə nəfəs almağa başlayırdı. İndi demək olar ki, danışmırdılar. Bir şey qəribə idi: əgər qız onun dalınca düşdüyünü görürdüsə, niyə ancaq bu gün bu barədə söz saldı? Niyə bu qədər uzadıb? Amma bunu qızdan soruşmağa utandı...

Nəhayət, evə çatdılar. Həyət artıq yatmışdı. Hətta Xanmananın zirzəmisində də işıq yanmırdı, qarı isə yatağa gec girirdi.

Quzu da yatırdı. Amma ayaq səsləri eşidib, başını qaldırdı və dırnaqlarını asfalt döşəmədə sürüşdürə-sürüşdürə dikəldi. Çarpayıdakı kürəciklər cingildədi.

– Nə qəşəngdir! – Maya içini çəkdi və quzunu qucaqlamağa cumdu.

Alikin evdən çıxanda quzunun qabağına qoyduğu suyla dolu alüminium parç bomboş idi...

Quzu su içincə Maya onu bir əliylə qucaqlayıb, qulağına nəsə mehriban bir şey pıçıldayırdı.

– Bəs sonra nə olacaq, o böyüyəndən sonra? – qız həyəcanla Alikə baxdı.

Burda, gur işıq altında təsəvvür edə bilmirdi ki, bir az bundan əvvəl bu qızla öpüşübmüş, indi qız ona əlçatmaz bir gözəl kimi gəlirdi.

– Bilmirəm. İndiyəcən necə yaşayıb, elə də yaşayacaq.

– Bu mümkün deyil axı.

– Niyə? Kimə mane olur ki?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs anan?

– Anam bura hərdənbir gəlir.

– Hə, eşitmişəm, – belə çıxırdı ki, Alik Maya barədə nə qədər bilirdisə, qız da onun barəsində o qədər bilirdi... Bu, Alikin xoşuna gəldi... Yaxşı ki, qız onun barəsində hər şeyi bilir, özü də bu, qızı qorxutmamışdı, ondan uzaqlaşdırmamışdı. Nə onun cəmi yeddi sinif qurtarmağı, nə yarısərsəm anası, nə evdəki qoyun, nə də asfalt döşəmə...

Maya qoyunun yanında çömbəltmə oturmaqda davam edərək saçlarını düzəltdi və boylandı.

– Buranı sahmana salmaq lazımdı.

– Otaq təmizdi. Ora gedək.

Otağa keçdilər. Qonşu evin divarı mane olduğundan yeganə pəncərəyə demək olar ki gün düşmürdü və buna görə də buranın havası sərin rütubətli idi... Çarpayını səhər səliqəylə yığışdırmışdı. Şifoner köhnə, müharibədən əvvəlki idi, amma pis görünmürdü. Stolun üstünü, bir neçə il bundan əvvəl professor arvadının bağışladığı büllur külqabı bəzəyirdi.

– Əyləş.

Stolun arxasına keçib üzbəüz əyləşdilər.

– Deməli, arxanca düşdüyümü görürdün? – Alik öz cəsarətinə təəccüb elədi, dili necə də açılmışdı! Suallar verir, nəyisə aydınlaşdırırdı.

– Hə.

– Çoxdan?

– Qışdan bəri.

– Duyurdum.

– Niyə yaxınlaşmadın?

– Utanırdım.

– Hey gözləyirdim. Dözə bilmədim.

– Yaman səbirliymişsən, – Alik gülümsədi. – Birdən daha gəlməyəydim?

– Onda bu sən olmazdın. Anan heç gəlmir bura?

– Çox az-az gəlir.

Qız ah çəkib, canıyananlıqla ona baxdı. Sonra stolun üstündən əyilib, Alikin saçlarını qarışdırdı.

– Neylirsən? -- O utandı.

– Yaman xoşuma gəlirsən, – qız ciddi səslə dedi. Həm güclüsən, həm də yumşaq xasiyyətin var. Nadir uyğunluqdur. Təki həmişə belə qalasan...

– Daha o vaxtım keçib, – Alik hələ də utana-utana dedi. – Çətin dəyişəm bir də.

– İyirmi üç yaş gecdi? Hələ on dəfə dəyişə bilərsən.

Onlar susdular.

– Atan neçənci ildə həlak olub?

– Qırx ikidə.

– Mənimki qırx beşdə. Praqa altında. Əhsən anana, yaxşı arvaddı. Mənimki atamın qara kağızı gəlib çatmamış ərə getdi.

– Atamın qara kağızı gələndə anamın yaşı ötmüşdü. Qırx beş yaşı vardı.

– Qadınlar yaşa baxmırlar. Qarılar da ərə gedirlər.

Alik Xanmananı xatırladı; doğrudan da, münasib bir adaxlı olsa, qarı ərə getməyə hazırdı. Mənzilini əbəs yerə genişləndirmir ki...

– Hə, gedəkmi? – Maya soruşdu.

– Bəlkə çay qoyum?

– Gecdir. Arvad deyinəcək... Lap boğaza yığılmışam.

– Neçə yaşı var?

– Altmış.

– Anan cavandı?

– Qırx yaşı yoxdu.

– Gözəldir?

– Çox. Atam həlak olanda iyirmi səkkiz yaşı vardı, mənimsə altı, – qız yerindən qalxdı.

Bu vaxt bacısı otağa girdi. Həmişə olduğu kimi qapını döymədən və xəbərdarlıq eləmədən gəldi.

Mayanı görəndə özünü itirdiyindən salam vermədi, arxasını çevirib, ağlamaqdan qızarmış gözlərini qaldırmadan astadan soruşdu:

– Hardaydın bu vaxtadək?

– Əvvəlcə salam ver.

– Salam, – Maya nəzakətlə dedi.

Bacısı qıza baxmadan başını yellədi. Gözlərinə dolan göz yaşlarını güclə saxlayırdı.


105

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nadir gəlib? – Alik bacardıqca yumşaqlıqla soruşdu.

– Çoxdan.

– Hələ yatmayıb ki?

– Səni gözləyir.

– Mən bir azdan baş çəkərəm sizə.

– Nə vaxt?

– Bu saat gəlirəm.

– O tezdən durmalıdı, – bacısı sifətini Mayadan gizlədərək, yanpörtü qapıya tərəf getdi.

Maya soruşdu:

– Nəsə olub?

– Hə.

Bacısı ilə Fariz arasında baş verən əhvalatı danışmaq istəmirdi. Maya bunu duyub, daha sual vermədi.

Həyətə çıxdılar.

– Qaz çəkirlər, – qazçəkənlərin stolu olan köşkün yanından keçəndə, Alik məlumat verdi.

Maya susurdu.

– Bacım qonşuyla dalaşıb, – Alik bacısının qəribə hərəkətini birtəhər izah etməyə çalışdı.

– Bacın sənə heç oxşamır, – Maya fikirli halda dedi və Alikin qoluna girdi. O, sakitləşdi, qızın təmasından içində bir yüngüllük duydu.

– Atama çəkmişəm, – o dedi, – bacımsa anama... Atam da qara idi.

– Məni ötürərsən?

– Əlbəttə.

– Səni gözləyirlər axı.

– Eyibi yox. Çataram.

Şəhərin mərkəzinə enən doğma küçəylə yeyin-yeyin getməyə başladılar. Ömründə birinci dəfəydi ki, Alik burda qızla qol-qola gedirdi. Xoşuna gəldiyi qızla.

İki məhəlləni dinməzcə keçdilər. Sonra keçmiş məscidin yanında dayanıb, öpüşməyə başladılar. Qızın dişlənmiş dodağında şor qan təmi duyub qorxdu, amma qız nəfəsini dərib, yenə ona qısıldı... Bunun nə qədər davam etdiyini Alik bilmədi, bəlkə on dəqiqə, bəlkə də bir saat çəkmişdi...

Qızın yaşadığı evin yanında yenə qucaqlaşdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sabah gələcəksən? – qız soruşdu.

– Əlbəttə.

– Birbaş ora, Mətbuat evinə gəl.

– Yaxşı.

– Quzunu özünlə götürməyi unutma...

Gülüşdülər.

– Di yaxşı, qaç. Səni gözləyirlər.

– Eyibi yox...

*O, aralarındakı münasibətin ciddi olması* barədə nəsə, *vacib* bir şey demək istəyirdi qıza. Qoy qız bunu bilsin.

– Hə, nə durmusan? – qız onu qucaqladı.

– Sən ayrı şey fikirləşmə, – o, özünü danışmağa məcbur elədi. – Mən elə-belə yox... Sən narahat olma.

– Nəyi deyirsən? – qızın təəccübü elə səmimi idi ki, Alik utandı.

– Bizim münasibətlərimizi...

– Mən niyə narahat olmalıyam ki? – qız başını dala atdı və küçə fənərinin işığı qızın gözlərinə düşdü.

Alik bilmirdi fikrini necə izah eləsin. Elə çıxırdı ki, burda başa düşüləsi də bir şey yoxdu: qızlar həmişə qorxurlar ki, onlarla evlənməyəcəklər, oynayıb, gəzib, atırlar onları. Bacısı da beləydi, fikir bacısını əldən salmışdı. Nadir ona evlənəcəkmi, ya yox?

Bütün bunları qıza birtəhər izah elədi və nəhayət, Maya onun nə demək istədiyini anladı.

– Ay mənim qəşəngim, – qız yenə əlini onun saçlarında gəzdirdi, – mənə evlənməyi təklif edirsən, nədi?

– İndi yox, ümumiyyətlə. Nə vaxt istəsən. İstəyirəm biləsən...

– Ciddimi deyirsən? – Qız gülümsünə-gülümsünə onun saçlarını tumarlamaqda davam edirdi.

– Hə...

– *Mənim aktrisa olmaq istədiyimi unutmamısan ki?*

– Nə olsun ki?

– Etirazın yoxdu ki?

– Nəyə?

– Səni kim bilir? Sən əsl asiyalısan. Üstəlik məni evdə oturmağa məcbur edərsən, – qız əlini onun çiyninə qoydu. – Sözün düzü, arvad məni bezdirib...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs sənin anan etiraz etməyəcək?

Qız başını sezilməz bir tərzdə yellədi və gözlərində bir kölgə görünüb yox oldu, başa düşdü ki, anasını qızın yadına salmasa yaxşıdı.

– Mənim evim rütubətdi – o, söhbəti dəyişməyə çalışdı, – amma tezliklə qaz çəkəcəklər...

– Mən rütubətdən qorxmuram. – Maya çox ciddi tərzdə dedi və barmaqları üstə qalxdı. – Bir də ki, evin xoşuma gəldi...

Yenə öpüşdülər...

Nadirin və bacısının səsi pilləkənə çatmamış eşidilirdi, elə hay-küy salmışdılar ki, nə Nadir, nə də bacısı Alikin qaranlıq dəhlizə girərkən bacıoğlunun velosipedini ayağıyla aşırmağını eşitdilər.

– Odur ha! – Nadir əti kəsilmiş kimi bağırırdı: görünür, növbədən sonra içməyə imkan tapmışdı. – Hər yerə burnunu soxursan. Nəyinə lazımdı, onlar onunla neyləyəcəklər?! İndi də məni cəncələ salmaq istəyirsən?

– Heç kim səni cəncələ salmır.

– Bədbəxt, gic qadın, hər şeyin sən deyən kimi olduğuna nə kimi sübutların var əlində? Onun səni itələdiyini kim görüb?

Nadirin belə bağırdığı vaxt otağa girmək olmaz, bunun axırı pis qurtara bilərdi. Dəhlizdə durub, bütün bunların qurtarmasını da gözləmək istəmirdi. Bir şey qalırdı – çıxıb getmək. Dönüb, velosipedin üstündən adlamaq və evə yollanmaq. Burda ayrı fikir ola bilməz, evə, yalnız evə.

Amma Nadir qışqırmaqda davam edirdi və Alik qapıya çatarkən Nadirin qışqıraraq dediyi sözlər onu ayaq saxlamağa məcbur elədi.

– Hər şeyi mənim üstümə atmağı öyrəşmisiz. Bəsdir! Boğaza yığılmışam! Qardaşcığazın yəqin o saat əkildi! Hər şeyin yerini bilir, ailə namusunu qoruyana bax! Risq eləmək istəmir! Mənsə cəfa çəkməliyəm.

– Onun yanına qız gəlmişdi.

– Nə qız? Əvvəllər niyə gəlmirdi bəs?

Alik velosipedə bir təpik vurub, otağa girdi. Bacısı qara pianoya söykənib ağlayırdı, əri isə nədənsə gecə gözü üzünü qırxır və sabunlu üzünə güzgüdə baxa-baxa bağırırdı. Stolun üstündə çörək və qızarmış kolbasa olan nimçələrin arasında pullar səpələnmişdi, görünür, maaşıydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə bağırırsan? – Alik sakitcə, astadan soruşdu.

Nadir o saat səsini yavaşıtdı, adi səslə danışmağa başladı.

– Bilmirsən?

– Bilirəm. Amma bağırmaq nəyə lazım? Bütün həyət sizi eşidir.

Bacısı daha ağlamırdı və tələsik stolun üstünü yığışdırmağa başladı.

– Əl-ayağa düşmə, – Alik onu saxladı, – gedirəm.

– Hara? – Nadir istəyəndə, demə, səsi çox mehriban olurmuş. – Danışmaq lazımdı axı.

Alik ona cavab vermədən bacısından Farizin nə vaxt getdiyini soruşdu.

– Tezdən.

Bu cavab Nadiri özündən çıxartdı.

– Səndən soruşurlar nə vaxt, yəni saat neçədə? Sənsə: "tezdən", – o, sifətini əyişdirib, arvadını təqlid etdi.

– Mən hardan bilim nə vaxt gedir. Onu güdürəmmi, nədi? Yəqin, saat altıda.

Alik qapıya tərəf getdi. Nadir onu saxlamağa cəhd etdi, amma xeyri olmadı... Beləcə, üzünün sabununu silmədən Aliki qapı altına qədər ötürdü, o yerə qədər ki, yeddi il bundan əvvəl burda az qala mətbəx bıçağı ilə qarnı yırtılmışdı.

– Sən məni başa düş, – o tələsik bir pıçıltıyla Alikə izah edirdi, – bacın bütün günü ağlayır. Mənim əlimdən nə gələr? Mən həkiməm, başa düşürsən... Bacının şahidləri yoxdu... Heç kim heç nə görməyib, uşaqlardan başqa. Onlara kim inanar... Düzmü deyirəm? – o, Alikin köynəyinin ətəyindən yapışdı. – Rəsmi yolla heç nəyə nail ola bilməzsən, dəqiq bilirəm. Bacın isə başa düşmək istəmir. Elə bir şeyi deyib durur: "o, məni itələdi, o, məni itələdi". Hə, indi neyləyəsən? Onu döyərsənmi? Mən bunu edə bilmərəm... Mən...

– Yaxşı, – Alik onun sözünü kəsdi. – Yatmaq vaxtıdı.

Nadir məmnuniyyətlə susdu, Alik akasiyalarla bərabərləşib, tini burulanadək Nadir darvazanın ağzında qaldı.

O, Dəvəçidə nəçi işləyirdi, heç kim bilmirdi. Onun arvadı Xalidə bütün müharibəni bacısıyla dostluq eləmiş, tikiş fabrikində birlikdə işləmişdilər. Xalidə böyük oğlunu bütün günü onlarda qoyurdu; o vaxtdan uşaq Dost ləqəbini almışdı: bacıoğlusuz bir addım da atmırdı. Amma bununla belə hardansa vərəm tapmışdı. Əgər Fariz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ali təhsilli neftçi kimi ordudan birincilər sırasında buraxılmasaydı, aydındı ki, Dost çox yaşamayacaqdı.

Fariz birinci bunu elədi ki, mənzili dəyişdi, ailəsini ikinci mərtəbəyə qaldırdı. Balaca Marat isə anası və yazı makinası ilə birlikdə onların birinci mərtəbədəki mənzillərinə köçdülər. Əlbəttə, haqlarını aldılar.

Xalidə müharibədən sonra da bacısıyla dostluq eləməkdə davam edirdi; Fariz də Nadirlə yaxınlaşmışdı...

Alikin Farizdən narazılığı yox idi. Fariz ciddi, ailə adamı idi. Həyətdə manqal qalayıb, iki ailəlik kabab çəkir, birlikdə nahar edir və evə gedirdilər. Nadir isə yox, o hökmən gəzişməliydi. Dayana bilmirdi. Bütün gecəni gəlmirdi. İşə qarışmalı oldular.

İki ailənin dostluğuna son qoyuldu. Hər şey birdən qurtardı: ailəvi kabablar da, birgə dənizə getmələri də, ümumi dostlar da...

Hərdən bacısından soruşurdu: bəlkə bir şey olub? Nadirin əlindən bir iş çıxıbmı? Amma bacısı özü də bir şey anlaya bilmirdi: dostluq səbəbsiz-zadsız kəsilmişdi... Yalnız Dost valideynlərindən icazə belə almadan bacıoğlunun yanına qaçıb gəlməkdə davam edirdi.

Bütün bunlar Nadirin vecinə də deyildi, amma bacısı bunun fikrini edirdi. Axı Xalidəylə neçə ildi rəfiqə idilər. Məktəbdə də birlikdə oxumuşdular. Başlıcası, aralarının dəyməsinin səbəbini heç cürə başa düşə bilmirdi!

Üstündən illər keçəndən sonra hər şey aydınlaşdı. Xalidə özü kiməsə demişdi ki, onlar qonşulardan səbəbsiz-zadsız küsüblər, Fariz təzə işə keçmişdi və dost-tanışlarını da dəyişməyi qərara almışdı – vəssalam.

O vaxtdan o, qonşularla yalnız salamlaşmaqla kifayətlənirdi. Özü də salam verəndə üzlərinə də baxmırdı. Başıyla salamlaşıb, yanlarından bir kəlmə belə demədən ötürdü – guya daha onlar onunçun mövcud deyildilər.

Onu Dəvəçiyə böyük rəis kimi göndərmişdilər – Xalidənin davranışından görünürdü, həyətə ağalıq eləyirdi. Balaca İzik isə həyət adamlarına göz verib, işıq vermirdi, hər gün təzə bir oyun çıxarırdı.

Bəlkə, Farizin bütün bunlardan xəbəri yoxdu, onun başı işə qarışıb. Beləydisə, niyə bacısını itələmişdi? Tutaq ki, oğlunu çox istəyir, aydın məsələdi, kim uşağını istəmir ki? Uşağa görə yaşlı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qadına əl qaldırmaqmı olar? İndi ki onun günahsız olduğu aydındı. Əksinə, bir sağ ol da alıb. Burda günahsız adamları incidirsə, gör Dəvəçidə nələr eləyir.

Amma necə də oğlan idi! Qırx ikincidə, hələ institutda oxuyarkən birlikdə jmıx yeyirdilər. Cəbhədən qayıdandan sonra Dosta görə necə də minnətdarlıq edirdi, – bütün həyət uşağı bacardığı tək yedirdirdi, – gözləri yaşla dolu halda and içirdi ki, bunu heç vaxt unutmayacaq. Gör, hər şey necə qurtardı! Tamam ayrı adamdı! Elə bil dəyişiblər onu! Həyat insanları necə də başqalaşdırırmış!

Doğrudanmı ona elə gəlir ki, onun hər şeyə ixtiyarı var, hər şey elə-belə də keçib gedəcək? Birini incitdin, ikincisini, üçüncüsünü... Amma gec-tez layiqli bir kişi tapılacaq axı... Dünyada yalnız Nadirlər yaşamırlar ki. Fariz ki, ağıllı oğlandı, doğrudanmı belə şeyləri düşünmür? Yaxşı, Nadiri saya salmırsan? Bəs bacım? Əlin necə qalxdı ona?! Tutaq ki, vicdanını tamam itirmisən. Amma qorxu-hürkü bilmirsən, nədi? Qorxu vicdan deyil ki, düşəndən-düşənə yoxlayasan: qorxu daima səninlədi. Adamları sortlara bölmüsən – bəzilərindən qorxmaq olar, bəzilərindən yox və beləmi yaşamağa ümid edirsən? Səhvin var. Alınmayacaq. Gec-tez sənin o tüpürdüyün adamlardan biri dözməyib, həyasızlığına görə səni cəzalandıracaq. Bunu kim eləyəcək, dəxli yoxdu: öz işini görəcək, sonra isə aydınlaşdırın hamınız birlikdə: o necə adam idi və niyə belə hərəkət elədi?

Alik evə girmədən, anası işləyən xəstəxanaya getdi. Güman ki, anası gecəni orda qalmışdı: son vaxtlar anası tez-tez belə edirdi...

Darvaza ağzındakı növbətçi otağında gözətçilər yox idi, aydındı ki, binaya yatmağa getmişdilər. Bağırdın, bağırmadın, səsini eşitməyəcəklər: hasardan aşmalı oldu.

Təzə binanın qapısı adətən açarla bağlanırdı, amma bu gün çox gec olmasına baxmayaraq, nədənsə hələ açıq idi. Palatalardakılar yatmışdılar. Kimin qulluğa daha çox ehtiyacı olduğunu anası özü təyin edirdi, buna görə də o, palataların hər hansı birində ola bilərdi...

Növbətçi həkimin üçüncü mərtəbədə olan otağında işıq yanırdı: görünür, gecə tibb bacısı da orda otururdu. Onlar ananın yerini dəqiq bilərdilər. Amma heç kimlə danışmaq istəmirdi. Xüsusən də burda, anasının tamam sərsəmlədiyi son illər işlədiyi yerdə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anasını beşinci mərtəbədə, dəhlizdə tapdı. O, ağ taxta divanda oturduğu yerdəcə yatırdı: baxana elə gələrdi ki, o güclə oturub, indicə döşəməyə yıxılacaq...

Yaxına gələndə gördü ki, anası bir əliylə divanın üstündə ucalan həkim qapanından yapışıb.

– Burda niyə oturmusan? – anası onun ayaq səslərinə gözlərini açanda, Alik acıqla soruşdu.

– Növbə çəkirəm, – anası qəddini düzəltdi və özünə qıvraq, işgüzar bir görkəm verdi.

– Niyə? Həkim-zadsan? Ya tibb bacısısan? Ya sanitar qadınsan? Öz işini gördün – yığışdırdın, döşəmələri sildin – haydı evə.

Anası cavab vermədi, xəstə adama baxan kimi təəssüflə ona baxdı və əlini yelləyib, qalxdı.

– Hara belə? – o, səsini azaldıb, soruşdu.

– Cərrahiyyə əməliyyatından çıxan qadın var. Halını yoxlamaq lazımdı, – çiyninə atdığı ağ xələtini düzəltdi – bunun altında onun bezdən olan öz xələti bozarırdı.

– Evə niyə gəlmirsən? – Alik pıçıltıyla soruşdu.

– Vaxtım yoxdu.

– Gör bir nə günə qalmısan. Heç yatmırsan, nədi?

– Niyə? Yatıram...

– Görürəm necə yatırsan. Sərçə kimi. Hanı növbətçi həkim? – o, anasını qorxutmaq istədi.

– Onun yanına olmaz.

– Niyə?

– Yanında qonaqları var.

– Onda getdik evə.

Anası dönüb, cəld addımlarla az qala qaça-qaça dəhliz boyu götürüldü.

Anasına pilləkənə çıxan qapının yanında çatdı və yolunu kəsdi:

– Dayan, ana, – acığı soyumuşdu. – Di yaxşı, yaxşı, həyəcanlanma...

Anasının seyrək – rəngsiz kirpiklərində yaş damlaları titrəyirdi.

– Heç utanmırsan? – incidiyindən çətinliklə danışırdı.

Birdən anasına o qədər yazığı gəldi ki, az qala ağlayacaqdı.

– Di yaxşı, yaxşı, bağışla, – anasını qucaqladı, başını sinəsinə sıxdı ki, anası onun sifətini görməsin. – Bir də eləmərəm, – anası onu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oyunbazlığına görə uşaqlıqda danlayanda belə deyərdi. – Amma sən də haqlı deyilsən. Adamlara kömək eləməyin, qulluq göstərməyin yaxşıdı. Əhsən. Amma evə də gəlmək lazımdı. Hamı işləyir, növbə çəkir, amma öz evlərində yaşayırlar. Səndən çox xahiş edirəm. Eşidirsən məni?

Anası günahkarcasına, uşaq kimi başını tərpətdi.

– Nə vaxt gələcəksən?

– Sabah.

– Yəqini?

– Hə... Gedirsən, nədi? – anası qəfil soruşdu.

– Bilmirəm, – o, sualın gözlənilməzliyindən özünü itirdi. – Bu hardan ağlına gəldi?

– Hiss edirəm.

Alik təəccüblə başını buladı:

– Nə duyursan ki?

Anası cavab vermədi və geriyə, öz divanına tərəf getdi.

– Sən get, – ana xahiş elədi, – yoxsa həkimlər səni görərlər.

Anası bunu deyən kimi pilləkəndə ayaq səsləri eşidildi. Ana narahatlıqla boylandı.

– Əşi, sən narahat olma, onun özünün qonaqları var.

Dəhlizin sonunda xələtli bir kişi fiquru göründü. Hətta gecə lampasının tutqun işığında belə bunun həkim olmadığı görünürdü. Alik onların hamısını yaxşı tanıyırdı.

– Bu gün kimdi növbədə?

– Səməd Ağayeviç, – anası kişinin qabağına getdi.

– Hə necədi o? Bir şey xahiş eləməyib ki? – kişinin səsi Alikə çox tanış gəldi.

– Xəstə qadın yatır. Hərarəti qaydasındadı, narahat olmağa əsas yoxdu, – anası çox ciddi və məsuliyyətlə dedi.

– Çox sağ olun... Sizə elə minnətdaram ki... – İndi kişi üzü işığa durmuşdu və Alik onu tanıdı – bu, yoldaş Emil, Mətbuat evinin dram dərnəyinin rəhbəri idi.

Amma son bir neçə ay ərzində ona nə isə olmuşdu, çox dəyişmişdi. Çoxdan daranmayan uzun saçları donqar burunlu sifətinin hər iki tərəfindən tökülürdü, şişkin, qızarmış gözləri yaşarırdı və ara vermədən qırpırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aliki ya tanımadı, ya da görmədi. Hərçənd anayla danışanda, baxışlarını bir neçə dəfə onun üzərində saxladı.

Yoldaş Emilə nəsə olub, ciddi səbəb olmasaydı belə dəyişə bilməzdi. Amma niyə Maya bu gün heç nə demədi? Doğrudanmı bilmir?

– Yoldaş Emil, nə olub sizə? Nə baş verib?! – Alik keçmiş rəhbərinə doğru addımladı.

– Bu kimdir?! – Yoldaş Emil əsəbi halda başını dala atdı və heyrətlə gözlərini Alikə zillədi.

– Bu mənim oğlumdu, – ana dedi.

– Mən Alikəm. Yadınızdadı? Sizin dərnəyə gəlirdim. Qışda.

– Alik? Hansı Alik? – Emil acizliklə öz-özündən soruşdu.

– Həmişə üstümə qışqırırdınız.

Bunun köməyi oldu. Emil xatırlamağa başladı.

– A-a-a, Alik, hə, əlbəttə... Salam, – Alikə zənlə baxmaqda davam edirdi, birdən üz-gözü qırışdı və ağladı. – Milyanı... Milya yadınızdadımı? – başqa heç nə deyə bilmədi, yaylığı ağzına tutub, üzünü divara döndərdi.

Əlbəttə, Milya – yoldaş Emilin kök, qaragöz arvadı Alikin yadındaydı, o, Milya ki, hər məşqdən əvvəl ərinə nahar yedizdirirdi: o hardasa şəhər kənarında olan əsas iş yerindən çıxandan sonra evdə nahar eləməyə imkan tapmırdı. Arvadının da üstünə qışqırırdı, amma qadın incimirdi, görünür, öyrəşmişdi.

– Ağlamaq lazım deyil, – ana dedi, – xəstənin halı yaxşıdı.

O razılaşmadan ümidsizliklə başını yellədi.

– Bütün bədəninə yayılıb, – anası astadan Alikə dedi, – cərrahiyyə əməliyyatı da aparmadılar.

Emil kəskin bir hərəkətlə döndü:

– Alik, amma yalvarıram sizə, heç kimə bir kəlmə də deməyin. Heç kim bilmir, – hönkürtüsünü boğmaqçün dəsmalını yenə ağzına apardı.

Bir neçə ay bundan əvvəl bu xoşbəxt bir ailəydi. Emil və Milya. Kimin ağlına gələrdi ki, həyat hər şeyi belə tez dəyişəcək? Hər şey necə də etibarsızdır! Cəmi ikicə saat bundan əvvəl Alik özünü dünyanın ən xoşbəxt adamı sayırdı. İndi isə?!

Bütün gecəni yuxuda nəsə xoş bir şey görürdü, amma səhər ayılıb nə gördüyünü xatırlaya bilmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aydındı ki, yuxu Maya ilə əlaqədar idi. Buna onun şübhəsi yox idi. Onun yuxusuna daha nə girə bilərdi ki, hətta ayılandan sonra belə gülümsəyirdi?! Yalnız Maya. Onu yuxuda gülümsündürə biləcək başqa bir şey yox idi həyatda. Yalnız o...

Quzu dırnaqlarını asfalta tıqqıldada-tıqqıldada geri qalmasın deyə, ayaqlarını tələsik götürüb-qoyurdu. Hərdənbir tərslik edir, başını salıb dayanırdı və onu qucağa almaq lazım gəlirdi. Artıq səkkiz kiloqram olardı, amma Alik bu ağırlığı yalnız Mayanın küçə qapısında, pilləkənlə üstündə çoxlu zəng düyməsi olan tünd-qəhvəyi qapının yanına çıxanda duydu. Bunlardan hansı qızınkıdı? Bu? Bu?.. Belə tezdən zəngi necə basasan? Tək yaşasaydı, onda başqa məsələ...

Qapı arxasından səs-səmir gəlmirdi. Buna baxmayaraq, özünü zəngi basmağa məcbur elədi. – Ayrılıq məqamında qıza nəsə bir şey deməliydi axı.

– Kimdir orda?! – o, zəngi bir neçə dəfə basandan sonra həyəcanlı qadın səsi eşidildi.

– Maya evdədi?

– Nə?

– Maya evdədi? – o ucadan təkrar elədi.

Qapı arxasındakı qadın nəsə anlaşılmaz bir şey donquldadı – aydın oldu ki, o, başqa zəngi basıb. Ayaq səsləri uzaqlaşdı. Uzaq, amma gur səslər eşidildi. Qapı arxasından yenə də həmin sualı verdilər:

– Kimdi orda? – bu da qadın səsi idi, amma daha yaşlıydı.

– Maya evdədi?

– Kimsən axı?

– Onun tanışı.

– Hansı tanışı? Maya yatır...

– Onun nənəsisən?

– Bəli.

– Xahiş edirəm, bağışlayın. Mən bir şey gətirmişəm...

– Kimdir o, nənə? – Mayanın səsi eşidildi: ürəyi elə bərk döyünməyə başladı ki, nəfəs almaq da çətinləşdi...

– Allah bilir kimdi! Gecəmizi-gündüzümüzü bilmirik...

– Alik, sənsən? – Maya astadan soruşdu.

– Hə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə olub? – kilid şaqqıldadı, qız azacıq aralı qapıdan sürüşüb çıxdı və quzunu görüb çöhrəsi açıldı. – Oy!

– Səninçündür, – Alik dedi və ipin ucunu qızın əlinə dürtdü.

– Dəli olmusan... İndi saat neçədir? – qızın bir yanağı zolaq-zolaqdı, balınc eləmişdi.

– Altı, – nənəsi qapı arxasından dedi.

Maya çömbəlib, quzunu qucaqladı:

– Gəl qucuma qoşəngim mənim, gəl, gəl, qorxma...

Alik pilləkənə tərəf gerilədi.

– Sən dəlisən, – Maya yanağını bərk-bərk quzunun üzünə sıxdı və indi onlar ikilikdə ona baxırdılar – dörd göz idi: iki qara, iki göy... Ayrılanda nəsə demək lazım idi...

– O qarpız qabıqlarını xoşlayır, – ağlına gələn yalnız bu oldu. Alik pillələrdən atıla-atıla cəld aşağı yönəldi... O, qıza daha nə deyə bilərdi ki?..

Saatına baxanda, başa düşdü ki, tələsməlidir...

On dəqiqə sonra bacısıgilin həyətinə girdi. Burnunun altında nəsə kədərli şən bir mahnı zümzümə edə-edə ikinci mərtəbəyə qalxdı. Bacısının qapısı ağzındakı taburetkaya oturdu. Həyət təzə-təzə oyanırdı, amma ikicə dəqiqədən sonra artıq hamı bilirdi ki, o burdadı və niyə gəlib.

Bir-bir, iki-iki müxtəlif bəhanələrlə qonşular həyətə çıxırdılar ki, onunla salamlaşsınlar. Vəziyyətə uyğun olaraq hamının görkəmi ciddi idi.

Fariz görünmürdü.

Darvazaya yaxınlaşan "villisin" səsi eşidildi. Nadir örtülü qapını göstərərək nəsə anlaşılmaz işarələr verirdi. Onun arxasınca bacısının və bacıoğlunun ağarmış bənizləri görünüb itirdi. "Villis"in sürücüsü ilə birlikdə ikinci mərtəbənin balkonuna daha iki nəfər kişi qalxanda, Nadirin işarələri aydın oldu. Onlar da Fariz kimi boğazacan düymələnmiş tujurka geymişdilər.

Bu üçlük Farizin döyülməmiş açılan qapısından içəri girəndə, Nadir yenə ümidsizliklə əllərini yellədi. Onun pıçıltısını eşitmək üçün yaxına gəlməli oldu:

– Adamlar xüsusi olaraq çağrılıblar... Təxirə salmaq lazımdı.

Hər şey izahsız da aydın idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Eşidirsən məni? – Nadir yenə narahat idi. – Təxirə salmaq lazımdı. Təhlükəlidi...

Alik taburetkanın yanına qayıtdı. Döşəmədən nazik çubuq parçasını götürdü, qadınlar dünən bununla yun çırpırdılar. Cibindən balaca cib bıçağını çıxarıb, vaxtı öldürməkçün çubuğu yonmağa, sınmış ucunu hamarlamağa başladı. Kənardan baxana elə gələrdi ki, onun başı qarışıqdı, hər halda ətrafına baxmırdı.

Fariz yubanırdı.

Bacısı eyvana çıxdı: göz yaşları axıtdı.

– Bəlkə lazım deyil, hə? – göz yaşlarından boğula-boğula dedi: – Xahiş edirəm...

– Gir evə, – Alik ondan xahiş elədi.

Fariz qapıdan üçüncü çıxdı: cərgənin axırında sürücü gəlirdi. Onlar bir-birlərinin ardınca eyvandan pilləkənə hərəkət elədilər.

Alik qalxdı, sakitliyinə özü də təəccüb edə-edə Farizi səslədi.

Dördü də eyni vaxtda döndü. Dayandılar.

Alik çubuğu bir tərəfə atdı, cib bıçağını büküb cibinə qoydu və asta addımlarla onlara tərəf yönəldi.

Sürücü irəli addımladı, tujurkada olan iki nəfər Farizin böyürlərini kəsdirdilər.

– Nə istəyirsən? – Alik lap yaxınlaşıb, sol əliylə sürücünü kənara itələyəndə, Fariz əsəbiliklə soruşdu.

– Qadını vurmaq asandı, – Alik dünəndən hazırladığı sözləri dedi, səsi gizli həyəcandan boğuq və asta çıxırdı, – bacarırsan kişini vur...

Alik axırıncı kəlməni deyəndə, bədənini tramvaydan atılan vaxt olduğu kimi geri verib, sağ əlinin geniş açılmış ovcuyla ona bir şillə ilişdirdi. Alik bilirdi ki, daha heç nə eləyə bilməyəcək, – bu iki nəfəri Fariz yalnız şahid kimi gətirtməmişdi, hər şeyin necə deyərlər, öz vaxtı var. İndi onların vəzifəsi başqadı, şillənin qarşısını ala bilmədilər, amma qalan hər şeyi necə lazımdı, elə də etdilər: biri o saat Alikin sağ, o biri isə sol əlindən asıldı. Sürücü arxadan özünü onun üstünə atdı və nədənsə köynəyini qurşağadək cırdı.

Fariz zərbəyə zərbəylə cavab vermək imkanından istifadə etmədi: əlləri qanrılmış adamı vurmağa utandı.

Alik gözünün ucuyla belində qırmızı sarğı olan bacıoğlunun eyvana atıldığını və Nadirin əllərindən dartınıb çıxmağa çalışan bacısını gördü. Yaxşı ki, dünən heç olmasa anasıyla görüşmüşdü.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Onu hara aparırlar? – bacısı qışqırırdı. – Buraxın onu... Alik! Alik? – o, damdan gecə əlləri bıçaqlı üç nəfərin üstünə atılanda da, bacısı beləcə var gücüylə qışqırırdı: görünür, Nadir bacısına izah eləmişdi ki, şahidlərin yanında ona şillə vuran adama Fariz neyləyə bilər...

Onu yeddi saat əvvəl, dünən axşam Maya ilə getdiyi yolla aparırdılar.

Keçən ildən "Piştorq"un anbarına döndərilən keçmiş məscidin yanında ayaq saxladı. Onlar da ayaq saxlamalı oldular, onu əllərində aparmayacaqdılar ki. Onun müsəlman məbədinin köhnə hörgüsünə niyə baxdığını başa düşə bilmirdilər.

O isə Maya ilə xudahafizləşirdi. Xəyalən dünən bu köhnə divarın yanında baş verənlərə qayıdırdı, qızın dodaqlarını öpür, ağzında şor qan təmi duyurdu. Qızın qanının təmini...

Alik evə qayıdanda, Maya artıq başqa şəhərdə yaşayırdı. Fariz öz ixtisası üzrə Suraxanıdakı neft mədənində işləyirdi. Anası rəhmətə getmişdi. Bacıoğlu məktəbi qurtarırdı. Nadir sərxoşluğundan qalmırdı. Bacısı isə yenə Farizin arvadıyla aranı düzəltmişdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PARK

İş günü olsa da, karxana nədənsə susur; disklərin yorucu, bezikdirici cırıltısı eşidilmir. Gecə toz bir az yatıb. Təmizlənmiş hava nəfəs aldıqca burun pərələrimi xoş bir tərzdə yüngülcə qıdıqlayır. Dabanlarımın arxasınca əyri-üyrü toz burumları qalxır. Elə bil yuxu içindəyəm. Bərk torpağın üstündə özümü qov kimi hiss edirəm. Getdiyim kələ-kötür cığır yola bənzər bir şeydi, özü də burulub karxananın başına dolanan ağımtıl zolağa qovuşur. Axır ki, canım qızışdı, elə bil məni götürüb isti mayeyə saldılar və bu isti maye də sıçrayıb başıma çatanda özümdə son dərəcə qəribə bir yüngüllük hiss etdim, lap uçan kimiydim...

Karxananın dibinə nəhəng çalaya yığılan su artmışdı. Hər halda burdan, yuxarıdan baxanda mənə belə gəlir. Su köhnə olduğundan qatı yaşıl rəngdəydi və onu qamış basmışdı. Karxananın lap ətəyində donub qalan, qorxunc görkəmli üç daşkəsən maşın olmasaydı, deyərdin ki, çürük dişdəki oyuq kimi böyür-başı ovxalanıb tökülən bu nəhəng yarıq ən azı yüz il, iki yüz il bundan əvvəl yaranıb. Özü də yaradanı təbiətin özü olub.

Otağın yeganə salamat pəncərəsi parıldadı və elə o dəqiqə də yadıma düşdü ki, qarşıdakı görüşə hələ heç də tam hazır deyiləm. Evi qonşuluqdakılardan fərqləndirən elə bircə bu pəncərə idi. Görkəmindən isə eləcə yazıqlıq tökülürdü. Atılmış adamlara oxşayırdı.

Qaçışı üç dövrə azaltdım. Az-maz hazırlıq işi görülüb – həyət sahmana salınıb, ağacın altına xalça-palaz döşənib, stolun üstündə qar kimi ağ süfrə, amma ət hələ doğranmayıb, onu şişlərə də çəkmək lazımdır, qız gələndən sonra rahatçılıq olsun.

Köynək də ütülənməlidi. Hələ dəmir qolla da məşq edib bədənimi açmalıyam... Nə isə, çox şeyi çatdırmalıyam...

Ət soyuducuda buz bağlamışdı, ərisin deyə, onu günün altına qoymalı oldum. Şişə keçirilib ikinci mərtəbədəki qoşa gimnastika halqasından asılmış qoyun budu idmanı qarınquluṭuqdan heç də ayırmayan qüdrətli bir nəslin heraldik emblemini xatırladırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tərim soyumağa başlayırdı. Dəmir qolu qaldırmazdan əvvəl bir az da açılışmaq lazımdı - - bir azdan qonşular çıxıb gedəcəkdilər, onda lap yumruqlarımla da oynaya bilərdim, utanıb-çəkinəsi bir kimsə olmayacaqdı!

Ən yüksək çəkiyə qayda ilə çıxmaq üçün dəmir qolun ağırlığını tədricən artırıram. Qız onsuz da on birdən tez gəlməyəcəkdi. Amma indiki on doqquz yaşlıların da işini bilmək olmur!

Dəmir qol dairəvi, yastı çəki lövhələrin ağırlığından hiss olunacaq dərəcədə əyildi, əllərim aramla qalxıb-enir, xalçanın narın tükü də daha kürəyimə batmırdı, göydəki bulud ləkələri də sanki əriyib yox oldu, bütün bədənimdə öz gücümün hədsizliyini duyurdum...

Mühərrikin uzaq uğultusunu, maşın qapısının çırpılmasını, tələsik addım səslərini, alaqapının cırıltısını eşidirəm. Əllərimdəki dəmir qolun üstündən Balanı gördüm. Nədənsə çox həyəcanlı idi. Çünki belə olmasaydı, yenə həmişəki kimi bir qıraqda oturub, heyran-heyran mənim dəmir qolla çıxartdığım oyunlara baxardı, səbirlə məşqi qurtarmağımı gözləyərdi. İndi isə dözmədi:

- Pul mükafatımız batdı! Xəbərin var?

Balaya nə deyəsən axı?! Özünü necə aparmağı nə qədər öyrədirsənsə, yenə xeyri yoxdur. Adi bir şeydən bir az həyəcanlandımı – qurtardı, tərbiyə adlı şey ondan bir andaca qabıq kimi qopub düşür! Amma buna günahkar o deyil. Adamı gərək uşaqlıqdan tərbiyələndirəsən. Yazıq Bala, ömrü boyu doqquz qəpiklik ət qutablarını on qəpiyə satan atasından nə öyrənəcəkdi ki...

Cavab əvəzinə başımı saymazyana buladım, bu, hər hansı bir ədəbli adamın heç olmasa bir saatlığa susmağına bəs eləyərdi, amma onun heç kirpiyi belə tərpənmədi. Gözlərini dəmir qolun üstündən bərəldərək ara vermədən qırıldayırdı:

– Bəs sən bilmirsən? Əmr gəlib ki, planı yarıyadək dolduraq... Bu, dəqiq belədir ey!.. Kvartal mükafatı, illik mükafat batır... Mən yandım, vallah! Üç mini hardan tapacağam? Eşidirsənmi? Səninlə deyiləmmi?

Onun sözünü kəsməli oldum:

– Ay balam, bir hovur dincini al... Otur, bir nəfəsini dər.

Şükür ki, səsimdəki ahəng ona təsir elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maraqlıdı, indi görək harda oturacaq? Stol arxasındamı? Yox, kraxmallı süfrənin nənənin köhnə kamodundan onunçün çıxarılmadığını anladı. Su kranının böyründəki kətilə əyləşdi. Ora həyətdə ən günəşli yer idi.

Həyətin bəlkə də bütün vərəmliləri bu kətilin üstündə oturub, özlərini günə verərdilər. Yox, xatırlamamaq olmur... Amma o yəqin ki, çoxdan çürüyüb gedib...

Dost həmişə ala-bula dəsmallara bürünüb, saatlarla tərpənmədən bu kətilin üstündə otururdu və gücü yalnız qabağındakı tənəkə ləyənə tüpürməyə çatırdı. Baharın ilk vaxtları idi. Hələ ot göyərməmişdi. Hər tərəf təzəcə ərimiş qardan yaş idi. İplərdən naftalin iyi verən qış paltoları asılmışdı.

Biz hələ də hərbi geyimdə olan atasının onu günün altında qızınmaq üçün bayıra necə çıxardığına baxırdıq. Gözləri çuxura düşmüş bu altmış yaşlı qoca nəzərlərini bir nöqtəyə zilləyərək otururdu.

Tabaşirlə çəkilmiş xətt bizi ondan ayırırdı: bu xətti heç vaxt adlamırdıq. Valideynlərimiz bunu qəti qadağan etmişdilər, biz tabe olurduq, çünki irəlidə, xəttin arxasında guya nəsə anlaşılmaz, təhlükəli bir şey başlanırdı...

Bir dəfə o yediyi almanı əlindən yerə saldı. Qaşqabağını tökdü, süst nəzərlərlə (nədənsə o vaxt başı da dönmürdü, yəqin bu, çox bərk büründüyündəndi) almanın diyirlənib, xətti keçməsinə baxırdı...

Alma bizim lap ayaqlarımızın ucundaca dayandı. Amma xəttin o üzündəki hava vərəm çöpcükləri ilə qaynaşırdı və biz – vay xətti keçənin halına – ölümcül xəstəliyə tutulmalıydıq?..

Dost düz mənim gözlərimin içinə baxıb, lap yavaşdan dedi:

– Götür mənə ver.

Bu, kətildə oturduğu neçə gündən bəri onun dediyi yeganə söz idi. Bəlkə də qulağım səsə düşmüşdü; bilmirəm, amma almanı alandan sonra onun: “sağ ol” deməsi dəqiq yadımdadı. O, ədəbli uşaq idi. Daha Bala kimi deyildi ki, odur, sımsığını sallayıb oturub və heç ağlına da gəlmir ki, neçə-neçə illər bundan qabaq, adamlar başlarının üstünü alan karxanaya görə, hələ buranı tərk etməmişdilər və bu həyətdə necə kədərli hadisələr baş verib.

Dəmir qolu axırıncı dəfə qaldırıb, başımın üstündən öz yerinə, divanın dibinə atdım. Hə, indi Balanın nədən belə coşduğuyla maraqlanmaq olar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məxmər xələti geymək üçün pilləkənə tərəf gedirəm. Bala arxamca tələsir.

– Sən mükafatını mənə borc verməyə boyun olmuşdunmu?

– Hə...

– Uşaqlar da?

– Hə...

– İllik mükafatla birlikdə bu nə qədər eləyir? İki min dörd yüz?

– Bilmirəm.

– Tutaq ki, iki min üç yüz... Hər halda bundan az olmazdı. Eh, indi isə hər şey batdı, qurtardı!

– Nə qurtardı, ə? Bir hövsələni bas görək.

– Maşının pulunu necə verəcəyəm?

– Əşi nə olub axı? Bir adam kimi izah edə bilməzsənmi?!

– Dedim axı... Əmr gəlib ki, hasilatı yarıyadək azaldaq. Köhnə plan isə qalıb. Deməli, pul mükafatı batdı.

– Kim dedi?

– Mühasibatda dedilər.

– Nə vaxt?

– Bu gün. Bülleten çıxardırdım...

– Yenə bülleten?

– Köhnəsidir. O da yadındadı?

Ətin donu açıldığından asan doğranırdı.

– İndi nə cür olacaq?

Bala boynunu büküb durdu. Cavabımı az qala bir hökm kimi gözləyir: lənətə gəlmiş "Jiquli" yazığı çıxılmaz vəziyyətdə qoyub. Ona bacardığım qədər təskinlik verirəm.

– Hər şey qaydasında olacaq. Darıxma.

Etibar qəribə şeydi. Borc verənlərin hədələri, sevimli maşından ayrılmaq kimi kədərli bir məcburiyyət – bircə kəlməylə dumana çevrilib yox oldu. Onun inandırmağa haqqı var idi. Çünki ona söz verən hamının inanmağa adət etdiyi adamdı... Bununla belə həyəcan içində konkret nəticə gözləyir. Lakin idarədə danışmamış konkret nə demək olar axı? Hərçənd burası tam aydındı ki, onun mükafat barədə çərənlədiyi tamam boş bir şeydi: çünki pis işləmək barədə hansı ağılsız əmr verə bilər?

Çöhrəsi açılan Bala borcu da, maşını da bir andaca unudur. Qar kimi ağ süfrəli stola, kabab şişlərinə baxıb, bic-bic gülümsəyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qonaq gözləyirsən?
– Hə.
– Təzəsidir?
– Hə.

Vəcdlə başını bulayır: daha ayrı suallar vermirdi. Ona görə yox ki, marağı sönmüşdü, uzaqda olduğu üçün bir az boğuq çıxan küt zərbə səsi və bunun da arxasınca sınan şüşənin melodik cingiltisi eşidildi və bu səs onu diz qapağına çəkic vurulan xəstə halına saldı. Sıçrayıb darvazaya tərəf götürüldü.

Maşın! O, maşını yolda qoymuşdu – evin böyründəki palçıqlı çöllük maşın sürmək üçün yaramırdı.

...Qabaq şüşənin yerində iri bir yarıq qaralırdı. Maşının dörd bir tərəfinə pul-pul olmuş xırda şüşə qırıntıları səpələnmişdi. Şüşəni sındıran adamı görmək ümidilə mənasız-mənasız o tərəf-bu tərəfə döyükən Bala yazıq və köməksiz görkəmində başı qarışdığından uşağı oğurlanan ananı xatırladırdı.

– Bu nə demək idi axı? – Balanın dodaqları əsdi, dili güclə söz tuturdu. – Öz-özündən sındı?

– Sındırdılar... Səsi çox qəribə çıxdı. – Kim idi bu Allahın heyvanı? Gözünü minən əclaf?!

Onu birtəhər sakitləşdirmək lazımdı:

– Bu şüşənin qiyməti neçədir ki?
– Yüz manat olar.
– Fikir eləmə. Məndə elə bu doqiqə bir artıq yüzlük var.

Sevincindən yazıq bilmir neyləsin? Amma o saat razılaşa bilmir, utanır. Qətiyyətsizliklə etiraz eləməyə çalışır.

– Mübahisə eləmək lazım deyil, Bala. Bu ərazidə baş verən hər şeyə cavabdeh mənəm.

Çöllüyü nifrətlə nəzərdən keçirir:

– Başa düşə bilmirəm, sən niyə burdan köçmək istəmirsən?
– Bu artıq sənin ağlın kəsən iş deyil, – yüngülcə istehza elədim.
– Yox, düz sözümdü. Hamı köçüb gedib axı... .

Onu nəsə bir şeylə heyrətləndirmək lazımdır ki, əl çəksin yaxamdan. Parkdan söz salıram, deyirəm ki, əvvəlcə karxananı suyla dolduracaqlar, olacaq iri bir nohur, sonra ətrafında ağaclar əkəcəklər – beləliklə də bu gördüyün xarabalığı eləyəcəklər əməlli-başlı park!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təbiidi ki, o, şübhəylə qulaq asır. Yay restoranı, gəzinti üçün qayıq stansiyasını deyəndə isə lap ağzı açıla qaldı. Amma pillə-pillə, aşağı enən karxananın daş camı, doğrudan da, nəhəng su hövzəsinin dibinə oxşayır və bu onu mənim sözlərimdən çox inandırır.

– Burda ağaclar bitər? Tamam daşlıqdı axı?

– Torpaq daşıyıb gətirəcəklər. Problem deyil ki!

– Hə, sənin evini bax, onda sökəcəklər.

– Sökənəcən yaşayaram ki... Özü də bilmək olmaz, bəlkə hardasa bu tərəflərdə təzə ev tikdilər...

Ehtiyatla üzümün ifadəsini izləyir. Təbəssümdən əsər-əlamət tapmayıb, maşına əyləşir və sınmış şüşənin yerindən yazıq-yazıq baxır.

– Bərk sürmə, soyuqlayarsan.

Zorla da olsa gülümsəmək istəyir, amma bacarmır, maşını sürüb çıxıb gedir...

O aralanan kimi daş qalağının arxasından üç nəfər cins şalvarlı, uzunsaç yeniyetmə çıxır. Alabəzək şərfi dizinədək sallanan birisinin çəkisi səksən kilo olar, o biri iki nəfər isə ona nisbətən boydan balacadılar. Üçünün də əlləri cibindədi – elə-belə qorxudurdular, həqiqətən də qarşıdakı çox həyasız idi, özü də nəsə çox tanış idi. Bir şey də var ki, bu uzunsaçlıların hamısı hardasa bir-birlərinə çox oxşayırlar! Nə sirdi, bilmirəm.

Uzun şərfli başladı.

– Hə, nə gözünü zilləyib durubsan?

– Maşını sındıran sizsiniz?

– Bizdən başqa kim olacaq ki?

Sualımın sadəlövhlüyü onları əyləndirdi deyəsən.

Sonrasını isə heç danışmağın mənası yoxdu. Onlar nədənsə özlərini qəribə apardılar: yekə daş qalağının arxasında daldalanıb ordan hədələməyə başladılar:

– Hələ bu, başlanğıcdır, – "Alabəzək" rişxəndlə deyir. – Qızla bir də kəlmə kəssən, başını yaracağıq.

Demə bunlar rəqabət aparan kavalerlər, rəqiblər, ya da nə bilim, buna oxşar bir şeydilər! Dallarına düşsəm, tutub heç olmasa birini, ya elə hamısını əzişdirmək olar. Amma hərəkətlərindən görünür ki, hər cür pisliyə qadir adamlara oxşayırlar, sonra qızdan əvəzini çıxa bilərlər. Özü də bu nədi belə – olmaya qızda onların üçünün də gözü var?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gələn dəfəyə niyə saxlayaq? – deyirəm. – Hazır gəlibsiniz də. Buyurun, bu da mənim başım, tərpənin.

Ara saxlaya-saxlaya asta-asta geriləyirlər.

– Biz dediyimizi dedik, – "balacalar"dan biri kişiləndi: onun qabağa çıxmış iri alnı və sallaq sarışın bığları vardı. – Qıza bir də yaxınlaşsan pis olacaq.

– Hökmən yaxınlaşacağam.

– Onda baxarıq...

– Bu niyə xoşunuza gəlmir axı?

– Biz səni xəbərdar elədik. Sənə də pis olacaq, qıza da...

– Siz qızın nəyisiniz, bəlkə valideynlərisiniz?

– Dostlarıyıq. – Şit-şit gülüşürlər.

Bəlkə doğrudan da qıza hüquqları çatır onların? Amma özlərini yaman yuxarıdan aparırlar ha...

– Hə, biz səni xəbərdar elədik, sonra narazılıq olmasın. – Yenə uzun şərfli idi. Yəqin onların başçısıdır. Çünki başının amiranə bir hərəkətiylə onlar addımlarını yeyinlədib özlərindən razı halda uzaqlaşdılar...

Yazıq Bala. Öz şefinin uğursuz eşqbazlığından ziyan çəkdi. Qıza da yazığım gəlir: onu bu cür qoruyurlarsa, deməli, həyatı sən deyən qədər də şirin keçmir.

Hə, bir də ki, yazığım gəldiyi adamlar birdimi, ikidimi? Yox, bugünkü gün belə başlanmamalıydı. Düz gəlmədi işlər. Qəşəng bir qızla görüş əvəzinə xuliqanlarla xoşagəlməz toqquşma, pul mükafatı barədə sayıqlamalar, Balanın "şikəst" maşını, "parpriz" kimi qəribə adı olan şüşəyə verilən yüz manat... Daha bunun harası xoş görüş vəd eləyir ki? Dilxorçuluğu yalnız bir şüşə çaxırla yumaq qalır...

Əgər bu şüşəni mənimlə şərik içməyə bir kimsə yoxdursa, onda yəqin ki, bunu tək eləməliyəm. Üstünə nənəmin qədim servizindən iki sonuncu boşqab qoyulmuş qar kimi ağ süfrəli, stolun arxasında tək-tənha oturmaq, qurumasın deyə əti odun üstündən vaxtında götürmək, çörək dilimlərini damcılayan yağa basmaq və soğanı yumruqla əzmək – belə daha dadlıdı – Allahın köməkliyilə başlamaq lazımdı; çünki dadlı yeməyə və yaxşı köhnə çaxıra marağı itirənlər dərindən səhv edirlər. Tək nahar elədiyin və çənə yoldaşın olmadığı üçün heç tələsmək də lazım deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə ki, yanğın da, aclığın da keçdi, qara-qura fikirləri başından eləməkçün kefin istəyən bir mahnı da oxumaq olar. Yaxşısı budu, cavanlıq mahnılarından birini. Hətta sənin cəmi otuz üç yaşın olsa da, bu mahnı bir müddət əvvəlki, amma əlçatmaz uzaqlıqda olan cavanlıq günlərinə atılmış körpü kimidi və sənə indi çox vacib olan ruh yüksəkliyi gətirəcək... Hə, deyək ki, məsələn, sənin altıncı sinifdə dostlarınla oxuduğun "Sorrentoya qayıdaq" mahnısının nəyi pisdi? Mahnını var gücünlə bağırırsan və təkliyin heç də həmişə pis olmadığını anlamağa başlayırsan...

Əgər həyətdə səndən başqa heç kim yoxdursa, həyət isə şəhər ucqarında, daş karxanasının qonşuluğundadırsa, onda lap əla, sənin səsin heç kimi narahat etmədən, çox sərbəstcə geniş daş yaylaya yayılar. Sonra isə kefin çəkirsə götür divardan sənə şəhərin ən yaxşı qılıncoynadanı adını qazandırmış çivi – onu xüsusi olaraq bununçun göydən asılmış kəpək dolu çuvala hərdənbir sanca-sanca, xəyali rəqibinə qılınc oynat ki, oynada bildikcə...

Adətən bir az sərt, özünə inanan adam olan rəis nəsə, şübhəli kimi, çaşbaş danışır:

– Başa düşürsən, bu əmr deyil... Nazirliyin xahişi kimi bir şeydi, eksperimentdi...

– Həmin eksperimentə görə biz gərək pis işləyək?!

– Belə deyil.

– Əgər neft hasilatını birdən-birə qırx faiz azaldırıqsa, necə yəni belə deyil?

– Az – heç də həmişə pis deyil, – Üçüncü də söhbətə qarışır. O, "işlərin necədir? Çoxdan görüşmürük" kimi ənənəvi sözləri təbəssümlə deyəndən sonra, görünür, susmağını kifayət qədər hesab eləmişdi.

Maraqlıydı, daha nə deyəcək? Ümumiyyətlə, o, hardan peyda oldu? Doğrudanmı tamam qayıdıb gəlib? Tək, ya ailəsi ilə? Məlum həqiqətləri məlumatsız adamlara izah edən mühazirəçi kimi danışır. Özünə əvvəlcədən arxayındı ki, hamı qulağını sallayıb ona qulaq asacaq. Gözlə!

– Bəs plan necə olacaq? – Birbaşa rəisdən soruşuram.

Yazıq razı olmağa məcburdur ki, plan məsələsində çətinliklər baş verə bilər. Amma yalnız mənim sahəmdə. Mədəni bütövlükdə götürdükdə isə, hətta planı artıqlaması ilə yerinə yetirməyə də ümid var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Buna şübhə ola bilməz. Bu niyə bizim işlərimizə baş soxur axı?! Bəlkə nazirlikdə rəis-zaddı təzəlikcə? Hər halda, eksperiment əhvalatının ona birbaşa dəxli var, ayrı cür ola bilməz...

– Başa düş, oğlum. – Anam həmişə olduğu kimi çox qəti – elədiyi hər şeyin düzgünlüyünü və vacibliyini dərk edə-edə danışırdı, amma neyləyəsən ki, gözlərində də yenə gümüştək göz yaşları parlayırdı, – biz səninlə iki nəfərik, onlar isə beş nəfərdilər, böyük ailədirlər... O sənin dostundu və ağır xəstədir. Rütubət onun axırına çıxa bilər... Səninlə bizə isə bir otaq da kifayət edər.

Bu vaxt iki yükdaşıyan və onun atası (o hələ də hərbi geyimdə idi), əşyaları daşıyırdılar – yuxarıya, ikinci mərtəbəyə, özlərininkini, aşağıya, birinci mərtəbəyə isə bizim – anamın dediyinə görə atamın sağlığındakı xoşbəxt günlərdən qalma şeylərimizi...

Makinanı və gecələri səhərədək arxasında oturub çap elədiyi qırmızı ağacdan olan dəyirmi stolu anam özü çıxartdı, başqasına etibar eləməyə qorxurdu, "undervud" makinası da, bir neçə yerdən çatlamış stol da buxur iyi verirdi.

Bürünc şamdanları və fil sümüyündən moderatoru olan "Mülbax" pianosu yuxarıda qaldı. Əlbəttə, müəyyən məbləğə, metr və mərtəbə fərqi də yəqin ki, ödənilmişdi, onun atası nəcib adam idi, dediyim kimi, Dostun özü də eləydi. Bu adamların nələri də olmasa, nəcibliklәri bol idi...

– Başa düşürsən, bu mənim tədqiqatlarımın nəticəsidir, – o sanki öz şəxsi marağını etiraf etməkdən qorxmadığını bildirərək məhrəmanə tərzdə deyir. – Sübut eləyə bilmişəm ki, neft yataqlarının kompressor üsulu ilə hasilatının optimal variantı... ən əlverişli mənada (bunu o mənə tez çatsın deyə xüsusi qeyd edir) bu olardı ki, quyuları həmişə olduğu kimi tam gücüylə buraxmasınlar, əksinə, bir neçəsində debiti xeyli azaltsınlar... Onda bütün quyulardan çıxarılan neftin yekun miqdarı çoxalar.

Burda lap ağ elədi ki! Onunla bu mövzuda danışmağa heç bir həvəsim olmasa da – onun dissertasiyasından yazıq Balaya nə fayda – şübhəmi bildirməkdən özümü saxlaya bilmirəm.

Cavabında məni inandırmağa başlayır ki, sonra vaxt tapıb hər şeyi mənə yerli-yataqlı izah edər, indi isə vacib olan başqa məsələydi ki, hökmən həll olunmalı idi: mən onlara kömək etməyə razıyam, ya yox?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Onların" kim olduğunu dəqiqləşdirirəm.

– Mənə də... elmə... neft sənayesinə, bunu necə istəyirsən başa düş... Əgər təklifimi sübut edə bilsəm, onda ölkə böyük maddi və enerji qənaəti ilə bərabər bütövlükdə neftin əhəmiyyətli dərəcədə artımına nail olar.

– Sən də fürsətdən istifadə edib dissertasiyanı müdafiə edərsən...

Bir az kobud çıxdı, o hətta incidiyindən gözlərini bir müddət döydü də. Amma soyuqqanlığını itirmədi: bəli, əgər onun nəzəri dəlilləri təcrübədə sübut olunsa, o həqiqətən də dissertasiyasını müdafiə edəcək. Amma bunun məsələnin məğzinə nə dəxli?

Söhbəti davam etdirməyin mənasız olduğunu görüb qapıya yönəlirəm. O da ayağa durur. Mən adamları maaşdan məhrum eləməyə heç bir hüququm olmadığına görə, plan rəsmi olaraq əmrlə dəyişməyincə, hər hansı bir eksperiment əleyhinə qəti etiraz edirəm.

– Sən özündən çıxma, – rəis məni sakitləşdirməyə cəhd edir, – yoldaş sadəcə olaraq dedi ki, siz köhnənin dostusunuz. Buna görə də sənə təklif eləməyi qərara aldıq. Səni heç kim məcbur eləmək istəmir. Planı azalt da bizə heç kim icazə verməz...

Uşaqlar həyətdə gözləyirlər. Səslərini kəsib nigarançılıqla üzümə baxdılar. Qıraqda oturmuş Bala yerindən sıçrayıb, tələsik yaxınlaşır. Gülümsəyirəm: yəni, hər şey qaydasındadı, niyə həyəcanlanırsınız? Sizin ustanız sizi şübhəli eksperimentlərin ağzına verənlərdən deyil.

Yalan şayiələr yaydığına görə Balaya cəza elan edirəm – nahar fasiləsi vaxtı növbədənkənar iki masaj. O, danışıqların yaxşı qurtarmasına uzun müddət inana bilmir, axı, adətən mühasibatdan gələn məlumatlar düz çıxırdı.

Bu da o, uşaqlıq dostum. İncik nəzərlərlə məni axtarır. Gördü. Sakitləşdi. Bir də cəhd eləməlidir. Elədir. Səslədi məni. İndi bu uzun çəkəcək.

Bir-birlərini heç də dostcasına süzmürlər: o qeyri-ixtiyari təhlükə duymuş uşaqları, uşaqlar da onu.

Görünüşü elə həmənki idi, demək olar ki, heç dəyişməmişdi. Eləcə cılız və qıvraq idi, yalnız azacıq dazlaşmışdı. İki santimetrədək təpəsinə yerimiş kəkili isə əvvəlki codluqla əyilməz qalmışdı. Xirtdəyi də itiliyini itirməmişdi, oynaq idi, hə, dost, çox az dəyişmisən. Ən başlıcası da budu ki, əvvəlki tək inadkar olduğun aşkarca görünür!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sözün düzü, sənə çox ümid edirdim.

Buna mənim şübhəm də yoxdur! Həmişəki kimi! Maraqlıdır, daha nə deyəcək?

– Necə yaşayırsan? – Bunu elektrik qatarında soruşdu, stansiyaya kimi dinmədən getmişdik.

– Əla.

– Hələ də orda qalırsan?

Ona elə gəlir ki, səsindəki canıyananlıq yerinə düşür. Maraqlıdı, park barədəki xəbəri necə qarşılayacaq?

– Hə.

– Bəs karxana?

– Bağlayacaqlar.

Təəccüblə qaşlarını dartır.

– Yeraltı sular çoxalıb... Buna görə də oranı su ilə doldurmağı qərara alıblar. Gölə bənzər bir şey olacaq. Qayıqlarda gəzintiyə çıxacaqlar... Ətrafda isə park. Hətta restoran da tikəcəklər, zəhmətkeşlərin xahişinə görə...

– Bu lap əla oldu ki!

– Hə, mənim də xoşuma gəlir.

– Bəs, evi sökməyəcəklər?

– Orda hər şeyi sökəcəklər. Yerində balaca mikrorayon salınacaq. Cəmi bir neçə evdən ibarət.

– Mənzil almağa şansın var?

– Mütləq.

Bir qədər tərəddüdlə soruşdu:

– Sən... evlənmədin?

– Yox... Ümid eləyirəm ki, sənin hər işin yaxşıdı?

– Hə, iki uşağım var. Oğlandılar. Vika institutu qurtardı. Nə isə, hər şey qaydasıncadı. Heç uşaqları görürsənmi?

– Nadir hallarda... Yurka ölüb.

– Ölüb? – O doğrudan da sarsılır. – Nə vaxt?

– Keçən il. Saratovda...

Axtarışı aparan onların hansısa bir qohumu idi: əyriburun, qalınqaş, əynində beli nazik qayışlı nahamar boz köynək olan bir kişiydi. Adətən ehtiramla sözünə qulaq asdığı Dostun etiraz dolu çığırtılarına baxmayaraq, kişi ciblərimizi çevirdi (Yurkadan başladı),



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əllərimizi qaldırmağa məcbur elədi və qoltuqlarımızın altından tutmuş ayaqlarımızadək bütün bədənimizi yoxladı, – hiss olunurdu ki, bu işlərə vərdişdir, birinci dəfə deyil.

– Atam səni qovacaq!.. – Dost elə qışqırırdı ki, arıq boynunda damarları köpmüşdü. – Onlarla işin olmasın! Özün oğurlamısan!..

Qohum axtarışı qurtarıb, bir kəlmə belə demədən o biri otağa keçdi, orda pianonun üstündə atamın şəkli əvəzinə indi məşhur bir dövlət xadiminin portreti asılmışdı. Amma o da çox qalmadı orda. Axtarış gedən keçmiş yataq otağında da hər şey dəyişmişdi, küncdə nikelli söykənəcəkləri olan köhnə dəmir çarpayıların yerini (onlar bizdə birinci mərtəbədə idilər) üstünə xalça salınmış iri taxt tuturdu. Divarboyu daim bağlı olan, dəstəkləri qızıl suyuna salınmış hündür kitab şkafları ucalırdı. Mənzilimizdə hər şey dəyişmişdi, hətta köhnə sobanı da qaz buxarısına döndərmişdilər...

Bir müddət sonra isə, hava lap qaralanda, Dost boynuna aldı ki, qolbaqlı qızıl saatı və altı dənə gümüş nahar bıçağını özü oğurlayıb. Söhbətdə ikinci zərərçəkən kimi Yurka da iştirak edirdi. Külək dirəkdəki metal abajurlu lampanı yellədir, çöllük boyu o tərəf-bu tərəfə oynayan solğun işıq kölgələri düşürdü.

O bizi inandırdı ki, qolbağın da, bıçaqların da oğurlanması əsl oğurluq deyil, – ədalət naminədir: bir kömbə çörəyə görə Yurkanın atasını az qala tutmuşdular, mənim anam cüzi qazancdan ötrü gecələr makinada yazır, onlarda isə bolluqdu, pulları da, vecsiz şeyləri də çoxdu, buna görə də sözsüz ki, qolbağı da, bıçaqları da bir yerdən vermək olar və əldə olunan pula mənimçün də, Yurka üçün də ondakı velosipeddən almaq olar. Əlbəttə, bizi axtarmaqları yaxşı çıxmadı, amma gec-tez bizdən daha şübhələnməyəcəklər, əvəzində çoxdan arzuladığımız velosipedlərimiz olacaq...

– Yurka, Yurka... – O, səmimi bir təəssüflə başını yırğalayır. – Nədən ölüb?

– Bilmirəm... Mən baş çəkəndə, anası evdə yox idi. Qonşularsa bir onu bilirdilər ki, uzun müddət xəstə imiş.

– Nə işləyirdi?

– Həkim idi.

– O, məktəbdən sonra yoxa çıxdı. Nədənsə onu o saat orduya götürdülər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doğrudanmı hər şeyi unudub o? Ya özünü qəsdən belə göstərir?

– Nədi, yoxsa onu niyə apardıqlarını bilmirdin?

Yadına salmağa çalışır, guya həqiqətən heç nədən xəbəri yoxdur.

– Hə, hə... Biz axı onda məktəbdən sonra işləməyi qərara almışdıq... Buna görə də o, heç yerə qəbul olmadı.

Qərara almışdıq... Kimsə qərara aldı, kim isə indiyədək işləyir... Üz-gözündə şübhə yeri görünüb yox olur.

– Sən sonra qəbul olunmağa cəhd göstərmədin?

– Yox.

– Niyə?

– Uzun söhbətdi...

İndi hücuma başlayacaq. Ona görə yox ki, özünə bəraət qazandırmaq, ya bağışlanmasını xahiş etmək istəyir, yox, sadəcə olaraq şübhələrdən yaxa qurtarmaq istəyir, əgər bu şübhələr varsa! O, hökmən həm özünə, həm mənə, ümumiyyətlə, hamıya sübut eləməlidi ki, o vaxt da həmişə olduğu kimi haqlıydı və əgər kimsə öz şəxsi tənbəlliyi üzündən, ya gözlənilməz həyati səbəblərdən zərər çəkibsə, buna günahkar o deyil.

Zəndim düz çıxır, o başlayır:

– Başa düşürəm, o vaxt bir az sadəlövh idim. Əlbəttə ki, on yeddi yaşında sadəlövh olmamış nə vaxt olacaqsan?! – Kədərlə gülümsəyir, xəyalı sonuncu buraxılış imtahanlarına qanadlanır yəqin. – Buna baxmayaraq, əminəm ki, institutdan əvvəl işləməkdə düz elədik... Bunun hamımıza faydası oldu... Sən razılaşmırsan mənimlə?

– Razılaşıram.

– Sözünü axıradək demirsən.

– Əl çək.

– Yox, düz deyirəm... Sənin sonralar oxumağa getməməyində özündən başqa heç kim günahkar deyil.

Etiraz eləyəcəyimi gözləyir: cavab dəlilləri əvəzində gördüyü istehzalı təbəssüm onu daha da haldan çıxarır.

– Bir də ki, mən ən səmimi duyğularla hərəkət edirdim.

– Həmişə olduğu kimi...

– Bəli, həmişə olduğu kimi. Səncə belə deyil?

– Təsəvvür elə ki, yox...

Kirpikləri inciklikə qırpılır, o elə əvvəlki kimi istehzaya həssasdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dediklərini əsaslandıra bilərsənmi?
– Bilərəm... Amma həvəsim yoxdu...
– Axı, məni təhqir elədin...
– Hə.
Gözlərində yaş, gərginlik, gizlətməyə çalışdığı çaşqınlıq var:
– Heç olmasa səbəbini izah elə.
– Özün hər şeyi gözəl bilirsən.
Elektrik qatarı yüngülcə sürətini azaldıb dayandı...
Vağzalı yenidən qururlar, relslərin üstündən keçib, təzə tikilən binanı hərlənirik. Dinməzcə mənimlə yanaşı addımlayır, incik halda fısıldayır, amma geri qalmır.
– Uşaqlar necədirlər? Sənə baş çəkirlərmi?
– Yox.
– Nədi, heç görüşmürsünüz?
– Demək olar ki, görüşmürük!
Kimisə məzəmmətləmək imkanı yarandı və o, aydındı ki, bu imkanı əldən verməyəcək.
– Niyə bəs?! Necə olur ki, bir şəhərdə yaşayırsınız, özü də görüşmürsünüz?
Ehtiyatla mənim hər bir hərəkətimə göz qoyur, amma üzündəki qətiyyətli ifadəsi bir qətrə də olsun dəyişməyib. Ona tutarlı bir sillə ilişdirmək istəyim ani güc gəldiyi kimi, ani də əriyib gedir. O saat da qəlbimdə nə isə xəcalətə oxşar bir duyğu baş qaldırır. Hələ də incikliyi unutmadığına görə (axı aradan on il keçmişdi) bir də ki, onun inadkar həqiqətsevərliyi ilə bərabər qorxaq olduğuna görə... xəcalət çəkirəm.
Qorxu onu daha da qızışdırır: ifşa etmək ehtirasının qarşısını indi heç nə ala bilməz...
– Sizə nə olub? Niyə üzünüz dönüb! Mən dünyanın o başında, ölkənin o biri qurtaracağında yaşayırdım, mənim imkanım yox idi... Amma siz, bir şəhərdə yaşaya-yaşaya bir-birinizi axtarmırsınız? Heç olmasa uzaqdan-uzağa bir-birinizin güzəranı ilə maraqlanmağa nə var? Ölüm deyil ki?!
O həmişə olduğu kimi səmimidir. Ümumiyyətlə, həqiqəti deyir (daha doğrusu, qışqırır). Amma bu həqiqət hər dəfə bir neçə ədalətli həqiqətlərdən yalnız biridir, qalanları isə onunçün sadəcə olaraq heç mövcud deyil. Ağzı köpüklənə-köpüklənə bu yeganə həqiqətini sübut eləməyincə rahat olmur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məktəbdən sonra işləmək ideyası onda gözlənilmədən, biz yanğın pilləkəni ilə 134 nömrəli məktəbin damına dırmandığımız zaman doğdu. Ora çardaqdan qalxmaq təklifini də o irəli sürmüşdü – o vaxtlar öz qorxaqlığını çox fəal surətdə ört-basdır edirdi...

Giriş qapısında görüşəcəyimiz tanış qızlar gəlib çıxmadılar, bəlkə də biz görmədik onları. Həyətdəki izdihamın içində dayanmışdıq və dəvətnamələrin xoşbəxt sahibləri bir-birinin ardınca növbətçilərin sipəri arasından keçdikcə, buraxılış gecəsinə düşmək həvəsi bizdə daha da güclənirdi. Buna görə də onun təklifi o saat ağla batdı. Hərçənd bunun riskli iş olduğunu hamı başa düşürdü.

Birinci Bəxtəvər (o vaxtdan belə ləqəbi vardı) dırmaşmağa başladı, arxasınca da Yazıçı (onda kimin ağlına gələrdi ki, o, qəliz söyüşlərdən başqa ayrı bir şey də yazmağa qadirdir!). Üçüncü yavaş-yavaş Dost qalxırdı, o yaman qorxurdu və pilləkənin ortasında huşunu itirməyə başladı. Axırıncı İşbaz idi – o bizim aramızda ən zehinli hesab olunurdu, astrofizika ilə maraqlanırdı və Moskva universitetinə hazırlaşırdı...

Bəxtəvər bir neçə pillə qalxıb soruşdu:

– Sən əminsənmi ki, çardağın çıxışı var?

– Yox, əmin deyiləm. – Dost həmən yerdəcə dayanmışdı. – Nədi, qorxdun yoxsa?

Bəxtəvər cavab vermədi...

Təxminən üçüncü mərtəbə hündürlüyündə Dost yavaşıdı. İki pilləkən sonra üzüm artıq onun əsim-əsim əsən baldırlarına söykəndi.

Bir addım da atdım. Daha o yıxıla bilməzdi. Çünki boşalmış bədəni artıq qollarımın arasındaydı. Pilləkənin hər iki tərəfindən möhkəm tutmuşdum. Bir az da irəli durub başımı onun arıq kürəklərinə söykədim.

O axır ki, özünü ələ alıb bir pillə də qalxdı.

– Neylirsiz orda? – Arxamızca gələn İşbazın səsini eşitdik.

Amma izah eləmək vaxtı deyildi.

Bəxtəvərlə Yazıçı artıq dama çıxmışdılar.

– Nə olub?

– O yıxılır.

Hamının diqqətli nəzərləri ona güc verdi. Amma pilləkənə qısıldığı üçün yuxarıya hərəkət eləmək qeyri-mümkündü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazıçı da, Bəxtəvər də ona yalvarırdılar ki, pilləkəni buraxıb, onların əlindən tutsun. Dost isə dovşan kimi əsirdi. Nəhayət, cəsarətə gəldi və uşaqlar onu yuxarı dartdılar.

Hamımız yaman qorxmuşduq.

– Nə olub sənə?!

– Bilmirəm... mən yüksəklikdən qorxuram...

– Niyə qalxdın bəs?

– Bilərəkdən.

– Gicin biri... Birdən yıxılaydın?!

Dost çox qorxaq adam idi – amma nədənsə hamını özünün ən çox qorxduğu şeyləri eləməyə sövq edirdi.

Çardağın deşiyinə dırmaşmazdan əvvəl, o, nəfəsini dərib, belə bir şeyi deməyi vacib bildi.

– Uşaqlar, işləməyi qərara almışam... Nə vaxta kimi valideynlərin boynunda oturmaq olar? Ya axşam, ya da qiyabi oxuyacağam. Sizə də təklif edirəm...

Atası bir neçə il rayonda partiya işində işləyəndən sonra, şəhərdəki ən böyük ali məktəbin rektoru təyin edilən bir adamın dilindən bu sözləri eşitmək qəribə idi. Heç kəs şübhə eləmirdi ki, Dost öz təhsilini məhz bu ali məktəbdə davam etdirəcək...

Damın tənəkə örtüyü addımbaşı gurultu salırdı. Köhnə mebellə, parta ilə dolu qaranlıq çardaqdan keçib qapıya çatdıq. Qapı laylarının arasındakı yarıqdan parlaq işıq düşür. Lap elə bil burnumuzun ucundaca orkestr çalır, içəridə adamı coşduracaq şən bir səs-küy var.

Çiyin-çiyinə verib var gücümüzlə qapını itələyirdik, amma, yağlı boya ilə rənglənmiş balaca kilid qırılmaq bilmir ki, bilmir!

İki daşın arasında Dost bir-bir bizə yaxınlaşır, onun işləmək qərarına necə yanaşdığımızı bilmək istəyir... Kimsə ona təpindi:

– Əşi, qurtar sən də!

Vəziyyətin çıxılmazlığı ondan, əsas günahkardan başqa artıq hamıya aydındı: geriyə yol yoxdu – o ikinci dəfə pilləkənə yaxın düşməyəcək, kilid isə müqavimət göstərir. Bircə şey qalır – kömək üçün gecənin təşkilatçılarına müraciət etmək, dil tökmək. Amma hələ də məlum deyil ki, çardağın kilidinə onlarda açar tapılacaq, ya yox? Özü də ən dəhşətlisi o olardı ki, bir belə əziyyətdən, qorxu-ürküdən sonra yenə də küçədə qalaydıq!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhayət vəziyyəti o da qiymətləndirdi:

– Bəlkə siz damdan çıxıb gedəsiniz? Mənsə çağırım ki, qapını açsınlar? – Onun səsində qeyri-bərabər döyüşdə yaralanmış və yoldaşları tərəfindən atılmış adamın ağrısı duyulur.

– Bəs əgər onlarda açar yoxdursa? Səhərədək burda qalacaqsan?

Dilxorluqla susuruq. Bəxtəvər kibriti kibrit dalınca yandırır, divarda ayrı, nəsə açıq bir qapı tapmağa ümid edir.

– Bura baxın! O saat rəqs edənlərin arasına səpələnin! – deyə fikrimi qabaqcadan hamıya izah edib yerimdən götürülürəm... Qapıya üç metr qalmış yerdən aralanıb göyə qalxıram, sağ çiynimi qabağa verərək uçuram...

Kilid çəmbərlə birlikdə yerindən çıxır, qapı şaqqıltıyla taybatay açılır. Dəhlizdə qoşa gəzişənlər qorxaraq kənara çəkilirlər. Onların yanından güllə kimi keçib, rəqs kütləsinə baş vururuq...

Artıq bircə dəqiqə sonra biz bu zala necə düşdüyümüzü unudub rəqs edirik. Hamımız, Dostdan başqa. Rəqs edə-edə onun kədərli nəzərləriylə toqquşuram. Boyu kiçik olduğu üçün o hər dəfə uzun-uzadı rəqs etməkdən ötrü qız axtarır, sonra rədd cavabı alaraq, əlləri-qolları yanına düşür. Nə işdisə, Dost qızların heç xoşuna gəlmir. Yazıq bundan yaman fikir çəkir. O isə əksinə, bizi inandırmağa çalışır ki, qızlardan onun özünün zəhləsi gedir...

1963-cü ilin qışı idi. Uşaqlar Moskvada istehsalat təcrübəsi keçirdilər. Mən onlarla birlikdə Neft institutunun Lenin prospektindəki yataqxanasında yaşayırdım. Anam mənə evlərində qala biləcəyim qohumlarımızın ünvanını vermişdi. Amma o qohumların üzünü bircə dəfə də olsun görməmişdim...

İşığı elə rəqs başlanan kimi söndürdülər, öz qiymətindən üçqat artıq girova götürülmüş qramofon elə hey xırıldayıb dayanırdı: ona kim idi qulaq asan, – bir-birimizə qısılıb ruhumuzdakı musiqiyə uyğun rəqs edirdik.

Mənimlə oynayan qız yaş dodaqları ilə arabir boynuma toxuna-toxuna, mehribanlıqla nəsə xoş sözlər pıçıldayırdı. Biz üç gün əvvəl "PDSA"-nın parkında tanış olmuşduq və qəribə də burasıydı ki, bu az vaxt onun mənə vurulması üçün kifayət etmişdi. Hər halda qız çox canfəşanlıq edirdi ki, mən buna inanım. Əgər qız aktrisa deyildisə, əsl həqiqətə oxşayırdı hər şey. Amma o da var idi ki, qızın belə qabiliyyəti olsaydı, daha laborant niyə işləyirdi ki?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Dost çarpayıda oturub, dirsəklərini dolaba söykəmişdi, özünü də elə göstərirdi ki, guya ətrafında baş verən işlərin ona qətiyyən dəxli yoxdu.

Mən laborant qızın pıçıltılarını ayırd eləməkçün qulaq verdim, amma "tikanlı" sözündən başqa bir şey anlamadım...

Qapı döyülən kimi qız diksinib məndən aralandı. Tez vurulmaq bacarığından başqa təbiət ona güclü fəhm duyğusu da vermişdi: qapı astadan, nəzakətlə döyülmüşdü və heç bir təhlükədən də xəbər vermirdi, amma qız nəsə tez durub işığı yandırdı və çaxırı da stolun üstündən götürdü.

İçəri dörd nəfər girdi. Adətən Giriş qapısının ağzında mürgü vuran qoca keşikçi, görkəmindən komendanta oxşayan bir qadın və qollarında qırmızı sarğı olan iki nəfər.

– On ikidən sonra kənar adamlar burda neyləyirlər? – Qadın adət etdiyi bir sərtliklə soruşdu.

– Elə dağılışmağa hazırlaşırdıq, – Bəxtəvər mehribancasına gülümsündü.

– Kənar adamlar kimlərdir? – Oğlanlardan biri elə hədəylə maraqlandı ki, sanki bunu boynuna alanı pəncərədən atmağa hazırlaşırdı.

– Bunları tanıyıram, – qadın bir-bir Dostu, Yazıçını və Bəxtəvəri göstərdi – Bizim praktikantlardır. Qalanları özgədirlər.

– Biz özgə deyilik, – İşbaz Bəxtəvərin təbəssümünü bacardıqca təkrar edib irəli durdu, – biz özümüzküyük, sovet adamlarıyıq... Qonaq gəlmişik.

– Yığışmağa üç dəqiqə vaxt verirəm. – İkinci oğlan onun sözünü kəsdi. – Burda iziniz-tozunuz belə qalmasın!

O əslində bizim qızlara deyirdi bu sözləri.

Dözə bilmədim:

– Bir az nəzakətli olmaz?!

O mənə cavab verməyi heç lazım da bilməyib otaqdan çıxdı. Qalanları da onun arxsınca qapıya yönəldi. Qoca keşikçi nədənsə baş verənlərə görə karıxmışdı, gedəndə çox nəzakətlə xudahafizləşdi.

– Bu onun işidi! – Birdən laborant qız barmağını Dosta tuşladı. – Aşağıda onun bu adamlarla söhbət elədiyini öz gözlərimlə gördüm.

Adama elə gəlirdi ki, qız onun dədəsinə od vurmuşdu, o cür ki Dost bağırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli, mənim işimdi! Onları mən çağırdım! Sizi burdan rədd eləməkçün! Künc-bucaqlarda öpüşməyi bilirsiz elə!.. Baxanda iyrənirsən! Məgər bunun üçün gəlmişik bura? – Hirsini boşaldıb azacıq soyudu... – Bu rəqs gecələrinə son qoymaq lazımdı. Neçə gündü Moskvadayıq, heç yanda olmamışıq, heç nə görməmişik. Guya onlardan Bakıda yoxdu. – O heç gözünün ucuyla da baxmadan başıyla qapıya qısılan qızları göstərdi...

Aydındı ki, Dost özünə görə haqlıydı... Amma nəticəsi pis oldu – mən otuz dərəcə şaxtada gecəyarı o boyda iri, yad şəhərin küçələrinə düşəsi oldum. İşbaza da, qızlara da asan idi, onlar öz evlərinə, ya da qaldıqları yataqxanalarına dağılışdılar. Mən isə atamın köhnə çamadanı da əlimdə, Bolşoy Bronnı küçəsindəki ömrümdə üzlərini belə görmədiyim ana qohumlarımı axtarası oldum...

...Nəhayət, vağzaldakı meydana çıxırıq. O inadla yanaşı addımlayır, məndən bir addım da geri qalmır.

– Sən hara belə tələsirsən?

– Evə.

– Bəlkə məni dəvət edəsən? – Səsində zarafat qarışıq kədər də duyulur, yəni, gör biz nə günə qalmışıq ki, bir-birimizin evinə qonaq getməyə də üz vururuq.

Cavabımı gözləmədən davam edir. – İstəyirsən Bəxtəvərə baş çəkək?

– O Amerikadadır.

– Qayıdıb. Mən ona dünən zəng eləmişdim. Sən onun təzə mənzilində olmusan?

– Yox.

– İki qəpikliyin var?

Telefon budkasının böyründəki tütün köşkündən "BT" alıram o, zəng edənəcən mənə də nəyləsə, bir işlə məşğul olmaq lazımdı.

Bəxtəvər indi hardasa şəhərin düz mərkəzində yaşayır. Onun mənzili, maşını, nüfuzlu qayınatası, gözəl arvadı, ehtiraslı məşuqəsi, vacib dostluq əlaqələri, xidməti uğurları barədə əfsanələr gəzir. O, bu dəqiqə şəhərin ən nüfuzlu, dəbdə olan adamlarından biridir...

Dost dəstəyi tələsik mənə uzadır, telefondakı səs elə həminki idi: həm yeyin, həm də səmimi.

– Harda itib-batmısan? Mənə nə söz vermişdin? Əgər baş çəkə bilmirdinsə, heç olmasa zəng edəydin!.. Yanına gəlmişdim, amma sən bir gündən bir işləyirsən axı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə.

– Ona görə də tapa bilmədim səni...

Yəqin yalan deyir. Bəlkə də yox, niyə yalan deməlidi axı?

– Necəsən? Orda deyəsən tək qalmısan? Həyət bomboşdu. Heç bir kəlmə söz soruşmağa adam da yoxdu.

Deməli, doğrudan da gəlibmiş. Bəxtəvər heyrətamiz adamdı!

Qəfildən ürəyimdən keçir ki, onu yaman görmək istəyirəm.

– İndicə gəlirik, hər şeyi danışaram.

– Gözləyirəm.

– Gözlə, gəlirik.

Dəstəyi asıram...

Qapı arxasından gələn asta, arxayın səslər məni oyatdı. Mənə verdikləri otaq balaca, dar, az qala bir pəncərə enində idi. Tayları yarıörtülü olduğuna görə otaq qaranlıqdı, divarlarda fotoşəkillər ağarışır. Onlar çoxdu, irili-xırdalı xeyli şəkil vardı. Uzandığım iri sandığın üstünə nəsə çox yumşaq, görünür pərqu döşək, bəlkə də bir neçəsi birdən salınıb. Çünki həddindən çox yumşaqdı yatdığım yer.

Qapı arxasında sakit söhbət gedir, adama elə gəlir ki, səhər yeməyində görüşən iki nəfər (arabir qaşıqlar stəkanı cingildədir) çoxdan, lap çoxdan, uzun-uzun illərdi ki, bir-birləriylə eyni mövzuda söhbət edirlər, özü də yormayıb, bezikdirməyib bu yeknəsəqlik onları. Xırıltılı yoğun kişi səsi adətkar tərzdə elə bir ucdan döşəyir:

–...Pul yox, dost yox, səadət yox, daxma yox, heç nə yoxdu! Hər yanda on altı...

Qadın səsi sadəlövhlüklə etiraz edir:

– Necə yəni "daxma" yoxdur? Bəs, bu nədir, daxma deyil?

Yoğun, gur səs həm istehzalı, həm də mehribandı:

– Bunun nəyi daxmadı? Bu daxma yox, ey, əsl müqəddəs monastırdı. Məbəddi...

– Mən sənə demişəm axı, kimi istəyirsən gətirə bilərsən... Mən buna yalnız sevinərəm.

– Bəs prinsiplər?

– Kimin prinsipləri?

– Mənim prinsiplərim... Bu divarların arasında yaşamış əcdadların xatirəsini təhqirmi etmək olar?! Yalnız ən yüksək əxlaqlı qadın bu evin astanasına qədəm basmağa layiqdi! Mənsə belələrini, təəssüf ki, tanımıram...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Təlxəklik eləmə... Buyur, sakit ol. Oğlanı ayıldarsan... Səsin yenə də elə bil borudan çıxır...

– Qəlbi spirtlə yaxalamaq səsə ziyandı... Oğlan isə bizim qanımızdandı... Yatmağı xoşlayır...

– Bir az yavaş..

– Yaxşı, mənim nəyimdi axı o?

– O sənin xalan Ninanın ərinin bacısı oğludur.

– O azərbaycanlı ilə qaçanınmı?

– Hə.

– Bəs məni niyə ayıltmadın? Qohum balanı bir az da təntənəylə qarşılamaq lazım idi. Lap hələ mənə qardaşlığı da çatır, müsəlman da olsa...

– Eyibi yoxdu, tanış olmağa imkan taparsınız.

Kənara çəkilən stulun səsi eşidilir, dalınca da ağır addımlar, – "qardaşlığım"ın görünür, zahiri də səsinə oxşayır.

– Neyləyirsən?

– Baxım bir qohum balaya.

Qapıda iri kəlləli, xırda, şişman gözlü, pırpızsaç bir kişi başı peyda olur. Yaşı otuzdan az olmaz. Üzündə xeyirxah bir maraq ifadəsi var.

– Hə, bir də görək incəsənəti sevirikmi? – Mənim yatmadığımı görüb soruşur. – Matissə baxmaq istəyirsən?

– Nəyə?

– Nəyə yox, kimə. Matissə... Ən böyük impressionistə.

Əlacsızlıqdan başımla razılığımı bildirirəm.

– Əhsən... Axşama hazırlaş. – Baş yox olur. Durub geyinirəm.

Nənə deməyimə icazə verilən ev sahibəsi demə çox xeyirxah, mehriban bir varlıqmış. Mən çay içənəcən elə hey anam barədə sorğu-suala tutdu məni.

Təəssüf ki, sevindirici bir şey danışa bilmirəm. Sağ olun... Bəli... Pis... Yox... Arıqlamaqda davam edir. Çox işləyir. Çox çəkir. Gecələr öskürür. Təngnəfəsliyə görə yata bilmir. Heç bir müalicəzad barədə də eşitmək belə istəmir...

Yazıq anam...

Qardaşcığım iri gövdəli, ağır çəkili olmasına baxmayaraq olduqca çevik, fəal, coşqun adamdı. Növbəti mağazaya baş vurub qaçaraq qayıdır, özünü qabaq oturacağa yıxır, biz yenə irəli gedirik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Döşənmə yolun qıraqlarındakı qar qalaqlarının üstündə mağazaların neon lövhələri bir-birinin ardınca görünüb yox olur, amma Gena – qardaşlığımın adı belədi – onlara qətiyyən əhəmiyyət vermir. Yalnız özünə məlum olan səbəblərdən maşını ticarətin heç bir zahiri əlaməti görünməyən bir yerdə saxlatdırır, məndən pul istəyir və bədəninə uyğun gəlməyən cəld bir sıçrayışla maşından çölə atılır.

Taksi sürücüsü ehtiyatla boylanır: hər belə sıçrayışdan sonra maşın yerində xeyli yırğalanır...

– Artıq heç nə yoxdu, – qardaşcığım qayıdıb izah edir, – qalan yalnız ən vacib şeylərdi. Rəssamlar diqqət sevirlər.

Bağlıların içindəkiləri vicdanla sadalamağa başlayır.

– Araq... Pivə... Zeytun... balıq... kolbasa. Bir də ki, xiyar. Xiyar turşusu nədənsə qırmızı rəngdədir və nədənsə rəsmi olaraq da tomat adlanır.

– Getdik, mənim atam! – Qardaşcığım coşğunluqla çığırır.

Maşın yerindən tərpənir.

Cavan sürücü artıq çoxdandı ki, hara getdiyimizi öyrənməyə cəhd edir.

– Burda yaxındadır. Bax, bu tinin arxasında... Svetofora qədər. Ordasa, düz götürül, görək!

O yenə qəfil sıçrayışla mənə tərəf dönəndə oturacağın söykənəcəyi şikayətli bir səslə cırıldayır.

– Bax belə, qardaşcığım, beləcə yaşayırıq... Əsl, böyük sənətə səcdə edirik, başqa heç nə. – Sözünə bir az ara verdi, sonra qəfildən soruşdu – Sən tələbəsən?

– Yox işləyirəm.

– Bəs təhsil necə olsun?

– Oxumaq istəyirəm. Qiyabi.

– O da pis deyil. Hərçənd yaxşı da deyil... Tələbəliyin az-az ələ düşən şirinliyindən dadmaq lazımdı. Ömrün ən gözəl çağırdı, – qəlb çiçəklənir, istəklər coşur... Dost-tanışlar da gözündə mələk kimi...

– Hara gedirik axı? – Axır ki, sürücü dözə bilməyib onun sözünü kəsir.

Qardaşcığım inciyir.

– Nə yaman səbirsizsən, atam. Hələlik düz, tunelə qədər, orda dönərik sola və yenə də düz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Uzağamı?

– Yox... burdaca yaxındadır.

– Haradı axı ora?

Bu sual məni də maraqlandırır – sayğac mənim pullarımın olan-qalan cüzi qalığını da udacaq.

– Bolşevaya, – qardaşcıq narazı halda burnunun altında donquldanır və yenə mənə tərəf çevrilir.

– Bolşevaya?! – sürücü bir də soruşdu və aydınlaşdı ki, bu hardasa çox uzaqdadı. – Bəs orda hara?

– Stansiyanın yanından, Klyazmadan keçib, sağa...

– Ordan keçəmməyəcəyik.

– Allahın köməyilə keçərik, – qardaşcığım mənə göz vurur, – Rəssamlar magistrallarda yaşamırlar... Hələlik... Hə, eyibi yox, bu müvəqqətidir... Şadam ki, sənəti sevirsən. Mütaliən necədi? Çoxmu oxuyursan?

– Baxır da.

– Bu iş xoşuna gəlirmi?

– Hə.

– Çamadanında yer hazırla.

– Niyə?

– Hədiyyə üçün... Ailə kitabxanasından on cild seçə bilərsən. Nəsillik – kitabsevər sözüdü. Musiqiyə münasibətin necədir? Şopeni sevirsən?

– Hə.

Bu gün o ləzzəti alacaqsan...

Matiss sən demə balacaboy, sarışın, qısa, lakin tarım şalvar geymiş bir qadın imiş! Qardaşımın gəlişinə çox sevindi. Hərarətlə qucaqlaşdılar. Şüşə aynabənddən isti otağa keçdik.

– Tanış ol, qardaşımı gətirmişəm, – o məni qabağa itələdi. – Bu isə Tamaradır, gözəl rəssamdır, müasir Matissdir.

Matiss qızardı, əl-ayağa düşdü.

– Əyləşin, xahiş edirəm. Oy, nə qədər şey almısınız... Zeytun da. Əhsən, uşaqlar... Lyusya çox sevinəcək, o çox sevir zeytunu...

– Qızıdı, – qohumum pıçıldadı və Şopen barədə soruşanda kimi nəzərdə tutduğu mənə aydın oldu. – İşlərini indi göstərirsən, ya şamdan sonra?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sonra, sonra, – Matiss şıltaqlıqla yaxasını qırağa çəkdi.

Qardaşcığım razılaşdı, amma bu qərardan dilxor olduğunu da gizlətmədi.

– Hamımız beləyik, – o, yarı zarafat, yarı kədərlə dedi. – Əvvəlcə mədəmizin, sonra mənəvi aclığımızın hayına qalırıq...

İki araq şüşəsi bir göz qırpımındaca boşaldı, bundan sonra heyrətamiz dərəcədə anasına oxşayan Şopen kökdən düşmüş "Qırmızı Oktyabr" pianosunda "Sobaçiy vals"ı xatırladan bir şey çalır. Hər şeydən çox məmnun qalmış qardaşım elə oturduğu yerdəcə stolun arxasında mürgüləyir.

Arada başını qaldırıb Matissə:

– İşlərini göstər bizim gəncə, – deyir.

Ana-bala o dəqiqə al boyanmış taxta çamadanı sürüyüb gətirərək açırlar və mən qəşəng gips itləri görürəm.

– Vallah, heç yaxşı düşmür, – Matiss bir az utana-utana, amma nəsə gizli bir məmnuniyyətlə öz əsərlərini nümayiş etdirir. – Onun çox xoşuna gəlir, – stol arxasında yatana mehriban bir nəzər salır, – onlar hamısı senbernarçiklərdir. O, bu cinsi çox sevir...

Qardaşcığımı ayıltmaq heç cür mümkün olmadı. O, hətta mənim suallarıma belə cavab verə-verə yenə yatmağında davam edirdi.

Matiss izah edir ki, belə gec bir vaxtda burdan çıxıb getmək çətindir. Qızı susur, qız ümumiyyətlə, dinməz adamdır, bütün axşam üzündəki narazı ifadə dəyişməyib.

Otaqda stoldan, pianodan başqa divan da var (onun üstündəki taxta rəfə də Matiss senbernarları düzüb) ayrı yatacaq görünmür.

– O həmişə stolun arxasında yatır, – Matiss sualedici nəzərlərimi tutub, məni sakitləşdirir. – İndi sizə yer salaram... Uzanın, rahatca istirahət edin...

Boğuq, yeknəsəq qadın çığırtılarına ayılıram. Kimsə dişlərini bir-birinə sıxaraq qışqırır. Ya da elə bil kiminsə ağzını bərk-bərk əllə tutublar... Qardaşım öz şirin yuxusundadır...

İki açılmamış çarpayı səliqə ilə duran iri, qaranlıq otaqda heç kim yoxdu. Qaçaraq bir qapını da keçib nəsə yumşaq, elastik, amma keçilməz bir sədlə toqquşuram. Sağdan işıq zolağı görünüb yox olur, ona doğru hərəkət edirəm və artıq otağa girəndən sonra anlayıram ki, qapıdan xalça asılıb...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görürəm ki, otaqda tək deyiləm. Döşəmədə Matisslə Şopen kimisə minib oturublar. Matiss müntəzəm şəkildə sakitcə nəsə yumşaq bir yerə vurur, şappıltı eşidilir. Bu zərbələrə uyğun da kiminsə ayaqları aramla atılır və Şopenin əliylə boğulan çığırtılar otağı başına götürür. Qız divan tutulan məxluqun çiyinlərində oturub, var gücüylə onun küy salmağına mane olur.

Qurbanının belində oturan Matiss məni o saat görmədi, amma mən onu saxlamağa imkan tapınca, bir neçə zərbə də vurdu.

– Nə etdiyinizdi?! Əlinizdən necə gəlir?! – Mən həyəcanla soruşa-soruşa ana-balanı üçüncü bir qadından, on yeddi yaşlarında, tamam sakit görkəmli bir qızdan zorla ayırıram. Bu qıza mənim qəfildən peyda olmağım da zərrə qədər təsir eləmədi.

– İt bilir kimin ətini yeyib: – Matiss xalçayla bəzədilmiş qapıya tərəf yönəlib qaşqabaqla deyir. Şopen susmaqda davam edir, amma onu qurbanından ayırmaq anasını ayırmaqdan çətindi – bu onun böyük daxili temperamentinə sübut idi...

Matissin arxasınca qız da qardaşcığımın stol arxasında rahatca yatdığı otağa qayıdır. Qadınlar qaynamış çaydandan hərəyə bir stəkan çay süzüb, heç bir şey olmamış kimi gümrahlıqla içirlər. Sual verməməyə çalışıram, amma coşğunluğun birinci dalğası çəkiləndən sonra onlar özləri dilə gəlirlər.

Matiss dedi:

– Ağlı başına gələr...

– Nacins, – Şopen razılaşdı.

– Kimdi o qız? – Axır ki, dözməyib maraqlanıram.

– Özü bilir, – Şopen anasını qabaqlayıb donquldandı.

– Qanımızı sorur... – Matissin gözlərində yaş göründü; o isə öz övladına nisbətən daha həssas adamdı. – Hə, yatın, daha mane olmayacağıq... Mən yuxuya tez getdim. Təəssüratın çoxluğundan əksinə olmalıydı, amma görünür, çox yorulmuşdum...

İndi hökmən, necə olursa-olsun özününküləri xəbərdar etməlidi ki, evə gec qayıdacaq. Yoxsa onlar narahat olacaqlar. Məndə ikinci ikiqəpiklik yoxdu, buna görə də Bəxtəvərin evinə gedərkən böyük bir dövrə vururuq. Onun atası bulvarın lap sonunda, alimlər evində yaşayır.

Mən ağzını zəhmlə ayırmış əjdahanın cəngindən fışqıran fəvvarənin qonşuluğunda qalıram. O, bir də üzr istəyib, mürəkkəb döymə naxışlarla bəzədilmiş giriş qapısında yox olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əjdahanın başı üstündə bütün anatomik qaydaları rədd edən bir vəziyyətdə əli qılınclı pəhləvan dayanıb. Pəhləvan da, əjdaha da saysız sütunları və tağları olan ev də qırxıncı illərin sonunda yaranıb, amma indi adama qədimdən qalma abidələri xatırladır. Xüsusən də, ev...

Ailələrində gör bir necə münasibət varmış, qarşılıqlı qayğıya, diqqətə bax – yubanacağını xəbərdar eləməsə arvadı narahatlıqdan özünə yer tapmayacaqmış... Qoy olsun, yəqin ki, ər-arvad bir-birlərini sevəndə belə də olmalıdı.

Qara "Volqa"nın giriş qapısına yaxınlaşdığını görürəm. Maşın dayanır. Ondan düşən boz kostyumlu alçaqboy kişi fəvvarəyə doğru yönəlir. Birdən-birə tanıya bilmirəm, onu mənə tanıdan əsas şey o yaxınlaşdıqca içimdə baş qaldıran cəsarətsizlik olur. Gör necə də balacalaşıb, lap ikiqat kiçilib! Ya da bəlkə həmişə belə olub, mənim gözümə ayrı cür görükürmüş?

Düz biçimli laqeyd sifəti onun bu dünyada yaxşı-pis nə varsa hamısını gördüyünə və Yer üzündə daha onu təəccübləndirəcək bir şey qalmadığına inamdan başqa heç nə ifadə eləmir.

Maraqlıdı, görən tanıyacaqmı məni? Çox çətin, neçə ildi görüşmürük? Ən azı on ildi. Əlbəttə, köçəndən sonra mən onlara gedib-gəlirdim, amma o öz kabinetindən nadir hallarda çıxırdı. Dost evlənəndən sonra görüşməyə elə bir tələb də yox idi...

Salamlaşıram. Deyəsən, axır ki, tanıdı. Bəlkə də məni öz keçmiş tələbələrindən biri bilir. Ötən uzun müddət ərzində nə qədər tələbəsi olub onun? Yəqin ki, on minlərlə!

Addımlarını yavaşıdıb dayanır.

– Necəsən?

– Sağ olun, pis deyiləm.

Uşaqlıqda ondan niyə elə qorxurduq? Axı o, bir dəfə də olsun səsini nə Dostun, nə də bizim üstümüzə qaldırmışdı.

– Onu gözləyirsən?

Yox, tanıdı.

– Bəli.

– Səni görməyimə şadam.

– Sağ olun.

Qəfil duyuram ki, mənimlə görüşmək doğrudan da onunçün xoşdur. Zahirən bu o qədər də bilinmir, amma gözləri azacıq da olsa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mehribanlaşdı. Bununla belə onun məni kiminləsə dəyişik salmadığına əmin deyiləm.

– Necəsən?

– Sağ olun. Yaxşıyam.

Mənə zənlə baxır, sanki nəyisə xatırlamaq istəyir. Qeyri-iradi çallaşıb-seyrəkləşən saçlarını tumarlayır. Uzun illərin tanışlığı ərzində ilk dəfədi ki, onda nəsə bir inamsızlıq hiss edirəm: nəsə soruşmaq istəyir, amma nədənsə cəsarət etmir... Gözləyirəm.

– Anan... Anan artıq yoxdu? – O, bir növ çəkinə-çəkinə, üzrxahlıqla soruşur.

– Anam ölüb... Siz dəfndə olmuşdunuz ki...

– Hə, hə... Yadımdadı. Çox yaxşı qadın idi... Bizə gəlmisən? Amma, hə, gözləyirsən... – O susdu. – Qulaq as, əlbəttə, bu onun öz işidi, mən qarışmıram, amma, bəlkə sən deyəsən, danışasan onunla... Dissertasiyasını müdafiə edəndən sonra çıxıb getməsin. Siz dostsunuz axı... Bəlkə heç olmasa sənə qulaq asdı... Danışarsan?

Bu xahişdə elə sadəlövh bir ümid vardı ki, onu yerinə yetirməyə söz verirəm...

Xudahafizləşirik...

Giriş qapısının qaranlığından Dost görünür...

Onunla tinə çatanda geri boylanıram və balaca, zəhmli kişinin fəvvarənin böyründə gəzindiyini görürəm...

Yenə də qəfil çığırtılar məni oyatdı. Matissin qüdrətli səsini o saat tanıyıram. Durub yüyürürəm. Qardaşcığım sakitcə yatmağında davam edir. Daha bir aram, ulayantəhər, ahəngli bir səs eşidirəm. – Bu cür ağlamağı yalnız Şopen bacarardı.

Matiss əvvəlki qurban qızın vəziyyətində uzanıb, onun üstündə kürklü pəzəvəng, qırmızısifət bir kişi oturub. Zərbələr elə həmin qaydada həmin yumşaq yerə endirilir, görünür bu evin öz ənənələri var...

Şopen göz yaşı tökə-tökə mane olmağa cəhd edir, amma hər cəhddən sonra da pərqu tük kimi divara tərəf atılır.

Rəssam qadına kömək eləmək üçün göstərdiyim birinci cəhd də elə o cür qurtarır – mən guppultuyla Şopenin yanına düşürəm. Zərbə burnumun üstündən dəymişdi – elə həmin ritorik sualla:

– Neyləyirsiniz? – deyib hələ bir əlavə də eləmək istəyirdim ki, qadına əl qaldırmaq kişiyə yaraşmaz, imkan tapmadım...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təkrar cəhddə zərbə məni ayağa qalxdığım vaxt tutdu, amma kürklü kişinin başı mənə qarışdığından heç olmasa Matissdən əl çəkməli oldu. İndi onu sakitləşdirmək lazım idi. Əgər mən qalxa bilsəydim, bunu eləmək o qədər də çətin olmazdı, amma o görünür, təcrübəli vuruşandır, buna görə də müvəffəqiyyətini möhkəmlətməyə çalışır: məni özümə gəlməyə qoymadan, küncdən buraxmır və təpiyilə bir-birinin dalınca üç zərbə endirir. Az hazırlıqlı adam bu zərbələrdən sonra bütün ömrü boyu şikəst qalardı.

Sonra o, qapının arxasına cumur və bir göz qırpımında əlində iri mətbəx bıçağı qayıdır. Qardaşcığım Genanı doğramaq üçün bəlkə də onun əlində hər cür əsas var, amma dəqiq bilirəm ki, mənim bu əhvalata qəti dəxlim yoxdu.

Xoşbəxtlikdən xalçalı qapının ağzındayam.

O məni bütün otaqlar, eyvan boyu qovub, yalnız həyətdə təqibi dayandırır, görünür, beyninin qan vaxtı olsa da anlamışdı ki, mən ayaqyalın, bircə alt köynəyində, bu cür şaxtada uzağa qaça bilməyəcəyəm...

Tərdən və qandan islanan köynək bircə anda buz bağlayır; dizədək qara bata-bata hasara çatıram. Son gücümü toplayıram, hasardan aşıb qonşu sahəyə düşürəm. Dəqiq vaxtı bilmirəm, amma başa düşürəm ki, gecə yarıdır.

Qonşu evdən işartı belə gəlmir.

Artırmada oturub, qapıya söykənmişəm. Astadan qapı döyməyimi nə vaxt eşidəcəklərini gözləyirəm.

– Kimdir orda?

– Xahiş edirəm, açın.

– Niyə açaq?

Artırmanın üstündə işıq yanır, yəqin məni nəzərdən keçirirlər.

Çox güman ki, görkəmimə acıyırlar, amma qapı eləcə də açılmadı, köhnə çəkmələri, bir nimdaş da sırıqlını mənə nəfəslikdən verirlər.

– Qaytaracağam.

Ayaqlarımın altı taxtaya dönmüşdü, heç nə hiss eləmirdim.

– Artırmaya qoyarsan.

– Sağ olun... Milis burda uzaqdadırmı?

– Çıxan kimi, poçtdan sağa, ordan isə bir də sağa.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sağ olun.

Əllərim də daha sözümə qulaq asmırdı: nəhayət, birtəhər keçə çəkmələri ayağıma keçirə bildim.

Alaqapını arxamca zorla bağlayıram. Dəmir qapı sürgüsünü heç yerindən tərpədə bilmirəm, hər toxunanda şiddətli ağrı duyuram.

Sağa dönürəm, poçta çatıram. Bir də sağa. Nəhayət, dövlət tipli gur işıqlı bir bina görürəm. Yaxınlaşıram. Bəli, elədir ki, var. – Milis. Qapının yanında bir lövhə də asılıb. – "Yanğın idarəsi". Nədənsə bu mənə qətiyyət gətirir.

Qapı açıqdır. Dəhlizin sonunda yanğın əleyhinə alətlər asılmış zəif işıqlandırılan lövhə var. Baltalardı, vedrələrdi... Qalan şeylər hamısı tünd-qırmızı – pas rənginə boyanıblar. Elə vəziyyətə uyğun da gəlir. Lövhənin altında bir pişik var: mən yaxınlaşdıqca qaçıb aralanır, bilmirəm, nəyimsə onu narahat edir. Növbətçi otağı qarşısındakı balaca tambura dönürəm. Çiynini giriş qapısına çevirib duran adam divardakı "Axtarılır..." sözü yazılmış plakatın altından asılmış telefonla danışır.

– Yoldaş!.. – Onu səsləyəndə duyuram ki, başıma gətirdikləri bütün bu oyunlara görə gözlərim yaşarır.

Dəstəyi asır. Əynində nəsə qəribə – milisinkinə oxşamır – kitel və uzunboğazlar var. Ağ kürk divardan telefonla yanaşı asılıb. Məşum bir istehzayla üstümə gəlməyə başlayır. Şiddətli ümidsizlik və inciklik içində lövhəyə tərəf atılıb, baltalardan birini qoparıram. O dayanır.

– Sakit, sakit... – Ehtiyatlı tərzdə əlini arxa cibinə atır. O, niyə burdadı? Bəs milis hanı? Mən hara düşmüşəm?

– Nə üçün? Nə üçün məni döyürdün?! – Məni qəhər boğur, kəlmələri onun üzünə beşaçılan güllələri kimi sıxıram. – Donuz!.. Yekəpər!.. Heyvan!.. Sənə nə pisliyim dəyib?

O geriləyir.

– Mənim evimə niyə girmisən?

– Mən girməmişəm, məni dəvət ediblər.

– Kim?

– Qardaşım Gena.

O heyrətlənir:

– Hə? Gena... Genanı tanıyıram... Qızımı instituta düzəltməyə də söz verib. At baltanı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Növbətçi hanı?

– Mənəm burda növbətçi...

Üz-gözümdən görür ki, inanmıram.

– Milis çağırışa getdi. Mənsə yanğın dəstəsindənəm... At baltanı...

İndi neyləyim? Başını yarımmı onun? Bəs sonra? Həbsxana? Axı heç kimə heç nəyi izah edə bilməyəcəyəm. Yazıq anam.

– Əclafsan sən... – İncikliyimin bir hissəsini heç olmasa sözlə ifadə etmək istəyirəm. – Donuz, düdəmə...

Baltanı qaldırıb ona yaxınlaşıram. Əliylə qorunaraq geri çəkilir.

– Niyə döyürdün qadını?

– O mənim arvadımdı...

Nəhayət, nəsə anlamağa başlayıram...

– Bəs o ikinci kimdi?

Cavab vermək istəmir. Amma arxa divardır, zərbədən qaçmaq çətindi.

– Mənimlə yaşayır. Xəbərdarlıq eləmişdim, qızla işiniz olmasın.

İlk dəfə idi bu həyasızlıq pərdəsindən nəsə insani bir şey çıxmaqda idi. Baltanı endirirəm.

– Qoca axmaqsan, mən ki, onu xilas elədim. Sənə demədi?

– Heç nə demədi. Zəng elədi ki, yenə döyürlər. Mən də qaçdım.

Heyvani sima tamamilə dəyişir. O, döyülən qız barədə danışanda səsində də, gözlərində də nə qədər canıyananlıq və sevgi var idi!

Burdan Moskvaya necə getməyi soruşuram. O izah edir.

– Paltonu cırmışam sənin, – artıq astanada günahkarcasına deyir.

– Necə yəni cırmışam?! – Dayanıram. Paltonu anam Moskva səfəri üçün almışdı.

– Məncə, elə bir ciddi şey deyil, eləcə tikiş boyunca...

Doğrudan da palto ətəyindən yaxalığına qədər iki yerə bölünmüşdü.

Hələ uzaqdan qızı alaqapının yanında görürəm. Bir əlində mənim paltomla papağım, o biri əlində ayaqqabılarımla pencəyim durub məni gözləyir.

Evə getmək istəyirəm ki, geyinim.

– Ora olmaz.

-- Niyə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavab gözləmədən çiyinlərini çəkir və şaxtada paltarımı dəyişməyə başlayıram. Ayaq barmaqlarım yaman gizildəyir. Pencəyi geyinib, paltonu nəzərdən keçirirəm.

– Tikmişəm...

Yuxarıdan aşağı kobud əl tikişi uzanır.

Paltomu geyməyə kömək edir.

Xırda, zərif cizgiləri olan xoş sifəti var: dodaqları, burnu, qaşları, gözləri təmizlik və bakirəlik timsalıdır. Mələk kimidir siması. Xəz papağının altından çıxan uzun saçları biçimli belinədək uzanıb...

– Sağ ol, – deyə elə bil öz-özümə donquldanıb yanğınsöndürənin göstərdiyi marşrutla gedirəm... Arxadan gələn addım səslərini bir az gec eşidirəm. Qanrılıram. Qız da dayanır.

– Nə olub? Dalımca niyə gəlirsən?

Qızın nə cavab verəcəyi məni bir elə də maraqlandırmır, bununla belə onun hərəkətinin izahı mənə təbii görünür, qız isə gözlərini yerə zilləyib susur.

– Olmaya məni ötürmək istəyirsən?

– Hə.

– Özüm birtəhər gedərəm.

Yenə arxadan addım səsləri eşidirəm. Addımlarımı azacıq yavaşıdıram. Qız da yavaşıdır addımlarını. Acıqlanmağa başlayıram.

Nəhayət, baxışlarımız toqquşur. İnciklik dolu gözlərindən iki iri damlanın diyirləndiyini görürəm.

– İncidin yoxsa? Nə dedim sənə axı? Gecdir, gecədir. Sən evə tək qayıtmalısan... Aydındı?

Qız qəfildən dönüb geri, evə doğru gedir. Məndə onu səsləmək həvəsi oyanır, birdən-birə tək qalmaq istəmirəm.

O, bir dəfə belə qanrılmadan yol ayrıcına çatıb, qar qalaqlarının arxasında gözdən itir...

Mən Bolşoy Bronnıya səhərə yaxın qar təmizləyən maşında çatıram...

Bəxtəvər bizi liftin yanında qarşılayır. O, köhnə, inqilabdan əvvəl tikilmiş evdə yaşayır, amma zəmanədən geri qalmamaq üçün özüyçün lift düzəldib: daha doğrusu, çalışıb nail olub ki, dövlət düzəltsin bu işi. Daha dəqiqi isə, nail olmayıb, xahiş edib. Hətta xahiş də eləməyib, belə bir istəyi olduğunu bildirib, bəlkə heç bunu da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

eləməyib, lifti başqa bir nüfuzlu qonşu düzəltdirib. Amma nə olursa-olsun, altımetrlik yapma tavanı, naxışlı parketi və muzeyə layiq kaşı buxarısı olan evdə yaşayan Bəxtəvərin üstəlik müasir sürətli lifti də var.

Bizi qucaqlayıb, iri Venesiya pəncərələri olan geniş dəhlizlə aparır. İndi bura palmalı, kaktuslu və sair mənə tanış olmayan "əcnəbi" bitkili qış bağına oxşar bir yerdi. Sonra biz palıddan olan mislə işlənmiş qısa dolama pilləkənlə aşağı enib, həmin o məşhur buxarı olan, sədəflə naxışlanmış qədim mebelli iri zala düşürük.

Təbii ki, stol çoxdan hazırlanıb, bütün təmtərağıyla bizi gözləyir. Qonaq gəlişinə səmimiyyətlə sevinən, çox mehriban, həm də gözəl bir qadın olan arvadı bir neçə dəqiqəliyə gəlir ki, öyrənsin, görsün bizə daha ayrı bir şey lazım deyil ki? Hərçənd stolda yemək dolu nimçələrdən yer yoxdu. Gələcəyin dahisi, ya məşhur dövlət xadimi olacağı indidən bilinən oğlu xudahafizləşmək üçün qaçıb gəlir.

Bəxtəvər məmnuniyyətlə, amma öyünüb-eləmədən öz ailəsini bu muzey interyeri fonunda bizimlə tanış edir, sonra hamımızı bir-bir bağrına basır.

– Heç bircə damcı də təsəvvür edə bilməzsiniz ki, sizi görməyimə necə şadam! Bax bu dəqiqə sizcə nə arzulayıram?

– Yox, biz bilmirik. Hardan bilək axı?

O, bizi stola dəvət edir. Hər birimizə ayrı-ayrı şüşələrdən nəsə bir qatışıq hazırlayır və öz arzusunu deməyə başlayır. Bu, eyni zamanda həm də birinci tostdur.

– Ev tikdirmək istəyirəm, – təntənə ilə qədəhini yuxarı qaldırır. – Elə bir ev ki, hamımızı yığam ora. Hamımız bir yerdə yaşayaq. Səhər-axşam yeməklərimizi bir stol arxasında yeyək. Eh, kaş biləydiniz mənim həyatımda yeriniz necə görünür.

O, çox təsirli sözlər deyir, özü də çox səmimi danışır. O, doğrudan da bizim hamımızı çox istəyir. Elə biz də onu, tanışlığımızın uzun illəri ərzində bizə qarşı onu günahlandıra biləcəyimiz bircə hərəkət belə eləməyən yeganə adamı! Son illər biz hərdənbir görüşürük, amma o, əlinə balaca bir imkan düşən kimi yorulmadan, usanmadan köhnə dostluğa sadiqliyini sübut edir.

Divarlardan onun səyyar həyat tərzinə şahidlik edən çoxlu maska, şəkil asılıb: artıq çox illərdi ki, o, dünyanı gəzir. O, Birləşmiş Mil-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lətlər Təşkilatının eksperti və dövlətlərarası hansısa komissiyanın üzvüdür.

Hər şeyi bilsə də, bizim Dostla münasibətlərimizə qəti fikir vermir – ikimiz də ona ezizik.

– İndi qalanları gələcəklər. – O, bizə yenə kokteyl hazırlayır.

Doğrudan da az keçmir ki, İşbaz, Yazıçı və hətta müxtəlif səbəblərdən heç kimin illərlə üzünü görmədiyi Alik də gəlir.

Zahiri görünüşlərindən dostlarımızın vəziyyətini asanlıqla təyin etmək olar. İşbaz axır ki, irəliləməyə başlamışdı. Yazıçının güzəranı çətindi – ya pis yazır, ya da onu başa düşmürlər, amma uğursuz yaradıcı adam möhürü onun üz cizgilərini xeyli dəyişib. Alik öz sürücülük peşəsini davam etdirir, bir vaxtlar o saat gözə çarpan yaş fərqi silinməyə başlayır, qohumu Bəxtəvərdən o qədər də yaşlı görünmür.

– Proqramı elan edirəm... – Bəxtəvərin əlində yenə də qədəh var, nəsə görünür alkoqola meyil göstərməyə başlayıb. – "İnturist"də stol sifariş eləmişəm. Deyirlər, orda yeni orkestr çalır, qulaq asmaq pis olmaz. Sonra bura qayıda bilərik. Ya da, – o, səsini alçaldır, – bir yer var, gedərik ora, bizi yaxşı qəbul edərlər, həm də ki, qızımla da tanış olarsınız. Siz ki, onu hələ görməmisiniz? – Doğrudan da, onun müğənni qadından olan qızını bizlərdən heç kim görməyib. – Hə, necədi? Proqram qəbul olunur?

Bu fəallığın, cazibənin təsiri qarşısında kim nə deyə bilərdi? Təklif coşqunluqla qəbul olundu.

– Onda vaxt itirməyək. İçdik və getdik! Sizin sağlığınıza, dostlar! Mənə belə gəlir ki, biz bir dəqiqə belə ayrılmamalıyıq!

Hamı qədəhlərini toqquşdurur. Hətta mən də qədəhimi Dostun qədəhinə vururam. Bəxtəvərin evində bu həqiqətsevərə qarşı nifrətim bir qədər yumşalır...

Qələmdan kimi dar olan elə həmin otaqda, həmin sandığın üstündəcə yuxudan ayıldım. Qardaşlığımın üzünü qəti görmək istəməsəm də, gedəsi ayrı yerim yox idi, bir də ki, nənəni incitmək istəmirdim – onun nə günahı burda?

Yenə stəkanlarda qaşıqlar cingildəyir, yenə o tərəfdə sakit aram söhbət gedir.

– Yoldan çıxartdın sən məni, çıxartdın yoldan! – qardaşcığımın ağır, gur səsində oynaq ahənglər də duyulur, – saflığımı korladın, prinsiplərimi dağıtdın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Çox yaxşı, – nənə ruhlanır, – nə qədər tək yaşamaq olar?

– Eh, arvad ki, arvad, nəyi pisdi tək yaşamağın?

– Az içəcəksən.

– Sənə elə gəlir! – Ümid qığılcımı onun yoğun səsinə bariton ahəngi verir. – Bəs biz hansı otaqda qalacağıq?

– Harda istəyirsinizsə yaşayın.

– Yox, sən həll elə.

– Elə bax, bu otaqda!

Görünür, söhbət mən yatan otaqdan gedir, çünki qardaşcığım məni yadına salıb.

– Qohum balamız demə qalmaqalçı imiş. Dünən elə biabırçılıq eləyib ki! Əsl davakarmış...

– Bəs qız hardandı?

– Vəziyyətdən istifadə edib zorla qopartmışam. Hə, tərpəndik, qarı? Elə açılana ancaq çatarıq...

– Balışüzü də almaq lazımdı.

– Nə lazımdı, hamısını götürərik... Təzə həyatı – təmiz yataqda!.. İndən belə devizimiz belədi...

– Qız bizimlə gedəcək?

– Nə mənası?

– Bəs adı nədir?

– Viktoriya!.. Vika... Tori – kefin necə istəyir... Əsl kraliça adıdı. – O, stulu səs-küylə kənara çəkib, qapının ağzından addımlayır. Hər ehtimala qarşı gözlərimi yumuram ki, qapıdan baxıb eləsə, onunla söhbətə girişməyim...

Getdilər... Qalxıb şeylərimi yığışdırıram. Pulum lap az qalıb, yalnız biletlikdi. Sifətimi ovuşdururam, üzümdə qəribə dəyişiklik hiss edirəm, batıqlar düzlənmiş, çıxıqlar batmışdı. Əlimi hara vururam ağrıyır. Hətta gözlərim də ağrıyır.

Çamadanımı götürürəm. Evdə heç kimin olmadığını bilsəm də otaqdan barmaqlarımın ucunda çıxıram.

Belə təcili getdiyim üçün üzrxahlıq kağızı da yazmaq lazımdır axı! Dayanıb stol arxasına keçirəm. İndi nə səbəb fikirləşim görəsən? Ağlıma münasib bir şey batmır. Başım aydınlaşsın deyə əl-üzümü yumağa gedirəm. Elə burdaca, ayaqyolu ilə əlüzyuyan arasında qızla toqquşuram. Saçları hörülüb, yalın ayaqlarına Genanın ayaqqabılarını geyib.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özümü itirdiyimdən elə salamlaşıram ki, sanki bir evdə uzun illərdi ki, yaşayırıq və ayaqyoluna girirəm. Halbuki, bayaq əl-üzümü yumağa gedirdim. Yalandan bir az ayaqyolunda yubanıb çıxanda qızı həmənki yerində görürəm. Əl-üzümü yumağa başlayıram. Özümdən asılı olmadan sükutu pozuram:

– Bura necə düşmüsən? – Elə o dəqiqə də sualımın mənasızlığını anlayıram. – Onunla çoxdan tanışsan?

– Yox.

– Nə qədər olar? Bir, iki il, bir həftə, bir gün?..

Gözlərini boşluğa zilləyib susur.

– Eşitmirsən?

– Eşidirəm.

– Niyə cavab vermirsən? Dünən tanış olmusunuz?

– Hə.

– Eləcə o saat getdin onunla?

Cavabı gözləmirəm: sualım, necə deyərlər, çox ritorik idi.

– Əgər istəsəydim, özümlə götürsəydim, mənimlə də gedərdin? Sən əşyasan, yoxsa adam? Səni kim istəyir, o da vurur qoltuğuna?

Gözləri yaşarır.

– Hə, niyə ağlayırsan? Mən ki həqiqəti deyirəm. O yanğınsöndürəni hardan tanıyırsan? Harda tanış olmusunuz? Yanğın vaxtımı?

– Yox.

– Harda bəs?

– Bir rəssamın evində...

– Hansı rəssamın?

– Sergeyin.

– Onu hardan tanıyırsan bəs?

– Evində yaşayırdım.

– Necə yəni yaşayırdım?

– Antresollarda.

– Şəklinimi çəkirdi?

– Hərdən çəkirdi.

– Lüt?.. Bəs onun yanına hardan düşmüşdün? Valideynlərin varmı?

– Yox.

– Necə yəni yox?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Uşaq evində böyümüşəm. Ata-anam macar olublar.
– Hardan bilirsən?
– Nənəm deyib.
– Hansı nənən?.. Doğma nənən?
– Yox... Mən onun yanında elə-belə qalırdım...
– Bəs, o, hardan bilir sənin yetim olduğunu?
– Ona da kimsə deyib.
– Aydındır...
Əslində isə heç nə aydın deyildi.
Birdən rəngi qaçdı:
– Sən gedirsən?
– Hə, gedirəm. Nədi ki?
Yenə bikeflədi, avazıdı, lal-dinməz oldu, deyərdin ki, cavab verməyə bir kəlmə də söz ehtiyatı qalmayıb.
– Axı niyə soruşdun?.. Əşi, özün bilərsən. Demək istəmirsən, demə. Heç lazım da deyil.
Otağa adlayıram. Evdə qalanlar üçün nəsə yazmalıyam. Əyləşib güc-bəla bir-iki sətir qaralaya bilirəm: "Əziz, istəkli nənəm, mən təcili getməli oldum. Hər şeyə görə sağ olun. Minnətdaram. Bağışla ki, səninlə xudahafizləşə bilmədim, iş belə gətirdi".
Nöqtəni qoyub bir anlıq fikrə gedirəm. Gözəl başa düşürəm ki, yenə nəsə borc duyğusu ilə, razılıqla bağlı bir neçə kəlmə də isti, xoş söz əlavə etmək lazımdır, amma qardaşcığım Genaya görə əlim gəlmir.
Çamadanı götürüb dəhlizə çıxıram. O, yenə əvvəlki kimi tualetlə əl-üz yuyulan otağın arasında, əlləri qoynunda dayanıb. Məhəl də qoymayıb sakitcə geyinməyə başlayıram.
– Məni də özünlə apar, – bu sözləri qapını açdığım anda eşidirəm.
Bah, kef imiş ki, dünya! Sən demə hər şey necə də sadəymiş, istədiyini vur qoltuğuna, hara da istəyirsən apar.
– Yaxşı, hara getdiyimi sən bilirsənmi?
– Yox, bilmirəm.
– Bəs, bilməyə-bilməyə nə üçün gözünü yumub mənimlə getmək istəyirsən?
Eh, mən də lap nağılam, bunu ki, az-çox yazmaq, izah eləmək olar! Nəsə acıqlanmağa başlayıram. Bu anlaşılmaz, dolaşıq üzüyolalıqda nəsə ikrah doğuran, xoşagəlməz bir şey var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Deməli, təki səni aparan olsun, kefin hara istəyir, ora da gedərsən?

Bir anın içindəcə kirpiklərindən gilələnib qopan iki iri damcı yanaqları boyu aşağı yuvarlanır.

– Axı, sən Genanı əməlli-başlı tanımaya-tanımaya ona qoşulub gedibsən!

– Mən daha orda qala bilmərəm.

Belə de! Bax, bu heç ağlıma da gəlməyib.

– Yaxşı, əgər mən səni özümlə aparmağa razı olmasam, qalsan burda, yəni yatmağa da yerin yoxdur?

– Yoxdur...

– Niyə işləmirsən, oxumursan? Yataqxanada da qalmaq olar, axı.

– İşləmişəm.

– Harda, nə işində?

– Tikintidə.

– Bəs, niyə getdin ordan?

Adama elə gəlir ki, o, hərəkətlərinin heç birinə izahat vermək qabiliyyətində deyil.

– Əlbəttə, belə çətin işlərdənsə, rəssama məşuqəlik etmək, buyruqqulu olmaq daha münasibdir...

– Mən xəstəliyə tutuldum. – Yenə iki damcı göz yaşı parlayır.

– Nəydi xəstəliyin?

– Bilmirəm. Başım hərlənirdi. Apar məni özünlə.

– Nə səfeh-səfeh danışırsan? Mən səni özümlə hara aparım, nə adla aparım? Axı, mən anamla qalıram. Nə deyəcəyəm ona? Otağımız da ki bircə... Başın daha hərlənmir ki?

– Yox.

– Axı, nə üçün işləmək istəmirsən? Doğrudanmı bu cür avara-sərgərdan yaşamaq səni zinhara gətirmir? Sən ki, gözəl qızsan. Amma di gəl ki, kim rastına çıxdı qoynuna girib yatırsan. Yəni bu dağılmışda elə bir oğlan yoxdu ki, sən onu ürəkdən istəyəsən?

Sükut, sükut...

– Səndən soruşuram! Deməli, səninçün heç bir fərqi yoxdur, kim olur-olsun? Özünü təslim edəcəksən?

Sükut. Sonra da iki damcı yaş.

– Yaxşı, mən getdim. Salamat qal.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzüaşağı yuvarlanan damcılar çənəsindən süzülür, qara, yun koftasına düşüb, itir. Yanaqlarında damcıların qoşa, nəm izi qalır.

Qohumlarımın evindən həmişəlik getməzdən əvvəl mərhəmətlə onun çiyinlərini sığallayıram...

Restoranda bizi baş xörəkpaylayan Yaşa qarşıladı, görkəmi, hərəkətləri lap əsl ingilis lordlarını xatırladırdı, saçını xüsusi səliqə ilə ayırıb yana daramışdı. Bizim hamımızı tanıyır. Bəxtəvərin qarşısında isə lap əldən-ayaqdan gedir.

– Buyurun, buyurun. Sizin gəlişinizə həmişə şadıq... Stol çoxdan hazırdır. Buyurun...

Bizi elə münasib yerdə əyləşdirir ki, ordan həm orkestr, həm oval şəkilli rəqs meydançası yaxşı görünür, həm də musiqinin gur səsi söhbət eləməyə mane olmur.

– Nə deyirsiniz deyin, əla orkestrdir, – Bəxtəvər fərəh qarışıq təəccüblə bildirir.

O bizi az qala unudub – öz musiqi aləmiylə məşğuldur, heyranlıqla, məmnuniyyətlə qulaq asır. Bu da onun öz əvvəlki təbiətinə, zövq, əyləncələr dünyasına necə bağlı olduğunu bir daha göstərir. Hə, belə de, onu bir az da ruhlandırmaq lazımdır.

– Burdakı müğənni qız da ayrı aləmdir.

Mənə xüsusi maraqla baxır.

– Sən bura gəlirsən?

– Hərdənbir... Öz uşaqlarımızla, işdən sonra baş çəkirik.

– Deməli, hələ həyat eşqi sönməyib! – O gümrahlıqla, təqdiredici tərzdə mənim çiynimə vurur. – Bəs o biri... qadın məsələsi nə yerdədi, bu sahədə sənin uğuruna, ustalığına söz ola bilməzdi axı?

Hamının maraq dolu gözləri mənə zillənir. Aralarında yeganə subay olan mənəm.

– Şikayətim yoxdur...

– Eh buna heç kimin şübhəsi ola bilməz... Bəs evlənmək istəmirsən?

– Hələ ki, yox...

* * *

Qız anamın dəfnindən bir ay sonra gəldi. Qızı qapıyadək ötürən oğlan çıxıb getmək bilmir – irəlidə daha nələr olacağı onunçün maraqlıdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızı o saat tanıya bilmirəm. Açıq rəngli plaşın üstünə dağılmış saçları, boyalı gözləri, dikdaban ayaqqabılar. Əlində təzə çamadan.

Uşaqlar stolun arxasında oturmaqda davam edirlər. Qapıya yönələrkən eşidirəm.

– Bu kimdir belə? – Dostun səsidir.

Qonşu oğlan mənə göz vurur. Peysərinə bir dənə ilişdirirəm.

Qız yalnız zahirən dəyişməyib. Şahanə bir tərzdə əlini mənə uzadır və düz gözlərimə baxıb, radio elanı kimi ucadan deyir:

– *Salam!*

Görünür, görüşə uzun müddət hazırlaşmışdı. Çamadanı götürürəm. Divarın yanında, qapıyla yanaşı qoyuram. Kürəyimin arxasında nəsə pıçıltı eşidirəm, canlanma duyuram. Uşaqlar qız barədə məndən eşidiblər. Oturmağı təklif edirəm.

Elə həmin radio tembrli bir səslə boş-boş şeylər danışır.

– Krasnovodskdan gəlirəm. Yolüstü burdayam. Nümayəndə heyətini müşayiət edirdim. Macar ticarət firmasının nümayəndələrini.

Onun sözünü *kəsirəm:*

– Tanış olun. Bunlar bizim uşaqlardır, dostlardır. Bu isə, uşaqlar, Vikadır.

Stol arxasına keçirik. Guya gizlincə, amma hamının gözü qabağında mənim (təəssüf ki, indi yalnız mənim) otağımı nəzərdən keçirir...

– Sizə başsağlığı verməyə gəldim. – O, xüsusi bir təmtəraqla deyir.

Başımın hərəkətiylə təşəkkür edirəm. Ağlamaqdan qorxuram. Qızın peyda olması itki ağrısını qəfildən kəskinləşdirir: anamın ölümündən sonra bu otağa tezliklə qadın gəlməsində nəsə çox ədalətsiz bir şey var. Bu qadın anam öldüyünə görə peyda olmuşdu!

– Siz macar nümayəndələri ilə niyə gəzirsiniz? – Bəxtəvər çox nəzakətlə soruşur.

– Elə-belə, müşayiət edirdim onları.

– Macar dilini bilirsiniz?

– Bir az.

Hamı gülümsünür. İzahata ehtiyac duyuram.

– Vikanın valideynləri macardır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə, belə de!

Alik, əlbəttə, hər şeyə inanır, dəstəmizin digər sadəlövh bir üzvü, İşbaz yoxdu, Moskvadadı, semestr hələ qurtarmayıb, amma o birilərin hamısı – Dost da, Yazıçı da, Bəxtəvər də qızın macar olduğuna inanmırlar.

– Yaxşı, nədən danışırdıq biz? – Dost bizə işarə eləyir ki, bəsdi qızı bu qədər təklədik, ciddi kişi söhbətinə keçmək lazımdı.

Bəxtəvər elə bir ucdan Moskva macəralarından danışır, qalanları isə düzəlişlər verir. Qulaqasan yeganə adam Alikdir.

–...Onda o, – bu mənə aiddir, – qızın üstünə atılır və – son anda, lap demək olar ki, o oğlanla eyni vaxtda qızı dəvət edir... Başa düşürsən?

Alik səbirsizliklə başıyla təsdiqləyir. O, hekayətə uyub. Bizim mübariz yürüşlərimizlə bağlı olan hər şey onu çox maraqlandırır. O, uşaqlıqdan belə məsələlərdə bizim müəllimimizdir.

–...Qız bilmir ki, neyləsin. O oğlana da baxır, – onlar axı orda hamısı bir-birlərini tanıyırlar, – Marata da... Oğlan isə inamla, həyasızlıqla gülümsəyir. Nədi, Qalka deyir, çox gözləyəcəyəm? Cavab gözləməyib qızın əlindən tutur. Qız isə, – burda Bəxtəvər, dalınca da qalanları şaqqıldadılar, – əlini çəkir və Maratla gedir. Təsəvvür edirsən? Hə, burda başlandı!

– Anan nədən öldü? – Qız (yaxşı ki, heç olmasa bu ağlına gəldi) otağı nəzərdən keçirə-keçirə astadan soruşdu.

– Ciyərləriydi... Bəs sən hardan bildin?

– Nənə dedi.

– Sən hələ də orda yaşayırsan?

– Yox... Hərdən gedirəm nənənin yanına.

– Biz, deməli, beş nəfərik, – Bəxtəvər davam edir, – onlarsa on nəfərdilər.

– Çox olardılar.

– Qoy, on beş olsun.

– İyirmi nəfərdən az olmazdılar.

– Hə, deməli, o oğlan ona deyir: “Bilirsənmi, etika nə olan şeydi?” Maratsa ona deyir: “Mən bilirəm. Sən də bilsəydin, qızın əlini qamarlamazdın”. “Bəlkə, o mənim bacımdı?..” “Bəsdi, qısası, sənə nə lazımdı?”. Ətraf zülmət, kolluqdu, gözdən-könüldən uzaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir xiyabandı. Onlar isə, deməli, hər tərəfdən bizi əhatə ediblər. O oğlan isə istehzayla gülümsədi və dedi: "Bax a, necə də temperamentlidi! O saat görünür ki, cənubludu!" Onda Marat, – Bəxtəvər yenə daha ifadəli çıxmaqçün məni göstərir, – ona deyir: "Qulaq as, biz azıq, amma nəzərə al ki, sizinkilərdən beşini özümüzlə aparacağıq, arvadlarınız dul qalacaqlar". O yenə istehzayla gülümsədi: amma hiss olunurdu ki, inandı. Fikirləşib, fikirləşib deyir: "Yaxşı, gedin". Maratsa ona: "Özünüz gedin, bizimsə burda hələ işimiz çoxdu". Qızı nəzərdə tuturdu. Onun bənizi ağardı, amma bir söz deyə bilmədi. Hə, çıxıb getdilər... Çıxış qapısında isə, baxıram ki, hansı uşaqlarsa həmin oğlanla salamlaşırlar. Özü də nəsə ehtiramla. Bu məni çox maraqlandırdı, soruşdum: "Uşaqlar, kimdi o?" Onlar isə: "Deyirlər boks üzrə Moskva çempionudur. Orta çəkidə. Familiyası Loqinovdur". Təsəvvür edirsən?

– Nə olsun ki? – Alik bizim yerimizə əməlli-başlı inciyib. – Onsuz da buraxmısınız onları. Nədi, Marat onunla bacara bilməzdi?

Ümidlə mənə baxır, çox istəyir ki, onun bu fikrini təsdiq edim. Gülümsəyirəm.

– Boksçuydu axı?!

– Əşi, sən onu içalatı qarışıq yeyərdin!

Etiraz eləmirəm.

– Bizim tərəflərdə çoxmu qalacaqsınız? – Bəxtəvər gülümsəyir, səsinin ahəngi də nəzərə çarpaçaq dərəcədə nəzakətlidi.

Əvəzində cavab çox kobud çıxır:

– Sizə qalmayıb.

Bəxtəvər çaşqın baxışlarla bizi süzür, yəni niyə xətrimə dəyirlər?

– Məgər mən sizə təhqiramiz bir şey dedim? – O yenə də nəzakətlə soruşur.

– Bunun əhəmiyyəti yoxdur. – Qız nədənsə çox təcavüzkar əhvali-ruhiyyədədir.

– Necə yəni əhəmiyyəti yoxdur? – Bəxtəvər halını pozmur, ancaq dodaqları azacıq istehzayla əyilib, amma bir dəfə o, üz-gözündə bax beləcə bir ifadə böyük bacısının adaxlısını balkondan atmışdı. O da Bəxtəvərlə nəzakətsiz danışmışdı. – Siz mənimlə çox ədəbsiz danışırsız, axı. Bəlkə başqasını nəzərdə tutursunuz? – Gülümsəməyində davam edərək boylanır, sanki baxır görsün,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arxasında elə bir adam varmı ki, qızın nəzərlərinin onun üzünə dikildiyini zənn etsin... Amma arxasında heç kim yoxdu. Buna görə də o izah gözləyir.

Qız qısaca:

– Yox, – deyir, – başqasının burda nə işi, elə səninləyəm!

– Nəyə görə?

– Elə-belə. Kefim belə istəyir...

Bəxtəvər mənə elə baxır ki, sanki mürəkkəbləşən vəziyyətdən çıxış yolu tapmağı xahiş eləyir.

– Bəsdir daha! – Ciddi tərzdə qıza acıqlanıram.

Qız yenə də nəsə deməyə hazırlaşırdı, amma acıqlandığımı görüb, itaətlə susdu...

Birinci Alik ayağa durur. Arxasınca da qalanları dururlar. Onları həyətə ötürürəm. Burda onlar gülməkdən uğunurlar, amma qonşulara görə özlərini saxlayırlar...

Dost soruşur:

– Qız niyə belə qəfildən gəlib?

– Mən nə bilim...

– Neyləmək fikrindəsən?

– Qov, cəhənnəm olub getsin. – Alik həmişə olduğu kimi belə məsələlərdə qətiyyətlidi.

– Gecəynən hara qovasan onu? – Bəxtəvər xeyirxahlıqla etiraz edir. – Yaxşı düşməz.

– Əşi, niyə yaxşı düşməz? Başdan xarabdı.

– Hə, bir az qəribə qızdı. – Yazıçı razılaşır, amma hiss olunur ki, başqaları kimi qızı beləcə sözsüz ittiham eləmir.

– İstəyirsən, mən qovum onu. – Alik təklif edir.

– Yaxşı deyil.

– Sən istəyirsən ki, qız yanında qalsın?

– Yox.

– Onda onu səhərədək hardasa bir yerdə saxlamaq lazımdı. Sonra qoy hara istəyir əkilsin.

– Hara aparaq axı onu bu gecə vaxtı?

– Sənin xalangilə, olmaz?

Dostun iki otaqlı mənzildə yaşayan tənha xalası var. Bunu inkar eləmək mənasızdı, amma qəribə bir qızı (əgər qəribə olmasaydı?) gecə vaxtı onun yanına aparmağı qəti istəmir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Başqa çıxış yolu yoxdur. – Bəxtəvər onu qabaqlayır.

Dost etiraz edə bilmir. O axı həmişə ədalət, həqiqət tərəfdarı olub.

– Mehmanxanada necə? Yer almaq olmazdı? – Yazıçı təklif edir.

– Ezamiyyətə gəlməyib axı. Götürməyəcəklər.

– Yeri, yeri, – Bəxtəvər məni dümsükləyir, – o razıdı.

Dost susur, deməli, doğrudan da etiraz eləmir.

Gedirəm...

Qapı açılanda, qız həyəcanla dönüb mənə baxır. Yaxına gəlirəm.

– Artıq gecdir, – yumşaq, qayğılı bir səslə deyirəm, – sənə yatmaq lazımdır. Səhər danışarıq.

Dinməzcə davamını gözləyir. Əslində deməyə bir söz də yoxdur.

Təkrar edirəm:

– Artıq on ikiyə işləyib... Sonra xalanı ayıltmaq yaxşı düşməyəcək. Xala axşamlar tez yatır.

– Hansı xala?

– Yanında gecələyəcəyin xalanı deyirəm.

– Mən heç bir qadının yanına gedən deyiləm!

– Niyə axı?

– İstəmirəm.

– Bəs nə təklif edirsən?.. Başa düş, səni yanımda saxlaya bilmərəm.

– Niyə?

– Əvvəla, qonşulardan ayıbdı. İkincisi də ki, bunun mənası yoxdu...

Qız qalxıb çamadanına doğru gedir.

– Hara gedirsən? – Qızı astadan saxlayıram. – Dayan bir... Nə oldu sənə?

Onun dolub-tutulmuş göz bəbəklərində sanki qığılcımlar oynayır.

– Mən heç kimlə, heç yana getməyəcəyəm! Bunu görməyəcəksən! Anladın?!

Başqa yerdə gecələməyi qız deməli belə başa düşübmüş.

– Əşi, ağlını itirmisən, nədi? Nə çərənləyirsən? Orda yalnız sən, bir də o qadın olacaq, başqa heç kim... Nədi, mənə inanmırsanmı?

Zənlə sifətimə baxır. Bir az sakitləşir, səsi yumşalır:

– İnanıram...

– Doğru sözümdü, vallah, qonşulardan ayıbdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən səhər lap tezdən gedəcəyəm, heç kim görməz. Yatmayacağam. Eləcə oturacağam burda.

Bir az əvvəlki odlu, qəzəbli gözlərdə indi elə bir həzin yalvarış var ki, istər-istəməz güzəştə gedirəm.

Həyətə çıxıram.

Uşaqlara izah edirəm ki, qızı yanımda saxlamalı oldum. Hər birinin bunu necə başa düşdüklərini üz-gözlərindən görürəm; hərə bir cür, amma hər halda təəccüblənirlər hamısı.

– Əşi, qov getsin onu! – Alik dişlərini qıcayaraq, gözlərini bərəldir, bu cür qadınlarla necə danışmağı nümayiş etdirir. Sir-sifəti bu an doğrudan da çox qorxuludu onun, nə istəsən bacarar...

Onlar nəsə ayrı fikrə düşdüyümü zənn edib gedirlər. Yazıçıdan başqa hamısı gedir. Bircə o mənə inandı, əl verməyindən duyuram...

Mən qayıdana kimi qız artıq ev xalatını geyinmişdi.

– Çayın varmı?

Özünü işgüzar aparır, sanki ömrü boyu mənə çay dəmləməklə məşğul olub.

Quru çay lap azdı, qutunun dibində bircə çimdik qalıb, amma bu onu çaşdırmır. Nədənsə kefi kökdür. Burnunun altında nəsə zümzümə eləyir.

– Mən indi tamam ayrı adamam. – Çay içə-içə qız məni inandırmaq istəyir.

– Görürəm.

– Yox, düzünü deyirəm, bilirsən niyə?

– Yox?

– Sənə görə, hə, sənə görə... Mən tamam dəyişmişəm. İnanmırsan?

Çiyinlərimi çəkirəm.

– Nə bilim.

– Əvvəllər hamıya qulaq asırdım.

– Bəs indi?

– İndi isə yalnız sənə qulaq asıram...

– Mənə?

– Hə...

– Belə niyə?

- Çünki sevirəm səni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızardı, amma gözlərini gözümdən çəkmədi. Baxışlarında bir mənəmlik var – yəni mənimlə neyləyirsən elə, onsuz da nə düşünürəmsə, onu da deyəcəyəm.

– Bu hardan ağlına gəldi?

– Həmişə fikrim sənin yanındadır.

– Yoldaşıma niyə elə kobud cavab verdin?

– O nə qızdır elə?

– Hansı qız?

– Sənin rəqsə dəvət elədiyin qızı deyirəm. O qızla aranızda bir şey olub?

– Tutaq ki.

– Elə ona görə də acıladım onu...

Sən demə "PDSA" parkından olan qızın xatırlanması onun kefini elə pozub ki, az qala təzədən ağlayacaqdı.

– Qısqanırsan, nədi? Bu səninlə tanışlığımıza qədər olub axı... Ümumiyyətlə, sənin buna əsasın yoxdu. Gülməli çıxır...

Sözümü kəsir. Elə bil heç mənim dediklərimi eşitməyib. İndi onunçün əsas şey – ürəyini boşaltmaqdı. Sözləri and kimi çıxır, səsi cingildəyir:

– Mənə bundan sonra heç kimin əli dəyməyəcək! Heç vaxt... Lap ömrümün axırınadək...

Aşkar bir istehzayla gülümsəyirəm. Heç inanmağım gəlmir. Amma nəsə maraqlıdı – qız niyə qəfildən belə qərara gəlib?

– İnanmırsan?! And içmişəm. Yalnız sən!

– Nə yalnız mən?

– Yalnız sən mənimlə istədiyini edə bilərsən. İstəsən öldürə də bilərsən məni!

Onun doğrudan da, bir az ağlıkəmliyi var. Alik haqlıdır. Bəlkə də elə bu əsaslı qüsurdu, ciddi çatışmamazlıqdı...

– Yox, düz deyirəm, məni öldürmək istəyirsən?

– Nə boş-boş danışırsan? Səni niyə öldürməliyəm ki?

Bu vaxtlar mənim qəti hazır olmadığım bir şey başlanır. Qız hardansa içinin dərinliyindən gələn bir hönkürtüylə mənə tərəf atılır:

– Yaşamaq istəmirəm. Döy məni, döy... Öldür bu əllənmiş nacinsi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Diz çöküb ayaqlarımı qucaqlamağa çalışır. Ona mane olmaq istərkən, qızdırmalı kimi titrədiyini duyuram.

– Əşi, sakitləş bir. Di bəsdi. Bəsdir, deyirəm!

Amma qız istəyinə nail olub çökür, üzünü qıçlarıma söykəyir. Əyilib onun saçlarını sığallayıram...

– Gedəcəyəm, vallah gedəcəyəm. İkicə gün qalıb gedəcəyəm. Düz sözümdü.

– Di yaxşı, yaxşı, təki ağlama...

Qız ayaqlarıma daha bərk-bərk qısılıb elə acı-acı, bol göz yaşı tökür ki, damlalar şalvarımı isladıb bədənimə toxunur... Sonra gecə səhərəcən gözünə bir dəqiqə də olsun yuxu getmir. Alayuxu içində onun məni sakitcə tumarladığını, öpdüyünü, astadan dua edirmiş kimi pıçıldadığını eşidirdim: "Əzizim, əzizim, yaxşım, qəşəngim, güclüm... qolum-qanadım... Boyum... Gözlərim..."

Mən balaca olanda yalnız anam məni beləcə zərifliklə, ülfətlə, şəfqətlə sığallayırdı. Yazıq anam...

Sübh tezdən onun hərəkətlərində bir qəriblik duyuram – məndən aralanıb, küncə qısılır. Donuq sifətində qorxu ifadəsi vardı, elə bil kimsə onu tapançadan nişan almışdı.

– Nə olub sənə?

– Eşidirsən?

– Nəyi?

– Kəsirlər.

Səs doğrudan da çox itidir.

– Bu karxanadır...

– Nə?

– Karxanadı. Tikinti üçün daş doğrayırlar.

– Uzaqdadımı?

– Əşi, fikir vermə...

Amma qız uzun müddət sakit ola bilmir.

İlk vaxtlar mən də əziyyət çəkirdim – Metal daşı sürtüb yedikcə tükürpədici, dözülməz bir səs çıxırdı. Elə bil kimlərinsə ara vermədən xirtdəyini xirtdək dalınca kəsirlər...

– Sənə gör necə baxır! – Yazıçı gülümsünür. Onun gülümsədiyini bu axşam ilk dəfədir ki, görürəm. (Ədəbi işçilər gündüzkü xoşagəlməz hadisələri asanlıqla unuda bilmirlər).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kim?

– Bax, o, qapının ağzındakı füsunkar varlıq...

Dönüb baxıram, iki cavan oğlanla qapıdan çıxan qızın üzünü görə bilmirəm.

– O sənə əl elədi, görmədin. Sən qadınların xoşuna yenə də gəlirsən? – o açıq-aşkar təəccüblənir.

– Hə, – deyirəm, – xoşlarına gəlirəm. Nədi ki?

*Səsimdə yüngülcə, bir qədər inciklik sezir, mehribanlıqla gəlib* çiyinlərimi qucaqlayır. Məni inandırır ki, pis fikirlə soruşmayıb.

– Sən yəqin sadəcə olaraq diplomsuz bir adamın qadınların xoşuna nə üçün gəldiyinə təəccüblənirsən?

– Boş sözlərdi... Mən ümumiyyətlə, xoşa gələ biləcəyimizə təəccüb edirəm. Xüsusən də ki, belə cavan qadınların...

Məni özünə sıxır:

– Deyəsən bir az çox vurmusan.

– Lap azacıq.

– Əgər söz güləşdirməyə başlayırsansa, deməli azacıqdan bir az artıqdı. Mən səni tanıyıram axı. Buna nə ad qoyaq?

– Böyük ədalətsizlik hissi.

– Əla formadasan, Marat, – o məni razılıqla başdan-ayağa süzür. – Dəmir qolu yenə də atıb-tutursan?

– Özü də necə!..

– Əhsən!.. Mən soyunanda baxanların yazığı gəlir, lap zibil çuvalıyam.

– Əvəzində sənin bax buranda qızıl var, – barmağımla alnına vururam. – Yazdıqlarından verəydin bir şey oxuyaydıq.

– Xoşuna gəlməyəcək.

– Niyə?

– Sən ki, ənənə qulusan.

– Əgər biri Dumanı sevirsə, deməli, ənənəçi olur?

– Əgər yalnız Dumanı sevirsə, onda, hə.

– Neyləmək olar? – qollarımı yana açıram. – Yaxşı yazın, sizi də xoşlayaq...

Xörəkpaylayan nəsə iri bir bağlama gətirir. – Bəxtəvərin sifarişiydi. Onu götürüb, birinci mərtəbəyə, asılqana düşürük. Hamı çoxdan aşağıdadır. Mühərriki qızdırıb, təmiz hava alırlar...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmişə ehtiyatlı olan Bəxtəvər maşınını küçənin o üzündə qoymuşdu ki, "DAM"-ın diqqətini cəlb eləməsin.

Yazıçı hələ də mənim çiynimi qucaqlamaqda davam edir. Bağlama nədənsə çox ağırdır. Maraqlıdı, Bəxtəvərin aldığı bir belə şey nədir?.. Piyada xəttinə çatırıq. Sağdan bir maşın peyda olub düz gəlir üstümüzə.

– O neyləyir? – Yazıçı həyəcanla pıçıldayıb, özü yerindən tərpənmədən, məni dala itələyir. Bağlamanı əlimdən salmamağa çalışıram və yalnız maşın bizim bir neçə santimetrliyimizdə mıxlanıb qalanda, başa düşürəm ki, sərxoşam. Əlimdə zorla saxladığım bağlama bu dəqiqə məni buferi ilə bizə söykənən maşından da çox maraqlandırır. Yalnız möcüzə nəticəsində bizi əzməyən bu parlaq dəmirə bir də baxandan sonra nə baş verdiyini anlayıram. Sarı "Jiquli" geri gedir, sonra yana burulub yenə nəriltiylə irəli şığıyır.

Pəncərədən bircə anlığa görünən uzunsaç sürücünün sifəti nəsə, mənə tanış gəlir.

– Həmin qız idi, – deyir Yazıçı.

– Kim? Hansı qız?

– Arxa oturacaqdakı. Sənə baxan qız.

Restoranda mənə baxan qızın kim olduğu mənimçün indi aydın oldu!

Alik əlində hardansa tapdığı vintaçan qaçıb gəlir. Çığıra-çığıra sarı maşının dalınca nəsə təhqiramiz sözlər deyir.

– Bu zarafatdı, – onu zorla sakitləşdirirəm. – Onlar zarafat etdilər.

– Tanışdılar?

– Hə, tanışdılar.

Mənə inamsızlıqla baxır.

– Bu, çox əclaf maşındı, – Sürücülərin maşınlara canlı varlıq kimi baxmaları, onların "xasiyyətini" bilmələri, nömrələrini, əlamətlərini yadda dəqiq saxlamaları heyrətamiz işdi. – Beləlri bir neçə dənədi... Bir də görürsən əyləcsiz-filansız ötüşmələr təşkil edirlər...

– Necə yəni əyləcsiz?

– Mayesini boşaldırlar ki, əyləclər işləməsin və söz qoyub başlayırlar qovdu-qovduya... Kimlərinsə uşaqlarıdırlar qoduqlar...

Qızın qəribə dostları varmış. Bu sarı maşını harda görmüşdüm mən? Gərginlikdən gicgahlarım sızıldayır, amma yaddaşımı alt-üst eləməkdəyəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Onlar karxana yarğanının dibində kino, ya fotoaparata oxşayan üçayaq bir cihazın başına yığışmışdılar. "Jiquli" isə bir az o yanda, lap ətəkdə, saralırdı, sanki onları qıraqdan müşahidə edirdi.

Tələbə dəstəsinin karxanada geodezi çəkilişlər apardığı birinci dəfə deyildi ki! Onda qızın da həyətə gəlib içmək üçün su istəməsində də elə bir qəribə şey yox idi: istidən qır belə əriyib, damdan süzülürdü.

Parçı xırda qurtumlarla boşaldıb dedi ki, burda geodezi təcrübə keçirlər. Sonra da çıxıb getdi. Cəmi bir neçə kəlmə kəsilmişdi, amma nəyinsə davamını qabaqcadan duyurdum – qızın sakit, diqqətli baxışlarında da, ağıryana, asta tərpənişində də nəsə vədedici bir şey vardı. Təcrübə davam edən günlər ərzində bu xoş gözləmə duyğusu məni tərk etmirdi; tələbələr öz cihazlarını yığışdırıb karxanadan çıxıb gedəndən sonra da bu hiss məni tərk etmədi.

Axırıncı gün qızın ikinci gəlişi oldu, xudafizləşmək bəhanəsiylə gəlmişdi və o saat da, salamsız-kəlamsız (bu tələsiklik bir azca onunla izah oluna bilərdi ki, yoldaşları darvazanın yanında gözləyirdilər) dedi ki, bu bazar günü, ya da o biri bazar – vəziyyətə baxır – gələ bilər, bu açıq təklif məndə qəribə hisslər oyatdı və yorğun bir ümid diksinib tərpəndi, elə bil qumardakı kimi uzun uğursuzluqlardan sonra əlin birdən gətirir, amma buna sevinməklə bərabər, eyni zamanda başa düşürsən ki, məhz həmin bu uğurlu kartın elə özü də səni ağır məğlubiyyətə apara bilər!

Mayesiz əyləcləri olan sarı "Jiquli" uzunsaç üçlüklə ilk toqquşmadan sonra yaranan ehtiyatlılığı təsdiq edirdi, – bu uzun, sallaq bığlılardan kiminsə qıza iddiası, özü də çox ciddi iddiası vardı. Özlərini həddindən artıq qətiyyətli aparmaqlarından görünür...

Bəxtəvərin kefi kökdü, bizimlə görüşəndə həmişə belədir. Onu dayandırmaq mümkün deyil. Tez o biri otaqdan gözləri işıqdan qamaşan qızını gətirib başının üstə qaldırır:

– Beləsini görmüşdünüzmü? Dilbərdir, dilbər!

Onu ehmalca öpüb, bütün bunlara təbəssümlə göz qoyan anasına ötürür. Hiss olunur ki, Bəxtəvərin bu evə hər gəlişi bayramdır. Onu burda sevirlər, əzizləyirlər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yataq otağından qayıdan ev sahibəsi eynilə Bəxtəvərin arvadının üç saat əvvəl verdiyi sualı verir: "Stolda olanlardan əlavə qonaqların ürəyindən daha nə keçir? Məsələn, yaxşı çex pivəsi var, xərçəngiylə bir yerdə..."

Bu son təklifi coşqun sevinclə qarşılayırıq.

Bəxtəvər artıq qədəhləri doldurub. Ev sahibəsinin çiyinlərini qucaqlayıb, onun şərəfinə tost deyir. Yadıma düşür ki, bu qadını televizorda hansısa beynəlxalq müsabiqədə uğurla çıxış edərkən görmüşəm. Özü də bir neçə dəfə. Məşhurluğuna baxmayaraq, çox sadə, mehriban adam təsiri bağışlayır.

– Şadam ki, burdasınız, uşaqlar, – Bəxtəvər danışdıqca qadın onun hər bir kəlməsini xüsusi ehtiramla dinləyir.

Biz bu gün hökmən bura gəlməliydik. Burda, bu evdə mən özümü həqiqətən də xoşbəxt hiss edirəm. İstəyirəm ki, siz bunu biləsiniz. Gəlin, bu xoşbəxtliyi mənə bəxş edən bu gözəl insanın sağlığına içək!

O, qədəhini bizim qədəhlərlə toqquşdurmazdan əvvəl, qadının alnından öpdü. And içə bilərəm ki, ömrümdə o qadının bax bu andakı sifəti kimi xoşbəxt bir sifət görməmişəm.

Deyəsən, qonşum darvazanın yanında xüsusi olaraq məni gözləyir. Çünki özünü elə göstərir ki, guya göyərçinlərlə məşğuldu, amma məni görən kimi quşlar yaddan çıxdı.

Salamlaşır. Güzəranımı, işimi soruşur. Sonra üzr istəyib, əsas söhbətə keçir. Xahiş edir ki, onu düzgün başa düşüm. Xəbərdar edir ki, məni öz oğulları kimi sevən bütün qonşuların adından danışır.

Elə o məni saxlayan andaca, söhbətin nədən gedəcəyini başa düşmüşdüm. Amma onu başımdan rədd eləyə bilmirdim, mənim hərəkətimdən təşvişə düşüb. Uşaq vaxtı onun dizlərində o qədər oturmuşam ki! Baxıram ki, tamam ayıqdı, hərçənd vurmağı sevən adamdı.

Özümü anlamaz kimi göstərmək istəmirəm. Əlbəttə, özümü elə tutardım ki, guya söhbətin nədən getdiyindən xəbərim belə yoxdur. Amma özümü nə qədər saxlaya bilərəm?

– Əlbəttə, hər kəs öz ürəyi istəyəni seçir, – o, sözünə davam edir, – amma rəhmətlik anan belə gəlin arzulamırdı axı.

Onu bacardığım qədər sakitləşdirirəm, izah edirəm ki, Vika nişanlım deyil, sadəcə tanışımdı, bir neçə gün burda qalıb, çıxıb gedəcək...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bax a... bir gün, beş gün... Öyrəşərsən, sonra gec olar.

Mən belə şeyləri bilirəm – özüm də düşmüşəm bir dəfə belə bir işə...

Onun necə işə düşdüyünü bütün həyət bilir. Bu mənada o məni öyrətməməlidi – onun arvadına heç cür isinişmək də olmur. İyirmi ildi bir dam altda yaşayırlar, iyirmi ildi qadın qonşuları inandırır ki, əri gecələr onu hansı otlarlasa zəhərləmək istəyir. Eh, indi nə deyəsən bu qonşuma? Özümü elə aparıram ki, guya onun xəbərdarlığını nəzərə alacağam. Evə gedirəm...

Qız axşam naharını gətirib, özü də qarşımda oturur, əlini çənəsinə söykəyib (barmaqları gödək, kobuddur, dırnaqlarını dişi ilə didib), sədaqətli baxışlarla mənim yeməyimi izləyir.

Ona bildirirəm ki, məşqdən sonra uşaqlarla görüşməliyəm. Sifəti bir anda dəyişir, – indi bu sifətdə düşmənçilik ifadəsi var. Özümə bəraət qazandırmağa başlayıram: uşaqları bir belə də incitmək olmaz, tamam görüşmürük son vaxtlar, mən evdən bir yana çıxmıram, bir də qızın özü günahkardı ki, onlarla münasibəti korladı... Ümumiyyətlə, hər şey qız düşündüyündən də mürəkkəbdir.

Həyəcanla qulaq asır. Gözünü ağzıma zilləyib, sözümün davamını gözləyir.

– Başa düşürsənmi, – deyirəm, – çox şadam ki, sən gəlmisən, amma mənim də öz işlərim var axı! Uşaqlar, tanışlar...

– Hansı tanışlar?..

Deməli, yerdə qalan hər şey qulaqardına vurulub, onunçün heç bir əhəmiyyəti olmayıb, yalnız bu sözdə təhlükə duyulub, onu yalnız bu söz maraqlandırır.

– Müxtəlif tanışlar...

Reaksiyası anidir:

– Sənin istədiyin qız varmı?

İndi buna nə deyəsən? Bu qız mənim çox da xoşuma gəlir: amma buna baxmayaraq soruşduğu qız da var. Özü də görüş həsrətindədir.

– Əlbəttə var, – elə deyirəm ki, sanki tamam boş bir şeyi nəzərdə tuturam, – hərdən görüşürük də.

– Çoxdan?

– Dəqiq yadımda deyil... Yəqin yarım il olar.

– Gözəldir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Pis deyil.

– Şəkli var?

– Haradasa vardı... Tək deyil. Təzə ili birlikdə qarşılayırdıq...

– Göstər.

Şəklin dalınca gedirəm.

– Budu? – Təzə il stolu arxasında oturanlara zənlə baxan kimi o saat rəqib qızı tapır.

– Hə.

– Qəşəngdir... amma ağılsızdır... – Fotoşəkli nifrətlə atıb incikliklə üzünü döndərir.

Şkafın arxasından idman qılıncını götürüb, çantanı çiynimə atıram.

Ona təsəlliverici nə deyim axı? Ağlıma elə bir şey gəlmədiyindən götürüb kitabdan-zaddan oxumağı təklif edirəm.

Şkafdan kino ulduzları haqda bir yığın kitabça çıxarıram. Mozduxin, Pat və Pataşon, Nata Vaçanadze, Duqlas Ferbenks. Anamın sevimliləri...

* * *

O birinə bir şeyi qandırmaqsa bundan da çətindi.

Həmişə olduğu kimi, məşqdən sonra məni qarşılayır. Solğun, almacıq sümükləri çıxmış, inamlı bir sifəti var. Ona ağıllı demək olmazdı, amma əvəzində qəşəng idi.

– Hara yox olmusan?

– Məgər uşaqlar sənə demədilər? İşim çox idi...

"Burevestnik"in girişində dayanmaqda davam edirik.

– Hara gedəcəyik?

– Heç bilmirəm. – Nəsə onunla heç yana getmək istəmirəm...

– Sənə nə olub?

– Heç nə... Bir az yorulmuşam.

Əynində bir az qəribə, uzun, beli boş, ətəyi büzməli paltar var. Bir az hamilə kimi görünür. Yəqin, təzə dəbdir.

– Nə belə baxırsan?

– Paltar...

– A-a-a... – Qız gülümsünür. – Xoşuna gəlir?

– Çox da yox... Qulaq as, gəl bir neçə gündən sonra görüşək. Mən nəsə özümdə deyiləm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız təəccüblənib incisə də, məndən bir damla da şübhələnmir – o çox qəşəngdir, aramızda düz yarımillik buludsuz münasibətlər var. Bir də ki, o, doğrudan da xoşuma gəlir. Ümid eləyirəm ki, bizim münasibətlərimiz bir neçə gündən sonra yenə qaydasına düşəcək.

– Sənə sonra hər şeyi izah edərəm. Yaxşı?

Qız razılaşır: yazıq daha nə eləyəcəkdi ki?

Onu dayanacağa qədər ötürürəm, trolleybusa oturduram. Xudahafizləşib əlimi yelləyərkən özümdən yarım metr aralı Vikanı görürəm. – Qalibanə ifşaedici baxışlar, acı istehzalı təbəssüm. Qız indi dövlət sərhədində əclaf qaççına çatan sərhədçinin şəxsində aldadılmış vətəndən də çox təhqir olunmuşa oxşayır. Gülümsəməyə cəhd edirəm.

– Bura necə gəlib çıxmısan?

– Hər şeyi gördüm.

Sərt hərəkətlə dönüb gedir. Arxadan çatıram.

– Nəyi gördün?

– Sənin ona necə baxmağını.

– Necə baxırdım?

– Vurğunluqla.

– Boş sözdü. Nədi, məni izləyirdin?

Hönkürtülər başlanır:

– Öləcəyəm, öləcəyəm, öləcəyəm.

Ötüb-keçənlər boylanaraq bizə baxırlar. Məzəmmətlərin ədalətsizliyindən qeyzlənib elə qışqırıram ki, tamaşaçıların sayı bir andaca birə-on qat artır:

– Sus! İsterik qadın! Bu saat səsini kəs!..

Bizə lap çox maraq göstərən şlyapalı bir kişini itələyib gedirəm. Bir neçə addımdan sonra arxadan addım səsləri eşidirəm. Çatıb, qolumdan asılır. Yaşlı gözlərində yalvarış var, itaət var...

Alikin yük maşını bizi çimərliyə uçurdur. Külək sifətimizə çırpılır, sözümüzü boğur, eşidilməyə qoymur. Asfaltın nahamar yerində kuzov bizi top kimi atıb-tutur, ayaq üstə güclə dururuq. Nə dediyimizi başa düşməkçün qışqırmalı oluruq.

– Kiminlə gələcəksən? – Bəxtəvər təkandan yırğalanıb, ağzını qulağıma dayayıb çığırır.

– Bilmirəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dosta tərəf haray çəkirəm:

– Əgər onunla, Vikayla gəlsəm, necə olar?

– Mən bilmirəm, kiminlə istəyirsən gəl...

Uşaqlar baxışırlar – bu bizim ilk dəfə bir yerdə üzə çıxmağımız olacaq...

* * *

Çimərlikdən qayıdanda onu eləcə uzanmış vəziyyətdə kitab oxuyan görürəm. Kino ulduzları barədə nə vardısa artıq hamısını oxuyub. İndi "Qraf-Monte-Kristo"ya girişib. Dostun ad günü barədə xəbər verirəm. Baxışlarını kitabdan ayırmır.

– Mən getməyəcəyəm, – səsində qətilik var.

Böyründə oturub çiyinlərini qucaqlayıram.

Uzun sükutdan sonra:

– Əynimə geyməyə bir şeyim yoxdu, – deyir.

Onun doğrudan da, həmişə əynində olan kofta-yubkasından başqa heç nəyi yoxdu.

– Boş şeydi. Bir şey fikirləşərik.

– Yaxşısı budu o gözəlçəni götür özünlə. O daha çox yarayar. – Səsində acılıq, sataşmaq var. Zorla gizlətmək istədiyi inciklik göz qabağındadır.

Bir neçə dəfə qulağından, burnundan, gözlərindən öpürəm...

– Gözəlçə daha yoxdu... Düz sözümdü.

– Onlar mənə güləcəklər.

– Kim? -

– O səninkilər... Bəxtəvərlər...

– Heç vaxt... Amma geyim barədə haqlısan, bir şey fikirləşmək lazımdı.

– Dostunun valideynləri kimlərdir?

– Atası ali məktəb rektorudur. Nəyinə lazımdı?

– Rektor direktor deməkdir?

– Hə. Əvvəllər onlar burda, bu otaqda yaşayırdılar. Biz isə ikinci mərtəbədə. Sonra dəyişdik: onlar ora çıxdı, biz isə bura endik.

– İndi harda yaşayırlar?

– Lap mərkəzdə... "Xudojestvennı" kinoteatr tərəfdə. Yadındadı, getmişdik bir yol?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız öz çamadanına sarı gedir. Eşələyib, hardansa lap dibdən, az qala, astarın altından iyirmi beşliyi çıxarır.

– Burada komissiyon mağazanız var?

– Əlbəttə, var. Nə almaq istəyirsən ki?

– Paltar. Üstünü düzəldərsənmi?

– Əlbəttə.

Çöhrəsi açılır, minnətdarlıqla məni öpür...

Stolun arxasında bizdən başqa Dostun bir neçə qohumu da var. Onlar da cavanlardı. Yazıçıyla ikimiz də eyni cür – ucuz, çil-çil sarı rəngli pencək geymişik. Ağıryana, qara kostyumların fonunda bu, gözə tez çarpırdı.

Vika komisyon mağazadan səksən manata aldığımız göy toxunma paltardadır. Özünü inamlı aparır. Çəngəl-bıçaqdan məharətlə istifadə edir. Hərdənbir pıçıltıyla nimçəsinə bir şey qoymağımı xahiş edir. Bu, cəsarətsizlikdən deyil, bizim mərhəmliyimizi bildirmək istədiyindəndi.

Rəqslər başlananda, onu qohumlardan biri o saat oyuna dəvət edir. Mən bizdən bir mərtəbə aşağı yaşayan qonşu qızla rəqs edirəm. Qız artıq azacıq dəmlənib, ənlik-kirşanlı sifəti divar kimi ağappaqdı.

– Təzə sevgindi?

Qeyri-müəyyən bir təbəssümlə cavab verirəm.

– Gəlmədir?

– Hə.

– Yerli kadrlar daha sizi təmin etmir?

Gülürəm və içməyi təklif edirəm. (Rəqsdən canımı qurtarmaq üçün). Stola sarı gəlirik.

Vika nəsə qəribə bir tərzdə, yanlarını basa-basa rəqs edir.

– Bilirsən, bu qız heç də pis deyil, – Bəxtəvər heyrətlə deyir.

Fürsətdən istifadə edib, qızla barışmasını təklif edirəm. – Bax, bu, mütləq lazımdır, – o razı olur. – Yoxsa tamam itib-batmısan.

Dost xüsusi maraqla söhbətə qulaq verir.

– Çıxıb getmək istəmir ki?

– Hələ ki, yox...

Dost bərk bağlanmış qalstukunu düzəldir.

– Əgər o, ümumiyyətlə getməyəcəksə?!

Bu onun ilk sualıdır, buna qədər o, bir dəfə də olsun Vika barədə söhbətə qarışmamışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Necə getməyəcək? – Mən qəti rədd edirəm. – Lap gülməlidi. Belə şey mənim heç ağlıma da gəlməzdi!

– Bax, heç gedib-eləməyəcək də. – Dost dediyində durur. – Özün deyirdin ki, iki-üç gündən artıq qalmayacaq.

– Elədir.

– Nə qədər keçib?

– Bir aydan çoxdu. Onu qova bilməzdim axı...

– Sonra qova biləcəksən? Onun çıxıb getməyini istəyirsənmi?

Sual gözlənilməz oldu. Doğrudan da istəyirəmmi? Amma bir müddət əvvəl çox istəyirdim.

– Əşi, mənimçün fərqi yoxdur...

Söhbət yarımçıq qalır, amma hiss edirəm ki, Dostun hələ deməyə sözü var...

Gecə evə qayıdıb soyunuruq, o mənimlə təəssüratını bölüşdürür.

– Hardandı onlarda bu qədər şey?

– Nə şey?

– Büllur qablar, rəsmlər, mebel... Mənzil də çox iridir...

– Mən hardan bilim?.. Atası ömrü boyu yaxşı vəzifələrdə işləyib... Yaxşı maaşı var... Hədiyyələr də ki, öz yerində... Bu, niyə belə maraqlandırdı səni?

– Maraqlıdı axı... Mən heç vaxt belə şeylər görməmişəm... İşığı söndürürəm...

Saat üçə yaxın artıq bütün xərçənglər yeyilib qurtarıb, pivə içilib. Deyəsən daha danışmağa da söz qalmayıb. Dağılışmaq vaxtıdı. Amma Bəxtəvər qırsaqqız olub yapışıb yaxamızdan. O tamamilə ayıq görünür, yalnız azacıq fərq ondadır ki, həmişəkindən bir az çox danışır, nə qədər eləyiriksə stol arxasından da durmaq istəmir ki, istəmir...

– Tanıyıram sizi, yaxşı tanıyıram... – Uzun, qıvrım, çallanmış saçları onu qaraçıya oxşadır. – Tinlərdə sürünəcəksiniz, sonra gəl sizi bir də yığ da...

– Əşi, yox, – Yazıçı onu inandırmağa çalışır, – sabah, birisi gün ya ayrı hansı vaxt deyirsən, danışaq, yenə görüşək...

– Sabah-zad yoxdu. Bu dəfə səhəri bir yerdə qarşılamalıyıq...

– Yaxşı deyil axı. Küy salırıq, yatmağa mane oluruq.

– Burda buna yalnız sevinirlər... Sən necəsən? – Onun tərəfini saxlamaqçün mənə müraciət edir. – Yorulmusan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yorulmamışam, mənimçün indi uşaqlarla olmaq çox xoşdur, amma ədəb naminə mən də deyirəm ki, qonaqpərvərlikdən bir belə istifadə etmək lazım deyil.

– Əşi, bəsdirin boş-boş danışdınız! – O səmimi surətdə acıqlanır. – Kimdən utanırsınız? Mən sizə söz deyirəm axı: əgər biz burda lap ömrümüzün axırına qədər də otursaq, yenə şad olacaqlar... – Bizim yuxulu gözlərimizə baxır, Alik çoxdan öz işindədir... gözlərini yumub astadan xoruldayır. – Di yaxşı, əgər belədirsə – onda xaş yeməyə gedirik. Sizi bir az silkələmək lazımdı.

– Xaşı bu vaxt hardan tapacaqsan? – Alik gözlərini açmadan maraqla soruşur.

– Həvəs olandan sonra taparıq... Hə, getdikmi?

Küçəyə tökülüşürük. Köhnə bir avtobus tutub, ağır-ağır üzüyuxarı qalxmağa başlayırıq, orda parkda Bəxtəvərin dediyinə görə məxsusi bizimçün xaş bişir.

Dost düz arxamda oturub. Bütün gecəni ağzını açıb bir kəlmə də olsun danışmayıb. Gec-tez hökmən ən əsaslı, ən ədalətli dəlillərlə növbəti hücuma keçəcək...

O saat aydın oldu ki, o, çox mühüm, həm də təxirəsalınmaz bir iş üçün gəlib. O, həmişə belədir! Yalnız "ÇP". Qüvvələrin tam səfərbərliyi! Özünü qəti əsirgəmir! Özü də hökmən nəsə ədalətli bir şeyə görə, həqiqət naminə!..

Gərnəşib qollarını oynadır, üşüyəntəhərdir. Yaxalığını qaldırıb, papirosu gülləsi qurtarmış gərəksiz pistolet kimi bir qırağa atır. Səsi kal çıxır, tutqundu:

– Söhbətim var!

Yağış çisəyir. Göyün qaşqabağından hiss olunur ki, yağış bərkiyəcək. Yaxınlıqda heç bir daldanacaq yoxdu. İdarəyə getmək olardı, amma iş günü qurtarsa da orda hələ adamlar var, bu da onu o qədər də təmin etmir...

Göyü göstərirəm:

– Neyləyəcəyik?

O mənim sualımı eşitmir.

– Dünən dediyin düzdümü?

– Dünən nə demişdim ki?

– Vika barəsində?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oho? Bu adı necə də sərbəst dedi! Sanki ömrümüz boyu sözümüz-söhbətimiz elə bu qız barəsində olub.

– Səni maraqlandıran məhz nədi?

O, addımını saxlayıb, qəfildən ortaya çıxan, cinayətkarı ifşa edən bir faktı bilən hakim kimi təntənəylə deyir:

– Axı sən dedin ki, qızın gedib-getməməyinin səninçün heç bir fərqi yoxdu?

– Tutaq ki, demişəm, – onunla razılaşıram, – bəs sən niyə belə narahat olursan?

– Ona görə ki, mənimçün fərqi var.

– Səninçün nəyin fərqi var? – Onun nəyə işarə etdiyini heç cür anlaya bilmirəm.

– Vikanın gedib-getməməyinin.

– Sən istəyirsən ki, qız çıxıb getsin?

– Yox, qalmasını istəyirəm.

– Niyə?

– Mən onunla evlənirəm! – Vətənin başının üstünü almış təhlükə vaxtı Müqavimət hərəkatına qoşulurmuş kimi qürurla dedi. – Sən onu sevmirsən. Özün dedin bunu. Sən gec-tez onu atacaqsan. O isə daha ciddi, daha ürəkli münasibətə layiqdir.

– Nə vaxt dərk elədin sən bunu?

– Dəxli yoxdur. Sən ki, onunla evlənən deyilsən! Amma o mənimlə xoşbəxt olacaq. İnan mənə. Mən nə dediyimi yaxşı bilirəm. Razılaş.

Adama elə gəlir ki, o, nəyisə qoruyub saxlamaqçün məni dilə tutur ki, həmin əmanəti ona verim.

– Əşi, razılığı məndən niyə soruşursan? Qızın özünə nə gəlib?

Bu yerdə o azacıq qızarıb karıxan kimi olur, baxışlarını kənara, paslı boruya tərəf yayındırır. (Boru nəsə onu çox maraqlandırırdı deyən).

– Soruşmuşam, – borunu çox diqqətlə nəzərdən keçirə-keçirə etiraf edir. – Qız razıdır.

– Nə? Sən artıq onunla danışmısan?

Namuslu gözlərini qaldırıb, qəribə bir saflıqla düz gözlərimin içinə baxır.

– Bəli. Onunla evlənmək istədiyimi dedim. O da razılaşdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün bunlar həqiqətdən daha çox mənasız aldatma oyununa oxşayır: – onun qəfildən qızla evlənmək istəməsi də, qızın razılıq verməsi də.

Özümü o yerə qoymayıb soruşuram:

– Belədirsə, daha burda mənlik nə var? Bir halda ki, ikiniz də alışıb-verişibsiniz, evlənin də!

– Səninlə yoldaşıq axı!

Bu, artıq gülməli çıxır.

– Əgər yoldaşımsansa, niyə qızla belə söhbətlər edirdin?

– Yalnız qıza görə. Onun taleyinə görə! Mənimlə onunçün çox yaxşı olacaq. Sən bunu inkar edə bilməzsən! Mən onunçün əlimdən gələn hər şeyi edəcəyəm!

– Hər halda mən onunla danışmalıyam.

– Yox! – Əlinin qəti hərəkətiylə etirazını bildirir.

– Necə yəni yox?

– Xahiş edirəm... Onu incitmək lazım deyil.

Addımlarımı yeyinlədib evə yollanıram. Amma o məni dayandırmağa bəhanə tapır:

– Qız səninlə danışmaq istəmir! – Arxamca qışqırır.

Təəccüblə dayanıram.

– Özü dedi. – Hiss edirəm ki, aldatmır. – Düz sözümdü. Elə buna görə də gəldim... O qorxur.

– Nədən qorxur? Kimdən qorxur?

– Səndən... – O, üz-gözünü turşutdu. – Düzünə qalsa, mən də razı deyiləm. Qıza indi istirahət eləmək lazımdı.

– O evdədimi?

– Yox, – o sonuncu nöqtəni qoyur. – O bizdədi. Anama hər şeyi izah etmişəm.

Otaqda hər şey sahmana salınıb. "Qraf-Monte-Kristo" şkafda öz yerinə, "Üç muşketyor"la yanaşı qoyulub. Külqabının altında kağız parçası görünür. Amma bu yazılı kağız deyil, paltar üçün verilən 80 manatın komisyon mağazasının qəbzidir. Görəsən onu niyə atmayıb, səliqəylə büküb, göz qabağına qoyub?..

Qəbz iki ay bundan əvvəl anamın tabutu qoyulan stolun üstündədir. Qəbzə baxarkən o vaxtkı, dəfn günündəki kimi ürəksıxıcı bir ağrı duydum vücudumda...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəxtəvər parkın xiyabanları ilə bizi iri pivə pavilyonunun – “Steklyaşka”nın yanına gətirib çıxarır.

Akvariumdakı kimi tərləmiş şüşə divarlardan stollar və çevrilmiş stullarla dolu sahə görünür. Stolların birinin üstündə iri qazan var, yanındakı stulda kimsə, bir nəfər mürgüləyir.

Bəxtəvər barmağıyla şüşəni döyür. Adam ayılır, əllərini sevinclə yelləyib, qapını açmağa cumur.

– Dostumdu mənim, – Bəxtəvər bizi xəbərdar edir, – bax pul-zad çıxarmayın ha, kişinin xətrinə dəyərsiniz.

– Qapı taybatay açılır. Çox yaşlı görünən, çox da nəzakətli bir kişi bizi zalın ortasına aparır, bir yarım saat qədər dözməyimizi xahiş edir, üzr istəyir, bizi stolun arxasına dəvət edir, deməli, xaş hələ hazır deyil.

Başımı az qala qazana soxuram. Xaş əməlli-başlı bişib, görünür, qoca istəyir ki, ət sümükdən tamam ayrılsın. Qazanın böyründə dərin nimçələr üst-üstə yığılıb. Onların da böyründə qəzetə bükülü qaşıqlar. Ağzı tənziflə bağlanmış yarımkiloluq banka ağzına qədər döyülmüş sarımsaq-sirkə ilə doludur. Hər şey evdən gətirilmədi, elə qazanın özü də. Qoca görkəmindən əsl gözətçiyə oxşayır: xəz jiletinin düyməsindən zəncirli metal fıştırıq sallanır.

Sapsarı kəhrəba pərdəylə örtülü qatı, şəffaf maye sakitcə aram-aram pıqqıldayır. Qazanın ağzından burula-burula qalxan buxarın qoxusu yuxunu qovmaqçün ən gözəl dərmandı.

– Yaxşımı xaşdı? – Xaşın onunçün yalnız bir bəhanə olduğunu açıq-aşkar gizlətmir: söhbəti bir şeydən başlamaq lazımdı ya yox. – Biz səninlə bir əməlli-başlı danışa bilmədik axı.

– Nə barədə?

Mənim səsimdəki aşkar istehzanı sezmir. Ya da özünü o yerə qoymur...

– Düzünü de, ya mənim ideyama inanmırsan, ya da?.. – O mənalı-mənalı sözünə ara verir, – ya da sadəcə olaraq mənə kömək etmək istəmirsən?

Bu dəqiqə, bax bu an duyduqlarımın heç olmasa yüzdə birini ona necə izah eləyim: heç cəhd də göstərmirəm. Əlbəttə, bəlkə də tam ədalətli iş tutmuram, çünki o, yalnız öz dissertasiyasına görə çalışan adamlardan deyil. Amma hər halda, son nəticədə dissertasiyanın müdafiə ediləcəyi – faktdır. Yaxamdan əl çəksin deyə, beləcə də deyirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə çox kədərlə, fikirli halda baxır:

– Yaman dəyişmisən...

– Sənsə yox. Amma xahiş edirəm nefti çox çıxarmağın az çıxarmaqdan yaxşı olduğunu mənə izah eləmə. Bunu sənsiz də bilirəm. İctimai mənafeyin şəxsi mənafedən üstün olduğu gün kimi aydın bir şeydir.

– Onda məsələ nədədi?

O, səbirsizliklə izahımı gözləyir, özü də bunu lap tələb edir. Özünün haqlı olmasına da inanır. Hər hansı bir ayrıca məsələdə o, həmişə haqlıdır, həmişə də ən yüksək duyğulardan danışır.

*Əgər eksperiment baş tutsa, onda ölkə əlavə olaraq minlərlə ton* neft alacaq...

Onun inandığı kimi mühüm ümumxalq əhəmiyyəti olan belə bir işdə əlindən gələni əsirgəyən, boyun qaçıran adam yəqin ki, ən azı çox alçaq adam olmalıdı!

– Nəzəri cəhətdən hər şey sübut olunub. Amma əməli sübut da lazımdı...

– Bununçünsə kiçicik bir qurban vacibdir: iyirmicə adamın illik pul mükafatı! Boş şeydir, eləmi?

– Mən bunu demədim...

– Amma bunu nəzərdə tutursan. Bəs niyə sən özün bir şey qurban verməyəsən?

– Əgər məndən bir şey asılı olsaydı, çəkinmədən qurban verərdim.

– Qəribədir, amma nədənsə həmişə belə çıxır ki, sənin ideyalarına görə başqaları qurban verməlidirlər. Bəs sən özün? Heç olmasa barmağını qatlayıb bircə misal göstər...

Heç də xatırlaya bilmir, alnını qırışdırıb düşünür, nəyəsə çalışır, cəhd göstərir, amma özünü məzəmmət edə biləcək heç bir şey yadına sala bilmir.

– Əgər sən o əhvalatı nəzərdə tutursansa...

Aha, bəzi şeylər axır ki, qayıtdı öz yerinə! Amma mən elə məhz bu barədə də danışmaq istəmirəm. Ümumiyyətlə, ona nəyisə sübut eləməyə nə halım, nə də həvəsim var: gərək çox şeyi qaldıraq onda. Axı, nə mənası? Onsuz da onu heç cür dəyişdirmək mümkün də deyil.

İndi biri-birindən tutarlı dəlillər iynə-iynə axıb gələcəkdi, amma bu iynələrin döşənəcəyi bədən artıq əvvəlki həssaslığını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

itirib. Bir də ki, hər bir adamın ömründə bircə dəfə başqaları üçün yox, özü üçün yaşamağa, hərəkət eləməyə ixtiyarı var! Axı, adam elə yorula bilər ki, ümumi mənafe naminə qurbanlıq çağırışına hay da verməyə heyi qalmaz.

Onu pıqqıltıyla qaynayan xaş qazanının yanında qoyub (onun xaşdan zəhləsi gedir, ömründə yeməyib), uşaqların yanına gəlirəm.

Alik yatır. Yazıçı dərin düşüncələrə qərq olub. Bəxtəvərlə qoca ovda qabanı necə vurduqlarını yadlarına salırlar. Onların arasındakı münasibətləri görəndə inanırsan ki, çoxdan dostdurlar...

Qəribədir ki, uşaqlara heç nə demədi o! Adətən ictimai fikri özünə cəlb eləmək imkanından qətiyyən imtina eləməzdi (Görünür, bu dəfə onun tərəfini saxlamayacaqlarını duyurdu).

Amma mən nəsə etməliydim. Sadəcə qulaqlarına inanmayacaqdılar, vəssalam. Nə eyibi, onsuz da gec-tez bu iş baş verməliydi. Bir halda ki, hərənin yalnız öz həyatıyla məşğul olduğu aydınlaşdırılmışdı, onda bu hüququn hamıya aid edilməsi ədalətli olardı...

Evə saat yeddidə çatıram. Artıq dan sökülür, hava işıqlaşıb. Daş karxanası nəhəng, sağlam bir ürək kimi işləyir. Özüboşaldan yük maşınları qatara düzülüb bir-birinin ardınca gedir, qulaqbatırıcı daşkəsən maşınların üçünün də birdən işlədiyi məlum olur...

Bu dəfə Bala öz maşınını düz darvazanın yanına sürmüşdü. Şüşə artıq salınmış, mükafat məsələsi sovuşmuşdu, bəs onu belə tezdən bura qovub gətirən nəydi?

Maşından sıçrayıb çıxır... Məni təəccüb götürür ki, üz-gözündən yenə də həyəcan yağır. Yaxınlaşıb, gecə növbəsindən əvvəl niyə istirahət eləmədiyini soruşuram.

– Bu doğrudurmu?

– Nə?

– Deyirlər, o... dissertasiya yazan sənin dostundur?

– Nə olsun ki?

Gözlərini yayındırır.

– Özü də... deyəsən atası nəsə, böyük adamdır.

– Sonrası?

– Uşaqlar deyirlər ki, səni sıxışdıra bilərlər... Hər tərəfdən üstünə tökülərlər – işin bitər!..

Arxamca həyətə girir, amma darvazanın ağzındaca dayanır. Danışa-danışa maşına çəpəki göz qoyur. Hiss olunur ki, maşına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçəndəfəki əsrarəngiz basqından sonra adamlara inamını tamam itirib: borc içində itib-batdığından neçə-neçə qohumunu, dost-tanışını o, qədər aldatmışdı ki, daha özü də bir kimsəyə inanmırdı.

Gözlənilmədən qan beynimə vurur. Səbrimi zorla basıram. Birdən-birə hirslənməyimin səbəbini heç cür başa düşmürəm, şübhəsiz ki, bu yalnız onunla, Balayla əlaqədardır.

– Orda nəsə eksperimentdir? – o, maşına çəpəki baxmaqda davam edir.

– Hə.

– Axmaqmı şeydir?

– Yox.

Səsimin ahəngi onu elə narahat eləyir ki, maşını da unudur.

– Nədi axı o?

– *Elə əvvəlki məxariclə, amma daha çox neft hasil etmək.*

Onun onsuz da eybəcər olan sifəti ağlamsınan təki olub qırışır.

– Bəs onda niyə hasilatımızı kəsirlər? Əksinə alınır axı – çox yox, az...

Yaman yatmaq istəyirəm, məni ayaq üstündəcə yuxu basır, amma bu mənasız söhbəti davam eləməyə nəsə məni məcbur edir – özü də heç bir eksperiment-zad olmayacağına qəti əmin olsam da!

– Bizim sahədə az, başqalarında isə çox olacaq. Bütün mədən üzrə də çoxalacaq.

O, doğrudan da inciyir.

– Nəyə görə hamıda çox, bizdə isə az olmalıdı? Üsula bir bax! Deməli, biz bataq, başqalarının da kefi qalxsın ala buluda?

– Hə, belə çıxır.

– Niyə məhz biz?

– Onda bəs niyə başqaları? – Həvəssiz halda soruşuram, o qəti əmin olur ki, çox ümid elədiyi mükafatı almayacağıq. O saat da demoqoqluq eləməyə başlayır...

– Bəs təminat varmı ki, nədi o... eksperiment baş tutacaq?

– Heç bir təminat-zad yoxdu!

Get-gedə artan acığımın səbəbini özüm də başa düşə bilmirəm.

Bala bunu duyub, mübahisəni kəsir, kənara baxa-baxa burnunun altında nəsə donquldanır.

– Nə dedin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Deyirəm təminat yoxdu, biz isə yanmalıyıq. – O sanki kiməsə gözəgörünməz bir adama şikayətlənir.

Bu yerdə nədənsə partlayıram:

– Əşi, qorxma, sən yanmayacaqsan! Yanmayacaqsan! Qoy başqaları mavi alovla alışsınlar. Təki bizdə hər şey qaydasında olsun. Öz maşınında rahatca gəzə bilərsən. Sənə mükafat yazacaqlar. Narahat olma.

Özünü sakitləşən kimi göstərərək çıxıb gedir.

Soyunmadan divanda uzanıram. Başımın altında anamın tikdiyi naxışlı balınc var. Çarpaz naxışlı tikmə onun son məşğuliyyəti idi...

Gec-tez bu baş verməli idi. Buna təsadüfi görüş demək olmazdı, yox, hər şey əksinəydi. (Hərçənd bunu uzun müddət etiraf etmək istəmirdim özümə). Bütün boş vaxtımı Dostun evinin yanında gəzdiyimə görə, qızla görüşməmək mümkün deyildi.

Əlindəki çantadan, üzünün işgüzar ifadəsindən o dəqiqə görünürdü ki, artıq hardasa oxuyub.

– Hə, kefin necədi? – Heç bir incikliksiz, iradsız, tam dostcasına maraqlanıram.

– Sağ ol, – təmkinli səsində xoşagələn bir ləyaqət də var.

– Gedəndə niyə heç xudahafizləşmədin də?

Səsimin ahəngində yenə bir yüngüllük və ironiya var, lap azacıq kədər də duyulur, şagirdlərinin oyunlarına çoxdan öyrəncəli yaşlı və xeyirxah müəllimlər də belədir – yoxlama zamanı onlardan kimsə köçürəndə müəllim çox da dilxor olmur ki! Qız susduğuna görə davam edirəm. – Bir də ki, səndən o qədər də böyük bir şey tələb olunmurdu axı. Ən adi nəzakət borcu idi. Heç olmasa barmaq boyda bir yazılı kağız: "Bağışla, salamat qal, başqasını sevirəm". Vəssalam. Nə isteriya, nə də hönkürtü olmayacaqdı, inandırıram səni. Zor da işlətməyəcəkdim.

– Bilirəm...

– Bir halda ki, bilirdin, məndən qorxduğunu demək nəyə lazım idi?

– Kimə demişəm?

– Bilirsən kimə dediyini.

Ani sükutdan sonra:

– Heç nədən qorxmurdum, – dedi. – Sadəcə olaraq səni görmək istəmirdim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə?

– Bilmirəm.

– Amma... Hər halda bəlkə öz hərəkətini izah edəsən?

– Niyə?

– Necə niyə? – İllər boyu yığdığı təcrübə qəfildən lazımsız olanda, hətta yaşlı, təcrübəli müəllim belə bu cür vəziyyətdə özünü itirə bilər. – Hər necə də olsa, aramızda bəzi münasibətlər vardı axı...

– Heç nə yox idi. – Səsində aşkar düşmənçilik sezilir.

– Necə yox idi?! Əşi, bir mənə dediklərini yadına salsana!

– Heç nə deməmişəm sənə. – Gözlərini yayındırır.

– Sən!.. – Hətta dözə bilməsə belə müəllim əl qaldırmamalıdı. – Səndə vicdan varmı?

– Yox.

– Niyə mənimlə belə danışırsan?

– Necə danışıram?

– Bax belə! Elə bil düşmənəm sənə.

– Mən getməliyəm. – Yana doğru bir addım atır.

– Bir dəqiqə gözlə. – Müəllim də hərdən heysiyyətini udub, yalvarıcı tona keçməyə məcburdu.

– Mən gecikirəm.

– Biz danışmalıyıq!

– Niyə?

– Qəribədir hətta... Deməli, səncə bizim danışmağa heç bir sözümüz yoxdu?

– Yoxdu!

– Yaxşı, əgər belədirsə, onda get... – şagirdin əvvəlcə ağır, amma düşünülməmiş hərəkəti birdən əclaflığa çevrilir və daha müəllimin ona həmişəlik deməkdən başqa ayrı bir əlacı qalmır. Bəlkə də barışmaq olardı hələ, çünki müəllim qəlbinin xeyirxahlığı sonsuzdu... Amma şagird bircə dəfə də olsun qanrılmadan çıxıb gedirsə – üzülüşmə labüddür. Bu, əldə qalan yeganə şeydi... Bununla belə onun arxasınca qaçıram. Çatıram.

– Gör bir necə əclaf qadınsanmış! Deməli sən hər şeyi yalan deyirsənmiş mənə?!

– Bəli!

– Niyə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kefim belə istəyirdi.

– Bunları mənə qəsdən, acıq verməkçün deyirsən, nədi?

– Bəli.

– Sənə nə olub? Başa düşürsənmi ki, alçaldırsan məni?!

– Sən məni alçaldanda yaxşıydımı?..

– Mən səni alçaltmışam?

– Özü də ardı-arası kəsilmədən!

– Nə gic-gic danışırsan?

– Mənim xeyirxah adamıma bax! Elə mənim çıxıb getməyimi gözləyirdin?

– Düz deyil. Bu yalnız əvvəllər belə idi.

– Məni hamıdan gizlədirdin. Utanırdın. Hətta qonşulardan da utanırdın. Nə var, nə var, ona yaraşan deyiləm. Tərbiyəm azdı, kobudam, az oxumuşam...

– Mən sənə belə şeylər deməmişəm.

– Özüm duymurdum məgər? Özün məni ayıltdın ki. Əvvəllər heç fikir də verməzdim buna. Yalnız yazığın gəlirdi mənə, başqa heç nə, qanıram axı hamısını. Lap bir dilənçi qadın kimi yazığın gəlirdi mənə. Səni görmək istəmirəm. Özü də məni rahat burax, eşidirsən? Nifrət edirəm sənə, – yenə getmək istəyir.

– Vika, dayan, xahiş edirəm. Axı, əvvəllər belə olub. Hər şey ötüb, dəyişib... Sən mənim çox xoşuma gəlirsən. Düz sözümdü, heç fikrimdən çıxmırsan, həmişə səni düşünürəm. Əgər qəlbinə dəymişəmsə, bağışla məni. Amma heç nəyi bilərəkdən eləməmişəm. Biz bir yerdə yaşamalıyıq. Mənim də heç kimim yoxdu. Axı sən özün deyirdin məni sevdiyini...

– Sənə çox söz deyirdim...

Naşükür şagird onu saxlamaq istəyən müəllimin əlini itələyib, çantasını yelləyə-yelləyə təzə sahibinin yanına tələsir.

Ona nə qədər yaxşılıqlar edilibsə, hamısını unudur, yalnız kiçik bir incikliyi yadda saxlayaraq, çıxıb gedir.

Özü də necə inciklik?! Məgər onun haqqında mən qədərindən çox bilirdimsə, günahkarmı olmalıydım?! Bu ağır yükü çiynimdən atmaq üçün mənə vaxt lazımdı, ya yox? Özü də heç kimə əbədi verilməyən, əlimizdən su kimicə axıb gedən vaxt.

Karxananın səsini üstələyən bir qadın səsi köməyə çağırır. Səs çox tanış gəlir. Elə çağırdığı ad da. Dəfələrlə eşitmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Marat! Marat!

Yada salmağa çalışıram, heç nə xatırlaya bilmirəm. Səs lap yaxınlaşdı. Odlu nəfəsi mənə dəydi, qarsalayıb yandırdı...

Başımın üstə kiminsə sifətini görürəm. Açıq alnı, cod, uzun saçları, gözlərinin, dodaqlarının künclərində erkən düşdüyü açıq görünən qırışlar var. Məhzun təbəssüm, sifətinə səpələnmiş çillər, yüngülcə kirşanlanmış burun, çənəsində də açıq rəngln bircə tük.

– Bağışla, – səsi elə alçaqdan gəlir ki, lap körpə səsinə oxşayır, girdə sifəti uşaq qanışirinliyinə (indi aradan uzun illər keçəndən sonra) uyğun gəlmir. – Mən qapını döydüm... Sən eşitmədin.

– Eşitdim. Amma mənə elə gəlirdi ki, yuxuda görürəm bunu... Yatmışdım...

– Elə də bilirdim. Sərxoşluqmu edirsiniz?

– Hə.

– O da yatır... Təəccüblənirsən olmaya?

– Nəyə?

– Mənim gəlməyimə?

– Yox.

– Yox? Mənsə təəccüblənirəm...

Otaqda var-gəl eləyir. O, həyəcanından belə eləmirdi. Əgər həyəcanlanırdısa da, özünü sakit aparırdı. Nəsə həm sakit, həm də pərişan bir inam – bu qadında diqqəti cəlb edən ilk əlamətlərdi.

– Heç məni yada salırdınmı?

– Hərdən xatırlayırdım. – Divanın söykənəcəyinə yayxanan kişi də sakitdir. Hətta laqeyddir. Səsindəki yuxulu üzgünlük də bu duyumu təsdiqləyir. Bu, kişinin xoşuna gəlir. Əslində neyçün də həyəcanlanmalı idi? Hər şey çoxdan olub keçmişdi, öz mənasını da çoxdan itirmişdi. Məktəb vaxtlarının adamın gözünə təsadüfən sataşan üçüncü sinif qiymətləri kimi. Amma nə vaxtsa o qiymətlər bizə od qoyurdu axı.

– O mənə hər şeyi danışdı. (Qadından əla ətir iyi gəlir!) Heç ağlıma da gəlməzdi ki, sən bir belə kinliymişsən...

Diqqətli baxışlar cavab reaksiyasını öyrənmək istəyir. Amma heç damcı da reaksiya yoxdur. Davamını gözləyirik... Divanın böyründəki stula əyləşir...

– Kefin necədi? – Baxışları isə otağı dörd dolanır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sağ ol. Hər şey qaydasındadı.

– Yox, yaxşısan, pis görünmürsən. Demək olar ki, heç dəyişməmisən. Elə otaqda da heç nə dəyişməyib, – otağı bir də nəzərdən keçirir. – Təəccüblüdür! Hər şey necə var, elə də qalıb... Karxana necədi? Yadındadı, necə qorxutmuşdu məni?

– Hə.

– Yaxınlaşıb sizə tərəf? O vaxt gərək ki, burdan çox aralıda idi?

– Hə.

– Axırı nə olacaq bunun? – Səsində canıyananlıq var.

– Onu bağlayacaqlar.

– Bağlayacaqlar?

– Burda park salınacaq.

Ayaqqabılarımı geyinib dikələndə onun müdrik, hər şeyi anlayan təbəssümüylə qarşılaşıram.

– Məndən hələ də acığın gəlir?

– Yox.

– Allah, Allah! O vaxt səni necə də dəli kimi sevirdim!

Dəhlizə çıxıb, çayniki odun üstünə qoyuram. Qayıdanda otağa keçə bilmirəm, – o, astanada durub, yolu kəsib.

– Bilsən səni necə sevirdim! Sənsə heç nə anlamırdın. Sən xeyirxah idin, alicənab, mehriban insan idin, amma heç nə anlamırdın.

Hə, hə, döşə görək, özündən daha nə quraşdıracaqsan?

– Mən nəyi anlamalıydım ki? Yol verin, keçim.

Kənara çəkilir.

– Sən çox sadəlövh idin. – Arxamca gəlir.

– Elədir, nə olsun ki?

– Yox, düzdü. Sən ağıllıydın. Məndən çox ağıllıydın. Amma elə şeylər vardı ki, sən sadəcə olaraq duymurdun, anlamırdın.

– Nəyi, məsələn?

– Səni necə sevdiyimi...

– Çay içəcəksən?

– Hə... Sən anlamırdın ki, mənim taleyim həll olunur. Sənin ki, yadındadı, mən necəydim? Nəyin bahasına olursa-olsun vəziyyətdən canımı qurtarmalıydım. O isə ilk adam idi ki, mənimlə evlənmək istəyirdi. Mən anladım ki, bu mənim taleyimdi, şansımdı...

Bir gör danışmağı necə öyrənib? Natiq! Deyərdin ki, günlərin bir günündə o bura gəlib, bütün bu illər ərzində məni öz danışıq qabiliyyəti ilə heyrətə gətirməyə hazırlaşıbmış. Amma hisslərin bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gecikmiş oyanışının, səsindəki bu ehtiraslı səmimiyyətin səbəbi mənə məlumdu axı. Yalnız bir nöqtə maraqlıdı ki, o, sonra özünü işə necə keçirəcək, əlcəklərini, bal paltarını bulamadan öz əliylə qazdığı arxdan necə hoppanacaq? Çox gözəl, çox ustalıqla, özü də xeyli uzaqdan başladı...

– Sən heç fikirləşirdinmi ki, biz ayrılsaydıq, mənə nə olardı? Bu barədə heç vaxt fikirləşməyibsən?

– Əgər ayrılmasaydıq?

– Mən risk eləyə bilməzdim.

– Məsələ də ondadı. Sən səhvsiz hərəkət etməyi üstün tutursan.

– Mən adam olmaq istəyirdim. Hamı necə, mən də elə. O bunu mənə boyun olmuşdu.

– Hə, nədi adam oldun?

Coşğunluğu bir andaca yatır. Yorğunluqla stula çökür.

– Sən mənə nifrət edirsən.

– Mən səni neyçün sevməliyəm axı?

– Mənə görəmi evlənməmisən?

– Mən adam olmaq istəyirdim hamı necə, mən də elə. O bunu mənə olmuşdu.

– Hə, nədi adam oldun?

Coşqunluğu bir andaca. Yorğunluqla stula çökür.

– Sən mənə nifrət edirsən.

– Mən səni neyçün sevməliyəm axı?

– Mənə görəmi evlənməmisən?

– Bilmirəm.

– Gözəlçələrin necədi?

– Sağ ol. Şikayətim yoxdu.

– Çoxdularmı?

– Bəs eləyir.

– Mənim iki uşağım var.

– Bilirəm.

– İnstitut qurtarmışam.

– Bunu da bilirəm.

– Ona kömək edəcəksən?

Bax belə! Başlandı!

– Yox!

– Yox? – Qalxıb mənə yaxınlaşır. – Doğrudanmı məndən bu cür alçaqcasına intiqam alırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu intiqam deyil. Mən sadəcə olaraq kömək edə bilmərəm.

– Düz deyil. Rəisin dedi ki, hər şey sənin özündən asılıdı.

– O yalan deyir. Orda məndən başqa daha iyirmi adam var.

– Onlar sənə tabedirlər axı.

– Hə.

– Onda əmr elə onlara.

– Onlara əmr eləməyə heç kimin hüququ yoxdu. Onlardan yalnız xahiş etmək olar.

– Onda xahiş elə.

– Ona görə ki, ərinin üstünlüklərinə bir dissertasiya da əlavə olunsun?

– Necə dedin? – İstehzalı təbəssüm qırışların sayını artırır. – Onun nəyi var axı? Heç nə başa düşmürsən?

Mən yenə nəyisə başa düşmürəm! Belə də ailə olar! Yalnız onlara aydındı, qalanları onların izahı olmadan keçinə bilməzlər.

– Sən elə bilirsən bizdə hər şey yaxşıdı, mehriban ailəyik, qarşılıqlı sevgi var? Guya tam səadət üçün də bircə dissertasiyamız çatışmır?

Mən heç də tamamilə belə düşünmürəm, onların həyatından bəzi şeylər mənə məlumdu, amma onun dediklərində həqiqət də var, odur ki, sakitcə davamını gözləyirəm.

– Təəssüf ki, hər şey arzuladığım kimi deyil. O mənə verdiyi sözü yerinə yetirdi, amma bir şey alınmadı. Biz sadəcə olaraq yad adamlarıq, aramızda ümumi heç nə yoxdu. – O, bu barədə qəmli-qəmli, çox da böyük əhəmiyyəti olmayan bir şey kimi danışır: – Uşaqlar sıxıntıyla böyüyürlər, atasıyla arası dəyib, dostlarını itirməkdə ona mən də kömək eləmişəm. Bəs bura niyə qayıtdıq? O axı, atasının köməyi olmadan keçinmək istəyirdi. Buna görə də o vaxt çıxıb getdik, növbəti qəti ideyamız bizi kor-koranə fəth eləmişdi – tam sərbəstlik... Bütün ötən on ili bir yerdən başqa yerə yortmuşuq. Yaxşı ki, heç olmasa aspiranturanı qurtardı, işin bu yerində isə – buyur, al, hər şey bu axmaq eksperimentdə ilişib qaldı. Onu atasıyla barışdırmaq lazım gəldi. "Prinsiplər"ə tüpürüb gəldik, üzr istədik... Atası nazirlikdə danışdı, onu sizin idarəyə göndərdilər...

– Rastınıza mən çıxdım.

– Rastımıza çıxmadın. O özü xahiş elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə?

– Ümid edirdik ki, sən köməyini əsirgəməzsən.

– Nahaq.

O özünü tamam itirir, hardansa qəlbinin dərinliklərində aşkar qorxu vurğuları güclənir.

– Onun təklifinin bir nəticə verməyəcəyinə sən tam əminsənmi?

Cavabı elə açıq bir həyəcanla gözləyir ki, özümü xəstəyə ağır həqiqəti deyə bilməyən həkim yerində hiss etməyə başlayıram.

– Yox... Amma sən deyən elə bir ümid də bəsləmirəm.

– Hər halda, azacıq da olsa ümid varmı?

– Ümid həmişə, hər şeyə etmək olar.

Xəstənin həkimə inamı xoşdur, amma bu onun qeyri-mümkün şeyə ümid bəslədiyi halda yaramaz.

*– Deməli, kömək edəcəksən. Mən şübhə eləmirəm. Sən elə adam* deyilsən axı... – Lap yaxın gəlir – elə yaxın ki, isti nəfəsini duyuram. – Mən o vaxt əclafcasına hərəkət elədim. İnanırsan inan, inanmırsansa inanma, yalnız səni sevirdim... Ümumiyyətlə, bütün bu illər ərzində nə eləmişəmsə, həmişə sənin buna necə münasibət bəsləyəcəyinin bəyənib-bəyənməyəcəyini düşünmüşəm! Mənə inanırsan?

– Yox!

– Əlbəttə, indi inanmamaq daha çox sərf edir sənə, bir də ki...

– Nə bir də ki?

– Mənim indi dediklərimin hamısı gülməlidi. Çoxdan unudulub gedib, məndən başqa da heç kimə lazım olmayan bir əhvalatdı.

İndi, bütün dəstəklərin, düymələrin basılıb, odluğun alovunun həqiqətin son parçalarını bürüdüyü vaxt, o, ümidlə susur ki, xatirə buxarına bülənd olan mən onun göstərdiyi istiqamətə cumacağam. Əgər əsl insanamsa, namuslu vətəndaşamsa, belə hərəkət etməliyəm. Keçmiş dostum da, keçmiş sevgilim də məndən bunu gözləyirlər, özü də ümidlərini boşa çıxarsam, onlar möhkəm dilxor olacaqlar.

– Sənin indi mənə dediklərinin hamısı yalandır! – Lap sakit bir tərzdə deyirəm. – Özünü heç nədə günahkar saymırsan. Sənin özünçün də bu çoxdan unudulmuş əhvalatdır. Bu əhvalatı yalnız ona görə xatırlamısan ki, iş üçün lazımdı, – sonuncu iki kəlməni hecalayıram.

Aydın olur ki, qatar başqa istiqamət götürüb, stansiyada çaxnaşma əmələ gəlir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Düz deyil, – o öz halını gizlətməyə çalışır.

– Bəlkə məni indi də sevirsən? – Tübikdən bütün yalanı son damlasına qədər sıxıb çıxarmaqdan özümü saxlaya bilmirəm.

– Hə, sevirəm!

– Bu da yalandır!

– Bütün bu illər ərzində sevmişəm səni...

– Yalandır...

– Hər dəfə iyrənclikdən gözlərimi yumanda (ən yolverilməz son vasitələrə əl atılır) sənin haqqında düşünməyim məni xilas edirdi...

– Murdar yalandı!

Nəhayət, dediklərinin əsl mahiyyəti özünə də çatır. Amma qəribə də olsa, bu onu yalnız coşdurur. Onu saxlamaq mümkün deyil.

– Sənə dediklərim doğrudan da ikrahdoğurucu, həqiqətdir! Təsəvvür edə bilməzsən ki, sənə hər kəlməsi, adəti tumarı ilə xoşagəlməz olan bir adamla on il fiziki yaxınlıq nə deməkdir.

Bu mənimçün o qədər ağlasığmazdı ki, daha onu növbəti yalanda ittiham eləyə bilmirəm.

O, bir az sakitləşib, qəmli bir istehza ilə sözünə davam edir:

– Hissləri qorumaq üçün bu, hava-su kimi gərəkdir! Səninlə bağlı duyğularım nəinki unudulmayıb, əksinə dərinləşib, güclənir, addımbaaddım izləyir məni, əziyyət verirdi. Vahimə kimi, nəsə bir maniya kimi. Mən onu ata bilməzdim – çox şeyə dözməli olmuşdum, hər şey bir andaca mənasını itirdi, bir belə bütün qurbanlar... Belə də yaşaya bilmirdim artıq. Boğulurdum. Yalnız sən kömək edə bilərdin, bir udum hava kimi xilas eləyərdin məni. Yalnız sən! Sən!

Daha bu yerdə səbrim çatmır, bu dözülməz yalan axınının qabağını kəsməkçün dilimin ucunda zorla saxladığım çox şeylər deyirəm.

O, eşitdiklərindən sarsılsa da, özünü təmizə çıxarmağa cəhd edir – oğurluq anında tutulmayan oğru kimi.

– Sən nə bilərdin axı?

– Hər şeyi, hamısını...

– Qəribədir.

– Özünü əziyyətə salma. Bu gərəksiz yalan kimə lazımdır?

– Demək istəyirsən ki, sənə hər şey məlumdu... Bilirsən ki, mən... – tələsik, təntimiş, çaşmış halda söz axtarır... – Konkret faktlar?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç nə bilmək istəmirəm.

– Axı mənim barəmdə hardan bir şey öyrənə bilərdin ki?

Sözünə ara verib gözləyir ki, bəlkə məndən söz aldı, amma mən susuram. – Əgər belədirsə... Əgər iş buna qalırsa, mən doğrudan da bu illərdə özümü... – yenə lazımi sözü çətinliklə tapır, – qüsurlu aparmışam.

Özümü istehzadan saxlaya bilmirəm:

– Qüsurlu?!

Nəhayət, onun şübhələri tamam dağılır. Mən sözsüz ki, ona "bir udum hava" kimi lazım olduğum illər barədə onunla bağlı bəzi şeyləri bilirəm. Bunu başa düşüb, ağlamağa başlayır.

– Mən düzünü deyirəm. And içirəm. Mən səni gözləyirdim... O ki, qaldı necə yaşamağıma... Mənim başqa çıxış yolum yox idi. Yoxsa onu qovardılar. O heç yanda dil tapa bilmirdi, heç kimlə... Biz bir yerdən başqa yerə köçürdük.

– Onlar, o rəislər çox idilərmi?

– Xahiş edirəm lazım deyil... Bütün o murdarlığı yadıma salma. Amma mən səni sevirəm. İndən sonra da nə olursa olsun, onu bil ki, yalnız və yalnız səni sevmişəm!

– Ağlamaq lazım deyil...

– Mən məcbur idim... Sən ailənin nə demək olduğunu bilirsən... Birtəhər yaşamaq lazımdı, dolanmaq lazımdı... Pis-yaxşı, o mənim uşaqlarımın atasıdır... o axı, tamam aciz adamdır... Bax, sən belə hesab edirsən ki, mən bura gəlib, bütün bunları ona görə deyirəm ki, ona kömək etməyə səni razı salım. Bu, belədi: danmağın nə mənası?.. Amma bütün bu vaxtı səni sevməyim də həqiqətdir. Yoxsa belə çıxır ki, mənim həyatımda ümumiyyətlə, heç nə olmayıb! Belə ola bilməz axı! Əlbəttə, mən yalan deyirəm. Səni elə durub-oturub hər gecə xatırlamırdım... Vaxt olurdu ki, heç aylarla da yadıma düşmürdün... Ümumiyyətlə, heç nə barədə nə düşünür, nə də bir şey xatırlayırdım – o qədər qayğım vardı ki, uşaqlar, xəstəliklər, köçmələr, pul, imtahanlar, – ürək, sevgi qayğılarına vaxtmı qalırdı? Amma hərdən gözlənilmədən, ysrli-yersiz, canımda qəfil ağrılar qopurdu axı?! Gecəyarı səksəkəli oyanıb uşaq kimi ağlayırdım axı? Ya da harasa qonaq gedərkən. Bu olub axı?! Deməli, mən səni sevirəmmiş?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hıçqıra-hıçqıra, burnunu çəkə-çəkə, qara çəkilmiş gözlərini silərək cavab gözləyir, ona nə lazımdır? Yalnız bircə şey – mən inanım ki, o, doğrudan da məni sevirmiş.

– Ya da yox? Doğrudanmı heç nə olmayıb? Yoxsa mənə elə gəlib?.. Bilmirəm... Bəlkə də... Tamam dolaşdım... Amma sən bir şeydə çox şübhəsiz ki, haqlısan: bura gəlib, bütün bunları ona görə deyirəm ki, səni dilə tutum... Buna heç bir şübhə ola bilməz. Sevgi olubmu, ya yox, ümumiyyətlə, sevgi varmı, mən bilmirəm, zamin ola bilmərəm, heç hüququm da çatmır buna. Amma məni, uşaqlarımın ayda yüz manatlarının çox olmasının səndən asılılığı – bu dəqiqə şübhəsiz faktdı.

– Bəs elm, neft sənayesi, ölkə necə olsun? O axı deyirdi ki, dövlətin mənafeyinə görə can yandırır?

O, cavab verməyə imkan tapmır – qapını döyürdülər, – amma mən onsuz da bilirəm ki, Dost onun ailəsi üçün bu qədər vacib olan eksperimenti sübut eləməyə çalışarkən öz mənfəətini güdmədiyinə qəti əmindir.

– Qapını döyən odur...

Görünür, qapının necə döyülməsi ona yaxşı tanışdı. Bəlkə də onun gələcəyini bilirdi... Hər halda qapını açmağa da özü gedir. İndi hər şey tamam aydınlaşacaq...

Dost onu görəndə özünü elə itirir ki, mənim şübhələrim bir andaca dağılır: əlbəttə, mənim yanımda görüş – hər ikisi üçün gözlənilməzdir. Dost ona baxa-baxa həyəcanla mənə müraciət edir:

– Deməli belə... Atamdan xahiş etdim... O, şəhər Sovetindən dəqiq öyrəndi. Sən burdan bacardıqca tez çıxıb getməlisən. Burda heç bir park-zad olmayacaq. Bu, dəqiq məlumatdı. Atam özü şəhərin tikinti planına baxıb. Sənə nə təklif eləsələr, razı ol. Sonra, şəhərin ucqar rayonlarına köçürəcəklər... Əgər lazımdısa, o, bəzi adamlarla danışa bilər...

– Sağ ol, – bununla da bildirirəm ki, himayəçiliyə ehtiyacım yoxdu.

– O özü dedi. Onun sənə münasibətini bilirsən ki.

– Hə, bilirəm.

– Bax, belə, elə bu qədər... Bura səni xəbərdar etməkçün qaçıb gəlmişəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sağ ol...

Sonra nə olacaq? Əgər mənim yanımda görüşmələri onlarçün gözlənilməzdisə, yaranan vəziyyətdən necə çıxacaqlar?

– Fikrimə gəldi ki, sən burdasan. – Düşündüyüm kimi birinci arvadı başladı. – Qərara aldım ki, gəlim.

Ya yanımda yalan deməyə utanırdı, ya da buna ehtiyac olmadığındandı, qadınçün onun inanıb-inanmayacağı tamam əhəmiyyətsiz idi.

– Mən elə bir ucdan zəng vururam, sənsə yoxsan.

– Biz demək olar ki, bir vaxtda gəlmişik, mən səni cəmi bir neçə dəqiqə qabaqlamışam, – o, saymazyana deyir.

Hətta körpə uşaqları aldadanda belə bundan səylə aldadırlar. Amma o, eşitdiyinə elə şaddı ki, nədənsə, şübhələnməyə qəti həvəsizadı yoxdu. Arvadının sanki bəraət üçün dediyi bir neçə kəlmə söz onu lap sərməst edir – sevindiyindən coşub, fərəhli hisslərini mənimlə bölüşdürməkdən özünü saxlaya bilmir.

– *Adətən biz bir-birimizi xəbərdar edirik... – O içəri girərkən,* lap əvvəldə həyəcanlanmasının səbəbini mən düzgün başa düşüm deyə, izah edir.

– Di yaxşı... Biz getməliyik, – qız ərinin sözünü kobudcasına kəsir. – Mən gedim? – O demək olar ki, məndən icazə istəyir, özü də bu vaxt günahkarcasına gülümsəyir, elə bil bununla da ərinin, özünün və ümumiyyətlə, baş verən hər şeyin əvəzinə üzr istəyir.

Sonra ərinin qolundan tutur.

Biz xudahafizləşirik...

Amma qapının ağzında nəsə vacib bir şey demək ehtiyacı arvadına tabe olmaq adətinə üstün gəlir və o, cəld bir hərəkətlə dirsəyini azad edib mənə tərəf atılır. Qadın isə pərtliklə alt dodağını çeynəyə-çeynəyə qapının ağzında durub gözləyir.

– Bağışla... Çoxdan sənə demək istəyirdim... Biz sənə çox minnətdarıq... Sən hələ subaysan və ailə həyatının nə demək olduğunu bilmirsən, – nəsə bir az qəribə, tələsik bir yarıpıçıltıyla danışır, elə bil bildirmək istəyir ki, onların ümumi fikrini deməsinə baxmayaraq, mənim burda olmağım arvadını utandıra bilər, belə məhrəm şeylərdən ikilikdə, ayrıca danışmaq bir şeydir, hansısa üçüncü, demək olar ki, kənar adama bildirmələri isə tamam ayrı şeydir. – Sözün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düzü, sənin həyat tərzini çox da təqdir etmirik, necə deyərlər, ağlını başına yığmaq vaxtıdı! Amma sən əvvəl-axır evlənəcək və başa düşəcəksən ki, sadəcə arvadın yox, dost, yoldaş, həmfikir olacaq bir adamın varlığı necə vacibdir, elə bir adam ki, günbəgün sənə öz məhəbbətini və sədaqətini sübut edir...

Arvadı irəli gəlib, bərk-bərk o biri dirsəyindən yapışır, o sağ əlini ifadəli çıxsın deyə, burnumun önündə hərlədirdi.

– Hə, hə, getdik. İki kəlmə də... Xahiş edirəm, bu çox vacibdi! – O mənə bir az da yaxın gəlir. – Əlbəttə, mən sənin qarşında günahkaram. Amma sən də məni başa düşməlisən. Mən bircə qadını sevənəm, ona sadiq qalanam... Başqa cür bacarmıram. Xırdalana bilmirəm. Ya hər şey, ya heç nə, başa düşürsən?! Birdəfəlik hər gün ondan "səni sevirəm" sözlərini eşidəndən sonra, mənə başqa heç nə lazım deyil. Bu, ömrümün axırınacandır, başa düşürsən?! Birdəfəlik. O da belədir, inan... – Bu onun dirsəyindən yapışmış arvadının ünvanına deyilən sevgi etirafı kimi səslənir... – O, heyrətamiz adamdır. Bütövlükdə tayı-bərabəri yoxdur.

– Biz getməliyik! – Qadın elə sərt və amiranə deyir ki, o, səsini xırp kəsib arvadının dalınca qapıya doğru yönəlir.

Onları darvazaya qədər ötürürəm. Ədəblə o, qadının qoluna girib sakitcə addımlayır, elə bil ən yaxın dostlarına ailəvi baş çəkib qayıdırlar. İkinci mərtəbənin pəncərəsinə bircə dəfə də olsun, hətta ötəri belə baxmır. Elə bil bütün uşaqlığını burda keçirməmişdi! Hə, dön bax! Heç olmasa maraq xatirinə! Bəlkə dağılmış evin bombardmandan sonra olduğu kimi qaralmış pəncərələri hərəkətlərinin düzgünlüyünə qarşı səndə şübhələr oyada?!

Yox, dönmədi...

Onlar artıq yola çıxmışdılar ki, onları səsləyirəm. İkisi də eyni vaxtda, tələsik başlarını döndərdilər.

Sualı qəsdən quru bir tərzdə verirəm. Qoy elə düşünməsinlər ki, məni rəhmə gətiriblər. Amma bir də ki, elmin, neft sənayesinin, bütövlükdə ölkə naminə canıyananlıq eləmək tək ona qalmayıb ki!

– Sən əminsən ki, neft artımı kifayət qədər yüksək olacaq?

– Ən azı iyirmi faiz, – tərəddüd etmədən o saat cavab verir. Nəyi də olmasa, yəqinlik hissi onda güclüdü!

– Di yaxşı, – deyirəm, – idarədə deyə bilərsən ki, razıyam. Mən indi gecə işləyirəm, rəislikdən kimisə çətin ki, görəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O yenə mənə tərəf atılmaq istəyir, amma arvadı onu möhkəm tutub.

– Əhsən. – O uzaqdan qışqırır. – Mən bunu bilirdim, buna şübhə eləmirdim. Vika təsdiq edə bilər, – onun sifətinə nəzər salır. – Hə, nə deyirdim sənə?! Vika narahat idi. Mənsə yox... Mən bilirdim ki, səni inandıracağam.

Həyətə girib, darvazanı arxamca bağlayıram... Əsnədiyimdən əlimi ağzıma tuturam. Nə qədər yatmışam görən? Saat on ikiyə yaxındı artıq, demək olar ki, beş saat alınır. Olsun, kifayətdir...

Qaçışa başlamazdan əvvəl həyətdəki stolun üstünə süfrə salıram. Hər ehtimala qarşı. Birdən gəlib çıxdı...

Cəmi bir neçə on kilometrdən sonra məni tər basır. İkinci dövrənin axırında dərimdən tərlə birlikdə gecə əyyaşlığının zəhərinin də çıxdığını hiss edirəm, məni bürüyən üzgünlük çəkilib gedir, həmişəlik yüngüllük və sərbəstlik vəziyyətini alıram – qaçış xoş bir məmnunluq gətirir, adama elə gəlir ki, nə qədər istəsən qaça bilərsən...

Daşkəsən disklərin qeyzli ciyiltisi altında (bu gün onlar nədənsə lap "azğınlaşıblar") altı dövrə vururam, yavaşıyıb yeyin, isti yerişə keçirəm. Nəfəs almaq, dincəlmək məşqlərinə görə darvazanın ağzında bir qədər yubanıb, axır ki, həyətə girirəm. Üçlüyün birini – uzunsaç oğlanı görürəm, stol arxasında rahatca oturub və elə o saat da peysərimə nəsə yandırıcı bir şey tökülür. Elə bil qaynar su ilə pörtdülər məni. Ayaqlarım qatlanır, dizlərim yerə dəyir, ətrafda hər şey bir andaca qaralır, uzunsaç stolla birlikdə yoxa çıxır. Sonra o, qəribə bir vəziyyətdə – baş-ayaq halda yanımda peyda olur. Əyilməyə zorla imkan tapıram, yarımboğazın kələ-kötür altlığı qulağımı cızıb, kürəyimin arxasına enir, indi o mənim çiyinlərimdədir. Arxada nə baş verir, bilmirəm, amma kimsə ikinci zərbəylə peysərimi yandırır və hər şey birdən yenə qaranlığa qərq olur. Bu qaranlığı yaran qısa işıqlanmalar vaxtı gözümün qabağında görünən hər şeyə zərbələr endirirəm.

Özümə gələndə, həyətdə heç kim yoxdur. Küt, gizildəyən ağrı alnıma vurur və ən kiçicik hərəkətdən belə gözlərimə qaranlıq çökür. Qabırğalarımdakı dəhşətli ağrıdan nəfəs ala bilmirəm.

İnildəyə-inildəyə özümü krana çatdırıram və başımı soyuq suyun altına soxuram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların hamısına məndən nə lazımdı? Onlar nə istəyirlər? Nəyə nail olmağa çalışırlar? Ağrıdan çatlayan başımda dolaşan elə bircə bu sualdır.

Nəfəs ala bilmirəm. Qəddimi düzəltmək istəyirəm. Başımı kranın altından çıxarmağa cəhd göstərirəm. Amma başımdan közərmiş kimi od çıxır. Ağrı dözülməzdir. Başımın ortasını yenə suyun altına verirəm... Onlar məndən nə istəyirlər? Onlara nə lazımdı?

İndi böyrümdəki ağrılar güclənir, qabırğalarımı adlayıb yuxarı qalxır, kürəklərimə, peysərimə sürünür... Çevrə qapanır... Hamısı elə bil bir ağrıda birləşir – qabırğamdan başımadək, suyun da köməyi yoxdur.

Birtəhər stola yetirirəm özümü. Qarnı üstə uzanıram. Yanağımla süfrənin kraxmal codluğunu duyuram. Gözlərim sataşan ağlıq qara nəm ləkələrlə örtülür. Damcılardan...

Görən indi neyləyim? Onları hardan tapasan? Tutaq ki, tapdım... Öldürməyəcəyəm ki?! Bu isə heç qanrılmadı da. Elə bil heç burda yaşamamışdı vərəm çöplərindən ölmürdü burda. Bax burda, bu yerdəcə oturardu... Hər şeyi unudub... Hər şeyi... Yadda saxlamağın nə faydası? Bundan da ağır işlər olur axı!..

Hə, durmaq vaxtıdı. Ömrümün axırınadək belə uzanıb qalmayacağam ki. Baxmaq lazımdı görək, sifətim nə haldadı...

Anamın bədənnüma aynası uzaqdadı, o otaqdadı, ora çata bilmərəm. Pilləkənin altındakı balaca güzgüdə sifətim hissə-hissə görünür. Deyəsən hər şey salamatdı, toxunanda da ağrımır. Deməli, sifətimə vurmayıblar. Ya da vura bilməyiblər. Bu, yaxşıdı. Qalan hər şey mənim şəxsi işimdi, ağrı da, inciklik də, yaddaş da... Sifət məsələsi isə çətindi. Bu sifətə artıq iddiası olan var. İzah etmək, özümü təmizə çıxarmaq, uydurmaq lazım gələcək. Ya da durub gözləməliyəm evdə. Belə bir imkan isə indi yoxdur. Axşam növbədir. Əgər çıxmasam, düşünəcəklər əkilib. Uşaqları onsuz da başa salmaq çətin olacaq. İndi isə belə çıxardı ki, onları bada vermişəm və aradan çıxmışam...

Bəs bunlar niyə belə quduzlaşıblar? Hardandı belə acıq? Doğrudanmı yalnız ona görə ki, qızın xoşuna gəlmişəm? Onlar bunu hardan bilirlər? Kimdi onlar axı? Tələbəyə oxşamırlar. Hərçənd indi onları ayırd eləmək çətindi. Hamısı bir-birlərini tanıyırlar. İşləyənlər də, oğrular da, tələbələr də... Hamısı bir bezin qırağıdır elə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız niyə gəlmədi? Söz vermişdi axı. Özü də necə söz vermişdi! Deməli, ona nəsə mane olub. Beləsi adam aldadana oxşamır. Aldatmamalıdı, heç nədən olmasa da, bu işlərdən başımız çıxır. Özü gəldi, özü söz verdi.

Həyəti sahmana salmaq lazımdı. Süfrə dəyişilməlidi. Yaxşı ki, heç olmasa hantelləri işə salmadılar. Başımı yarardılar.

Peysərimdəki şiş yaman böyükdü. Nəylə vurublar görən? Yəqin özləriylə bir şey gətiriblərmiş. Toxmaqdan-zaddan... Məsələn, həvəngdəstənin dişçiyi. Çox münasib alətdi... Hə, indi oturmaq da olar. Təbiət döyüşdən sonra qaydaya salınıb. Səliqəli uşaqlardır, demək olar ki, heç nə sındırmayıblar. Maraqlıdı, mən bir şey sındıra bilmişəmmi? Heç olmasa üçündən birinin burnunu? Pis olmazdı... Nəyə görə axı belə azğınlaşıblarmış?! Yəqin ki, səbəbi var... Əgər varsa, onda bircə dənədi...

Nə eybi, oturub gözləyərik, bu gün hər şey aydınlaşmalıdır.

...Qız günün ikinci yarısında axşamüstü, havanın həlim, xoş vaxtında gəlir. Yaxşı ki, bir az nəfəsimi dərməyə imkan verib. Əlində iri qəzet bağlaması var.

*Onun mənimlə "sən" deyə danışması xoşuma gəlir*, ümumiyyətlə, qızın hər şeyi xoşuma gəlir – oğlana oxşar sifəti də, cizgiləri ağarmış cins geydiyi əzələli baldırları da, qısa bluzkasının yumşaq parçasına sərbəstcə sürtünən sinəsi də, hərəkət eləyən vaxtı cinsi ilə bluzkası arasında açılan bədəninin çılpaq bir zolağı da... Onun mənimçün hədiyyə gətirməsi də xoşuma gəlir.

Qız bağlamanı açarkən onu nəzərdən keçirməkdə davam edirəm. Nəsə sezilməz bir şey onu Vikaya oxşadır. Onlar zahirən bir-birlərinə qətiyyən oxşamırlar, davranışları da fərqlidi... Nəsə daha dərin və gizli, yalnız mənim yaxşı duyduğum şeydi bu. Təəccüblənirəm: artıq çoxdan aydındı ki, əslində bütün həyatım boyu yalnız və yalnız bircə qadınla münasibətdəyəm. Yaş, zahiri görünüş xarakteri, xasiyyəti dəyişir, amma hər dəfə bu elə həmin adamdır...

– Xoşun gəlir? – Qız iri, uzun tüklü qoyun dərisini açır.

– Gəlir də sözdür?! – Onun çiyinlərini qucaqlayıram. – Çox sağ ol...

Əgər özünü çəkməyə cəhd eləsə, ya mənim hərəkətimin onu təəccübləndirdiyini anlatsa; deməli, mən səhv eləmişəm, – bu, – o qız deyil. Amma o, mehribanlıqla mənə altdan-yuxarı baxır və burnunu çiynimə dayayır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dünən yox, o biri gün heç cür alınmadı... Nə qədər çalışdımsa.
– Bilirəm...
Baxışlarını qaldırıb, başını yelləyir.
– Səni restoranda gördüm.
– Bilirəm...
– Sonra o maşında idim.
– Bilirəm.
– *Onlar bura gəlmişdilər?*
– Hə.
– Mən elə qorxuram ki...
– Onlar kimdilər axı?..
– Mən sənə hər şeyi danışaram... Amma birdən-birə yox, yaxşımı?
– Yaxşı.
– Mən boşanmışam, amma o əl çəkmir... – Həyəti gözdən keçirir. – Evin mənim çox xoşuma gəlir. Sən burda tək yaşayırsan?
– Hə.
– Tamam tək?
– Hə.
– Sənin heç kimin də yoxdur?
Gülümsünürəm:
– Niyə? Dostlarım var.
Həyət də, mənim sözlərim də onu vəcdə gətirir.
– Bircə səs-küyü çoxdu. Bu, karxanaya görədi?
– Hə.
Qız dilxor olur. Səs-küy doğrudan da zəhlətökəndi, dözülməzdi.
– Əvvəlcə heç fikir vermədim...
Sinəmə sıxıram onu. Alnından öpürəm. Gözlərimi yumub, qulağına pıçıldayıram:
– Onu bağlayacaqlar... Su ilə dolduracaqlar. Ətrafında isə park olacaq. Restoran da olacaq, gəzinti üçün qayıq da olacaq...
Qız da gözlərini yumur. Mehribanlıqla belimi qucaqlayır. Balaca, isti döşü qoltuğumun altına söykənir. Mənim sözlərimə uyğun yırğalanırıq. Eyni mənzərəni ikimiz də təsəvvür edirik: ağ qayıqlar üzən göl, sahildə taxta restoran və park... Bu, dörd bir tərəfə, üfüqlərə qədər, lap dünyanın o başına qədər uzanan qəşəng, allı-güllü, yamyaşıl bir parkdır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ANIN HÖKMÜ

Yenə yuxuma girdi ki, hardasa tünlük bir yerdə – teatrdamı, ya ayrı bir təntənəli bir gecədəmi – şalvarsız qalmışam və hamı da təəccüblə gözlərini zilləyib mənə. Qadınların baxmağı məni daha çox utandırırdı. Hələ üstəlik hirsləndirirdi də. Nə fərqi var, sənə kim baxıb gülür, qadın ya kişi? Vəziyyət ki, dəyişmir!

Lüt qıçlarımı nəsə həm adi – ağ süfrəsi döşəməyə düşən bir stolun, həm də nəsə mərmər plitəyə oxşayan bir şeyin arxasında gizlədərək, bu axmaq vəziyyətə artıq neçənci dəfə düşdüyümü fikrimə gətirmək istəyirəm. Məəttəl qalası da burasıdır ki, yad nəzərlər altında sıxılsam da, başıma gələnlərin hamısının yuxu olduğunu aydınca bilirəm... Bax, elə bu da məni sakitləşdirdi; necə oldusa gördüm ki, şalvar yenə də əynimdədir və ətrafdakıların da məzəmmətli, lağlağı baxışı məndən yayındı...

Ayılıb, əlimi nagüman döşəmədə gəzdirdim, taxtın qıçının yanında qol saatımı əl havasına tapdım (qədimi, göy mərmərdən olan zəngli saat stolun üstündə yanpörtü durduğundan rəqəmləri seçmək olmurdu). Saatın dalınca əyilərkən yorğan üstümdən sürüşdü və onda bildim ki, elə şalvardaca yatmışammış. Qalan hər şey – köynək, qolsuz can köynəyi, corablar, çəkmələr – döşəməyə səpələnmişdi. Şalvar isə, dediyim kimi, nədənsə əynimdə idi.

Üz-gözümü turşudub, əsəbi sıçrayışla yerimdən durdum, qolu stolun altından adam əli kimi çıxan gitaranın üstündən adlayıb pəncərəni açdım, əl-qolumu bir neçə dəfə qaldırıb-endirməklə guya səhər idmanı elədim. Cəld geyindim.

Kirli yataq ağları divar şkafına yığılmışdı; təmizlənmək üçün ayrılmış paltar – iki dəst kostyum və evdə geydiyim vilvet şalvar ordaca, asılqanda idi. Köynəklər də vanna otağında, minalanmış ləyənin içində, əluzyuyanın altında.

Dama-dama parçadan olan yumşaqüzlü çamadan ağzınadək doldu. Pencəklərdən biri sığışmadı, onu çiynimə atası oldum. Gedə-gedə dəhlizdəki güzgünün tozunu silib, həyətə düşdüm.

Mühərrik tez işə düşdü – yaz-yay mövsümünün ayrı üstünlüklərindən biri də buydu və bu üstünlük ona görə qiymətliydi ki, Moskvada yaşadığım on dörd il ərzində soyuğa heç cür öyrəşə bilməmişdim ki, bilməmişdim!

Camaşırxanaya gecikdim – nahar fasiləsi başlandı. Bu niyə belə oldu, nə bilim – amma bir dəfə də harasa gecikmişdim, çatdıra bilmədim, qismətim əlimdən çıxdı və elə o vaxtdan da elə bil kiminsə sahmanladığı, nizamladığı həyat ritmim pozuldu. Hər şeydə nəsə qəribə bir uyğunsuzluq var, gah tələsirsən, gah gecikirsən. Xülasə... Mən də cəmi bir neçə saniyə gecikmişdim – əynində beli tarım çəkilmiş qara sətin xalat olan qız, məndən bircə an əvvəl imkan tapıb içəri dürtülən ətli-canlı xalanı buraxıb qapını düz burnumun ucunda çırpdı.

Gözlənilmədən ortaya çıxan bu asudə saatı nəyəsə sərf eləmək zərurəti doğdu. Yemək istəmirdim, amma bu da bir iş idi. Gec-tez bu işi də görməliydim, restorandan qocalar üçün dadlı bir şey götürmək olardı: iç-içə yığdığım qablar həmişə olduğu kimi böyrümdə, qabaq oturacaqda idi.

"Bakı"nın girişində yenə də tünlük idi; gözəl təmirdən sonra Qorki küçəsinə "qayıdan" restoran əvvəlki şöhrətini də özüylə qaytarmışdı.

Özümü qapıya yetirib uzunsov, tünd-sarı lövhəciyə baxdım. Orda yazılmışdı ki, bu gün (məhz bu gün, bura baş çəkməyi qərara aldığım şənbə günü!) restoran həmişəki kimi saat on ikidən yox, saat ikidən işə başlayır...

Deməli hələ bir saat qalırdı (gözlənilmədən ortaya çıxan həmin o bir saat); bu bir saatı maşında oturmaq daha əlverişli olardı, özü də burda, restoranın yanında yox, camaşırxananın yanında ki, o qara xalatlı qız qapını heç olmasa bir neçə dəqiqəliyə açsa, ağları təhvil verə bilim...

Qablar sanki şikayətli bir səslə cingildədi, onları qabaq oturacağa, əvvəlki yerlərinə qoydum. Dallarınca da hələ də çiynimdən asılan pencəyi atacaqdım ki, öz adımı eşitdim: zil, sevinc dolu səslə dalbadal elə qışqırdılar ki, kiməsə çox lazım olduğumu o saat başa düşdüm. Göldə ya çayda məni belə haraylasaydılar, qəti təəccüblənməzdim – qarnına su dolub, dibə gedən vaxt tanış adamı görəndə, belə bağırarsan. Amma burda, Moskvanın mərkəzində, günün günortaçağı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu cür bağırtıdan xoş bir şey gözləmək olmazdı. Məni çaş-baş salan bir də buydu ki, məni həmişəki kimi Moskva variantında – Edik yox, keçmiş, artıq unutduğum, atalı-analı adımla çağırdılar:

– Hatəm!.. Hatəm!..

Aliki o saat tanıdım. Uşaqlıq dostumun elə əvvəlki quş çəkisində qupquru taqqanaq olan bədəni taxta kimi sinəmə dəydi.

– Səninkidir? – Nəhayət ki, bir-birimizi bərk-bərk qucaqlayan qollarımız boşaldı.

Əlbəttə, Alik cavabıma şübhə eləmirdi və bunu yalnız ona görə soruşdu ki, mənimçün xoş olsun: mənim həmyerlilərimçün həyatda qazanılan cürbəcür qələbələrin içində ən başlıcası maşın almaqdır, maşının yolunda canlarını qoyurlar; indi on səkkiz il dövlətin yük maşınını sürən Alikdən ayrı nə gözləyəsən?

– Hə, mənimdi.

– Əhsən! – Uşaqlıq dostumun sevinc dolu səsində nəsə kədərli bir tənə də duyulurdu: necə ola bilər ki, həyatımda baş verən bu mühüm hadisədən dostların xəbəri yoxdur?!

Əlbəttə, özümə bəraət qazandırmaq üçün bir şey uydurmaq olardı, amma dərinə getmək istəmirdim. Bu söhbəti burdaca qurtarmağa hələ ümid vardı.

– Necədi yaşayışın? Uşaqlar necədi?

– Sağ ol. Hər şey yaxşıdı. Tez-tez səni yada salırıq. – Alikin bu sözlərində də yumşaq, sıxıntılı, amma inadlı bir məzəmmət duyulurdu; əgər dünyanın ən kövrək, xeyirxah adamı olan Alik bunu o saat bildirirsə, deməli məndən möhkəm incimişdilər!

– Çoxdan Moskvadasan? – Ona işarə vurdum ki, məzəmmətini qəbul edirəm, amma ayrı bir şeydən danışsaq, daha yaxşı olar.

– Bu gün gəlmişəm.

– Hara düşmüsən? Harda qalacaqsan?

Ehtiyatsızlıq elədim, amma bu sualı verməmək də olmazdı.

– Hələlik heç yanda!

– Şeylərin hanı?

Alik duruxdu, küləkdən codlaşmış, göyümtül, qarabuğdayı sifəti daha da qaraldı.

– Yüklə gəlmişəm. Öz maşınımla. Şeylər maşındadı. – O, nəyisə etiraf eləməyə çətinlik çəkirdi, amma görünür özünü saxlayammırdı.

– Maşın hanı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Saxlayıblar.

– "DAM"?

– Hə.

– Bəs burda neynirsən?

Sifəti daha da qaraldı. Əlbəttə ki, bura nahar eləməyə gəlməyib! Bütün ölkədən keçirib gətirdiyi yükü sürücülük vəsiqəsiylə birlikdə əlindən alınan adamın yadına yeməkmi düşər?!

– Hara gedəsiydim ki?! Kimi tanıyıram Moskvada? Bura gəldim ki, bəlkə həmyerlilərimdən birinə rast gələrəm... – Nəhayət, qayğı, kədər utancaqlığı üstələdi. Alik başını təəssüflə bulayıb, restoranın qapısı ağzına yığışan adamları göstərdi. – Burda isə yalnız xaricilərdi...

Moskvada heç kimi tanımadığını Alik qəsdən, mənim xətrimə dəymək üçün demədi, mənli də, mənsiz də qanı qara idi.

– Necə yəni hara gedəydim? – Təəccübüm səmimi idi. – Bəs mən nəyəm bu şəhərdə? Harda saxladılar səni?

– Qızıl meydanın aşağısında.

– Harda?!

– Qızıl meydanda, – Alik təkrar etdi. – Ordan bir az aşağıda, rəngbərəng günbəzləri olan kilsənin yanında.

– Ora necə gedib çıxmısan axı?!

– Çar-topa baxmaq istəyirdim... Yadındamı, məktəbdə keçmişdik.

– Hə, sonra!

– Maşını orda qoyub, Kremlə baxmağa getdim. Çıxanda gördüm ki, artıq leytenant məni gözləyir.

– Yükün nədi?

– Pomidor.

– Sənədlər qaydasındadırmı?

– Əlbəttə.

– Getdik...

Gümüşü yumşaq saçı hələ tökülməmiş cavan leytenant dediyindən dönmək istəmirdi:

– Niyə maşın Bədən tərbiyəsi və idman komitəsinə məxsus ola-ola pomidor daşıyır? Yol vərəqəsində hansı yük göstərilib? – Gərək bu yerdə inamlı, təmkinli olasan...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Pomidor.

– Marşrut necədir?

– Səngəçevir, Azərbaycan SSR-Rostov-Moskva.

– Daha sizə nə lazımdı? Hər şey yazıldığı kimidi, yük də, marşrut da.

– Niyə maşın icazə verilməyən yerdə dayanıb?

– Bu başqa məsələ, – rəqibə azacıq güzəştə gedəndə, yumşalır, – burda siz tamam haqlısınız. – Nəzakətli və azacıq təkəbbürlü, istehzalı təbəssüm isə işləri korlaya bilər, sənə şübhə oyadar. – Bax bu, başqa məsələdi. Biz birincini qurtarmalıyıq. Deməli, yoldaşın sənədləri tam qaydasındadır. – Yol vərəqəsi, faktura və sair?

– Deyəsən elədir... – leytenant artıq neçənci dəfəydi ki, qatlaq yerləri pozulmuş kağızlara baxdı və dodaqaltı mızıldandı.

– Maşının İdman komitəsinə məxsus olması isə qoy sizi narahat etməsin. Səngəçevirdə "qrebnaya baza" var.

– Axı o "qribı" daşımır.

– "Qribnaya" yox, "Qrebnaya baza". "Qrebla" sözündəndi. Yayın əvvəlində başqa təşkilatların maşınları kimi bu bazanın da maşınları tərəvəz daşınması üçün səfərbərliyə alınır. Bu yoldaş Moskvaya ona görə gəlib ki, sizin ailəniz iyun ayında təzə pomidor yesin. Bəlkə bu sizin xoşunuza gəlmir? Olmaya təzə pomidorun əleyhinəsiniz?

Leytenant gözünü kağızlardan ayırıb, hələ də çiynimdən asılan pencəyin yaxalığına baxdı.

– Bu nə medaldı belə? – O, ərkyana soruşdu və bununla da bildirdi ki, söhbətin rəsmi hissəsi sona yetməkdədir.

– Nə medal? – Yalnız indi pencəyin yaxasına taxılmış medalı gördüm. – Gör bir ey... çıxarmağı unutmuşdum... – Pencəyi medalı çıxarmadan təmizlənməyə verəcəyimi düşünəndə məni tər basdı.

– Bağışlayın. – Leytenant əlini uzatdı və iki barmağıyla qızıl suyuna salınmış dəyirmi medalı çevirdi, dodaqları tərpəndi. – "Государственная премия СССР". Sonuncu dörd hərfi o, ucadan dedi və qeyri-ixtiyari özünü dartdı.

– Cərimə eləyəcəyik, ya deşik açacağıq? – O, dostcasına Alikə müraciət elədi.

Cərimıyə razılaşdılar, leytenant uzun-uzun qəbz yazdı, Alik isə əbəs yerə barışığa cəhd edirdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ən ağlabatanı onu mehmanxanaya, ya da kolxozçular evinə düzəltmək idi. Yol yoldaşlarının yanına. Yəqin ki, Moskvaya yüklə tək gəlməmişdi.

– Hə, indi isə gedirik mənim evimə! – Qətiyyətlə dedim. Təklifim onu qaytarılmış vəsiqədən də çox sevindirdi, hətta üz-gözü o dəqiqə işıqlandı da.

– Yaxşı düşməz a?!

– Nə boş-boş danışırsan?! Niyə yaxşı düşmür?! – Məzəmmətlə başımı buladım.

– Mən məmnuniyyətlə... Sağ ol... Amma yükü yerinə çatdırmaq lazımdı axı. Uşaqlar narahat olacaqlar.

– Neçə nəfərsiniz?

– Dörd.

Onun dostları yəqin ki, mehmanxanaya düzəlmişdilər və belə baxanda Alikə onlarla bir qalmaq pis olmazdı.

– Yadında saxla, mənimlə qalacaqsan. – Danışıq tərzim bütün etirazları alt-üst edirdi.

– Nə danışırsan, nə danışırsan?! – O, qorxmuş halda əllərini yellədi.

– Danışıqsız! Bir bu çatışmırdı elə! İri mənzildi, bomboşdu, sənsə mehmanxanalara ayaq döyəcəksən?!

İkiylə oxuyan və məktəb əvəzinə qəfildən sirk tamaşasına aparılan şagird kimi onun sifəti güldü... Amma axşam neyləyəcəyəm?! Qəribə çıxacaq, onu özümlə aparsam, çox qəribə çıxacaq, heç cür izah ediləsi iş olmayacaq...

Mən paltarımı dəyişənəcən, o, açıq-mavi rəngli "Volqa"dan, milisionerlə söhbətdən, mənzilin böyüklüyündən, qara palıd çəkilmiş divarlardan, saysız-hesabsız kitablar olan şkaflardan başını itirə-itirə gələcək planlarından danışırdı:

– Daha təxirə salmaq olmaz. Bir də ki, artıq qırxı haqlamısan. Yaxşı deyil axı... Hamı ev-eşik olub, oğul-uşaq yiyəsidir...

– Qız xoşuna gəlirmi?

Belə çıxırdı ki, Alik bu barədə ilk dəfəydi ki, fikirləşir.

– Yaxşı qızdı. İyirmi beş yaşı var, ali təhsillidi. Bizdə, Sarayda işləyir. Səninki hanı bəs?

– İstirahət eləməyə gediblər.

– Sənsiz?

– Onlar burda, yaxındadırlar. Bağdadırlar.

– Böyüyünün neçə yaşı var? Doqquz?

– Səkkiz.

– Kiçiyinin?

– Altı.

– Tezliklə məktəbə gedəcək. Əhsən sənə. Yəqin artıq professorsan?

– Elmlər doktoruyam.

– Mənə demişdilər... Bizdə bunu hamı bilir... Uşaqların da güzəranı yaxşıdır, amma sən... – Alik tərifləməyə bir söz tapa bilmədi. – Mükafatı çoxdan almısan?!

– İki ildi. Qapalı mövzuydu, ona görə də qəzetlərdə yazmamışdılar.

– Sənin başın həmişə əla işləyirdi. – "Qapalı mövzu"nun nə demək olduğunu anlamayan Alik təəssüflə köksünü ötürdü, amma təkrar soruşmağa utandı.

– Nədi?

– Heç, heç nə... Deyirəm münasib deyil... Bəlkə, səninlə getməyim, hə?.. Bir yer tapıb gəzərəm, sən qurtarınca.

– Yenə başlayırsan? – Əgər Ninayla bir az gec görüşəsi olsaydım, Aliklə nahar eləməyə vaxtım çatardı və onunla bu günlüyə ayrılardım, amma onunla o saat, evə girəndən cəmi bir neçə dəqiqə sonra ayrılmaq olardımı? – O qadın mənim yaxın dostumdu və hər şeyi başa düşər. Bura Moskvadır, əzizim. Burda adamlar daha sadə, daha ürəyiaçıqdırlar, bizim şərqlilərdəki hiyləgərlik və mürəkkəblik bunlarda yoxdur...

– Qorxmursan ki, arvadın bilər?

– Nəyi?

– Sizin... dostluğunuzu?

– Burda nə pis şey var ki? Bir vaxtlar vurulmuşdum ona... Çoxdan, evlənməmişdən əvvəl... O da məni çox sevirdi... Sonra başqasına ərə getdi, mən də evləndim... İndi dostluq edirik... Sən çəkinib eləmə. Oturarıq birlikdə, nahar eləyərik, söhbətləşərik. O, bizə mane olmayacaq. Moskvalıların necə yaşadığını görməlisən, ya yox?..

Hələ imkan tapıb əczaxanaya Əzizçün dərman dalınca da getmək və qocanın yanında heç olmasa on dəqiqə oturmaq lazım idi. Nina



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə görüşə bir saatdan da az qalmışdı, amma küçələrdə maşın həmişəkindən az idi və hər şey qaydasında olsa, hamısını çatdırardım...

– Soldan QİYŞ-in binasıdı. Qarşılıqlı İqtisadi Yardım Şurası, soldan bir az o yanda isə RSFSR Nazirlər Sovetinin təzə binasıdı.

Alik səylə başını ora-bura döndərir, maşının pəncərəsindən görünüb yox olan hər şeyə baxmağa çalışırdı.

– Bir yer var, ora baş çəkməliyəm. Vacib söhbətdi. Onca dəqiqəliyə. Maşında gözləyə bilərsən?

– Əlbəttə.

– Bəs uşaqlar necədirlər? Niyə heç nə danışmırsan?

– Oqtay qayıdıb.

– Axır ki, qayıtdı! Nelya ilə?

– Hə.

– Harda yaşayırlar?

– Atasıgildə.

– Hər şey əvvəlki kimidimi?

– Hə... amma tez-tez dalaşırlar.

– Aydındı... Maşını burda qoyuram.

Əczaxana tinin arxasında qaldı; ordan həyətlərdən keçib Əzizin evinə getmək olurdu. Əlbəttə, düz əczaxananın qapısı ağzında saxlamaq daha münasib idi, amma istəmirdim ki, Alik Əzizin xəstəliyi barəda, altmış il paytaxtda yaşayandan sonra vətəndə basdırılmaq həvəsinə düşməsi barədə bilsin. Bir-birləriylə tanış olmasalar da, Əzizin həyat tarixçəsi Aliki dilxor edə bilərdi, ən başlıcası isə, ağlına mənim özüm və Moskva həyatı barədə ona təlqin etmək istədiklərimin tam əksi olan kədərli şeylər gətirə bilərdi...

Növbədə cəmi üç adam dayanmışdı, dərmanlar hazır idi və artıq bir neçə dəqiqədən sonra Əziz üz-gözünü turşudaraq, nıqqıldaya-nıqqıldaya boz-bulanıq dərmandan bir qaşıq içdi.

Çarpayının qarşısındakı alçaq stulda ağzı açılmış mürəbbə bankası və iki limon vardı: görünür, bu gün qocanı kimsə yoluxmuşdu.

– İşdən gəlmişdilər. – Əziz gülümsəməyə çalışaraq, astadan, dodaqlarını zorla tərpədərək dedi. Sifətinin əzaları sözə baxmırdı, qırışıq, sarı dəri bir neçə dəfə dartıldı, çürüyüb qaralmış uzun dişləri bir anlığa göründü.

Limonların altında "Qafqaz" kababxanasına məxsus olan əmrdən çıxarış vardı – "Uzun müddətli yaxşı işinə görə kababxananın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qarderobçusu İslamov Əziz Ağayeviçə bir aylıq əmək haqqı həcmində mükafat verilir".

– Özünüzü necə hiss edirsiniz?

Əziz yenə də gülümsəmək istədi.

Həkim nə vaxt gələcək?

– Saat dörddə.

– Bəs axşam nə dedi?

– Elə həmişə dediyini.

– Amma siz çox yaxşı görünürsünüz... – Bir neçə gün əvvəl qocanın girdə, dolu sifəti yapnxmış, havası buraxılmış top kimi yumşalmışdı; gözlərinin altındakı çuxurlar dərinləşmişdi. – Yemisiniz bir şey?

Xışıltı eşidildi, əlindəki boşqabda açıq-sarı rəngli nəsə bir şey çalan qonşu qadın otağa boylandı:

– Heç nə yeməyib.

– Niyə onu yedirtməmisiniz?

– Üç dəfə gəldim, xahiş etdim, dilə tutdum, qulaq asmır. Uşaq kimidi... Odur, hamısı stolun üstündədir. Bəlkə siz bacardınız onunla?..

Əziz hər qurtuma ağırlıq qaldırmağa hazırlaşan adam kimi hazırlaşırdı: bədəni gərilir, batmış gicgahlarında güclə seçilən soyuq tər damcıları əmələ gəlirdi.

Otuz dəqiqədən sonra "Frunzenski" metrosunun yanında olmalıydım; Nina heç vaxt gecikmirdi və heç olmasa bu gün ora vaxtında çatmalıydım. Axı onu da ac qoymaq olmazdı!

"Revolyusiya" meydanından "Komsomolski" prospektinə qədər dörd dəqiqəyə gedə bildik.

Daha üç dəqiqədən sonra yarım saatdan da çox gecikməklə görüş yerinə çatdıq.

Nina gülümsəyirdi, gözəgəlimli, zolaqlı dar kostyum onu metronun girişində vurnuxan geyimli-kecimli adamlardan o dəqiqə ayırırdı.

– Allaha çox şükür! Ağlıma artıq qara-qura fikirlər gəlirdi... Yanındakı kimdir? – O maşında Aliki gördü.

Alikin kim olduğunu o saat izah eləmək asan deyildi, onun bizimlə bütün axşamı birlikdə keçirəcəyini demək isə lap çətin idi. Ona görə də başqa şeydən başladım:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bağışla, son Allah. Bir yerə baş çəkmək lazım gəldi. – Həyat-ölüm məsələsi idi... Çiçək almağa da imkan tapmadım.

– Yarım saat da gecikdin!

– Yarım saat?!

Otuz iki dəqiqə gecikdiyimi bilirdim, amma elə təbii təəssüfləndim ki, Nina məni sakitləşdirməyə başladı.

– Maşındakı kimdir? – O təkrar soruşdu.

– Dəhşətdi! – Mən ümidsizliklə başımı buladım. – Bilmirəm nə edim?!

Aydın oldu ki, nəsə fövqəladə bir şey baş verib.

– Nə olub?

– Dəhşət! Çıxılmaz vəziyyətdi... İndicə uçub gəlib...

– Hardan?

– Bir sinifdə oxumuşuq.

– Nə olub axı?

– Xoşagəlməz şeylər olub...

– Sənin başına gəlib?

– Onun.

Nina bir az sakitləşdi.

– O çox yaxşı oğlandı, – fürsətdən istifadə edib, onu maşına tərəf apardım, – siçan kimi dincdi...

Nina dayandı.

– O, bütün axşamı bizimlə olacaq?

– Belə vəziyyətdə onu tək buraxa bilməzdim axı! O dinib-danışmayacaq. Boyun oluram. Ağzını açsa, qovuruq.

Nina nəhayət ki, hər şeyi başa düşdü.

– Qoy danışsın da. Amma elə istəyirdim ki, bu gün ikilikdə olaq.

– Bəs mən? – Daha ifadəli çıxmasıyçün ayaq saxladım.

Nina cəld soruşdu:

– Sevirsən məni?

– Çox.

– Əvvəlki kimi? – O dəqiqə də diqqətlə üzümün ifadəsinə baxdı.

– Əvvəlkindən də çox.

– Heç nə dəyişməyib ki?

– Heç nə.

– Bir damcı da?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Bir damcı da.

Nina mənim cavablarımdan razı qaldı və axşamı – maşından sıçrayıb ona uzadılan əli əyalətsayağı sıxan, tanımadığı Aliklə birlikdə keçirmək daha ona ağır gəlmirdi.

– Ələkbər, – Alik təmtəraqla özünü təqdim etdi; hündür, dolu bədənli Ninayla müqayisədə o, çox balaca görünürdü.

– Çalış mənim ailəm barədə danışma, – qabaq qapını Ninanın arxasınca örtüb, Alikə pıçıldadım. O, özünəməxsus bir sadəlövhlüklə soruşa bilərdi ki, böyük oğlum necə oxuyur, arvadımın valideynləri sağdırmı, ya da ailəmin sağlığına tost deyib, haqlı olaraq mənim subaylığıma əmin olan Ninanı heyrətləndirərdi.

Mərkəzdə yerləşən restoranlardan ən əlçatanı olan Kino evinin restoranına Batanovskinin yubileyi olduğuna görə bizi uzun müddət buraxmadılar...

Bütün zal boyu doğrudan da P şəkilli stol uzanırdı, iki qapıçı və qarderobçu qadından ibarət maneəni dəf edəndən sonra buna əmin olduq. Bütün restoranı bağlatdırmağa Batanovskinin tam ixtiyarı vardı: o məşhur kino artisti idi və Alik bizimlə olmasaydı, biz Nina ilə "uğursuzluqla" barışıb, bəxtimizi başqa yerdə sınayacaqdıq.

Onları aşağıda qoyub, üçüncü mərtəbəyə qalxdım və baş administratoru tapdım. Qarşıdakı banketə hazırlıqdan başı şişən administrator uzun müddət məni anlaya bilmədi.

– Hansı Əzizdən? – Mənə baxmadan hansı hesab vərəqlərinisə doldururdu.

– Kamançaçı Əzizdən.

– Nə? – Bir anlığa başını kağızlardan ayırıb, anlaşılmazlıqla eynəyinin üstündən mənə baxdı.

– Kamança. Bu da alətdir... Siz "Araqvi"də işləmisiniz? Çoxdan...

Administratora uz-gözündən əlli yaş vermək olardı və məlum deyil, necə ola bilərdi ki, o, müharibədən sonrakı illərdə "Araqvi"də Əzizlə birlikdə işləsin... Onda onun neçə yaşı olarmış görəsən? Yəqin restoranda lap uşaq yaşlarından işləməyə başlayıbmış. Ya da iş yoldaşlarının uğurları ilə öyünməyi sevən Əziz – onlardan biri hətta general olmuşdu – nəyisə dəyişik salmışdı...

– Adınız Volodyadırmı?

– Bəli.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– "Araqvi"də işləmisinizmi?

– İşləmişəm. Əziz... Musiqiçini deyirsiniz?

– Bəli.

– O hələ sağdır?

– Bərk xəstədir.

Yaşından xeyli cavan görünən Volodya gözlərini hesab kağızlarından çəkmədən mütəəssirliklə ah çəkdi.

– Sənə nə lazımdı ki?

– Bakıdan onun qohumu gəlib. Əziz çox xahiş elədi ki, bir stol düzəldəsiniz.

– Neçə nəfərsiniz?

– Üç.

– Məndə banketdi axı, – Volodya təəssüflə dedi, – yüz əlli nəfər... Batanovskinin yubileyidir.

– Bilirəm.

– Əmr olunub heç kim buraxılmasın, hətta kinematoqrafçılar belə. – Volodya əmri xatırlayıb, elə bil ağrıdan üz-gözünü turşutdu, amma yoldaşlıq duyğusu üstün gəldi. – Yaxşı... Qalxın... İndi aşağı zəng edərəm... Əzizə salam deyin...

Pəncərənin yanında bizimçün stol qoydular, sovet kinosunun seçilmiş nümayəndələrinin yığıldığı Batanovskinin banketinə dəxli olmayan yeganə adamlar biz idik.

Alik sevindiyindən özünü itirmişdi; o hamını adbaad tanıyır, rollarını sayır, hətta burda iştirak edənlərin çoxlarının həyatlarının bəzi məhrəm tərəflərini də bilirdi.

– Zotova! Zotova! – O coşqunluqla bizim diqqətimizi lazım olan tərəfə yönəldirdi. – "Qızğın sex"də çəkilib, Muxinin birinci arvadıdı, keçən il ayrılıblar...

Onun hərəkətləri əvvəlcə Ninanı güldürürdü, sonra Nina öz barəmizdə danışmaq istədi və Alikə sevincini cilovlamağı işarə eləmək lazım gəldi.

– Sənin sağlığına içmək istəyirəm, əzizim, – Nina mehriban, azacıq kədərli bir zəriflıklə dedi. – Cənkavərim mənim! Sənin var olmağın nə böyük səadətmiş! İndiki vaxtda heç nəyə baxmadan öz hisslərini qoruyub, saxlamağı bacarmaq – nadir hadisədir. Mən sənə çox minnətdaram! On dörd il! Bu işin mümkünlüyünə inanmaq çətindi! Sənin sağlığına, möcüzəm mənim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alikin yanımızda olması Ninanı sıxmırdı, hərçənd onun fikri dəniz ləpədöyəni kimi gecəyarı güclənən banketin yanında qalmışdı. Az tanıdığı adamın yanında Ninanın belə sərbəst danışması Aliki utandırdı. Nina deyəndə ki, mənim etibarlılığım hamını, hətta əri Oleqi də heyrətə gətirir – o özünü elə göstərdi ki, guya cibini axtarır, sonra qalxdı və üzr istəyib, guya kibrit dalınca bufetə getdi...

Nina dil boğaza qoymurdu, bizim çoxillik tanışlığımız ərzində xeyirxah ürəyindəkilərin hamısını mənə demək üçün (bu gün ona haqq qazandırmaq olardı) çox həvəsə düşmüşdü...

– Sən heç təsəvvür eləyirsənmi ki, tayın-bərabərin yoxdur! Və mənimçün nə deməksən! Hər dəfə dara düşəndə, mənə çətin olanda, dözülməz olanda düşünürəm: mənim məhəbbətim var! Həyatda uçulmaz dayağım var! Düz sözümdü! Bir də ki, fikirləşirəm: taleyin bizi görüşdürməyi nə böyük səadətmiş! Düzdürmü?

– Düzdür.

Alik qayıdanda onun şərəfinə, dostluğumuzun şərəfinə tost dedim, o isə deyilənlərə bir neçə kəlmə Ninanın ünvanına, amma qəbul olunduğu kimi üzünü mənə tutub əlavə etdi.

– Görürəm siz çox möhkəm dostluq edirsiniz, – əlindəki badənin hərəkətiylə o, bizi birləşdirdi, – görürəm ki, bu təmiz dostluqdu, ona görə də sənin bir dostun kimi Ninanın sağlığına içirəm, qoy Nina bilsin ki, bizə, sənin dostlarına arxalana bilər, həyatının həm ağır, həm də xoş dəqiqələrində.

Alikin sözləri Ninaya yaxşı təsir bağışladı və təklif elədi ki, onu da özümlə onlara axşam yeməyinə gətirim.

Həmin gün yığışacaq adamları nəzərə alsaq, bu təklif sözsüz ki, yersiz idi, amma Alikin yanında boyun qaçırmaq münasib deyildi, o düşünə bilərdi ki, mən öz dostlarıma görə utanıram. Hər halda balaca bir cəhd də elədim:

– Yersiz düşməz ki?

– Əlbəttə yox, – Nina təəccübləndi. – Bir az oxuyarsan da. Amma gitaranı unutma ha!

– Kimlər olacaq?

– Mən ki, sənə demişdim.

– Ona görə də belə hesab edirəm ki, bizim gəlişimiz yersiz düşəcək...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Boş şeydi. Onlar yaxşı uşaqlardı, hamısını yaxşı tanıyıram, şən keçəcək, baxarsan! – Nina Alikə tərəf döndü. – Ərim təzə kafedra götürüb, elə bu münasibətlə də əməkdaşları dəvət eləməyi qərara alıb. Əla uşaqlardı...

– Mənim heç bir etirazım yoxdu, amma biz Aliklə heç kimi tanımadığımıza görə... – mən daha bir cəhd göstərdim.

– Onsuz da sən onlarla gec-tez tanış olmalısan, – Nina təbəssümlə sözümü kəsdi, – nə qədər tez olsa, bir o qədər yaxşıdı...

Alik dəvət üçün o qədər minnətdar idi ki, mən daha etiraz eləmədim...

Gecə onunla qurtardı ki, Alik Batanovskiyə yaxınlaşdı, onun Azərbaycan pərəstişkarları adından bir sağlıq dedi; onlar öpüşdülər və restoran bağlanana qədər öpüşməkdə davam elədilər.

Alik üçün kabinetdə yer salınmışdı, amma əlinə mənimlə ikilikdə olmaq imkanı düşdüyünə görə (yolüstü Ninanı evə aparmışdıq), heç vəchlə gedib yatmaq istəmirdi – otaqları gəzməsi və əla keçirilmiş gecədən alınan təəssüratın bölüşdürülməsi uzun çəkdi.

– Əvvəlcə gözlərimə inanmadım. – Dəniz quldurlarının küləksiz havada iki qara bayrağını xatırladan iri alt paltarı Alikin arıq ayaqlarından sallanırdı. – Doğrudanmı Batanovskinin özü idi? Hətta sonra da, sən təsdiq edəndə də inanmırdım... Yalnız öpüşəndə inandım! Kişi belə olar ey! Qəlbi, necə deyərlər, taybatay açıqdır!

O, xoşbəxt idi və mən də buna sevinirdim, bilirdim ki, o, bu axşamı ömürlük yadda saxlayacaq. Yaxşı ki, onu özümlə aparmağı qərara aldım. Nina hər şeyi başa düşdü, o isə gör necə sevinir...

– Artistlərin belə mehriban olduqlarını bilməzdim! – Alik hələ də fərəh içindəydi.

– Əsas fərq də elə bundadı! Bəs burda yaşamaq niyə xoşuma gəlir? – Onun müşahidələrini ümumiləşdirməyə cəhd elədim. – Bizdə biri həyatda bir şeyə nail olan kimi o saat özünü çəkməyə başlayır. Burda isə kim olursansa ol, akademikmi, nazirmi, xalq artistimi, əgər onunla dostsansa, özünü səninlə bərabər tutur. Heç vaxt sənə sənin fərq yerini göstərməzlər. Mühit başqadı... Bu gün özün də buna əmin oldun... Hər şey sadədi... Adamlar da qəribədirlər... Mən öz həyatımdan çox razıyam...

– Gəl bir olma! – Alik qeyri-ixtiyari kitab dolu şkaflar düzülmüş kabinetə göz gəzdirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Uşaqlara da belə de.

– Bütün şəhər bilir. Onlar bilirlər.

– Qoy incimәsinlər. Hökmən gələcəyəm. Siz təsəvvür edə bilməzsiniz ki, hamınızçün necə darıxmışam... Amma hələlik alınmır. İşim çoxdu...

– Yaxşı qadındı, – Alik qəfildən sanki öz-özünə dedi.

– Kim? Nina?

– Hə! Çox gözəldi!

Məndən olsaydı Ninadan danışmazdım, amma bir halda ki, o, Alikin xoşuna gəlmişdi, onda özümü saxlaya bilmədim.

– Demək istəmirdim... Amma sən mənə yaxın adamsan. Səndən gizlətməyəcəyəm... Biz bir-birimizi sevirik. Artıq neçə illərdi...

– Mən o saat başa düşdüm. – Alik azacıq utanan kimi oldu.

– Artıq on dörd ildi. Bu gün ildönümüydü... birlikdə keçirməsəydik olmazdı...

– Bəs ailə?

– Ailə? – İstehzayla gülümsədim. – Nə ailə?.. Hər şey qaydasındadı.

– Onundamı?

– Hə...

Söhbəti qurtarmaq vaxtı idi; o, səhərəcən yatmamaqçün onsuz da çox şey bilmək istəyəcəkdi. Hiss olunurdu ki, yenə nəsə soruşmaq istəyir, mən imkan vermədim.

– Bəsdi! Yatmaq vaxtıdı! – Yataq otağına yönəldim. – Sabah başımı qaşımağa vaxtım olmayacaq. Lap tezdən durmalıyam.

O, sözəbaxan uşaq kimi stuldan qalxdı.

– Görünür, sabah bütün günü, axşamadək vaxtım olmayacaq.

– Eyibi yox... Mən uşaqlarla gəzərəm... Kremlə baxmaq istəyirəm.

– Birisi gün isə Ninagilə qonaq gedərik.

– Hə... Bir şey hədiyyə almaq lazımdı.

– Alarıq, narahat olma.

Təzəcə mürgüləyirdim ki, qapının dalından ürkək, ürəksiz addım səsləri eşitdim. Yataq otağının astanasında ayaqlarını tappıldadan Alik mənim yatıb-yatmadığımı öyrənmək istəyirmiş.

– Niyə yatmırsan? – Nəzakətlə, amma narazı tərzdə soruşdum.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bağışla, bayaq unutdum... – Qapı aralandı, Alik yataq otağına girmədən enindən-uzunundan fotoşəklə oxşar bir şeyi mənə uzatdı. – Bu sənə çatacaq...

– Nədi bu?

– Toy dəvətnaməsidir.

– Sağ ol. Niyə narahat olursan? Səhər verərdin də...

Dirsəkləndim, ürəyimdə özümü söyüb, Alikə içəri girməyi təklif etdim: neyləmək olar, görünür, belə tərbiyə olunmuşam...

Alik yataq otağına daxil olub, kresloya əyləşdi. Mən rəngli, cilalı kağızda çap olunmuş dəvətnaməyə baxdım.

– Sifarişlə çıxartdırmışam.

– Qəşəngdir.

Alik özünü ələ alıb, yuxusunun niyə qaçdığından danışmağa başladı.

– Xahiş edirəm səndən... Çox xahiş edirəm, – o, çox ürəkdən, səmimiyyətlə dedi və gözləri dumduru yaşla doldu... – Sən toya gəlməlisən, hər şeyin xətrinə. Bircə günlüyə də olsa... Taleyin işidi ki, səninlə görüşdüm. Arvadını və uşaqlarını da götür, gəl!..

Ona nə cavab verəydim? Səfərdən imtina eləməkçün hansı dəlilləri gətirim? Yenə də işi heç üçcə günlüyə də ata bilməyəcəyimi bəhanə eləməkdən başqa inandırıcı bir şey tapa bilmədim. Əlbəttə, az müddətə də olsa getmək pis olmazdı, hamını görərdim, onların yadında lovğa, bambılı bir adam kimi qalmamaqçün nəsə bir şey edərdim. Amma axı doğrudan da heç bir imkanım yox idi, indiki vəziyyətimdə isə bu, qəti mümkün deyildi! Mən dəlili dəlil dalınca gətirdikcə, Alik badımcana oxşar başını daha da əyirdi ki, təsadüfən nəzərlərimiz qarşılaşmasın.

– Mən özüm çox istəyirəm, Alik... Çoxdankı arzumdu... Elə bilirsən başa düşmürəm, amma heç cür alınmır... Birdimi, ikidimi... Özün də bilirsən. Amma vaxt elədi ki, heç cür... Xaricə ezamiyyət... Beynəlxalq konqres. Başa düşürsən?

Alik dediklərimi dinməzcə, başıyla təsdiqləyirdi. Məndən heç nə asılı deyil. Əlbəttə, çalışaram... Hər şey olur... Birdən konqresi başqa vaxta keçirərlər... ya da beynəlxalq vəziyyət pisləşə bilər... Nə biləsən, hər şey ola bilər!

Alik bayaq gəldiyi kimi sakitcə, sezilmədən, daha bir kəlmə də demədən otaqdan çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecə yenə həmin yuxunu gördüm. Yenə hamı gözlərini mənə zilləmişdi, çünki yenə də hardasa bir tünlükdə, özü də gur işıqlı bir yerdə şalvar əynimdən yoxa çıxmışdı...

İşə getməzdən əvvəl Əzizi yedirtmək lazım idi. Səhər tezdən durdum. Qonşu qadın düyü sıyığı bişirmişdi, amma qoca onu yemədi və bir stəkan çayla kifayətləndi.

– Sizi xəstəxanaya göndərmək lazım gələcək, – bir az yesin deyə, onu qorxutdum; iki həftə idi ki, hamı – həkim, qonşu qadın, mən – onu dilə tuturduq ki, xəstəxanaya getsin, amma o, qəti boyun qaçırırdı: xəstəxana adı gələndə onda nəsə dəhşətli bir qorxu oyanırdı, bəlkə də ona görə ki, ömründə bir dəfə də olsun ora düşməmişdi.

– Əgər xəstəxanaya götürsələr, deməli hələ ümid var, – qoca gözlərini yumub, qəfil dedi. – Ümidsiz vəziyyətdə olanları ora götürmürlər.

– Bəsdir, boş şeylər danışmayın. Bir aydan sonra lap qaçmağa başlayacaqsınız.

O dinmədi.

– Amma çox yemək lazımdı...

Sıyıqdan bir neçə qaşıq yedirdə bildim. O, sıyığı udub, qəti qərarını dedi:

– Qoy məni xəstəxanaya aparsınlar. Razıyam...

– İşdən sonra özüm sizi apararam.

– Amma söz ver, əgər mən... – bu sözü deməyə ürəyi gəlmədi, – əgər mənə bir şey olsa, məni Bakıya göndərərsən.

– Yenə başladınız?! – Özümü acıqlanmış kimi göstərdim. – Sizinki adi yaradı. Bir az kəskinləşib. Xəstəxanada, əlbəttə, sizi çoxdan ayaq üstə qoymuşdular.

Kərtənkələdə olduğu kimi qırışıqlı kirpiklərini qaldırıb, hər sözümə diqqət yetirir, onunla nə dərəcədə səmimi danışdığımı anlamaq istəyirdi...

Zəngin çalınmasına beş dəqiqə qalmış özümü işə çatdıra bildim. Keçə çəkmə qalaqları yığılmış sexdən keçərək, yubanmadan texniki şöbəyə girdim, bilirdim ki, orda məni səbirsizliklə gözləyirlər. Mənim kimi ali təhsili olmayan və bu nöqsanın əvəzini fəal ictimai işlə çıxan Valyanın səsi hələ dəhlizdən eşidilirdi. O hökmən kütləni öz fikrinə tərəfdar etməliydi; amma üz-gözlərindən bilinirdi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, kütlə də, texniki şöbənin Valya ilə məndən fərqli ali təhsilli iki əməkdaşı da – onun narazılığına çox da məhəl qoymurdular.

Salam verib, qapıdaca dayandım; Valya o saat döyüşə atıldı.

– Dünən məşqə niyə gəlməmişdin? – Onun incə, uşaq sifəti qızardı, gözləri hədəylə parıldadı, amma mən belə coşqun fəallığın əsl səbəbini bilirdim, elə bizim dialoqa gizli təbəssümlə qulaq asan (gözləyirdilər ki, Valya onları köməyə çağıra) əməkdaşlar da bunu bilirdilər.

– İmkanım olmadı.

– Şənbə günü Zveniqoroda da gedə bilməyəcəksən?

– Hələ bilmirəm. Şənbəyə sağ çıxaq bir.

– Nədənsə, bütün fabrik bilir, hamı bir nəfər kimi gedir, sənin isə həmişəki kimi, özündən xəbərin yoxdur.

– Elədi, – razılaşdım. – Neyləyim ki, həyatım belədi, başdan-başa gözlənilməzlikdi. Bir həftə qabaqcadan sizinlə Zveniqoroda istirahət etməyə gedib-getməyəcəyimi deyə bilmərəm...

Mədəni-kütləvi tədbirlərdə mənim iştirakımın onu niyə belə maraqlandırdığının səbəbini başa düşməyimi anlayan Valya yalnız "ictimai mənafe" naminə çalışdığını hamıya və özünə sübut etməkçün daha da acıqlandı.

– Di yaxşı, Zveniqorod sənin şəxsi işindi. Əgər sənin başqa qayğıların varsa, – bu sözü o, ucadan dedi, – bizimlə getməyə bilərsən... Amma buyurub məşqə gəlməlisən...

Ona yaxınlaşıb, mehribanlıqla çiyinlərini qucaqladım, o, bir neçə dəfə inamsızlıqla qapıya tərəf dartınıb, sakitləşdi.

– Niyə belə acıqlanırsan?! – Bu an ona qarşı lap valideyn hissləri keçirirdim, di gəl, ondan o qədər də çox yox, cəmi səkkiz yaş böyük idim. – Sən bilirsən axı, lazım gələndə məşqsiz-zadsız da oxuyacağam.

– Birisigün gecdi, sənsə kostyumu geyinib baxmamısan.

– Yoxlayaram. Bu gün hökmən geyib baxaram. Məmnuniyyətlə Zveniqoroda da gedərəm. Əgər imkanım olsa...

O, acıqla dodağını büzüb əlimi çiynindən qırağa itələdi.

– Elə məsələ də bundadı – imkanım olsa. Sən özün öz həyatının sahibi deyilsən.

– Bu artıq mənim şəxsi işimdir. – Gülümsəməkdə davam eləsəm də yavaş-yavaş hirslənməyə başlayırdım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sənin şəxsi işlərinə qarışan yoxdur. – O səsini endirdi və indi dediklərindən səmimi bir canıyananlıq duydum. – Biz axı bir yerdə işləyirik, çətinliyə düşəndə bir-birimizə kömək etməliyik.

– Nə çətinlik? Hansı çətinlik? – Mən doğrudan da təəccübləndim, mühəndislərə baxdım, nədənsə onlar da gözlərini yayındırdılar. – Bu nə sözdür?!

Əlbəttə, Nina barədə fabrikdə bilirdilər, amma mən güman eləməzdim ki, bizim münasibətlərimizə mənim həyatımın çətinliyi kimi baxırlar və onu aradan qaldırmağa çalışırlar.

– Əlbəttə, əgər sənə elə gəlirsə ki, hər şey qaydasındadır, – Valya taqətsiz halda stula çökdü, – onda danışmaq mənasızdı. Amma o şeyi ki biz bilirik...

– Nəyi bilirsiniz axı?! – Burda tamam özümdən çıxdım. – Kim sənə icazə verib ki, mənim şəxsi işlərimə baş soxasan? Mənim bütün işlərim əla gedir. Nə istəyirəm, onu da edirəm. Heç kimin də köməyinə ehtiyacım-zadım yoxdur. Mən özüm kimə istəsən kömək edə bilərəm!

Bu vaxt telefon səsləndi – dediklərimə nəsə əlavə etmək çətin idi, amma səbəbsiz çıxıb getmək bundan da ağır iş idi.

– Səni direktor çağırır. – Valya dəstəyi asdı və başını qarşısındakı kağızların üstünə əydi.

Doğrudanmı kollektivin mənim şəxsi həyatımda nizam yaratmaq həvəsi o dərəcəyə çatıb ki, hətta direktoru da bu işə qoşublar? Katibənin davranışından bir şey müəyyənləşdirə bilmədim (adətən o, direktorun işlərini bilirdi). Şefin özü də qəti baş çıxarası adam deyildi və həmişə də üzündə eyni cür ifadə olduğu halda həm töhmət verir, həm də təşəkkür elan edirdi: ordudakı otuzillik xidmət özünü göstərirdi.

Amma Valyanın həmlələrindən sonra özümə gəldim, mənə göstərilən qayğıkeşliyin səbəbini anladım.

– Hə, gətirdin? – O, işarəylə oturmağı təklif edib, soruşdu.

– Nəyi? – Vaxtı uzatmağı qərara aldım.

– Arayışı...

– Hansı arayışı?

– İnstitutdan.

– İnstitutdan?

– Bəli... Unutmusan, nədi? Ya yenə yalan danışırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən düzdü, yalan danışırdım, amma ona heç kim icazə verməyib ki, mənə belə şeylər desin, buna görə də incidim. Düzdü, çox yox, amma o dərəcədə ki, o bunu duymalıydı.

– Qəribə oğlansan... Səni başa düşə bilmirəm. Oxuyursan ya yox?

– Oxuyuram.

– Neçənci kursda?

– Demişdim ki, birincidə.

– Bəs niyə arayış gətirmirsən?

– Unutmuşam.

– Bir aydı arayış ala bilmirsən, gülməlidi axı. Sən mənə düzünü de.

– Nəyi?

– Ümumiyyətlə... Hər şeyi...

– Başa düşmürəm...

– Nə qədər yalan danışmaq olar? Bu on dörd il ərzində mənə o qədər yalan demisən ki...

– Burda işlədiyim on üç il yarımdı...

– Di qoy on üç il yarım olsun...

– Bəs siz özünüz?

– Nə?

– Siz həmişəmi həqiqəti deyirsiniz?

Direktorumuz xeyirxah adam idi və mənə qarşı iltifat göstərirdi, ona görə də danışığımdakı bəzi sərbəstlikləri bağışlayırdı, daha doğrusu, üstünü vurmurdu.

– Sən də müqayisə elədin! Əlimdə nə boyda istehsalat var. Gör neçə nəfərsiniz? Hərdən çox şey söz verirsən... işin xatirinə. Elə-belə yox ki...

– İndi heç kim elə-belə yalan demir, hamı işin xatirinə deyir. Hərənin öz səbəbləri var.

– Bəs sənin səbəblərin nədi? Neçə vaxtda beynimi yorursan ki, MDU-da qiyabi oxuyursan? Niyə? Nə mənası var bunun? Boynuna alanadək neçə il itirdin?.. Hələ də məlum deyil ki, oxuyursan ya yox?

– Dedim axı, oxuyuram.

– Sənə diplom lazımdı. Niyə başa düşmürsən? On dörd il zarafat deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– On üç il yarım.

– Son mənə düzəliş vermə! – O birdən acıqlandı və qışqırdı. – İdarədə səndən ötrü boğazımı yırtıram. Səndən ötrü dalaşıram. Sənsə mənim başımı ağrıdırsan burda. Tamam ağ yalan deyirsən. Yalan deməyinin heç olmasa səbəbi olaydı bir. Sənə deyirlər: düzünü de, qalanı sənin işin deyil, institutsuz da o yeri səninçün düzəldəcəyəm. Çətin olacaq, amma düzəldəcəyəm. Ancaq əgər səni qabağa çəkirəmsə, hər şeyi olduğu kimi bilməliyəm...

– Mən ki, sizə demişdim...

– Onda iki gündən sonra arayış burda olmalıdı. İki gün vaxt verirəm. Axırıncı müddətdi. Anladın?

– Hə...

İndi, otuz iki yaşında, neçə-neçə imkanı əldən çıxarandan sonra mühəndis-texnoloq diplomu almaqçün axşamlar mühazirələrə gedib-gəlmək adama gülməli gəlirdi. Bu diplomla kimi təəccübləndirəcəkdim axı. Ümumiyyətlə, nəyimə lazımdı o mənim? Fabrikdə diplomsuz da işim pis deyildi. O ki, qaldı qabağa çəkilməyə, bu fakt nə qədər xoş olsa da istehsalat rəisi vəzifəsi şöhrət gətirməyəcəkdi, mənimçün əlavə məsuliyyət yaradacaqdı, çünki fabrikin işçilərindən başqa heç kim yuxarı çəkildiyimi bilməyəcəkdi, pul da gətirməyəcəkdi – bizdə ustalar hasilata görə alırlar, sexdə mənim qədər qazanmağı isə Allah hamıya qismət eləsin.

Fabrikdə çox işləmək lazım gəlirdi, konveyeri saxlamayacaqdın ki; amma elə bir tələskənlik də heç vaxt olmamışdı; seytnot işdən sonra, özü də get-gedə daha tez-tez hiss olunmağa başlayırdı.

Əvvəlcə Əzizi xəstəxanaya apardım. Qəbul otağında növbətçi tibb bacısı sənədlərin dolduranadək, qocanı xəbərdar etdim ki, bəlkə bir neçə günlüyə çıxıb getdim, qoy narahat olmasın, dostlarım hər gün onu yoluxmağa gələcəklər və onun heç nədən ehtiyacı olmayacaq.

– Amma İspanlını xəbərdar elə. – Qocanın səsindən başa düşdüm ki, mənim getməyim onu narahat eləyib.

– Əşi, siz həyəcanlanmayın. Əvvəla gedib-getməməyim hələ məlum deyil. Çox güman ki, alınmayacaq. İkincisi, dedim axı: sizi hər gün yoluxacaqlar.

– Sağ ol...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burda ağlıma gəldi ki, İspanlının ehtiyat pulu ola bilər: o, bu yayda eləmək istədiyi mənzil təmirini bir illiyə təxirə salmışdı.

– Necə bilirsiniz, İspanlıdan bir neçə aylığa borc ala bilərəmmi?

– Sənə nə qədər lazımdır?

– Çox. Mən İspanlını deyirəm, sizin pul mənə lazım deyil.

– Niyə? – Qoca qaşqabağını tökdü.

– Çünki mənə iri məbləğ lazımdı, özü də uzun müddətə. Sizdə isə o qədər pul yoxdu.

O, kədər içində mənimlə razılaşdı. Çoxlu pulu olmadığını təsdiq əlaməti olaraq başını tərpədə-tərpədə onu apardılar.

* * *

"Bakı" restoranının bağlı qapıları ağzında növbə yığılmışdı, amma danqıldada-danqıldada irəli keçdiyim qablar qapıçını inandırdı ki, yeganə məqsədim evə nahar almaqdı; bununla belə o hər ehtimala qarşı mən mətbəx yolundan zalların birinə keçməyim deyə, arxamca baxdı.

Bu restorana girmək məsələsi get-gedə müşgülləşirdi, amma Qoca nədənsə ona naharı məhz burdan götürməyimi təkid edirdi. Əzizin köhnə əlaqələri "Araqvi" ilə daha asan dil tapmağa imkan verirdi və özü də oranın mətbəxi də heç birindən geri qalmırdı. Əziz yalnız ona məlum olan faktları dəlil kimi gətirə-gətirə bu barədə Qocaya çox demişdi, amma Qoca dediyindən dönmürdü. O, vətənpərvərlik baxımından belə hesab edirdi ki, "Araqvi"nin yaxşı saçivisindənsə "Bakı"nın pis dolması yaxşıdı.

Son əlli ili Moskvada yaşamasına baxmayaraq, Qoca doğma torpağın vətənpərvər oğlu kimi qalmışdı. Demək lazımdı ki, Vətən də ona qarşılıqlı cavab verirdi; imkanları daxilində olan hər şeyi bəxş etmişdi ona; Moskva altındakı bağından başqa Qocanın Şamaxıda evi vardı, respublika akademiki adını almışdı və qocalığı daha xoş edən bir sıra başqa imtiyazları da vardı.

Bax, o da mənə İspanlı kimi asanca borc pul verə bilərdi. Mənim tanıdığım qocalar arasında yalnız Əziz maddi cəhətdən sıxıntı çəkirdi, qalan ikisinin isə pulları bir neçə dünya səyahətinə çatardı. Amma məni yalnız evə getmək maraqlandırırdı. Heç olmasa iki-üç



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günlüyə, Alikin cəsarətsiz işarələrindən belə məlum olurdu ki, doğma şəhərə son səfərimdən sonra əmələ gələn inciklik güman elədiyimdən də güclü imiş. Amma pulsuz ora getməyin mənası yoxdu, hər şey daha da mürəkkəbləşə bilərdi...

Əlbəttə, Qoca mənə hər hansı bir məbləğdə borc verə bilərdi. Ciyərlərin iki tərəfli iltihabından sonra ortaya bir çətinlik kimi çıxan ölümqabağı hazırlıq oyunu onu o qədər məşğul etmişdi ki, fikrini başqa bir şeyə yayındırmağa gücü qalmamışdı. Qocanın ölüm barədə daimi danışıqları hamını onun ən mənasız şıltaqlığına belə dözməyə, diqqətli olmağa məcbur edirdi.

Günün çox vaxtını evin qabağındakı talada keçirirdi. Nəhəng bədənini yellənən kresloya yayıb saatlarla əyləşirdi. Onun böyründə tonqal qalayırdılar. Bu onun xəstəlikdən sonrakı son əyləncələrindən biri idi. Yun şala bürünüb, guya saatlarla alov dillərinin qəribə oyununa baxırdı. Əslində isə tonqalı unudub, o, həmin an nəsə ən adi bir şeylə məşğul olurdu, ya krossvord həll edir, ya dırnaqlarını tutur, ya da qəzetlərə baxırdı. Amma Allah göstərməsin, tonqala vaxtında odun atmasan, Qoca ölümünü unudub, uzun-uzadı, özü də ən pis söyüşlərlə söyürdü.

Amma hərdən özünü yerlə-göylə əlləşən müdrik bir qoca kimi göstərirdi, ətrafdakıların "səhv"lərini itaətlə qəbul edir və hər cür sınaqlara səbirlə dözməyə hazır olduğunu anladırdı. Belə günlərdə daha tündməcaz olurdu.

Əsl təbiəti isə nadir hallarda üzə çıxırdı: o, əslində həyatın bütün sahələrində özünə xüsusi inamı olan acı bir adam idi və hiss edirdin ki, bu, sönməkdə olan vulkan olsa da, ondakı pıqqıldayan lava hələ də yandırıcıdır. Altmış beş yaşı olmasına baxmayaraq, hələ də qadınların xoşuna gələ bilirdi, elə özü də hərdənbir alışıb, onlara lap ciddi uyurdu... Amma indi isə vaxtının çox hissəsini ölümə hazırlaşırdı!

Gətirdiyim nahar ölməkdə olanlara xas bir sakitliklə qarşılandı. Amma hamısı – piti də, dolma da, kabab da yeyimcil adam bacarığıyla tələm-tələsik yeyildi. Dolmanın üstünə sarımsaqlı qatıq tökdü, kababa özü hazırladığı sous qatdı (tkemali, acika və bolqar ketçupası ilə narın doğranmış təzə keşnişin qarışığı idi; bu qarışıq az qala hər gün atəşpərəstlik seansı vaxtı təzələnirdi), bir nimçə dolusu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pitini isə iri baş soğanla yedi, soğanı şirəsi itməsin deyə, doğranmağa qoymadı, özü əzdi...

Bu dəfə o, şüşəbəndli eyvanda oturmuşdu. Tonqal həyətin ortasında qalanmışdı. Eyvana bitişik qonaq otağının düz yarısını tutan buxarı da yanırdı. İyulun cırhacırında iki tonqal – burda açıq-aşkar nəsə cəlbedici bir şey vardı, amma Qoca özünə nəyisə qızırqanmağı sevmirdi. Nahar edə-edə, eyni vaxtda iki tonqalın gözəlliyindən feyziyab olmaq ehtiyacından danışırdı.

– Hərəsinin öz yeri var, – o, növbəti sümüyü gəmirə-gəmirə dərin mənalı bir tərzdə dedi. – Nigar gözəl idi, sevgidən də başı çıxırdı, amma əlini ağdan-qaraya vurmurdu, yaman tənbəl idi. Lina Qurkgenovnanın dözülməz xarakteri vardı... Hərçənd əla dolma bişirirdi... Onunla söhbət eləmək də maraqlıydı... Liza... Lizaya söz olmazdı. Lizanı çox sevirdim. Demək olar ki, ürəyim həmişə yalnız Lizanın yanındadı... Amma onun da xəstəhallığı kefimi pozurdu. Xolesist-pankreatit zarafat deyil. Yazıq, çox əziyyət çəkirdi. Tez-tez tutması olurdu. Son vaxtlar xəstəxanadan çıxmırdı heç. – O, fikrə getdi. Hə, burda ehtiyatlı olmaq lazımdı. Söhbət Qocanın üç mərhum arvadından gedirdi, o, heç cürə qərara gələ bilmirdi ki, onlardan hansının yanında basdırılsa yaxşı olar. – İstəyirəm ki, rahat yer olsun. Bu hər şeyi həll edə bilər. Bir də ki, onların hamısını sevirdim. Mənə hər birinin hüququ çatır. – Yenə fikrə getdi, amma yeməyi də unutmurdu. – Nigar ən cavanıydı, – ağlına təzə fikir gəldi, – cəmi otuz altı yaşı vardı. Həm də azərbaycanlıydı. Necə olsa doğmadı. Sən necə bilirsən?

– Gedib baxmaq lazımdı, – cavabı bilərəkdən qeyri-müəyyən verdim, – mən ki, çox demişəm sənə...

– Hara gedə bilərəm mən, – Qoca ah çəkdi, – görürsən ki, güclə nəfəs alıram. Hələ payıza sağ çıxım bir.

– Əşi lap əlasınız! İştahanız da yaxşıdır.

Qoca birdən ayılan kimi olub, asta-asta, daha doğrusu fikri dağınıq halda yeməyə başladı və üzündə elə bir ifadə yarandı ki, elə bil yeyən heç o deyildi.

– Sənin işlərin necədi? – Az sonra Qoca güclə sezilən bir istehzayla soruşdu.

İştahanı niyə dedim axı! Bu, açıq-aşkar Qocanın xoşuna gəlmədi və indi dilxorluğu keçməyincə yaxamdan əl çəkməyəcəkdi, –



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun qüsurlarından danışanda qocanın xoşuna gəlmirdi, of, necə də zəhləsi gedirdi bundan!

– Hər şey qaydasındadı.

– Yubileyi qeyd elədinizmi? – Onun dodağı qaçdı, yumşaq kağızla ağzını sildi.

– Hə.

– Necə keçdi?

– Qaydasında.

– Danış görək.

– Əşi nə danışım? Getdik restorana. Oturduq, söhbətləşdik…

– Razı qaldınmı?

– Hə.

– Belə hesab edirsən ki, hər şey yaxşıdı?

– Hə. Amma xahiş edirəm, yenə başlamayın.

– Başlamayım?! Baxma ki, ölüm ayağındayam, öldurərəm səni. On dörd ili elə bil götürüb çölə atmısan, bununla necə razılaşmaq olar?

– Razılaşmayın! Yalnız xahişim budu ki, bu barədə danışmayasınız.

– Mənsə xahiş edirəm şərt qoymayasan… Mənim ölümümdən sonra düz sözü heç kimdən eşitməyəcəksən.

– Niyə?

– Çünki həqiqəti yalnız onu bilən adam deyə bilər. Sənsə hamıya yalan danışırsan və cavabında da o cür yalan eşidirsən. Yalanın içində itib-batmısan.

– Bəlkə kifayətdir?

– Hər şeydən çox özünü aldadırsan.

– Düz deyil.

– Yalnız qadına xoş olsun deyə, on dörd il sevgi oyunu çıxarmaq özünü aldatma deyilmi?!

– Mən sevgi oyunu çıxarmırdım, sevirdim.

– Yalandır. Əvvəlcə axmaqlıq eləmisən, uşaq əyləncəsi olub, sonra öyrəşmisən, qalanı isə ağ yalandı…

– Düz deyil.

– Demək istəyirsən ki, onu indi də sevirsən?

Dinmədim. Bu onu daha da qızışdırdı:

– O özünə vurulmuş eqoist qadındı. Sənin ən yaxşı illərini məhv elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əgər davam eləsəniz, durub gedəcəyəm!

– Nəylə? – O, istehza ilə soruşdu.

– Elektrik qatarıyla! Niyə həmişə maşınınızı gözümə soxursunuz? O maşınla sizin işlərinizi görürəm. Mənə o maşın lazım deyil.

Qoca anladı ki, həddini aşıb.

- Ağları təhvil verdin? – o, işgüzar bir tərzdə soruşdu.

– Hamısını verdim. Ağları yuyulmağa, paltarları təmizlənməyə.

– Bağışla... Sən məni başa düşməlisən... Biz dostuq axı... Dostuq, ya yox? Səndən soruşuram.

– Dostuq.

– Belə. Əgər belədirsə, nə qədər ki, nəfəsim gəlir, nə qədər ki, gücüm var, ürəyimdəkiləri sənə deməliyəm. Ona görə də incimə məndən. Yaxşımı?

– Yaxşı. – Bundan yaxşı fürsət ola bilməzdi. Qoca görünür, yüngülcə vicdan əzabı çəkirdi, hər halda şir görkəmində belə bir ifadə vardı. – Sizdən bir xahişim var.

– Xahiş? – O, kresloya yayxandı və birdən-birə şirə daha çox oxşadı. – De görək.

– Doğrusu iki xahişim var...

– Pul?

– Bəli!

– Nə qədər?

– Çox.

– Neyçün?

– Evə getməliyəm.

O, təəccüblə çal başını buladı.

– Sən Səngəçevirə getmək istəyirsən?

– Hə.

– Maraqlıdı. Bir hadisə baş verib?

– Dostumun toyudu.

– Nə olsun ki?

– Gəlməyə söz vermişəm.

– Sən ona həqiqətimi demisən?

– Yox.

– Bəs necə gedəcəksən?

– İki günlüyə. Başdaşı sifariş verib, geri qayıdacağam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Pul başdaşıyçün lazımdı?
– Tək onunçün yox... Yola və hədiyyələrə də...
– Cəmi nə qədər?
– Beş-altı yüz manat.
Fikirləşməyi heç bircə saniyə də çəkmədi:
– Verməyəcəyəm.
– Qaytaracağam.
– Məsələ pulda deyil.
– Nədədi?
– Sənin axmaq oyunlarına qoşula bilmərəm.
– Anamın qəbri üstünə başdaşı qoydurmaq axmaq oyundu?
O, sualı qulaqardına vurdu.

– Sən ora getmək istəyirsən ki, özünü böyük alim kimi qələmə verəsən, mənsə, ölməkdə olan qoca bunu ödəməliyəm? Necə bilirsən, ədalətlidimi bu?

– Sizinçün xeyirli olmayan şeyi eşitmək istəmirsiniz.

– Mən hər şeyi yaxşı eşidirəm. Qəbrə iki yüz manatdan artıq pul lazım deyil.

– Mərmərin neçəyə olduğunu bilirsinizmi?

– Ayda iki yüz manat alan adam mərmər iddiasında olmamalıdır. Əgər beyninə düşübsə, onda ananın ölümündən keçən üç il ərzində bu pulun heç olmasa bir hissəsini yığmaq olardı. Hər şeyi özgə hesabına eləməməkçün. Sənin öz pulun varmı, heç olmasa bir az? Lap az? Cüzi? Heç nə yoxdu?.. Bir manat da? Bax görürsən! – Qoca məmnunluqla irişdi. – Sən gərək axırıncı manatlarını qoyub Ninanı restorana aparaydın?! İkinci xahişin nədi?

Cibimdən medalı çıxartdım.

– Mənim medalım səndə hardandı? – Qoca qaşqabağını tökdü.

– O sizin boz pencəyinizin yaxasından asılmışdı. Az qala təmizlənməyə onu da vermişdim.

Qoca əlini medala uzatmaq istədi, amma özünü saxladı.

– O nəyinə lazımdı? Başa düşmürəm.

– Özünüzü niyə bilməməzliyə qoyursunuz? Hər şeyi yaxşı başa düşürsünüz.

– Özgə medalını taxıb adamları axmaq yerinə qoymaq istəyirsən?

Bunlara qulaq asmağa daha hövsələm çatmadı. Qalxdım. Qoca yenə o saat səsini dəyişdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əyləş, əyləş. Nə oldu? Həmişə inciyirsən. Özünü elə aparırsan ki, guya böhtan atıram sənə... Dayan bir...

Eyvandan enib arxasına balaca odun parçası keçirilmiş yaşıl darvazaya tərəf getdim.

– Dayan deyirəm sənə! – Qoca bağırdı. – Eşidirsən? Elə bilirsən, ürəyim gəlmir?! Dayan deyirəm sənə, mən ölə bilərəm axı?! O elə bağırdı ki, səsi batdı və onu öskürək tutdu. Dayanmalı oldum. – Bura gəl. Məni məhv etdiyinə görə sonra altını çəkəcəksən. – Qəribə öskürək mən eyvana qayıdanda da davam edirdi. – Sənə pul verməyəcəyəm. Mənim özümdə də pul azdı. And içmişdim: yalan danışmağını yerə qoymayınca, sənə bir manat da pul verməyəcəyəm. Anan rəhmətə gedəndə and içmişdim.

– Əşi, heç olmasa yalan deməyin!

Andiçmə əhvalatı uydurulmaya oxşayırdı, özü də xoşagəlməz idi, ona görə ki, Qoca, ümumiyyətlə, düz danışan adam idi. Dalda on mindən artıq pulu ola-ola (əmanət kitabçasını öz gözlərimlə görmüşdüm) xəsis olmayan bir adam belə bir səmimi həyəcanla yalan deyirdisə, demək pulun gücü çox böyükmüş.

– Deyəndə ki, hər şeyi anana görə uydurmusan, onda səni başa düşürdüm. Amma indi anan yoxdur. Kiminçün uydurursan yalanları? Kimin nəyinə lazımdı, sən universitet qurtarmısan, ya yox? Elmlər doktorusan, ya keçə çəkmələr fabrikində usta? Kimin nəyinə lazımdı bu? Sənin dostlarınamı? Qohumlarınamı? Kiminçün belə çalışırsan?

– Özüm üçün. – Bu köhnə rasionalisti fikrindən döndərməyə heç bir ümid yerim yox idi, eləcə də ürəyimi ona açmaq həvəsində deyildim, buna baxmayaraq, hərdənbir şəraitə görə məcbur olub dediyim yalan ona tamam mənasız görünməsin deyə, bəzi şeyləri izah eləməkdən özümü saxlaya bilmədim. – Elə düşünməyin ki, bu lap axmaqlıqdı. Sizə elə gəlir ki, sizin həyatınız başqalarının həyatı üçün nümunədir. Mən isə öz həyatımdan razıyam. Düzdü, hərdən çətinlik çəkirəm, eybi yoxdu, nəyin naminə çətinlik çəkdiyimi bilirəm.

– Bilirsən? – Qoca elə təəccübləndi ki, elə bil qeyri-adi bir şey eşitmişdi.

– Bəli, bilirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəyin naminə?

– Nə fərqi var, doğrudanmı elmlər doktoruyam, ya bu mənim uydurmamdır? Mənim hər şeyim var: yaxşı mənzilim, xoşuma gələn işim, pis də qazanmıram. Üstəgəl anamın arzuladığı şey. Bunun gerçəklikdə olmamasının dəxli yoxdur. Anam arzulayırdı ki, alim olum. Onun bu arzusu yerinə yetib. Eləcə də mənim dostlarımçün. Əgər pis yaşasaydım, onda başqa məsələ, onda demək olardı ki, mən bəxtsiz adamam. Mənimsə hər şeyim var.

– Hətta sevgin də...

– Hətta sevgim də... Siz bunu anlamazsınız... Uğursuz sevgi başqa sevgilərdən heç də pis deyil.

– *Hətta baxmayaraq ki, elə o sevgiyə görə də təhsil almamısan,* uzun illərdi ki, yeganə anana, ən yaxın adamlarına yalan deməyə məcbur olmusan...

– Mənim yalanımdan heç kimə ziyan dəyməyib.

– Yalnız özündən başqa.

– Mənə də ziyanı dəyməyib.

– Bu, sənə belə gəlir. Hətta ən səmimi hisslərlə belə yalan danışan adam, gec-tez öz yalanının qurbanı olur. Bu hamıya və hər şeyə – tək adamdan bütöv dövlətədək – aid olan universal qanundur.

Yox, ona təsir eləmək mümkün deyildi.

– Mən ki, sizə izah etdim... Mənimçün heç bir fərqi yoxdur, ali təhsilim var, ya yox. O mənim yaxın adamlarıma lazım idi və alsaydım da o təhsili yalnız onlarçün alacaqdım. Bunun mənə nə ziyanı?

– O xanıma da əbədilik, solmaz, qurban kəsiləsi bir sevgi lazım idi və o da onu aldı.

– Bəli. Özü də heç nəyə baxmadan məni təmənnasız sevir.

– Bəs niyə başqasına ərə getdi?

Əlimi yellədim:

– Sizinlə söhbət eləməyin mənası yoxdur. Siz nə bilirsiniz həyatın obyektiv qanunları nədir? Siz praqmatiksiniz.

– Bəli, mən praqmatikəm. – Əsnəməyini istehzalı təbəssümlə ört-basdır eləyərək dedi. – Əgər mənim yalnız real mövcud olan şeylərə inanmağım – o, bir də əsnədi və qəfildən süstləşdi, görünür yorulmuşdu, – və xəyali dəyərli şeylər dalınca qaçmamağım nəzərdə tutulursa. Amma mən istəyirəm ki, inanasan – pula heyifim gəlmir!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstəyirsən inan, istəyirsən inanma! Hamıya həqiqəti deyəcəyin gün sənə istədiyin məbləğdə pul verərəm. İstehza eləmə. Əlbəttə, iş üçün. Pulları çölə atmağa hazırlaşmıram ki. Onları belimin donqarı ilə qazanmışam, eləcə də bütün qalan şeyləri...

– Medala görədəmi and içmisiniz?

Qocanın hər şeyə marağı itdi. Söhbətə də, medala da. Tərbiyəçilik həvəsi tez yarandığı kimi, tez də yox oldu.

– Əşi, götür o medalı və hara da istəyirsən çıx get. – O əlini yellədi. – Günlərin bir günündə ayılarsan, amma gec olacaq...

– Getməyə bilmərəm. Doğrudanmı siz bunu başa düşmürsünüz?

Qoca cavabında heç nə demədi.

– Yatmaq istəyirəm, – o, tərs-tərs mənə baxdı. – Məni üzdün. Tezliklə öləcəyəm və hər şey sənə qalacaq. Artıq vəsiyyətnamə yazmışam.

– Nə vəsiyyətnamə? Nə danışırsınız? Sizin ömrünüz hələ qabaqdadı. Ümumiyyətlə, mənim nə dəxlim var sizə? Sizin bacı uşaqlarınız var.

– O cavanlardan zəhləm gedir. Analarından da. Onların məndən acıqları gəlir. Mən onlara nəyə görə bəxşiş verməliyəm? Sən isə mənim qayğımı çəkirsən.

– Mən bunu pula görə eləmirəm. Mən sizdən borc istədim.

– Bilirəm, bilirəm. – Qoca burnunun altında mızıldandı. – Sənin barəndə hər şeyi bilirəm. Sən xeyirxah adamsan. Nə olsun ki, yalançısan? Xeyirxah yalançı. Di yaxşı. Gedəcəksənmi?

– Bəli.

– Neçə günlüyə?

– İki-üç günlüyə.

– Pulu kimdən alacaqsan?

– Bir yerdən taparam.

– İşdən icazə almağı unutma. Yoxsa çıxarıb atarlar bayıra. "Dövlət mükafatı laureatı" olmağın da harayına yetməz. – Qoca pıqqıldadı və gözlərini yumdu. Bir neçə andan sonra o, saf bir uşaq təbəssümüylə mürgüləyirdi.

Qoca yuxuda tez-tez gülümsəyirdi. Həyatda hələ o qədər xoş şeylər vardı ki! Hətta başının üstünü alan ölüm belə onun yaşayışına xələl gətirə bilmirdi. Qoca Azərbaycan folkloru üzrə görkəmli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mütəxəssis sayılırdı. Payızda, hamını inandırdığı kimi Kəlbəcər rayonuna son, ölümqabağı ekspedisiyaya getmək ümidində idi; gün olmazdı ki, bu səfərdən söz salmasın.

Qoca yuxuda bir də ona görə gülümsəyirdi ki, öz keçmişini sevirdi. Onun xatırlamalı çox şeyi vardı və ehtiyatlı kolleksiyaçı kimi öz qaynar həyatını araşdırarkən, nadir markaları və ya qiymətli qədim pulları olan adamdan da çox ləzzət alırdı.

Bir də ki, – bu ən başlıcası idi. – Qoca əsl həyatın özündən – təmiz havadan, dadlı yeməkdən, gözətçi ilə söhbətlərdən, kitab oxumaqdan – onun varlığını təsdiq edən hər şeydən ləzzət alırdı.

Əlbəttə, qoca vaxtında heç kimdən asılı olmaması da xoşuna gəlirdi. Qoca sərbəstliyi sevir və pula olan marağını məhz bununla izah edirdi – onlar onunçün "sərbəstliyin və müstəqilliyin maddi təminatı" demək idi; öz deməyinə görə pulun onunçün özgə dəyəri yox idi.

Bəlkə də o, həqiqəti deyirdi, amma adamın pulu olanda xəsisliyi hər cür dəlil-sübutla ört-basdır etmək olar. Pul olmayanda bu daha çətindi...

Mənim incidiyimi anlasın deyə, maşını bağda qoyub getmək istədim. Amma bir az düşünüb, fikrimi dəyişdim. Sabahısı gün maşınsız keçinmək mümkün olmayacaqdı, əvvəla, qocaya görə – məndən başqa kim onunçün nahar gətirəcəkdi? İkincisi, Ninaya görə – kabab üçün manqal və kömür gətirmək maşınsız çətin olacaqdı.

Yolüstü iki dəfə Kutuzovskiyə zəng elədim, amma Alik hələ qayıtmamışdı: yəqin dostlarıyla başları gəzməyə qarışmışdı...

Əziz özünü pis hiss edirdi, başlıcası isə, cənazəsinin Bakıya çatdırılması barədə söhbətlər yenə də başlanmışdı. Amma mənim səfərimin qeyri-müəyyən vaxtadək təxirə salındığını eşitdikdə, bir az özünə gəldi və xahiş elədi ki, mən həkimə yanaşım, – bəlkə həkim əsl vəziyyəti məndən gizlətməz...

Mənim yaşıdım yerində olan Strokopıtov kimi qəribə familiyalı həkim elə bir müəyyən şey demədi.

– Siz oğlusunuz?

– Yox... tanışıyam... dostuyam...

– Nə deyə bilərəm?.. – Anadan zəif doğulan bir çoxları kimi o da artıq yaşlaşanda idmanla məşğul olmağa başlamışdı, – kabinetin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

küncündə hantellər dururdu, qapının yanında divardan espander asılmışdı, arıq, balaca çiyinli bədəni isə (mən növbətçilər otağına baş çəkəndə o, paltarını dəyişirdi) gecikmiş düyün-düyün əzələlərlə örtülmüşdü. – O çox zəifdir. Hər şeyə hazır olmaq lazımdır. Yaxın qohumları yoxdurmu?

– Yox.

– Bütün ümid orqanizminədir. Bəlkə də keçib getdi.

– Doktor, bəlkə çətin tapılan dərmanlardan lazımdı?

O gülümsündü:

– Yəni tapa bilərsiniz?

– Çalışaram.

– Ona nə lazımdırsa, veririk axı!

– Həyatda da hər şey olur axı! Hərdən görürsən ki, bir dərman tamam ayrı cür kömək edir, xəstəxanada isə o dərman yoxdur...

– Olur. Amma ona siz deyən qədər də ciddi dərman lazım deyil... – Bir anlığa fikrə getdi. – Amma... – Döş cibindən qələmini çıxarıb, kağızda nəsə, uzun bir latın sözü yazdı. – Yağ sıyığı korlamaz. Çalışın bax, bu dərmanı tapın. Qoy qəbul eləsin...

Həkimlə söhbət (əlbəttə, azacıq düzəlişlə) Əzizin eynini açdı. Ən xoş təəssüratı isə nadir dərman adı yazılmış kağız parçası bağışladı.

– Deyirəm axı, – latın hərflərini oxumaq üçün faydasız cəhdlərdən sonra məmnunluqla balınca yayxandı, – onlara yanaşmağı, həkimlərlə danışmağı bacarmaq lazımdır. İspanlının yanına get. O bu dərmanı yerin deşiyindən də olsa tapar...

İspanlının evindən Kutuzovskiyə bir də zəng vurdum və Alik dəstəyi o saat qaldırdı.

– Alik, qulaq as, – işgüzarlıqla dedim, – mənim ciddi bir tədbirim var. Bu gün görüşə bilməyəcəyik. Ağların harda olduğunu bilirsən... Soyuducuda kolbasa da, yağ da var. Səhər qapını sadəcə çırpıb gedərsən. Amma açarı özünlə götürməyi unutma...

– Bəs sabah? – O qətiyyətsizliklə soruşdu.

– Sabahmı?.. – Əlbəttə, onun mənimlə Ninagilə getməyi çox yaxşı olardı, bircə belə gecədən sonra onun Moskva həyatı barədə ən rəngarəng söhbətlərə nisbətən daha çox təəssüratı olardı, amma bu, mümkün deyildi: Ninanın, Oleqin və ya qonaqlardan birinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ehtiyatsızlıqla deyəcəyi söz mənim həqiqəti gizlətməkçin çoxillik səylərimi heçə çıxara bilərdi. – Görünür, mən gedəcəyəm, Alik. Gec qayıdacağam. Belə ki, məni gözləmə, yat...

Sadəlövh Alikə yalan danışmaq istəmirdim, amma onu Ninanın yanına aparmamaq üçün başqa yol yox idi.

– Sən dəqiq gəlməyəcəksən?

– Yox.

– Birisi gün evə getmək istəyirəm.

– Evə?

– Hə.

– Di yaxşı, sonra danışarıq. Hələlik...

Sifəti çopur-çopur olan, dazbaş İspanlı balaca, girdə şüşəli pensnesini düzəldə-düzəldə qətiyyətlə izah edirdi ki, heç bircə manat da borc verə bilməz, çünki buna hüququ yoxdur.

– Əzizim, sən ki, bizim ailəni tanıyırsan – bizdə hər şey ümumidir. Pul var, bax burda şkafdadı, amma bu ümumi pullardır, ailə büdcəsidir. Heç kim onlara toxuna bilməz, hətta mən özüm də. Bilirsən, ailə böyükdür, xərc çox çıxır, hər şey bir il qabaqcadan hesablanır, bunu hamı bilir, bizim heç kimdən gizli sirrimiz yoxdur.

İspanlı hər hansı bir imkandan istifadə edərək məmnuniyyətlə ən ağıllı, qarşılıqlı sevgi və ailə mənafeyinə sadiqlik əsasında qurulmuş öz ailə qayda-qanunlarından danışmağı xoşlayırdı.

Çəpəki beretka qoymuş və sinəsində PPŞ avtomatı olan qardaşının portreti onun başı üstə asılmışdı və gec-tez İspanlı onu yada salmalıydı – bu evdə bütün qərarlar otuz yeddidə İspaniyada həlak olmuş qardaşa istinad edilməklə qəbul edilirdi. İspanlının özü də Beynəlmiləl briqadanın tərkibində döyüşçü olmuş, amma az döyüşmüşdü, qardaşı isə müharibəni əvvəldən-axıradək keçmişdi, o, bir çox məsul tapşırıqları yerinə yetirmişdi, bir sözlə, əfsanəvi xidmətləri vardı. Böyük qardaşın həyat yolu, xüsusən də ispan dövrü, yaşına və cinsinə baxmayaraq ailə üzvlərinin hamısı tərəfindən (onlar yeddiotaqlı mənzildə on səkkiz nəfər idilər) öyrənilirdi. İspanlı bir çox şahidlərlə, institut və arxivlərlə yazışır və qəşəng üz çəkilmiş üç qalın cild – sənədlər toplusu əldə etmişdi ki, bu sənədlərdə böyük qardaşın dünya xalqlarının azadlığı yolunda misilsiz xidməti qətiyyətlə sübut olunurdu (o, İspaniyaya qədər daha harda isə könüllü olaraq azadlıq uğrunda vuruşubmuş).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İspanlının səyləri hədər getməmişdi – Bakı küçələrindən birinə qardaşının adı verilmişdi və artıq bir neçə il idi ki, qəhrəmanın vətənində, Abşeron kəndlərindən birində onun heykəlinin qoyulması barədə söhbət gedirdi.

– Nadir sənədlər alınıb... – Şişman İspanlı təngnəfəs olduğundan az hərəkət edirdi və buna görə də ona lazım olan hər şey əlinin altında – stolun yeşiklərində, ayaqlarının böyründə bir neçə qutuda, pəncərə önündəki və onun əlinin çatacağı şkafın aşağı hissəsindəki iki portfeldə idi.

– Baxmaq istəyirsən?

Boyun qaçırmaq yaxşı düşmürdü; İspanlıya görə hər bir azərbaycanlı bu böyük qəhrəmanın həyatını daha yaxından bilməliydi.

– Budur Mərkəzi arxivdən gələn cavab. İyirmi birinci ildə, – İspanlı gözlərini qaldırıb, ehtiramla baxışlarını portretdə gəzdirdi, – artıq Azərbaycanda Sovet hakimiyyəti qurulandan bir il sonra o, Orta Asiyada fəaliyyətdə idi. – Ailə pulları saxlanılan şkafdan içində yeni sənədlər olan qovluq çıxarıldı: görünür, təzə məlumatlar doğrudan da qiymətli sayılırdı. – Özü də necə fəaliyyət göstərib! Bir neçə il bütöv bir vilayətdə basmaçılarla mübarizəyə başçılıq edib. Artıq respublika rəhbərliyinə təkliflərlə müraciət etmişəm.

– Hansı təkliflərlə? – Sual nəzakət xatirinə verilmişdi. İspanlının hansı təkliflər verdiyini bilmək çətin deyildi: küçələrdən birinə xalqların gələcəyi uğrunda çalışan şanlı mübarizin adını vermək, yaşadığı evdə xatirə lövhəsi asmaq, onun növbəti ad günü münasibətilə respublika qəzetlərində qəhrəmanın Orta Asiya dövrü fəaliyyətini işıqlandıran məqalələr dərc etmək.

Təxminən elə belə də çıxdı: İspanlı Orta Asiya respublikalarından birinin rəhbərliyinə yazdığı məktubun surətini oxuyarkən, mən təəccüblə qalın qovluqdakı qəribə bir fotoşəklə baxırdım. Orda İspanlının bacısı oğlunun arvadı (bir neçə il əvvəl xərçəngdən ölmüş kiçik bacısının oğluydu), birinci əri – latışdan olan qızı da daxil olmaqla bütün ailə üzvləri əks olunmuşdu. Mərkəzdə təbii ki, başına qardaşının başındakı beretkadan qoymuş İspanlı öz kreslosunda əyləşmişdi: qalanları onun başına yığışmışdılar. Şəklin altında İspanlının əliylə yazılmışdı: "Mərkəzdə Muxtar Kaspiyskinin doğma qardaşı ailə üzvləriylə birgə" (İnqilabi fəaliyyəti vaxtı qardaşının ləqəbi beləydi: İspaniyada başqa adla vuruşurdu) və kim kimin nəyi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olduğu, başlıcası isə kimin İspanlının və beləliklə də mərhum Muxtar Kaspiyskinin nəyi olduğu təfərrüatla bircə-bircə qeyd olunurdu.

Fotoşəkli göstərib soruşdum:

– Bu nəyə lazımdır?

– Bu, kitab üçündür, – İspanlı izah etdi, – kitab yazmağı qərara almışam. Belə bir seriya var "GAH" – "Görkəmli adamların həyatı", onlara təklif eləmək istəyirəm. Xidmətləri qat-qat az olan adamlardan yazırlar ki. – İspanlı inciklikIə burnunu çəkdi, onun azacıq soyuqdəyməsi vardı. – Özüm görmüşəm, hansı yazıçılardansa, alimlərdənsə yazırlar, bəziləri isə – o, yenə başını dala atdı və qardaşına vəfa, məhəbbət dolu bir nəzər saldı, – adamların səadəti uğrunda canını qoyub, yəni haqqında kitab yazılmağa da layiq deyil?!

Sonra İspanlı uzun-uzadı izah etdi ki, kitabın pulu şəxsən ona lazım deyil, amma ailə böyükdü, onun böyük çətinliklə Moskvanın müxtəlif tərəflərindən və Bakıdan yığdığı bütün ailə üzvlərinin yaşadığı mənzil keçmiş kommunal mənzildir, orda əvvəllər altı ailə yaşayırmış, ona görə də bərbad vəziyyətdədir. Təmirə çoxlu pul lazımdır, dövlət nədənsə kömək eləməkdən boyun qaçırır, hərçənd mənzil dəyişməsinə kömək eləmişdi. Hamını bir dam altına yığanacan bir neçə il keçdi. Kitabın qonorarını (deyirlər yazıçılara yaxşı pul verirlər) toxunulmaz ümumi mülkiyyət sayılan (burda da xüsusi bir haşiyə) ailə büdcəsinə əlavə etmək yaxşı olardı. Hərçənd açarlar İspanlıdadı, o, bir ailə başçısı kimi ailə xərcləri maddələri ilə nəzərə alınmayan məqsədlər üçün bir manat belə götürə bilməz, baxmayaraq ki, mənim kimi qəşəng cavan bir oğlana kömək etmək istəyir, özü də bu oğlan hamıya əzizdi, ona görə ki, doğma Azərbaycan torpağının yetirməsidi, deməli, unudulmaz Muxtar Kaspiyskini sevib, yadda saxlayanlardan biridi...

Dərmanı iki-üç günə tapacağına söz verdi. Dərman adı yazılmış kağızı portfelinə qoyub xahiş elədi ki, arxivi araşdırmağa ona kömək edim: kağızlar çex pivəsinin qutularına yığılmışdı və onları şkaflardan endirmək onunçün çətin idi...

Arxiv qaydaya salınandan sonra şkafların tozunu alıb, qutuları yerinə qoymaq da lazım idi...

Evə saat on ikidə çatdım, hansı əhvali-ruhiyyə ilə qayıtmağımdan asılı olmayaraq, hər dəfə (hələ lifti qalxanda) lap qısa, amma ağır bir ayrılıqdan sonra sevimli oyuncağıyla görüşən uşaq kimi sevinir-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dim. Onda hər şey xoşuma gəlirdi – dördkünc dəhliz, iri mətbəx, ucuz, amma rahat mebel, astanaya qədəm basan kimi sulamağa başladığım çiçəklər. Amma məni hər şeydən çox sevindirən onun olması faktı idi. Bu mənzilin mövcudluğu mənim yarıuydurulmuş həyatım üçün vacib olan gerçəklik dozası idi; bu mənzil sayca az həmin o istinad nöqtələrindən biriydi ki, onun üzərində mənim bir dəfə ehtiyatsızlıqla mövcud olmayan, amma hamıya elan elədiyim qələbədən pillə-pillə böyüyən çoxillik yalanın mürəkkəb dünyası güc-bəlayla qərar tuturdu...

Maşını düz Vladimirskilərin giriş qapılarının ağzında saxladım. Yuxarı qalxmadan, yük yerindən tənəkə çanağı çıxardım, uzun dəmir ayaqları oyuqlarına keçirdim və manqalı qonşu pəncərələrindən aralı, qazanxananın arxa divarı yanındakı həmişəki yerdə qurdum. Kağız kisənin bir tərəfi cırıldı və kömür yük yerinə töküldü. Amma kisədə qalan kömür də manqala gen-bol bəs edirdi. Əllərimi çırpıb, yük yerindən qəzetə bükülü qoyun budunu düşürdüm.

Liftdə budun yuxarı, ətli hissəsini qəzet parçalarından təmizlədim, aşıqlığından tutaraq zəngi basdım və budu iri çiçək dəstəsi kimi irəli tutdum.

Qapını artıq qonaqları qarşılamağa hazır olan Nina açdı, gülüb Oleqi çağırdı.

Ala-bəzək döşlük taxmış ev sahibini də gülmək tutdu.

– Bıçaqlar itilənib?

– Hər şey hazırdı, – Nina gülməyində davam edərək cavab verdi. – Amma qonşular bizi öldürəcəklər.

– İmkan tapmayacaqlar.

Oleq əti məndən alıb, mətbəxə apardı.

– Elə bilirsən ki, onlar tüstüdən boğulacaqlar?

Soyuducunun qapısı çırpıldı; biz ikilikdə qaldıq.

– Adam çox olacaq?

– İstədiyin qədər. Növbə ilə yedirtmək lazım gələcək.

Ondan daha nə soruşmaq olardı? Daha nə sual vermək olardı? Nina özü də sualları gözləmədən bir şey deyə bilərdi: nə istəyir onu, tamam boş bir şey, bir də ki, onunçün bu daha asan idi. Amma Nina mehribanlıqla çiynimi döyəcləyib mətbəxə getdi.

– Əti soyuducuya qoydun? – Ninanın arxasınca mətbəxə girərək, Oleqdən soruşdum.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə.

– Çıxart, doğramaq lazımdır.

– Saat altıdı, hələ heç nə hazır deyil, – o, əti soyuducudan çıxara-çıxara gileyləndi.

Mətbəx stolunun üstü növbənöv məzələr qoyulmuş nimçələrlə doluydu.

– Necə hazır deyil?! Bəs bu nədir? – Nina etiraz eləmək istədi, amma ərinin zarafatyana-hədəli səsi onu dayandırdı:

– İş başına! İş başına! Hamı iş başına! Sənsə, Edik, doğra ətini və haydı həyətə, kabab bişirməyə!

Yağ damcıladığından kömürlər çartıldayırdı, hərdənbir də alov dilləri qalxırdı. Ət yanmasın deyə manqala su səpdim. Ağımtıl, tünd iyli tüstü həyəti bürümüşdü.

Qəribə də olsa qonşular bu dəfə küy qaldırmadılar. Bir neçə oğlan uşağı – tamaşaçılar əllərindən gələn köməyi edirdilər: barmaqları yananda, ağızlarına təpə-təpə, üfürə-üfürə kababın hazır olub-olmadığını növbə ilə yoxlayırdılar.

Buğlanan kabab dolu qazançanı yuxarı qaldıranda, Vladimirskilərin bütün qonaqları cəm olmuşdu.

Mətbəx, qonaq otağı, jurnal stolunun dövrəsi və iki yumşaq kreslo qoyulmuş balaca otaq adamla dolu idi. Oturanı da vardı, ayaq üstə duranı da. Mən görünəndə səs-küy bir anda yatdı və hamı mənə diqqət kəsildi. Kiminsə hayqırtısı bu diqqəti yayındırdı:

– Qardaşlar, kabab gəldi, haydı!

Qazança əldən-ələ keçdi.

Alnımın tərini yaylıqla silərək, boş yer tapmaq ümidiylə boylandım.

– Bura gəlin!

Məni balaca otaqdakı kreslolardan birinin enli, hamar söykənəcəyində oturtdular, kimi salat gətirdi, çəngəl verdi, kimi araq tökdü.

– Yəqin siz Ninanı axtarırsınız? – həmin kresloda oturan qadın gülümsədi. Dibdən qaraya çalan sarışın saçlarını mirvari sırğalı qulaqlarının ardına yığmışdı. – Eyibi yox, eyibi yox, əyləşin, – mən qalxmaq istəyəndə qadın qoymadı – söykənəcəkdə oturduğumdan ondan çox hündür görünürdüm. – Hə, Ninanı axtarırsınız? – Qadın sualı təkrar etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hardan ağlınıza gəldi? – Təbəssümə təbəssümlə cavab verməli oldum.

– Bunu anlamağa nə var ki!

– Belə de!

Bu qadını birinci dəfəydi görürdüm: bir çox illər ərzində bu evə gələnlərin hamısıyla tanış olmuşdum, amma bu gün tanışlardan heç kim yox idi, olsa da burdan, öz yerimdən onları görmürdüm. Buna görə də tanış olmayan qadının eyhamları mənə qəribə göründü.

– Bəs gitaranız hanı?

– Aşağıda, maşındadır...

– Həmişəki kimi oxuyacaqsınız yenə?

– Həmişəki kimi...

Doğrudanmı mən onunla tanış imişəm?

– Hə də. Niyə belə təəccüblənirsiniz? Məgər bu evdə daha sevgi romansları oxumursunuz?

Qadının tez nəzərə çarpan açıq-saçıq danışığı söhbəti kəsməyə qoymurdu, söhbətinsə yeri deyildi, çünki yanımızda oturan kişilər söhbət etsələr də, qulaqları bizdəydi – hər halda mənə belə gəlirdi.

– Bağışlayın, siz bunu hardan bilirsiniz? Məgər hardasa sizin yanınızda oxumuşam?

Qadın qulağındakı mirvarilərlə son dərəcə uyğun gələn sadəlövh qonur-göy gözlərini süzdürdü.

– Nə qəribə adam imişsiniz! Sizin oxumağınız barədə əfsanələr qoşulub! Bir də ki...

– Bir də ki, nə?

Qadın özümü itirdiyimi sanki sezmirdi.

– Sizin bu evə cəngavər sədaqətiniz adamı heyrətə gətirir. Sizinçün dil qoyummu?

– Yox, sağ olun.

Başqa bir yerə keçib oturmaq imkanı yarandı, amma sırğalı qadının bu söhbəti niyə saldığını və ümumiyyətlə, məni hardan tanıdığını öyrənmək həvəsi məni yerimi dəyişməyə qoymadı.

– Kabab yordu sizi yəqin ki! – Qadın nimçəmə dil qoydu və uzunsov, qəşəng sifətini dartıb, yenə gözlərini mənə zillədi. – Çox yorulmusunuz?

– Yox.

Qadın gülümsədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Siz deyəsən bu evdəki bütün qonaqlıqlarda kabab bişirib, qonaqları Ninanın şərəfinə oxuduğunuz sevgi romansları ilə əyləndirirsiniz?

Sual elə mehriban, saf, sadəlövh uşaq tərziylə verilmişdi ki, onun əsl mənasını anlasan belə, inciməyin yeri deyildi.

– Burda pis nə var ki? Bunlar mənim dostlarımdır.

– Dostlarındır?! – Birdən qadının geniş açılmış şəffaf gözlərində açıq-aşkar istehza parıldadı.

– Mən sizi heç cür anlaya bilmirəm! – Daha dözə bilməyib acıqlı tərzdə dedim və hiss elədim ki, səsim çox gur çıxdı.

Stol arxasında oturan kişilərin hamısı birdən mənə tərəf döndü. Qadın çiyinlərini çəkdi və onların təəccüblü baxışlarına təəccüblü baxışlarla da cavab verdi. Boz, qalın kirpikləri də dazını örtməkçün səylə daranmış saçları olan bir kişi çox güman ki, onun əri idi.

– Niyə qışqırırsınız? – dedi. – Məncə sizə elə bir şey deməyiblər.

Bu artıq kollektiv bir oyuna oxşamağa başlayırdı.

– Niyə inciyirsiniz? – qadın yenə həmin sadəlövhlüklə, dostcasına bir tərzdə davam elədi. – Hərə öz istədiyi kimi yaşayır. Bir də ki, buna bizim hüququmuz var.

– Nə hüquq? Boş-boş danışmayın!..

Nimçəni kənara qoyub qalxdım. Görünür, səsimi qonaq otağında eşitmişdilər – ordan təəccüblənmiş halda Nina çıxdı.

– Adam arasında özünüzü aparmağı öyrənin, cavan oğlan, – tüklü gözləri olan ərin daz başıyla tam əkslik yaradan sıx, çal saçlı, kök, yaşlı bir kişi söhbətə qoşuldu.

– Nə olub? – Nina guya mübahisəli vəziyyəti sezmədən hamıya gülümsündü və mənim əlimdən tutdu.

– Məncə, səni qısqanırlar, Ninoçka. – Qadın dedi. – Başqa izah ola bilməz.

– Dayan bir, dayan bir, indi hər şeyi aydınlaşdırarıq. – Nina gülümsəməkdə davam edərək, məni arxasınca uşaq otağına dartdı.

– Nə olub? – Qapı örtülən kimi çöhrəsindəki təbəssüm yox oldu. – Nə olub, elə bil sancıblar səni?

– O qadın kimdi?

– Oleqin dekanının arvadıdı. Nə məsələdi axı?

– O hardan bilir ki, mən həmişə sizin evdə oxuyuram?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kabab bişirməyimi də eləcə?

– Sən Allah buna bax, kimsə danışıb yoqin!

– Kimsə?

– Sözdü də dedim. Burda nə var ki? Yox, sən düzələn deyilsən...

– Səni qısqandığımı da özün danışmısan ona?

– Ay Allah, milçəyi fil eləmə. Asiyalısan ki, asiyalı...

– Bəli, asiyalıyam... Məni lağa qoyanda da xoşuma gəlmir...

– Bunlar sənin öz uydurmalarındır... Onlar mehriban, ziyalı adamlardır...

Oleq başını qapıdan içəri soxdu.

– Dostlar, şəxsi söhbətləri qurtarın. Edik, yaxşı olardı ki, sən gitara dalınca gedəydin. – Hamı eşitsin deyə o, ucadan və şən bir səslə danışırdı. – Bu nə nömrələrdi çıxarırsan? – Otağa girəndə artıq başqa bir tonda, ciddi və incikliklə soruşdu. – Dəmləşmisən yoxsa? Adamlar birinci dəfədir ki, bizə gəliblər. Burax qafqazlı xasiyyətini... Axı nə dedi ki, o, sənə? Sən bizdə heç vaxt oxumamısan? Sənin artıq yüz ildi ki, Ninaya vurulduğunu institutda hətta gözətçi də bilir! Get üzr istə onlardan. Bununla da qurtaraq getsin!

– Heç kimdən üzr istəməyəcəyəm.

– Heç istəmə də. – Oleq üz-gözünü turşutdu. – Cəhənnəmə ki. Təki camaatı rahat qoy! Otur yerində, sus! – O, qapıya sarı getdi. Nina onun arxasınca yönəldi.

– Hər şey başqa cür oldu, – onları dayandırmaq istədim. – Onlar açıq-aşkar mənə lağ edirdilər...

Oleq boş bağlanmış qalstukunu düzəldib, astanada addımlarını yavaşıtdı.

– Qulaq as. – O, üzümə baxmadan dedi, – doğrudanmı hamını bezdirdiyini başa düşmürsən? Uşaq deyilsən ki? Nəhayət, hər şeyin həddi olmalıdı, ya yox? Ninanın sənə yazığı gəlir, mən dözürəm, amma sən axı özün başa düşməlisən ki, daha belə davam edə bilməz. Bu uşaq oyunlarına son qoymaq lazımdır. Sevirsən, əzab çəkirsən, hər şeyi başa düşürəm, bəs axırı necə olsun! Öz həyatın barədə də düşünməlisən axı...

Nina məni uşaq kitabları olan rəflərin və oyuncaq maşınların yanında qoyub, dinmədən, bir kəlmə demədən onun arxasınca çıxdı. Maşınlardan birinin qırmızı təpəsində "hi-hi" sözləri yazılmışdı. Yaranmış vəziyyətə nə gözəl uyğun gəlirdi bu söz!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O an məndə qəribə bir hal əmələ gəlmişdi: Oleqin dediklərindən sonra hələ universitetə qəbul imtahanları verdiyim vaxt vurulduğum Ninaya, məni gülüş hədəfinə çevirən Ninaya inciklіyim mənasını itirdi. Dəhşətli burası idi ki, Nina ərinin dediklərinə dinməzcə qulaq asdı, etiraz eləməyə, mənə heç olmasa bircə damcı da olsa bəraət qazandırmağa ötəri cəhd də göstərmədi. Həmin o Nina ki, bu on dörd ildə dil boğaza qoymadan beynimə yeridirdi ki, mənim sevgimə ehtiyacı var, onu yaşadan mənəm!

Yalnız irəli baxa-baxa, yanlarından ötdüyüm adamları milçək qədər də sezmədən xolldan keçib getdim. Sağdan bircə anlığa görünüb yox olan qadın həm Ninaya, həm də mənim on dörd illik həyatımı təcrübəli onkoloq-cərrah cəldliyi ilə kəsib atan sırğalı qadına oxşayırdı.

Arxa oturacaqdakı gitaranı götürüb asfalta çırpmaq istədim. Amma qapını açıb sükan arxasına keçəndə acığımı maşının üstünə tökdüm. Ağrıdan nərildəyirmiş kimi, maşın dalı-dalı həyətdən şütüyüb çıxdı və gedəcəyim səmtə dönüb, tək-tük piyadaları qorxuda-qorxuda Moskvanın boşalmış küçələriylə götürüldü.

...Alik yatmamışdı – kabinetdə işıq yanırdı. Heç kəslə bir kəlmə belə söhbət eləməyə həvəs duymadığımdan o saat yataq otağına keçdim, soyunmadan üzüstə taxta yıxıldım.

Mənə elə gəlirdi ki, gözləri işıqdan düşmüş qoca musiqiçi günündəyəm. Bəs niyə məhz gözləri işıqdan düşmüş? Ona görə ki, ilk baxışdanca hamının gözünə sataşan şeyi mən görmürdüm, demə illərlə ehtiyatla qorunan, son dərəcə istəkli olan alət çoxdan çürüyübmüş və bircə himə bənd imiş ki, yüngülcə bir hərəkətlə toxunasan, dağıla... Bəli, bəli, təkcə toxunmaq qalırdı. Amma mənsə... eh, illərlə aza qane olmuşam, kirpiklərimlə od götürmüşəm, ehtiyatla toz üfürmüşəm... Basarkeçərli ulu Ələsgər demişkən: keçən keçdi, olan oldu.

Qapı arxasındakı addım səsləri məni özümə tutduğum divandan xilas elədi. Alik yataq otağına boylandı.

– Yatmırsan?

– Yox.

– Sən məni bağışla, – o özünü güclə ələ aldı, – amma sənə evə getmək lazımdı... Heç olmasa iki-üç günlüyə... Yaxşı deyil... Qəbri



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaydaya salmaq lazımdı... Ev də baxımsızdı... Sənsiz mümkün deyil. Təki sən de – nəyi necə eləyək, biz hazır, başa çatdırarıq...

Gözlərimi yumdum. Ona nəsə inandırıcı bir cavab, təsəlliverici bir şey demək lazım idi. Amma nə?

– Sən haqlısan, Alik... Mən günahkaram... Hamının qarşısında... – Baş yerindəydimi ki?! Ağlıma konkret heç bir fikir gəlmirdi. Səsim Aliki qorxutdu.

– Sən narahat olma. Biz vaxtlı-vaxtında qəbiristanlığa gedirik. Hər şey qaydasındadır. Elə onun sağlığında da uşaqlar yanına gedib-gəlirdilər.

– Sağ olsunlar. Sağ olun hamınız. Çalışacağam gəlim, Alik... Bacardığımı eləyəcəyəm. – Yenə gözlərimi yumdum.

O, qapını ehmalca arxasınca örtüb çıxdı, mən isə birdəfəlik başa düşdüm ki, həyatımda nəsə hər şey artıq çoxdan, lap qabaqcadan müəyyən olunub, hər addımım, hər sözüm, hər işim nə vaxtsa qanuna minmiş səhv bir qərarın nəticəsidi... Hər şeyin başladığı o anın *qurumu beləydi ki, (bu, Oleq Vladimirskinin bir fizik dostunun* ifadəsi idi), başqa cür hərəkət eləmək mümkün deyildi, – Moskvada qalmaqçün başqa səbəb isə yox idi, amma gedə də bilməzdim. Ninaya görə. Yalan yalnız o vaxt kömək edə bilərdi...

Universitetin qəbul imtahanlarındakı uğursuzluğumu anamdan gizlədəndən sonra, əməlli-başlı büdrədim! Yavaş-yavaş öz həyatımı idarə eləmək qabiliyyətini belə itirdim. Özü də elə-belə, azmaz yox ey, tamam, birdəfəlik! Bir yalan dalınca başqa yalanı gətirirdi. *Əgər universitetə qəbul olunmusansa, təbii ki, kursdan kursa* keçməli, imtahanlar verməli, təcrübəyə getməli və nəhayət diplom almalısan. Heç nəyi dəyişmək mümkün deyildi: əhvalat dözülməz dərəcədə uzandı...

O vaxt mənə elə gəlirdi ki, bircə il, heç olmasa bircə il sonra anama əsl həqiqəti deyə biləcəyəm. Nəydi ki – təzədən qəbul imtahanları verib, universitetə girərəm, bir tələbə kimi – həm də ki, birinci, ya ikinci kursun nə fərqi? – Nina ilə birlikdə evə gələrəm, onu anamla tanış edərəm və yalanımın səbəbini açaram. Mən əmin idim ki, Ninanı görəndən sonra məni başa düşüb, bağışlayacaq. Amma təəssüf ki, aramızdakı ömürlük sevgiyə səmimiyyətlə inandığım Nina yazda beşinci kurs tələbəsi, universitetin basketbol komanda-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sının kapitanı (Nina basketbolu çox öyrənmək istəyirdi) Oleq Vladimirski ilə tanış oldu və sonra hadisələr elə sürətlə baş verdi ki, qəbul imtahanları vaxtına məndə universitetə heç bir həvəs qalmadı, həm də imkanım da yox idi – başıma heç nə girmirdi, fabrikdəki işi də ata bilmirdim, amma nəyin hesabınasa yaşamaq lazım idi, ya yox?

Demək olar ki, evə gedib-gəlmirdim; anam əmin idi ki, mən oxuyuram və eşitdiyimə görə mənim məktublarımı fəxrlə dostlarıma göstərirdi, dostlarla görüşdən isə mən qaçırdım.

Anamın dəfnində aydın oldu ki, dostlarım mənim özümü necə aparmağımdan narazı olsalar da, mən əlçatmaz ucalıqlara qalxmış əfsanəvi bir şəxsiyyət kimi tanınıram. Hamı belə hesab edirdi ki, əlbəttə, xüsusi səyimə görə qapalı elmi-tədqiqat mərkəzində işləyirəm və doktorluq müdafiəmə də lap az qalır.

Dəfn qurtaran kimi evin qapı-pəncərəsini mismarlayıb, hüzürün ənənəvi üçünə və yeddisinə belə qalmayıb, Moskvaya yola düşdüm. Heç qırxında da gəlmədim. Ona görə ki, pulum yox idi, hamı isə mənim çox pullu adam olduğumu güman edirdi...

Görəsən maaşlarının az olmasına baxmayaraq, qadınlar qənaət edib necə pul yığa bilirlər? Yarıqaranlıq həyətdən keçəndə də, dik burulan dar pilləkənlə köhnə Moskva evinin ikinci mərtəbəsinə qalxanda da borc tapacağıma olan-qalan zəif ümid məni bir an da tərk etmirdi. Qapı arxasından gələn qəribə küyə – asta boğuq səslərə, acıqlı pıçıltıya, döşəmənin cırıltısına bir az qulaq verib, zəngimin doğurduğu həyəcanı boğmaqçün cavab gözləmədən adımı dedim. Qapı o saat açıldı. Məni qarşılayan xoşbəxt təbəssüm təkcə mənə aid deyildi. Gecənin bu vaxtı qapının zəng səsi şükür Allaha ki, xoşagəlməz deyilmiş, həyəcan yersizmiş – məni uzun, geniş, tərpənməyə yer olmayan dəhlizə buraxan Tanyanın üzü elə buna görə də durulmuşdu, çiçəklənmişdi.

– Elə bildik sahə müvəkkilidir, – qapını xüsusi bir cəldliklə arxamca bağladı, çox şən görünürdü.

Qarınqulu Tolik ayaqyolundan, altı yaşlı balaca Maşa isə çarpayının altından çıxdı. Sahə müvəkkilinin axtardığı Tolikdən fərqli olaraq, Maşa lazım gəldi-gəlmədi çarpayının altında gizlənirdi və müvəkkilin gəlişinin onunçün tamam təhlükəsiz olduğunu nə qədər izah eləsən də, ona heç bir xeyri yox idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs Olya hanı? – Tanya nə vaxtsa hədiyyə verdiyim armudu stəkanda çay gətirəndə soruşdum.

– Məşqdədir.

– Təzə nə var, nə yox?

– Hələ də gözləyir, – Tanya davranışı camaatın söz-söhbətinə səbəb olan bacısını özündən uzaq eləmək cəhdiylə ah çəkdi.

Tolik iştahla buterbrod yeyirdi.

– Hə, necədi? – Ondan soruşdum. Mən əslində həyatı nəzərdə tuturdum. Tanyaya xoş olsun deyə, Toliki də söhbətə cəlb eləmək lazım idi. Çünki hər şey göz qabağındaydı – Tanya öz aşnasına görə utanırdı, xəcalət çəkirdi.

– Bu dəqiqə gedirəm. – Yazıq ağzındakıları bir dəfəyə uda bilmədi, udqundu, boğazını arıtlayaraq xeyli öskürdü.

– Məktub gəlib...

– Hardan?

– Taqanroqdan.

– Sən ki, daha içmirsən?

– Yaxşısını onlar bilir. – Tolik Tanyaya çəpəki nəzər saldı və məktubu çıxarmaqçün əlini cibinə saldı. – Getmək lazımdı.

– Axmaqlıqdı. – Tanya növbəti buterbrodu Tolikə uzatdı; Maşa burdaca, stol arxasında oturub böyüklərin söhbətlərinə qulaq asa-asa şəkil çəkirdi. – Sənin taleyin kimlərinsə, kənar adamların əlindədi.

– Onlar kənar adamlar deyillər, – Tolik buterbrod yeyə-yeyə yorğun bir səslə etiraz elədi. – Onlar mənim həyat məramımı, kimliyimi yaxşı bilirlər. Əgər yazırlarsa ki, "vaxtdır", deməli, tezliklə içkiyə qurşanmalıyam.

Məktub Taqanroq psixiatriya xəstəxanasının əməkdaşlarından gəlmişdi və belə başlanırdı: "Əziz Tolik, niyə gəlib çıxmırsan? Səni gözləyirik. Vaxtdır..." Nədənsə alkoqolizmdən o, yalnız Taqanroqda müalicə olunurdu. – Moskvada doğulsa da, bütün ömrünü burda keçirsə də.

– Görürsən? Getmək lazımdır...

– Doğrudanmı səndə bir damcı da iradə yoxdur?! – Tanya acıqlandı. – Sən axı söz vermişdin!

Tolik günahkarcasına sarışın bığlarını tərpədə-tərpədə yeyirdi; hətta uzun illərin əyyaşlığı belə Tolikin səhhətinə təsir eləməmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İçkidən başı ayılan vaxtlarda baxan deməzdi ki, o, ağır xəstədir: nə gözləri qızarardı, nə əlləri əsərdi, nə də damar genişlənməsi olardı. Özünü rəssam hesab eləyən, buna görə də heç yerdə işləməyən Tolikin olduqca sağlam görünüşü vardı.

Amma Tolik sahə müvəkkilindən tamam başqa səbəbə görə gizlənirdi. Tanya onun gəlişinə həmişə sevinirdi. Həvəslə yanında saxlayırdı (əslində elə bir sevgisi də yox idi ona, necə deyərlər, təsadüfən bir-birlərini tapmışdılar) amma əri əslində başqa adam hesab olunurdu. Məhz hesab olunurdu. Çünki Tanya ilə əri arasında heç bir münasibət yox idi və o bu evə son vaxtlar tez-tez gəlməyə başlamışdı, özü də həmin sahə müvəkkilinə görə. Tolikdən fərqli olaraq, o, çox istəyirdi ki, onu burda görsünlər və bu faktı hər hansı bir rəsmi protokolda qeyd eləsinlər.

Onun adı Yaşa idi. Deyilənə görə o, dahi kinorejissor idi; onun əyalət kinostudiyalarının birində çəkdiyi qısametrajlı film doğrudan da bir neçə beynəlxalq mükafat almış, amma nədənsə studiyanın rəhbərliyini ona qarşı qaldırmışdı.

Yaşa Moskvaya gəlmişdi, ölkənin iri kinematoqrafçıları onu rəğbətlə qarşılamışdı və o, paytaxtda tammetrajlı film çəkmək barədə danışıqlara başlamışdı. Bu iş görünür, çox çətin, uzun çəkən bir iş idi, qısametrajlı film üçün aldığı pullar qurtarmış, başlıcası isə Moskva qeydiyyatının vacibliyi ortaya çıxmışdı: deyilənə görə qeydiyyat – vəziyyəti xeyli yüngülləşdirə bilərdi. Elə burdaca Tanya ilə Olyanı xatırladılar, ortaya təzə-təzə çıxan dahiyə onlardan başqa ayrı kim kömək edəcəkdi ki?

Olya öz Çindyaykinini gözləyirdi, Tanya isə heç nə itirmirdi – Tolikə ərə getməyə hazırlaşmırdı. Maşanın atası isə uşaq doğulandan bir il sonra yoxa çıxmışdı – buna görə də Tanyanı seçdilər. Tanya heç bir etirazsız-filansız ZAQS-a getdi ki, az tanıdığı Yaşa Moskvada öz dahiyanə filmlərini çəkmək imkanı əldə etsin. O vaxtdan Yaşa bu evə nadir hallarda gəlirdi, ac olurdu, utanırdı, özüylə də həmişə içində ən zəruri şeylər – ülgüc, diş şotkası, ehtiyat alt paltarı və bir neçə ssenari ilə bərabər filminin iki girdə tənəkə qutuları olan sarı portfel gəzdirirdi.

Yaşanı yedizdirir, yuyunub dincəlmək imkanı verirdilər və o, tammetrajlı film uğrunda mübarizəsini davam etdirmək üçün yenə yox olurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tolikin Yaşadan xoşu gəlmirdi. Bir dəfə Yaşa üzrxahlıqla qeyd eləmişdi ki, biskvit piroqla duzlu xiyarı qarışdırmaq mədəni poza bilər və bədbəxtlikdən gecəyarı polad kimi möhkəm olan Tolik özünü pis hiss eləmişdi. Səhərisi yaradıcı təbiətə malik, mövhumata və mistikaya meyilli olan Tolik dedi ki, Yaşanın pis gözü var və onu evə buraxmaq təhlükəlidir. Bu fikrə heç kim ciddi yanaşmadı, amma Tolikin inadkarlığı Yaşanı bu evdən soyutdu. Hər şey bəlkə elə beləcə də davam edərdi, əgər beli sınmamış qonşulardan kimsə Tanyanın nikahından xəbər tutub, hara lazımdı ora xəbər verməsəydi. O vaxtdan sahə müvəkkili tez-tez gəlirdi və Tolikə etiraz edərək, Yaşanı soruşurdu. Rəsmi dillə desək, o, Yaşa ilə nikahın saxta olduğunu deyib durur və onu qeydiyyatdan çıxarmağı tələb edirdi. Evdəki əsəbi vəziyyət bununla izah olunurdu. Qapı hər dəfə döyüləndə növbəti yoxlanış olduğunu düşünürdülər.

İndi Yaşa bura ayaq açmışdı, həmişə nəsə bir xahişlə qonşulara müraciət edir, diqqəti özünə cəlb etməkçün pilləkən meydançasında bərkdən çəkic döyürdü, həyətin yaşıllaşdırılmasında və sahmana salınmasında iştirak edirdi, amma sahə müvəkkili çox sayıq idi – o, tələb edirdi ki, əgər Tanya doğrudan da onun arvadıdırsa, qoy onda Yaşa zəhmət çəksin evdə gecələsin. Sahə müvəkkilinin istəyini həyata keçirmək isə müşkül məsələ idi. Təkcə ona görə yox ki, bu, Toliki haldan çıxarırdı, həm də ona görə ki, mənzildə yer çatmırdı, ikinci otaqda Olya ilə Maşa yatırdılar. Olya isə Çindyaykini gözləyirdi və onun otağında başqa kişinin görünməsi ağlasığmaz iş olardı. Olya ürəyiaçıq adam idi – Yaşanın açılma çarpayıda yatmasına etiraz etməzdi – amma Olya Çindyaykinin ovqatının pozulmasını istəməzdi. Onun deməyinə görə Çindyaykin yaman qısqanc idi: Olyanın dram teatrında suflyor, onunsa aktyor işlədiyi Novosibirskdəki altı aylıq birgə yaşayış ərzində Çindyaykin Olyanı çox şeyə inandırmışdı: öz sevgisinə, Olyanın Moskvaya qayıdıb onu orda gözləməsinin vacibliyinə və qısqanclığına, paytaxt səhnəsinə layiq şəxsi istedadına və bir sıra qeyri şeylərə. Olya sönməz məhəbbət və ümidlə, səbirlə həmin o Çindyaykini artıq iki il idi ki, gözləyirdi. Bufetdə – vazadakı altmış beş manat Olyanın Çindyaykinin birinci dəfə gələcəyinə söz verdiyi gün üçün yığdığı yüz əlli manatdan qalanı idi. Nə vaxt gələcəyi hələ bilinmirdi, son vaxtlar isə Çindyaykindən heç bir xəbər-ətər yox idi, hələ üstəlik də yox olmazdan əvvəl o, qabaqcadan bilet pulu göndərilməsini xahiş etmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə yemirsən? – Tanya buterbrod qoyulmuş nimçəni irəli çəkdi.

Təşəkkür edib, yeməkdən boyun qaçırdım. Saatıma baxdım.

– Neçədir? – Tolik maraqlandı.

– On birə iyirmi dəqiqə qalıb.

– Nəsə Olya gecikir, – Maşa şəkil çəkə-çəkə dedi.

– Gedib yataydın, – Tanya inamsızlıqla təklif etdi.

– Olyanı gözləyirəm.

– Nahaq. O bu gün gec qayıdacaq.

Təəccübləndim. Adətən Olya məşq qurtaran kimi evə qaçırdı.

– "İki veronalı"nın yüzüncü tamaşasını qeyd edirlər, – Tanya izah etdi. – Onunla işin vardı?

Başımı tərpətdim və dedim.

– İkinizə də işim düşüb. Bir halda ki, Olya yoxdu, bəlkə sən... birtəhər... – Tutuldum. Toliksiz və Maşasız, təklikdə daha asan olardı, amma onlar aşkar bir maraqla sözümün canını gözləyirdilər. – Mən evə uçmalıyam. Lap vacibdi... Tərs kimi, pulsuzam. Dedim di, bəlkə sizdə oldu? Bəlkə nədən ötrüsə yığmısınız, hələlik sizə lazım deyil... – Bir aydan sonra qaytarardım.

– Mən də Taqanroqa getməliyəm, – Tolik qaşqabağını tökdü.

Tanya ona hiddətlə baxdı:

– Heç yana getməyəcəksən.

Tolik yenə əlini cibinə dürtüb məktubu çıxartdı.

– Oxu bir, gör nə yazırlar?

– Yaxşı, sonra danışarıq, – Tanya onun sözünü kəsdi, – gecə qaçmadı ha!

– Onların pulu yoxdur, – Maşa yerindən dilləndi – yığmırlar... Nə qədər deyirəmsə, xeyri yoxdur!

Tanya qıpqırmızı oldu; Olya kimi o da boyun qaçırmağı bacarmırdı. Bacıların həyatındakı çətinliklərin çoxu bu səbəbdəndi: "yox" deyən dilləri yox idi.

Mən tələsik köməyə çatdım:

– Mən hər ehtimala qarşı dedim. Yoxdu yoxdu də. Birtəhər keçinərəm...

Tanyanın sifətindəki qızartı yavaş-yavaş çəkilirdi.

– Neyləməli? – O elə bil pul axtarırmış kimi köməksiz halda ətrafına boylandı. – Necə olsun? Mənim cəmi otuz manatım var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs nə yeyəcəyik? – Tolik sakit halda mızıldandı.

– Bir yerdən taparıq...

– Yox, yox, – Daha dözə bilməyib durdum. – Götürmərəm. Bu, danışıq olmadı!

Tanyanın sifəti allandı, amma bu dəfə qan-qırmızı, ləkə-ləkə...

– Sən uçmalısan axı... Biz taparıq özümüzçün... Olyanın da iyirmi beş manatı var. Birtəhər dolanarıq...

– Sağ ol, Tanyuşa. – Mən mehribanlıqla onun əlinə toxundum. – Çox minnətdaram, amma...

Tanya daha məni dilə tutmadı.

– Xahiş edirəm, bağışla. Heç yaxşı olmadı!

– Hər şey qaydasındadı... – onu sakitləşdirdim, – əslində gərək sən məni bağışlayasan.

Maşa qələmini bir qırağa qoyub, qəfildən qalxdı, bufeti açıb, vazadan bir neçə onluq götürdü, – bunlar Çindyaykin üçün yığılan onluqlar idi.

– Bəs bunlar nədi, pul deyil? – Maşa əllərini başı üstünə qaldırıb uşaq heyrətiylə soruşdu.

– Maşa! – Tanya qışqırdı. – Həddini aşma!

Qapqara kəsilmiş Tolikin eyni-gözü açıldı.

– Maşa, o pullara toxunmaq olmaz! – onun sifəti gicbəsər bir şəkildə əyildi. – O pullar sənin deyil, onları sənin üçün ayırmayıblar. – Tanya əlləriylə başını tutub donmuşdu, bunun nəylə qurtaracağını gözləyirdi. Maşa isə uşaq saflığı ilə pulu onlara uzatmaqda davam edirdi.

– Sizin o Çindyaykininiz onsuz da gəlməyəcək, – səsində təntənə vardı. – O, Olya xalanı aldadıb. Mən bilirəm.

– Maşa, sus, – Tanya əzab qarışıq pıçıltıyla xahiş etdi.

– Bunu Olya xala da bilir. Artıq iki il keçib...

– Maşa pulları yerinə qoy, – bacardığım qədər ciddi tərzdə dedim, – uşaqlar böyüklərin işinə qarışmazlar.

– Maşa, Maşa! – Tanya əlacsızlıqdan başını buladı, onun gözləri yaşarmışdı.

– Nə düşmüsünüz onun üstünə?! – Tolik birdən bozardı. – Maşka haqlıdı, o qəpik-quruş niyə orda kif atsın axı? Olya o pullara ona görə dəyəmmir ki, yersiz söz-söhbət olmasın. Üzü gəlmir... Dava-dalaşsız xərclənib getsə, Olya buna yalnız sevinəcək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maşa dinməzcə pulları stolun üstünə qoydu, sakitcə gedib yerində əyləşdi, yenə qələmi əlinə aldı.

Bir müddət heç kəsdən səs çıxmadı. Tolik özünü çəkib, təkəbbürlə başını buladı. O öz fikrini nadir hallarda, qaydasında, ədəb-ərkanla deyə bilirdi ki, ətrafdakılar acıqlanmasın...

– Bilmirəm, mən heç nə bilmirəm! – Tanya fikirli halda dilləndi. – Bəlkə də... Ola bilər.

– Bundan aydın məsələ?! – Tolik darıxmış, bezikmiş halda, təəccüblə çiyinlərini çəkdi.

– Bilirsənmi, o haqlıdı, – Tanya birdən tam bir qətiyyətlə dedi. – Bu əhvalata son qoymaq lazımdı. Doğrudan da, nə az, nə çox – düz iki il keçib. Biz Olya ilə oyun oynayırıq, nədi? Yazığımız gəldiyindən onunla nəzakətlə davranırıq! Bununla da yıxmırıqmı Olyanın evini?!

– Hətta bilet pulu da göndərmişdi, yenə gəlmədi. – Tolik əlini pullara sarı uzatdı. – Nə qədər qalıb orda?

– Dəymə! – Maşa böyüklərdən də qətiyyətli idi və sol əliylə pulları qırağa çəkdi.

– Dəymirəm! Saymaq istəyirdim! – Tolik narazılıqla səsini ucaltdı. – Görürsən, kobudluğa bir bax? – o, Tanyaya sarı döndü.

– Mən kobudluq-zad eləmirəm, – Maşa sakitcə şəkil çəkməyində idi. – Bu pullar Edik dayı üçündü.

...Mən həyətə çıxanda Maşa pəncərədən boylanıb, əl edirdi. Onun yıxılmaması üçün böyründə dayanan Tanya da əlini qaldırdı.

– Yaxşı yol, – Maşa zil səsiylə qışqırırdı. – Tez qayıt!

Cavabında mən də əlimi yellədim və cəld dönüb getmək istəyəndə az qala Olya ilə toqquşacaqdım.

– Bağışla, – Olya gülümsündü. Mağaza reklamlarının tünd-bənövşəyi parıltısı onun girdə, ağıllı gözləri və qəribə bir hüznə bələnmiş dodaqları olan məhzun məsxərəçi sifətinə xələl gətirmirdi.

Mən də üzr istədim, – pencəyimin sağ cibindəki altmış beş manat mənə elə xəcalət verirdi ki, yer yarılsaydı yerə girərdim. Buna görə də heç nə əlavə edə bilmədim. Pul söhbəti isə açılmalıydı. Amma necə? Yenə sağ olsun, Maşa kömək elədi.

– Olya, biz sənin pullarını Edik dayıya verdik. – Maşa yenə nəsə qışqırmaq istəyirdi ki, Tanya onu içəri dartdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hansı pulları? – Olya çaşqın bir anlaşılmazlıqla mənə baxırdı. Zülm indi başlanırdı, mənim zülmüm. Birtəhər cəhd elədim.

– Bağışla... Mən borc istəyirdim. Tanyanın yoxu idi. Maşa isə... Nə isə, sənin pullarını götürdük. Vazada olan pulları. O pullar hələ ki, sənə lazım deyil? Bir aydan sonra qaytaracağam... Heç yanda tapa bilməmişdim. – Əlimi cibimə saldım. – Budur onlar... Əgər...

Olya tələsik əlini yellədi:

– Neyləyirsən? Onsuz da çoxdandı qalmışdı boş-boşuna. Götür, xahiş edirəm.

– Sağ ol... Təcili evə uçmalıyam.

– Başa düşürəm... Əlbəttə. – Olyanın parıldayan şabalıdı gözləri gülümsədi, razılıqla başını yellədi və lütfkarlıqla dedi: – Yaxşı yol.

– Sağ ol...

Yenə təbəssüm, başın məhzun, sehrkar hərəkəti, sanki boğulan hönkürtüdən titrəyən kürək... və Olya giriş qapısında yox oldu. Mən qeyri-ixtiyari onun arxasınca bir neçə addım atdım və dayandım. Mənə elə gəldi ki, qaranlıqdan boğuq hıçqırıq səsləri gəlir. – Mən buna demək olar ki, tam əmin idim: amma Maşa yenə də pəncərədə göründü və onun səsi lap qulağımın dibində cingildədi:

– Yaxşı yol! Yaxşı yol! – Anasının bərk etiraz eləməsinə baxmayaraq, o, var gücüylə qışqırırdı.

O biri gün başımda qırmızı kartondan qayrılmış məxmər qotazlı sombrero gitarada çala-çala fabrik klubunda ispan mahnısı oxuyurdum: "Ana, evimizə qayıdacağam". Kirpiklərimin zorla saxladığı göz yaşları içində tamaşaçılarla dolu zal kiminsə əyləncə xətrinə əydiyi, burduğu, əzdiyi iri "otkrıtkaya" oxşayırdı və mən birdən-birə, qəfildən, qəribə bir sehrlə duydum ki, artıq dözə bilmirəm, gücüm çatmır, nə vaxtsa könüllü olaraq boynuma götürdüyüm yükün ağırlığından yıxılacağam. Yox, daha bu cür yaşamaq mümkün deyildi! Hər addımbaşı yalan danışmağa, ürəyimdə bir şeyi tutub, dilimdə ayrı şeyi deməyə, özü də hər dəfə dediyim sözləri ölçüb-biçməyə həmsöhbətlərimin bu sözlərə inanıb-inanmadığına, məni nə cür tanıdıqlarına, etibar elədiklərinə, yeri düşəndə satıb-satmayacaqlarına fikir verməyə, daim gözdə-qulaqda olmağa daha taqətim qalmamışdı...

Direktor limonlu çay içə-içə selektorla təchizat şöbəsinə nəsə deyirdi: yenə hardasa yükümüzü az vurmuşdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mane olmayım deyə çıxmaq istədim, amma o, əliylə dayanmağıma işarə elədi.

– Səni ora göndərə bilərəm. – Bu söz lap hədə kimi az qala iki saat qaz kamerasında oturmaq təklifi kimi çıxdı, – birlikdə hərlənin orda. Amma təki keçə olsun...

Selektor çaqqıldadı, söndü, direktor çayını içdi.

– Gətirdin? – O, nəhayət mənə tərəf dönərək bir az ləng soruşdu.

– Yox. – Mən yaxına gəldim. – Ümumiyyətlə, mən heç yanda oxumuram.

Üzündəki qeyri-müəyyən dalğın ifadə bir müddət dəyişmədi, görünür, mənim etirafıma nə cavab verəcəyini fikrində götür-qoy edirdi.

– Nə olsun ki... – O mənə elə diqqətlə baxırdı ki, elə bil birinci dəfəydi görürdü. – Olur bu cür işlər. Hər şeyə hazır olmaq lazımdır. – Nəhayət, o nəsə bir qərara gəldi. – Birisi gün birlikdə idarəyə gedirik. Səni bəzi adamlara təqdim edərəm...

– Birisi gün imkanım yoxdu, Filip Petroviç – səsimin qətiliyinə özüm də təəccüb elədim, – elə buna görə gəlmişəm... – Ərizəmi stolun üstünə qoydum.

– Hə? Görək nə yazmısan burda? – "Xahiş edirəm mənə növbədənkənar üzürsüz məzuniyyət verəsiniz". Axı nə əsasla? Nə olub, de görək? Bəs əmrdə nə yazaq?

– Yazın ailə məsələləri.

– Ailən varmı ki?

– Onda səhhətimə görə.

– Bəs bülleten hanı? De görək nə olub sənə axı?

– Evə uçmalıyam.

– Ananın yanına? Eh, o ki, ölüb. Niyə gedirsən?

– Lazımdır.

– Necə yəni lazımdır? Onda yetən gəlib desin ki, lazımdır. Bəs kim işləyəcək? Bu istehsalatdır axı! Bir də ki, səni heç başa düşə bilmirəm, mühüm məsələ həll olunur, sən işin içindəsən, hər şeyi də danışmışıq. Sənsə hər şeyi alt-üst eləyib çıxıb getmək istəyirsən! Heç bir səbəbsiz-zadsız. Bu bir az ciddi çıxmır axı!

– *Bu axırıncı dəfədir...*

– Nə axırıncı dəfədi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hər şey. – Yenə də səsimdə aydın seçiləsi bir ahəng duydum... – İcazə verin getməyə, hər şey düzələcək. Sizə söz verirəm...

– Di yaxşı. – O, gözlərini məndən çəkib çoxrəngli diyircəkli qələmiylə yazmağa başladı.

Orda nə yazmışdı, baş açmaq olmurdu, amma katibə ərizəni alan kimi əmri makinada çıxarmağa başladı...

Əlbəttə, bilirdim ki, Nina imkan eləyən kimi yenə yanıma qaçacaq; adətən aramızın dəydiyi belə nadir hallarda olduğu kimi, məni sakitləşdirib, vəziyyəti izah eləməyə, təskinlik verməyə çalışacaq. Özü də Nina mənim bu növbəti incikliyimi nəsə heç vecinə də almırdı, çünki bu sərtliyimin və umu-küsümün səbəbini bircə şeydə görürdü: ona olan sevgimdə və ümumiyyətlə, onunla bağlı hər şeyə: ərinə, rəfiqələrinə, hətta mənimlə keçirəcəyi vaxtı əlindən alan işinə qarşı qısqanclığımda. Minnətli bir mehribanlıqla qarşılaması isə mənə mübahisəmizin səbəbindən də çox təsir edirdi və onu duyğusuzluqda, məni anlaya bilməməkdə təqsirləndirirdim. Belə hallarda isə qızmış şirə dönürdüm, hirsimdən yerə-göyə sığmırdım; gözümə inciklik-zad görünmürdü. Nina usta tərpənirdi, heç vaxt mənə söz qaytarmır, səbirlə susub gözləyirdi.

Amma bu dəfə nəsə təəccüblü dərəcədə sakit idim. Ninanın hökmən gələcəyini bilsəm də, bu görüşü həmişəki səbirsizliklə gözləmirdim, qəlbimi boşaltmaq intizarıyla alışıb-yanmırdım, halbuki əvvəllər tamam əksinə idi – Nina gəlib çıxanacan həyəcandan bağrım çatlayırdı. Qarşıdakı davadan başqa heç nə barədə düşünə bilmirdim.

Buna görə də Nina təyyarə meydanına miniyə on dəqiqə qalmış gələndə adətim xilafına ürəyimdə bir tel də tərpənmədi: onu da deyim ki, həqiqətən sakit idim. Nina ən çox xoşladığım paltarı geymişdi; qəribədir ki, özününsə bu paltardan qəti xoşu gəlmirdi və bu da onu deyirdi ki, o, barışmaq niyyətindədir. Elə ərklə acıqlanmağı, dediyi ilk sözləri də bunu sübut elədi:

– Ayıb deyil səninçün? Bir axmaq arvada görə qalmaqal saldın! Qoyaydın o çərənləyəydi, sən isə dözüb gərək belə hərəkət etməyəydin. Haqqın yox idi. Axı o səni açıq-aşkar qəsdən acıqlandırırdı, davaya çəkirdi. Sən də durub uşaq kimi ona qoşuldun... Hə, niyə susursan? İncimisən? Təhqir olunmusan? Bəs mənim nələr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çəkdiyimi bilirsənmi?! Mən ki, dözürəm... Əlbəttə, ağırdır... Səni gözəl anlayıram... Axı, belə şeylərə nəyin naminə dözdüyümüzü biz ki, yaxşı bilirik. Sənə belə şeyləri deməyim bir az qəribə çıxır ey! Yaxşı, doğrudanmı boş bir şey aramızda nəyisə dəyişə bilər? Hə? Bir söz desənə! – Nina nəvazişlə üzümü özünə sarı döndərdi, gözlərimin içinə baxdı.

– Xahiş edirəm, lazım deyil, – yaxamı qırağa çəkmək istədim.

– Nə lazım deyil?

– Bu barədə danışmaq lazım deyil...

– Nə barədə?..

– Hər şey barədə... Sevgi-filan, daha nə bilim nələr...

– Səni heç cür başa düşmürəm.

– Özü də çoxdan başa düşmürsən!

O yenə üzümü özünə tərəf döndərdi.

– Nə olub sənə? Doğrudanmı bir boşboğaza görə... nəsə edərsən?

– Bəs sən nə bilmişdin?

– Deməli, sevmirsən daha?

– Görünür elədir.

Məndən birinci dəfəydi ki, belə söz eşidirdi.

– Nə danışırsan? – Nina bunun adi inciklik olmadığını anladığından, qorxu içində astadan dilləndi.

– Özün məcbur elədin.

– Nə fərqi var? Niyə dedin bunu mənə? Doğrudanmı ürək sözündür?

– Bəli.

– İnanmıram!

– Özünü bilməməzliyə vurma. Sən özün də lap beləcə düşünürsən. Getdi o çağlar! Artıq çoxdandı ki, aramızda sevgi-zad yoxdu. Öz-özümüzü aldadırıq, başqalarının qarşısında sadəcə sevgi oyunu oynayırıq...

– Niyə axı?

– Bilmirəm. Yaxşısını sən bilərsən. Yəqin ki, sənə xoş idi. Necə bəyəm, gör nə cür güclü, hər şeyə qalib gələn sevgidir! Qoy hamı həsəd aparsın. Əslində isə bu səninçün oyundur, əyləncədir...

– Düz deyil.

– Təəssüf ki, düzdür. Bu, həyatımın on dörd ilini qurban elədiyim oyundur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs mənim?

– Sənin hər şeyin qaydasındadır. Sən mənimlə oyunda ola-ola eyni bir vaxtda öz işlərini də qaydaya salmaqla məşğul idin.

– Yenə başladın?

– Niyə də başlamayım?! Mən hər şeyi itirmişəm! Anlayırsan, hər şeyi?! Bu uydurulma, görkəzmə sevgiyə görə on dörd ildi ki, arası kəsilmədən yalan danışıram, dəridən-qabıqdan çıxıram, adamlardan qaçıb yarasa kimi gizlənirəm. Bu, mənimçün dərddir, həyatdır. Sənin üçün isə indiyədək nəyin varsa, onun üstünə elə-belə bir əlavədir, işdən sonra adi əyləncədir, ailə qayğılarından fikrini yayındıran ötəri məşğuliyyətdir...

– Kim səni məcbur edirdi?

– Əlbəttə, elədir, hər şeydə günahkar mənəm. Sən bunu deməsəydin daha təəccüblü olardı. Neyləyək ki, hamı sənin kimi işgüzar ola bilməz?! Eyni vaxtda neçə oyun oynamağı hamı bacarmır.

– Hər şeyi qurdalamağın nə mənası?

Mən artıq dayana bilmirdim.

– Əlbəttə, hər şeyə görə günah məndədi. Vaxtında, çıxıb, rədd olub getmək lazım idi. Sənə görə burda qalıb havayı bir il də itirməzdim.

– Mən bunu demirəm.

– Bəs nəyi deyirsən?

– Sonradan baş verən şeyləri.

– Sonra nə baş vermişdi ki?

– Xahiş edirəm, lazım deyil... Eyni şeydən nə qədər danışmaq olar?

– Yox, sən de, nəyi nəzərdə tutursan? Yoxsa anamı aldatmağımı, universitetdə oxumağım barədə ona, dostlarıma, hamıya yalan deməyimi nəzərdə tutursan? Buna görə məni sənmi məzəmmət edirsən? Mən ki, yalnız sənə görə, Moskvada qalmaq üçün belə eləmişəm!

– Axı sənin həqiqətən də oxumağına kim mane oldu? Sən qalsan gələn il də girə bilərsən!

– Mane sən olurdun, sən! – Bizim bu açılışmağımız göynəkli, odlu bir diyircək kimi illər boyu saldığımız gözəgörünməz yolla ürəyimin ən zəif yerinə doğru diyirlənirdi və Ninanın məni tənbəlliklə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məzəmmət eləmək imkanını heç vaxt əldən verməməyi məni hal-dan çıxarırdı. Axı bütün fəlakətlərimin əsl səbəbini o, çox gözəlcə bilirdi. – Sənə görə, yalnız sənə görə nə birinci dəfə, nə də sonra, qəbul ola bilmədim – başıma heç nə girmirdi! On dörd ildi ki, artıq çoxdan ölüb-gedən, bax indi gördüyün kimi sənə çoxdan ağırlıq eləyən bu sevgi oyununu sənə görə oynayırdım!

– Düz deyil!

– Oleq dedi hər şeyi. Sən deməliykən, o dedi! Axır ki, hər şey aydınlaşdı.

– Allah haqqı, sevirəm səni. – Nina ağlına gələn bütün dəlil-lərini sadalayıb, ağladı. – Mən həqiqətən yorulmuşam, çox yorulmu-şam. Amma keçib gedər. İnan mənə... Hə, niyə susursan?

– Hər şey sən düşündüyündən də mürəkkəbdir...

– Olmaya başqasını tapmısan?

– Yox. Amma dediklərimin hamısı həqiqətdir. Mən doğrudan da daha bu cür bacarmıram... Bacarmıram, vəssalam! Bir daha nə özü-mü, nə də başqalarını aldatmaq istəmirəm. Gəl elə burda da qurtaraq!

Nina kədərlə susdu, bir daha məni məzəmmət eləmədi.

– Hara uçursan? – Çantasından naxışlı yaylıq çıxartdı.

– Evə.

– Uzun müddətə?

– İki-üç günlüyə.

– Bir hadisə baş verib?

– Yox. Keçmişlə bəzi haqq-hesablarımı üzməliyəm. Cümlə yaman gəlişigözəl çıxdı, amma başqa heç nə əlavə edə bilmədim. Pasportla biletim artıq nəzarətçinin əlində idi, milis nəfəri isə çan-tamın içindəkiləri yoxlayırdı.

– Deməli hər şey bitdi?

– Bəli, bitdi!

Biz təyyarə tərəfə gedəndə artıq Nina yola salanların arasında yox idi.

Boylandığıma görə özümü qınamadım. Bu zəiflik-zad deyildi. Sanki üzü küləyə uzun müddətlik qaçışdan sonra istirahət edirdim.

Qarşıda məni vətənimlə görüş gözləyirdi. Bir də ki, son cəhd: daha ondan sonra əsl təzə həyata başlamaq olardı. Nə vaxtsa ehti-yatsızlıqla əkdiyim yalan toxumlarından böyüyən nəhəng ağacın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dostlarımın iradlarını boğacaq bir neçə bəzənmiş uydurma budağa ehtiyacı vardı. Yalnız bundan sonra onlarla birdəfəlik xudahafizləşmək, budaqlarından özgə bilikləri, özgə medalları, baş tutmayan qələbələr, mövcud olmayan şöhrət asılmış bu nəhəng ağacı da xatirə kimi qoyub getmək olardı. Və özümə qayıdardım. Varlığımın harasındasa dərin bir yerdə gizlənmiş və qatmaqarışıq yuxular şəklində, ilğım şəklində üzə çıxan "mən"imə qayıdardım...

Stüardessa qəhrəman şəhər Volqoqradın üstündən uçduğumuzu xəbər verəndə mən mürgülədim və gördüm ki, kəmərlə, çiyinbağıyla səylə bağlanmış şalvar yenə əynimdə deyil – mən Vladimirskilərin evinə girən anda əynimdən yenə qəfildən yox oldu, sanki buxarlandı. Amma əvvəlki hallardan fərqli olaraq, göz qabağında anadangəlmə durmağım bu dəfə nəinki məni utandırmadı, hətta güldürdü də. Əksinə, baxanlar utandılar ki, bu da məni şənləndirdi və abrımı gizlətməyə cəhd eləmək əvəzinə, otaqdan-otağa gəzərək (hamı məni görsün deyə), özümü tamam soyunub, lüt olmaqdan güclə saxlayırdım...

Xəzər dənizi üzərində gözəl bir əhvali-ruhiyyə ilə ayıldım, çünki hələ yuxudaykən anlayırdım ki, şalvarın yoxa çıxması kimi axmaq bir əhvalatı axırıncı dəfədi gördüyüm; məndə artıq nəsə baş verməyə başlamışdı. Özümü uzun, mənasız, öz iradəsindən asılı olmayaraq ifa etdiyi, özünü də, dinləyiciləri də üzüb əldən salan fortepiano pyesinin son akkordunu götürən bir musiqiçi yerində hiss edirdim...

Mən Şəngəçevirə gələn gün bəndi su basmışdı və Kürün səviyyəsi enmişdi. Bu, demək olar ki, mənə heç bir dəxli olmayan əhəmiyyətsiz bir şey idi. Amma şəhər sakinləri üçün adi olan bu faktın sonra elə nəticələri oldu ki, onlar zəncirvari şəkildə qəfildən gəlib məndə birləşdilər. Bu məni bir daha əmin elədi ki, bu dünyada hər şey bir-biriylə bağlıdır, adama boş bir şey kimi görünən hər hansı bir hadisə son dərəcə qəribə, gözlənilməz, mürəkkəb bir sonluqla qurtara bilər. Başqalarını deyə bilmərəm, amma şəxsən mən bunun dəfələrlə şahidi olmuşdum...

Alikdən başqa məni Ramizlə Feliks də qarşıladı. İyun günəşi vaxtı qabaqlayıb, avqustda olduğu kimi yandırırdı – asfaltın üstündən qızmar tonqal havası buxarlanırdı. Amma uşaqlıq dostlarım bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görüşün təntənəli olduğunu gözə çarpdırmaq üçün kostyum geymiş, qalstuk taxmışdılar; onu da deyim ki, birdən redaktor onu soruşar deyə, Feliks portfelini redaksiyada qoyaraq elə bu geyimdəcə balıq tutmağa "getmişdi".

Çiynindən, yan-yörəsindən fotoaparatlar asılmış dördüncü cavan oğlanı isə tanımırdım; görünür, onu Feliks gətirmişdi. Elə belə də çıxdı: dostlarım mənimlə qucaqlaşan vaxt, cavan oğlan ətrafımızda dövrə vuraraq, canfəşanlıqla şəkli şəkil dalınca çəkirdi.

– Gördünüz, nə deyirdim sizə?! – Alik təntənəylə barmağını günün altında parıldayan medala tuşladı.

Pencək hədiyyələr qutusunda idi və günəş şüaları içində çimən medal da göz qabağındaca yanırdı. Kobud bağlanmış konfet qutusuna atılmış olsa da, öz parıltısı ilə hamının diqqətini cəlb edirdi. Alik bir dəfə həzz almışdı. Bu dəfə dördü də eyni vaxtda əyildi və dörd gözlə baxmağa, heyrətlə, sevinclə başlarını tərpətməyə başladılar.

– Pencəyi əlinizə alın, – dedim, – elə daha rahat baxa bilərsiniz...

Fotoqraf yenə öz aparatlarını işə saldı.

– Axı bu nəyə lazımdır? – Mən astadan Feliksdən soruşdum, bununla da anlatmaq istəyirdim ki, öz adım ətrafında qaldırılan bu hay-küyü, özü də ki, burda, doğma şəhərimdə bəyənmirəm.

– Başa düşürəm... Nə eləmək olar? – Feliks əllərini yana açdı. – Redaksiyanın tapşırığıdı. Balaca bir material düzəldərik, cəmi on sətirdən ibarət, nəsə müsahibəyə oxşar bir şey və bununla da qurtararıq.

Alikin arxasınca qara "Volqa"ya, yaşıl "Moskviç"ə tərəf yönəldik.

– Cəmi iki günlüyə gəlmişəm... Yalnız sizinlə hərlənəcəm... rəsmiyyətsiz... Qoy çox adam bilməsin.

– Bilməyinə elə qəzetsiz də artıq hamı bilir, – Feliks güldü. – Nədi, hara gəldiyini unutmusanmı? Əyləş...

Dördlükdə "Volqa"ya əyləşdik, fotoqrafı isə "Moskviç"ə yolladıq.

– Eybi yox, səni elə bir yerdə "gizlədərik" ki, lap çıraqla da gəzsələr tapa bilməsinlər, – Feliks mənə boyun oldu.

– Haradı ora?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Avarçəkmə bazasında, Elxanın yanında. Keçən dəfə sən gələndə, onu təzəcə tikirdilər...

– Bax, ora oladır, – nəhayət Ramiz də dilləndi.

Qanrıldım. Artıq saçlarına dən düşmüş Ramizin xeyirxah, səmimi sifəti gəlişimin doğurduğu sevincdən başqa heç nə ifadə etmirdi. İncikliyə işarə belə yox idi. Amma bilirdim ki, inciklik var və özü də mənim günahımdır...

– Burda sakitliyə, bir də ki, arzuladığın təkliyə söz ola bilməz, qoca gözətçi maşının arxasınca avarçəkmə bazasının alçaq, borulardan qaynaq edilmiş darvazasını bağlayandan sonra Feliks məni əmin elədi. – Kənar adamları bura buraxmırlar, avarçəkənlər isə zəhlətökən deyillər...

Bu vaxt, elə bil qəsdən Feliksin sözlərini təsdiqləmək üçün yaxınlaşdığımız mərkəzi binanın tinindən ala-bəzək paltar geyinmiş, hündürdabanlı tufliləri olan kök bir qadın, onun dalınca da daha şişman, portfelli, eynəkli bir oğlan uşağı göründü. Bir az sonra fikir verib gördüm ki, onun paltarını gözəçarpan edən üstü sülhə və dostluğa çağıran əlvan yazılarla dolu çit koftadı. İlk dəqiqədə qadın eynəkli uşağı qabağa itələyə-itələyə söz yığınını üstümüzə yağdırdı. Heç bir şey anlamaq olmurdu. Qadın Feliksin, Ramizin, Alikin onu saxlamaq üçün göstərdikləri kollektiv cəhdə məhəl belə qoymaq istəmirdi. İndi ətli, qat-qat olmuş buxağının titrəyişi həyəcandan enib-qalxan sinəsinə keçmişdi və o sinədəki iri xallar dənizin köpükdən ağarmış, qayğısız dalğaları üstündəki qayıqlar kimi aşağı-yuxarı "atılıb-düşürdü".

Qadın narıncı-qırmızı diliylə dodaqlarını yalaya-yalaya ara vermədən danışırdı: onun qeyri-adi riyazi qabiliyyəti olan vunderkind oğluna vaxt itirmədən kömək etmək lazımdır və sən demə mənim kimi məşhur, hamının son dərəcə hörmət elədiyi adamdan başqa gənc istedada daha kim kömək edə bilər və etməlidir ki! Zarafat deyil, oğlan üç sinfi birdən yuxarı adlayıb! Təhsilini davam etdirmək arzusundadır. Ona görə də elə fürsət düşmüşkən, Moskva universitetinin mexanika-riyaziyyat fakültəsinə zəmanət məktubu yazılmalıdı – indiki mərhələdə tələb olunan bu idi. Əlbəttə, ünsiyyət də gərəkdi: öz ideyalarını, fərziyyələrini başı çıxan adama danışmaq həvəsiylə coşan qəribə oğlanla heç olmasa bir neçə dəfə söhbət eləmək lazım idi. Yazıq oğlan bu şəhərdə ağılca hamını ötüb-keçib və indi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

öz səviyyəsində olan ziyalı bir adamla ünsiyyətə çox ciddi ehtiyacı var. Bir sözlə, oğlanı qiymətləndirməyi bacaran bir adam lazımdır, ya yox?

– Sonra, bir az gec... – Feliks, anası danışanadək cəld portfeldən çıxardığı qalın dəftəri vunderkindin əlindən dartaraq dedi.

– Xüsusi törəməli diferensial bərabərliklər... – Vunderkind şəstlə özünü dartıb başladı: – Funksional yolla...

Qadınçün anlaşılmaz olan bu sözlər onu daha da coşdurdu:

– Yalvarıram sizə. Siz tanış olmalısınız. O elə ağıllıdır ki! Siz bu tanışlıqdan həzz alacaqsınız! Təminat verirəm. İnandırıram sizi!

– Yaxşı, yaxşı... Tanış olarıq. – Feliks dəftəri yelləyərək, qadını birtəhər qırağa sıxışdırdı və biz pilləkənə qədəm basa bildik.

İkiotaqlı “lyuks”da sərin idi – hər yanda kondisionerlər işləyirdi.

Alik çamadanı yerə qoyan kimi, onları söndürməyə cumdu. Otaqlardan birində piano vardı, o birində isə telefonla yanaşı kasset maqnitofonu dururdu.

– Hə, nömrə necədi? – Ramiz soruşdu. – Moskvadakılardan pis deyil ki!

– Əladı!

– Adam soyuqlaya bilər. – Alik hər iki kondisioneri söndürüb, medallı pencəyi səliqəylə paltar şkafından asdı. – Burda kiminsə şeyləri var, – o, təəccüblə Ramizlə baxışdı.

– Yəqin Oqtayın şeyləridi, – bu an içəri girən Feliks izah elədi, vunderkindin dəftərini stolun üstünə atıb, rahat nəfəs alaraq divana çökdü. – Niyə ayaq üstəsiz? Əyləşin.

Şkafa yaxınlaşdım: asılqanlardan birində qəhvəyi kostyum asılmışdı, üst gözdə isə iri bir çamadan vardı.

– Əşi, bu Oqtayındı... – Alik təsdiqlədi. – Yenə Nelliylə araları dəyib.

– O sənə mane olmayacaq. Burda nömrələr çoxdu... Pivə vuraqmı? Ramiz soyuducunu açdı.

– Bəlkə qazanxanaya gedək? – Alik təklif elədi. – Səninçün çoxlu xərçəng tutmuşam... Orda bişir indi.

– Əşi, hələ vaxtı deyil, – Feliks üz-gözünü turşutdu. – Qoy bir nəfəsimizi dərək. Ora istidi.

– Bura gətirə bilərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Onda gətir...

Alik xərçəngləri gətirmək üçün qaçdı. Ramiz soyuducudan bir neçə şüşə, qızardılmış balıq çıxardı, çörək doğradı və biz yeməyə əyləşdik...

On dəqiqədən sonra məndə elə bir duyğu yaranmışdı ki, guya ömründə burdan heç yana getməmişəm, uşaqlardan da heç vaxt ayrılmamışam. Amma bu, uzun çəkmədi – seçmə xərçənglərlə dolu vedrəni gətirən və nəsə narazı görünən Alikin dalınca da Oqtay içəri girdi. Xərçənglərdən iştah gətirən şüyüd iyi gəlirdi, amma Oqtayın hələ astanadan dediyi sözlər hamını elə karıxdırdı ki, xərçəng-zad yaddan çıxdı:

–...Hökmən deyəcəyəm! Bu biabırçılığı kimsə deməlidir, ya yox? – Özünü elə tutdu ki, guya ona uzadılan əli görmür, – dalınca şikayətlənmək, günahlandırmaq asandı. Bəs niyə heç kim həqiqəti üzünə deməsin?

– Bəsdir! – Feliks divandan qalxdı.

– Mənə deyirsən bəsdir? Onun dalınca dediklərinizi bir yadınıza salsanız! Amma özünün gəlməyinə bənd imişsiniz, o saat əridiniz!

– Oqtay, indi yeri deyil. – Feliks qızarmışdı; Ramizlə Alik gözlərini xərçəng dolu vedrəyə zilləyib susmuşdular.

– Vaxtı kim təyin edib ki? Həqiqəti ya o saat deyirlər, ya da heç vaxt demirlər. Guya bu mənə çox lazımdı! Amma haqqında nə düşündüyümüzü ona kimsə deməlidimi? Bəlkə daha ondan heç bir incikliyiniz yoxdu, o da sizin heç birinizi unudub atmayıb? – Elədiyi məzəmmətlərinin ədalətli olduğunu nəzərə çarpdırmaq üçün danışığına bir az ara verib sonra yenə başladı, indi bütün sözləri yalnız mənə yönəlmişdi.

Onun sözünü kəsməyə halım yox idi. Bu, uzun haqq-hesab idi, özü də ən ağırı bu idi ki, ötən illər ərzində günahımı yumaq üçün azacıq da olsa cəhd-zad göstərməmişdim...

Məsələn, "Universitetə girən" kimi niyə heç kəsi saymadım? Doğrudanmı on illik dostluq, özü də necə bir dostluq – son tikəmizi də yarı bölürdük! – layiq deyildi ki, heç olmasa ildə bir dəfə onları yada salasan?!

Bəs doğma anama qarşı necə hərəkət elədim? Heç qəbrinin üstünü torpaqlamamış, heç kəslə xudahafizləşmədən geri – "öz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Moskvama" qaçıb getdim. Adların, təltiflərin hamısına layiq görülmək hələ heç kimə qismət olmayıb: niyə hər şeyi əldə etməyə belə can atıram?! Niyə axı dostlarımdan gizlənirəm? Yoxsa ki, onların xahiş-minnəti məni əldən-dildən salıb? Yazıqlar heç mənim Moskva ünvanımı da bilmirlər!

Guya məndən çox şey tələb olunurdu? Bu üç il ərzində anamın qəbrini götürmək, heç olmasa sadəcə bir başdaşı qoydurmaq olmazdımı? Özü də o cür qazanıram. Maşına isə pul tapılır!

Hələ yazıq Ramizi o cür aldatmağım?! Əgər imkanım yox idisə, söz vermək də lazım deyildi, hərçənd məsələ imkanda da deyil, hər şeyin səbəbi adicə, mənasız xəsislikdədi. Ramizin başına gətirdiyim buna yaxşı sübutdur. Ramizin məndən istədiyi min manatı mən geci bir ildən sonra geri alacaqdım, amma xəsislik elədim, qorxdum, ona işlərini qaydaya salmaqda kömək eləmədim. Əgər onların hər hansı birində pul olsaydı, heç mənə müraciət edərdilərmi? Neyləmək olar? Yalnız mən idim ayda beş yüz manat alan! Özüm danışmışam ki?!

Şübhəsiz, bu ittihamlar hələ uzun çəkəcəkdi, amma arxasındakı qapı qəfildən açıldı, arvadı Nelli peşəkar bir gözlənilməzliklə otağa soxuldu. Əslən Riqadan olmağına baxmayaraq, heç latış qızınazada oxşamırdı – qara, qıvrım, cod saçları onun qarabəniz, qalındodaq sifətinə zənci görkəmi verirdi.

O, otaqdakı kişiləri şübhəli baxışlarla süzüb şkafa tərəf atıldı – qadın gizlənəsi başqa bir yer yox idi.

– Əşi, burda heç kim yoxdu, – Feliks onun hücumunun məqsədini hamıdan tez başa düşmüşdü.

– Haydı, evə! – Feliksin replikasını cavabsız buraxan Nelli Oqtaya komanda verdi. O, çamadanı da, kostyumu da ərinin əlinə verib, qapıya tərəf itələdi.

– Nə hay-küy salmısan? – Oqtay qətiyyətsiz bir müqavimət göstərmək istədi, amma əbəs idi, ikinci zərbə artıq onu otaqdan bayıra atmışdı.

– Elxana isə deyin ki, – Nelli barmağı ilə hamını hədələdi, – əgər onu bura dadandırmaqdan əl çəkməsə, bu lənətə gəlmiş bazanı bağlatdıracağam.

– Əşi, Elxan hanı burda? Bakıdadı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nelli yenə barmağını hədəylə yellədi və qapını çırpmazdan əvvəl quru tərzdə mənimlə salamlaşdı...

Sonra aydın oldu ki, mən gələn günün səhərisi Oqtay Nelli ilə savaşmış, hər ehtimala qarşı daim hazır olan şeylərini götürərək son ayda üçüncü dəfə şəhərdəki yeganə texnikumun direktoru olan atası ilə yaşadığı evi tərk etmişdi.

Növbəti qalmaqala səbəb (Allah bilir hardan tapmışdı bu pulu!) Nellinin yataq ağları üçün aldığı dolab olmuşdu. Nellinin gəlir mənbəyi barədə Oqtayın sualına o nəinki cavab vermiş, əksinə, təhqiramiz tərzdə dodağını büzərək o saat hücuma keçmişdi: nə vaxtadək hər yerə burnunu soxan atanın hesabına olan bu alçaldıcı həyata dözəcəyik, Oqtay nə vaxt bir işdən o birinə keçməyə son qoyacaq, nə vaxt o, atasından ayrılıb, öz ev-eşiyini qurmaq üçün kifayət qədər qazanmağa başlayacaq. – Oqtay isə bu cavabsız suallardan başını götürüb evdən çıxmış, bura yollanmışdı. Oqtaydan fərqli olaraq, qonşular Nellinin hansı xidmətlərinə görə, özü də kimdən pul bəxşişləri aldığını gözəl bilirdilər. Amma əllərindən nə gələ bilərdi ki? Şəhərin ən hörmətli adamlarından biri olan ataya heyifsilənmək, biqeyrət oğulu isə açıq-aşkar töhmətləndirmək... Səngəçevirin əsl sakinləri burda çox şeylər görmüşdülər, qıvrımsaç Nelli çıxardığı oyunlarda toxuculuq fabrikinin qadın yataqxanalarının ən əlacsız qalmış sakinlərini, hətta bura bir-iki illiyə, yalnız cənubda əylənmək xatirinə gələnləri belə ötüb keçmişdi...

Əlbəttə arvadının hərəkətləri barədə söz-söhbət Oqtaya çatmamış deyildi. O istəsəydi bircə su içimində arvadını ifşa edə bilərdi, amma təəccüblü də elə burası idi ki, o buna bir dəfə də olsun cəhd eləməmişdi. Yalnız bircə dəfə, hələ uşaq olmamışdan, Nellini boşamaq istəmiş, amma işi başa çatdırmamışdı. O vaxtdan keçən on il Nellinin ailə mövqelərini elə möhkəmlətmişdi ki, nəticə göz qabağında idi: Oqtay tez-tez ata evini tərk etməli olurdu... Belə günlərdə o, dost-tanışları ilə namus, borc və əxlaq məsələlərində xüsusilə tələbkar olurdu...

Xərçənglər sükutla yeyildi. Getməzdən əvvəl özümü müdafiə üçün bir neçə kəlmə deməyə məcbur oldum: əlbəttə, mən günahkaram, amma məsələ xəsislikdə deyil, iş elə gətirdi ki, söz versəm də, onda Ramizin xahişini yerinə yetirə bilmədim. Sonra isə başım



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işə qarışdı, indi dəqiq yadımda deyil, amma deyəsən, xaricə getdim və buna görə də verdiyim sözü tamam unutdum. Düzdü bu, bəraət deyil, belə danışmaq ayıbdı, amma başlıca şey budu ki, Ramiz inansın – məsələ xəsislikdə deyil, o vaxt mənim artıq pulum olsaydı; yubanmadan istədiyim məbləği göndərərdim. Lənətə gəlmiş iş-güc başımı qatmasaydı, lap sonra göndərərdim.

Məni hamıdan çox sakitləşdirən Ramiz idi: pul o vaxt doğrudan da çox lazım imiş, sən demə o zaman hərəkətimdən yaman heyrətə gəliblərmiş. Özüm barədə uzun müddət susduğuma görə də haqqımda ağıllarına gələni düşünməyə başlayıblarmış. Amma indi mən gəlmişəm, hər şey də aydınlaşıb, daha hansı inciklikdən söz ola bilər! Ən başlıcası – mən burdayam, onlarlayam, qalan hər şey cəfəngiyatdı...

– Əşi, hələ səhvini düzəldə bilər Feliks astadan dedi. – Həmin min manat o vaxtkı kimi elə indi də lazımdı...

Üzümə yalandan sevinc qarışıq heyrət ifadəsi verməli oldum: Necə yəni? Doğrudanmı? Pul hələ də lazımdır?! Qoy olsun, səhvimi düzəltməyə hazıram. Bu dəfə hər şey qaydasında olacaq. Yaxşı, bəs bu pul nəyə lazımdı axı? Mən tamam unutmuşam... Hə, hə, toyuq hiniyçün! Elədir, elədir, hər şey yadıma düşdü: Ramiz çoxdandı toyuq saxlamağı arzulayır.

– Qərar çıxıb. İndi bununçün şərait yaradırlar, – Feliks izah elədi.

– Amma o vaxt deyəsən hələ qərar-zad yox idi.

– Hərdən həyat qərarları qabaqlayır, – Feliks gülümsündü.

Oqtayın yersiz hərəkətindən sonra pərtliyimiz hələ də keçməmişdi, müxtəlif səbəblər üzündən bir-birimizə baxmırdıq, amma hamımız bir-birimizdən utanırdıq: Alik məni gəlmək üçün dilə tutduğuna görə – yəni başqalarına nisbətən mənimçün daha məsul olduğuna görə, Ramiz isə özü də istəmədən əsas ittihamçı rolunda çıxış etdiyinə görə utanırdı. Feliks belə baxanda kobudluq deyilən şeyin əleyhinə idi. Mənim vəziyyətimin izahına isə sən deyən elə bir ehtiyac da duyulmurdu....

Nəhayət, onlar çıxıb getdilər, az sonra qapı astadan döyüldü. Bu, Alik idi.

– Bağışla. Beşcə dəqiqə də... Məsləhətləşmək istəyirəm. – Alik pıçıltıya keçdi. – Onlara deyə bilmirəm... Başa düşməyəcəklər. Sənsə mədəni adamsan, Moskvada yaşayırsan...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əyləş, Alik, əzizim, əyləş. – Bu anlarda tək qalmadığıma görə sevindim hərçənd ki, artıq tərpənmək vaxtı idi. Qəbir xərclərinin üstünə Ramizin min manatı da gəldi. Hələ vunderkindin dəftəri ilə də əlaqədar nəsə bir şey eləmək lazımdı... – Nə olub ki? – Alikin üz-gözünün ifadəsi adamı açmırdı.

– İşlər pisdir... Bilmirəm neyləyim, – Alik acı-acı başını buladı, – birisi gün toydu, gəlin isə yoxdu.

– Necə yəni yoxdu? Hara yox olub?

Alik əlini pencəyinin iç cibinə salıb, səylə qəzetə bükülmüş bir fotoşəkil çıxartdı.

– Nişanlım gəzəyən imiş, – o, qəzeti aça-aça istehzalı bir təbəssümlə danışmağa başladı.

...Alikin

şəxsi həyatındakı mürəkkəblik gözlənilmədən ortaya çıxmışdı. Artıq dediyim kimi, mən gələn günü çayın səviyyəsi enmişdi. Buna görə də adətən sahilə qısılan xərçənglər dərinə gediblərmiş. Alik mənimçün xoş bir şey eləməkçün nəzərdə tutduğu bir saat əvəzinə bütün səhəri çay qırağında keçirib. Əlbəttə, o bütün vaxtı bir yerdə oturmayıb, çox uzağa qaçmaq da lazım deyilmiş – toru lap alaqapının yanında atıbmış, – amma hər beş-on dəqiqədən bir ovu yoxlamaq lazım imiş, buna görə də nişanlısına söz verdiyi kimi "Təzə evlənənlər" mağazasına getməyi təxirə salıb. Oqtayı da xəbərdar eləyə bilməyib ki, gəlsin kömək eləsin: məktəbdən gətirilmiş stollar bütün həyəti tutmuşdu; onları bir kənara yığıb, çoxdan gətirilmiş taxtalardan skamyalar düzəltmək lazım idi. Stul tapmaq çətin idi, lap tapılsaydı da, onlar yeri çox tutacaqdı, skamyalar isə əlverişli idi, dörd-beşcə cərgə düzəcəkdilər – azı yüz nəfərlik yer birdən hazır olacaqdı. Hələ rəqs üçün də yer qalacaqdı.

Alik nişanlısının dalınca qonşu qızı Sonkanı göndərdi, Oqtayı çağırmaq üçün özü getdi. Amma imkan tapmadı: səhər tutulub, qəzetin üstünə sərilmiş çəkibalıqları ilə – iki dənə balacaydı, üç-dörd kiloluq, üçüncüsü nəhəngdi, belələrini yerli uşaqlar "simfonik" adlandırırlar – yanaşı duran vedrəyə sonuncu xərçəngləri boşaldan kimi qaçmışdı ki, əllərini yusun, onun bir saat əvvəl nişanlısını çağırmaq üçün göndərdiyi həmin o yazıq əyriayaq Sonka gəldi. Əvvəlcə hasarın arxasından onun zil səsi eşidildi və bu səsə sözün düzü fikir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vermədi: gün olmurdu ki, ya qız, ya da anası boş bir şeydən ötrü həyətlərində küy qaldırmasınlar; sonra, qız içəri girəndə, o başa düşdü ki, qızın çığırtısının nəsə ona da bir aidiyyəti var. Qız qəfil pıçıltıya keçib, həyətdə istinin gic elədiyi üç toyuqdan başqa bir kimsənin olmamasına baxmayaraq, oğrun-oğrun ətrafa boylanaraq, ilk kəlmələri deyəndə, o hiss elədi ki, ayaqları onu saxlamır. Sonra isə gözlərini bərəldərək, həyəcanla nəfəs ala-ala qoynundan bir şəkil çıxarıb, onun əlinə dürtdü, o isə şəklə heç diqqətlə də baxa bilmədi, bircə baxış kifayət idi: nişanlısı Alya 26 Bakı komissarlarının abidəsi yanında cins şalvarlı, uzunboylu bir oğlanla qolboyun dayanmışdı.

O elə həmin an qəti qərar qəbul elədi.

Sonkanın it kimi vəfalı, coşqunluq və dəhşət dolu baxışları (bəs necə, heç kim yox, məhz o, ifşa eləmişdi bu, bu...) onu izləyirdi, qız *şkafda, qutuların arasındakı albomdan şəkli oğurlamaqla* öz "borcunu" yerinə yetirmişdi və indi səbirsiz bir maraqla nəticəni gözləyirdi.

Alik hər ehtimala qarşı fotoşəkli cibinə soxdu... – qaytarıb Sonkaya verməyəcəkdi ki! – Amma indi bir şey aydın idi ki, gizlətdin-gizlətmədin – evlənməyə ümid bəsləməyə dəyməz: ona qədər kiminsə əl vurduğu, üstəlik hələ bir xatirə şəkli də çəkdirdiyi bir qızımı alacaqdı.

...Alik axır ki, qəzeti açdı. Arıq, cıqqalı, cins şalvarlı bir oğlan özü kimi də ucaboy, eyni cür cins şalvar geymiş qəşəng bir qızı qucaqlamışdı.

– Qız budur?

– Bəli.

– Yanındakı oğlan kimdir?

– Məni də çox maraqlandırır bu... – Şəklin arxa tərəfində heç bir yazı, tarix yox idi. – Bunu Bakıda, institutda oxuyanda çəkdirib.

– O yoxsa qızın dalınca gəlib?

– Kim?

– Bu oğlan.

– Yox. Niyə belə deyirsən?

– Qız o oğlanın yanına qayıtmaq istəyir?

– Yox.

– Aranız dəyibmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox.

– Bəs nə olub onda? Səni dilxor edən nədi?

Az qala inciyib, qaşqabağını tökdü.

– Necə nə? Bəs şəkil.

– Sən özün deyirsən axı, şəkil çoxdan çəkdirilib.

– Nə olsun ki?

– Neçə yaşın var, Alik?

Alikin karıxmış sifətinə baxanda adam özünü güclə saxlayırdı.

– Otuz dörd.

– Bəs qızın?

– İyirmi beş.

– Nə vaxt tanış olubsunuz?

– Artıq yarım ildi.

– Deməyin nədi, qız iyirmi beş il oturub gözləyəcəkdi ki, sən peyda olacaqsan, onunla evlənmək istəyəcəksən? O da canlı adamdı axı...

– Həddən artıq canlıdı. – Alik tutqunluqla şəklə baxırdı.

– Bu şəkil ortaya çıxmazdan əvvəl şübhən vardımı bir şeyə?

– Yox.

– Onda belə hesab elə ki, şəkil olmayıb. – Qəti hərəkətlə şəkli onun əlindən alıb dörd böldüm.

– Onda belə şəkillər çoxdu axı!

– Hardan bilirsən?

– Sonka görüb.

– Onları da cırıb atarsan.

O, bir anlığa fikrə getdi; nəyisə ağlında götür-qoy edib, qətiyyətlə başını buladı:

– Bir şey çıxmayacaq. Onsuz da Sonka bütün şəhərə yayacaq.

– Sonkaya xəbərdarlıq elə.

– Mənasızdı. Artıq anasına xəbər verib. Anasının qabağını isə heç kim alammaz.

– Bəs nişanlınla danışmısan heç?

– Yox.

– Neyləmək fikrindəsən?

– Toyu təxirə sala bilmərəm. Gecdir... Başqa birisini, başqa gəlin axtarmaq lazım gələcək... – Alik qalxdı. – Səndən bir xahişim var:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alya ilə danış, birtəhər başa sal: – o şəklin hissələrini göstərdi, – mən bacarmaram!.. Burda nüfuzlu adam lazımdı. Qoy o utansın...

Alik gedəndən bir az sonra vunderkindin səhifələrində başdan-başa anlaşılmaz formullar yazılmış dəftərini vərəqlədim. Sonra durub həyətə çıxdım. Bu cür lal sakitliyi çoxdandı ki, görməmişdim. Kürün asta uğultusu bu sükutu daha da ülviləşdirirdi. Gözətçi qoca təzə çay təklif elədi, təşəkkürümü bildirib küçəyə çıxdım. Hava qaralırdı. Qarşıma çıxan olsa məni tanıya bilərdi. Şəhərin yalnız bu hissəsində, sahildə qalmış kirəmit damlı taxta evlərin böyründən bağların arası ilə keçərək, dağ ətəyinə, doğulub böyüdüyüm evin yanına çıxdım.

Alaqapıdan öz əlimlə üç il əvvəl asdığım kilid eləcə də dururdu. Zəif axşam işartısı bəs eləyirdi ki, xırda alaq otları basmış həyəti də, getdiyim gün tələm-tələsik bənd-bərəsi vurulmuş köhnə evin pəncərəsini də görəsən... İrəli getdim. Üç məhəllə aşağıda bir nəfər yaşayırdı, – yaranmış vəziyyətdə mənə kömək edə biləcək adam o idi. Əlbəttə, təmənnasız yox... Ondan alicənablıq gözləmək olmazdı, bunu hələ məktəbdə oxuyarkən aydınlaşdırmışdıq, onuncu sinifdə oxuyan vaxt çəkdiyi fotoşəkilləri bizə, beşincilərə elə baha satırdı ki, aylarla ona borclu qalırdıq.

Hələ məktəbdə oxuyarkən saçları tamam ağarmışdı, ayaqları çox gödək olduğuna görə kvadrat kimi görünürdü. Yaxasını isə sosializm yarışının qalibi nişanı ilə yanaşı gimnastika üzrə birinci dərəcə nişanı hələ də bəzəyirdi. Onunla söhbətə başlayandan sonra yadıma düşdü ki, üç il bundan əvvəl mən anamın dəfninə gələndə, o, ticarətdə işləyirdi. Bunu mənə özü demişdi: qəbiristanlıqdan qayıdanda məni bir qırağa çəkib evi ona satmağı təklif etdi. Təbii ki, vəziyyətə uyğun, kədərli səslə...

Çaydan qəti boyun qaçırdım və o saat mətləbə keçdim. Özü də başa düşürdü ki, mənim gəlişimin əsaslı bir səbəbi olmalıydı, səbəbsiz onun görüşünə gəlməzdim: hələ uşaqlıqdan bir-birimizdən xoşumuz gəlmirdi...

Hələ Moskvadaykən bu qərara gəlmişdim, birinci kəlmənin demək nə qədər çətin olsa da dedim – pul tapmaq üçün ayrı yol yox idi.

– Sən o vaxt demişdin ki, evi alardın.

O saat sayıqlaşdı.

– Mən demişdim?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə də, sən demişdin, dəfn günü.

O vaxt onu söymüşdüm, özü də pis söymüşdüm, o da bunu unuda bilmirdi, öz təklifini unuda bilmədiyi kimi. Ən əclaf adamlar belə sahibi ölən gün adama nadir hallarda evi satmağı təklif edirlər.

O özünü elə göstərirdi ki, guya xatırlaya bilmir.

– Dəfndə? Nəsə yadıma sala bilmirəm... Mən özüm dedim sənə?

– Bəli, özün... Mən hələ səni söydüm də.

– Neyçün?

– Dəfn günü belə şeylərdən danışmazlar.

– Məncə biz axı qəbiristanlıqdan qayıtmışdıq?

– Axır ki, xatırladın?

– Hə, buna oxşar bir şey olub... Nə olsun ki?

– Elə bir şey yoxdu. – Onun "küt" hiyləgərliyindən həmişə ətim çimçəşirdi. – Evi almaq istəyirsən, ya yox?

– Sən axı o vaxt razı olmadın.

– İndi isə gördüyün kimi razıyam... Pul mənə bağa görə lazımdı. – Ağlıma gələn ilk şeyi dedim, bir şey uydurmasaydım əl çəkməyəcəkdi.

– Moskva yaxınlığında?

– Hə.

– Əla. Məgər sənin bağın yox idi?

– Vardı. Təzədən düzəldirəm.

– Evçün nə qədər istəyirsən?

– Mən bilmirəm... Sən özün məncə səkkiz min təklif edirdin...

– Doğrudan?

– Nədi, yadında deyil?

– Nəsə yadımdadı... Amma bu, üç il əvvəl olub axı.

– Nə dəyişib ki?

O ah çəkdi:

– Çox şey... Bəlkə çay içəsən?

– Sağ ol. – Qalxdım.

– Hara gedirsən? Biz hələ danışıb qurtarmamışıq axı.

– Məni gözləyirlər...

– Elə əvvəlki kimi səbirsizsən, – o gülümsədi. – Oturardıq, danışardıq, çay içərdik, öz uğurlarından söhbət eləyərdin...

– Sağlıq olsun, bir başqa vaxt...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənə əlavə ev lazımdı. Uşaqlar böyüyüblər. Vaqif hər yay Bakıdan gəlir. O, Bakıda yaşayan kiçik şair qardaşını nəzərdə tuturdu. – Amma vəziyyət dəyişib...

– Açıq danışsana? Pulunmu azdır?

– Əşi, necə deyim.

– Beləcə de də.

– Qiymətdə bir az güzəştə getməzdinmi?

Hər şey indi aydın oldu: mənə pulun çox vacib lazım olduğunu anlayıb, qiyməti endirmək istəyirdi.

– Nə qədər pul yığa bilərsən? – Onun hiyləsini başa düşdüyümü istehzalı təbəssümlə hiss etdirərək soruşdum.

– Nə bilim... Belə də... – Onun dili topuq çaldı, – beş min.

– Razıyam.

O bilirdi ki, ev bundan bahadır, mənim də onunla çək-çevir edəcəyimə o qədər əmin idi ki, qəfil razılığımı eşidəndə çaşıb qaldı, sadəcə, qulaqlarına inanmadı.

– Razısan? Beş minə?!

– Bəli.

– Evi, həyətlə birlikdə? Anbarı da? Hamısı bir yerdə?

– Hə, hamısı birlikdə. Amma mənə pullar təcili lazımdı.

– Nə vaxta?

– Nə qədər tez olsa, bir o qədər yaxşıdı...

– Qanuniləşdirmək lazımdı axı hər şeyi.

– Gümanım gəlir, bu sənin əlində bir su içim kimi bir şeydir. İstəsən dilimdən kağız verərəm.

– Hə, belə daha yaxşı olar, – o razılaşdı. – Sabah axşama səni təmin edir?

– Hə...

– Yaxşı, danışdıq! – O bərk-bərk əlimi sıxdı, uğurlu sövdələşməyə görə sevincini gizlədə bilməyərək mehribanlıqla gülümsündü. – Amma hələlik bu barədə heç kim bilməsin, – alaqapının yanında dedi. O, nədənsə qorxurdu: ömrü boyu elə-belə olub: həmişə, hər şeydən qorxub. Budəfəki ehtiyatlılığı isə mənim də ürəyimdən idi...

Moskvada hələ çox gec deyildi, on ikiyə on dəqiqə işləmişdi, burda isə vaxt fərqi olduğuna görə adama elə gəlirdi ki, gecə yarıdan keçib. Yarıyuxulu telefonçu qız süstlüklə milçəkləri qova-qova



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tezcənə Moskvanı birləşdirdi. Söhbətin çətinliyi bunda idi ki, Moskvada tanıdığım yeganə riyaziyyatçı Oleq Vladimirskinin dostu idi, özü də baş verən son əhvalatları bilməsəydi də belə, ona xahişlə müraciət eləmək o qədər də xoşagələn şey deyildi. Amma vunderkindin dəftəri məsələsini həll etməkçün ayrı yol yox idi.

Strijov (onlar öz aralarında bir-birlərinə familiyaları ilə müraciət edirdilər) qətiyyən təəccüblənmədi ki, guya mənim işim-gücüm *gecələr ona ölkənin müxtəlif tərəflərindən zəng eləməkdi.* Ya o, doğrudan da təbiətən soyuq adam idi, ya da uzun illər səylə özünü belə göstərmək sadəcə olaraq onun boynuna düşmüşdü. Mən onu tanıdığım vaxtdan inanmışdım ki, o, heç vaxt, heç nəyə təəccüblənmir, elə bil ki, həyatda onu sevindirəcək şeylər çox azdı. Hətta ona – yaşının azlığını nəzərə alsaq – gözlənilmədən Dövlət mükafatı veriləndə də o, imkan tapıb dedi ki, indi medala görə pencəyi deşmək lazım gələcək.

– Strijov, – dedim, – salam, Edikdi... – Hansı Edik olduğunu o soruşmadı, amma mən hər halda izah etdim; bəlkə onun bu adda dostları çoxdur və kim bilir, o, hansına necə münasibət bəsləyir? – Vladimirskilərin dostu.

– Salam.

– Səngəçevirdən zəng edirəm. – Amma o hardan biləydi ki, Səngəçevir nə deməkdir? – Moskvadan çox uzaqlardayam... İşlər necədi? – Birdən-birə əsl mətləbə keçə bilməzdim, hərçənd ki, sualımın mənasızlığını çox gözəl anlayırdım; bundan başqa kabinənin elə heyrətamiz germetikliyi vardı ki, hava bir göz qırpımında azalmağa başlamışdı.

– Qaydasındadır.

– Strijov, səndən bir xahişim var... Burda bir oğlan var, məktəblidi, yaman bacarıqlıdı, məndə onun başdan-başa formullarla doldurulmuş dəftəri var... diferensial tənliklər və s. Ona bir kömək eləmək olmazmı?..

– Nə lazımdı ki? – Strijkov azacıq susub soruşdu.

– O, MDU-ya daxil olmaq istəyir... Amma birinci əsas məsələ onun qabiliyyətini qiymətləndirməkdi. Çox mürəkkəb formullardır. Dəftərdə bircə dənə də olsun boş səhifə yoxdur. Necə bilirsən, yeddinci sinifdə oxuyan uşaq belə mürəkkəb formullar yazırsa, deməli, qabiliyyəti var, hə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Məlum deyil.
– Amma yeddinci sinifdə bunu hamı bacarmaz axı.
– Hamı bacarmaz, düzdür, – o razılaşdı.
– Nədi? Deyirəm neyləyək? Bəlkə o dəftəri göndərim sənə?
– Göndər.
– Bir neçə gündən sonra isə zəng edərəm.
– Zəng elə.
– Onda sağ ol...
– Sağ ol...

Marafonçu kimi dərindən nəfəs alaraq özümdən çox razı halda küçəyə çıxdım. Axşamı səmərəli keçirmişdim.

Səhər vunderkindin gəlişiylə başlandı. Əlbəttə, ki, qapını açmadım. Vunderkindin səsi adamı əsəbiləşdirəcək dərəcədə gümrah idi:

– *Hələ yatırsınız?*
– Bəli.
– Tezmi qalxacaqsınız?
– Bilmirəm.
– Təxminən nə vaxt?
– İndi saat neçədi?
– Səkkiz...
– Bir az gec gəl, ay oğlan...
– Nə vaxt?
– Günün ikinci yarısında... yaxşı olardı ki, sabah.

Üstümdən mələfəni atıb, çarpayıda oturdum; sonra dikəlib maqnitofonun düyməsini basdım – keyfiyyətsiz yazılmış bir mahnı idi – Alla Puqaçova *kralların əlindən hər şey gəldiyi barədə oxumağa* başladı. Səsi bir az azaldıb, uzandım...

– Mənim yazılarımı oxudunuzmu? – Vunderkind qapının dalından soruşdu. Oğlanın çıxıb getdiyinə o qədər əmin idim ki, bu sualdan diksindim.

– Yox. – Hirsimi güclə boğdum. – Vaxtım hardaydı ki?

– Bəs qalxandan sonra nə edəcəksiniz?

– Ay oğlan, sənə adam balası kimi dedim ki, sabah gəl. Bu gün vaxtım yoxdu.

Stuldan şalvarımı çəkib, geyinməyə başladım. Bir az gözləyib qapıya yaxınlaşdım. Qulaq verdim. Dəhlizdə sakitlik idi, amma hiss edirdim ki, qapının dalında kimsə durub.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən hələ çıxıb getməmisən?

Vunderkind bir az gec boynuna aldı, görünür utanmışdı, – demə onda hələ vicdan əlaməti qalıbmış.

– Bağışlayın, – dedi, – olarmı sizi aşağıda gözləyim?

– Niyə?

– Elə-belə... Söhbət eləməkçün.

– Sabah, sabah, oğlan, xahiş edirəm. Bu gün çox məşğulam.

– Sabahadək mənim dəftərimi oxuyacaqsınız?

– Çalışaram...

Pəncərəyə yaxınlaşdım: qamışlı buxtada taxta körpüyə bir neçə kater yan alıb durmuşdu, irəlidə, sakit axan bol sulu çayaşağı və yuxarı təbiətə bayram təntənəsi gətirən rəngbərəng qayıqlar şütüyürdü.

Toy hazırlığı ilə məşğul olan Aliki qeyri-ixtiyari olaraq işindən ayırmaq lazım gəldi. Feliksin əlbəttə ki, imkanları çox idi (jurnalist jurnalist olaraq qalırdı) zərfi (dəftəri soylə bir neçə qat kağız zərfə bükmüşdüm) təyyarə ilə Kirovabaddan göndərmək onunçün çətin olmazdı, amma Alik o cəhətdən etibarlı idi ki, zərfin içindəki onu qətiyyən maraqlandırmırdı və o, doğrudan da bunun nə olduğunu heç soruşmadı da. Kirovabada yola düşərkən, yazıq məndən bir də xahiş elədi ki, onun keçmiş nişanlısı ilə danışım.

Qızın yaşadığı yataqxana adi bir ev idi: qapıların sayından üç otaqlı olduğu bilinən mənzildə başqa adamlar da yaşayırdı. Otaqların birindəki yarıaçıq qapıdan boylandım, uşaq çarpayısının yanında göy idman kostyumlu bir kişi gördüm.

– Zəhmət olmasa deyin, Alya burdamı yaşayır? – Mən guya pıçıltıyla, amma əslində çox ucadan soruşdum. Çarpayını yelləyən kişi görünür ki, pis eşidirdi. Sualı təkrar eləməli oldum: – Bağışlayın, Alya harda yaşayır?

Kişi yenə də qanrılmadı.

Qonşu qapı açıldı, buruq saçlarını al rəngli şəffaf yaylıqla bağlamış bir qadın çıxdı. Alyanı soruşanda, qadın qəribə tərzdə əllərini şappıldadıb, heç nə cavab vermədən geri-geri getdi. Elə bu anda da göy kostyumlu kişi qəzeti qırağa tullayıb, cəld yerindən qalxdı. Üzünü qapıya sarı döndərdiyindən nədənsə qeyzləndiyi hiss olunurdu. Onun iri sümükləri çıxmış sifəti nəsə mənalı bir tərzdə əyildi, gözlərindən açıq-aşkar inciklik, ağrı oxunurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəhlizdə yad adamın olması ona heç bir təsir-zad eləmirdi; əziyyət çəkirmiş kimi üz-gözünü turşuda-turşuda qəzəblə yumruğunu stola çırpdı.

Uşağı ayıltmaqdan qorxmadan bu dəfə çox sərbəst, bərkdən verdiyim sualı yenə də qulaqardına vurdu.

Qonşu otaqdan başında sarıq olan qadın çıxdı. Onun dirsəyəcən çılpaq olan arıq qolları faciəli şəkildə dala qanrılmışdı. Qadın dəhlizdə yubanmadan göy kostyumlu kişinin azğınlıq elədiyi otağa cumdu. Qapı qadının arxasınca gurultuyla çırpıldı. Amma hətta bu da çarpayıda yatan uşağı ayıltmadı, çünki ağlamaq səsi eşidilmədi.

Bayaq başı sarıqlı qadının çıxdığı qapıdan başqa bir qadın da boylandı. Bu qəribə mənzilə qədəm qoyan andan məni bürüyən anlaşılmazlıq hissi bir anda itdi. Mən qara gözləri və bir az iri burunlu (amma qəşəng), avazımış, heyrət dolu bir sifət gördüm; bu sifətdə diqqət doğuran xeyirxahlıq dolu elə bir işıq vardı ki, o saat özümdə bu qadına xoş gəlmək istəyi duydum. Söz yox ki, bu qadını o saat tanıdım; fotoşəkildəki qıza nisbətən Alikin nişanlısı yalnız azacıq kökəlmişdi.

– Siz Alyasınızmı? – Kimi axtardığımı bildirmək üçün soruşdum.

– Bəli... – O hələ də xeyirxahlıq dolu bir maraqla məni süzürdü. – Qorxdunuz?

– Bir az.

– Onların ikisi də laldır... Mənim yanıma gəlmisiniz?

– Bəli...

O utancaqlıqla gülümsündü:

– Sizi içəri buraxa bilmərəm. Geyimdə deyiləm... Mənimlə işiniz var?

– Bəli.

Görünür, o fikirləşirdi ki, mən öz gəlişimin məqsədini bir neçə kəlmə ilə, otağa girmədən də deyə bilərəm, buna görə də dinmədən gözləyirdi, eyni zamanda qonşularından gələn səs-küyə qulaq verirdi.

– Qalmaqal salıblar, – o yenə gülümsündü.

– Uşaqdamı? – dilim topuq çaldı.

O, bir anlığa məyus oldu, boynunun dalında topalanmış dalğavari tünd-şabalıdı saçları başının yüngül bir hərəkətiylə çiyinlərinə səpələndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə, irsidi... – O yenə susdu ki, mən gəlişimin səbəbini deyəm.

– Mən sizinlə danışmalıyam, – dedim. – Mən Alikin yoldaşıyam...

– A-a-a, siz Moskvadakı Ediksiniz, – o məni o saat tanıdı, – Alik sizin barənizdə çox danışıb... Bağışdayın, mən indi, bu saat... Biz biçimi yoxlayırdıq. Bircə dəqiqə...

Başları aralarındakı münasibəti aydınlaşdırmağa qarışan lal qonşular deyəsən məbeli tərpətməyə başlamışdılar, – döşəmə də, divarlar da titrəyirdi. Alya məni içəri buraxıb (əynində sancaqla bərkidilmiş astar üzünə çevrilmiş iki tikə parça vardı), onları sakitləşdirməyə qaçdı.

Bu dar, balaca otaqda xeyli kitab vardı və bu məni heyrətə gətirdi. (Alik ömrü boyu bircə kitab – o da lap uşaq vaxtlarında – sərhədçi Karasyup barədə qırx səkkiz səhifəlik "Sərhəddə hadisə" kitabını oxumuşdu və bu kitabda bütün həyat hadisələrinə dair faydalı fikirlər tapa bilirdi). Çarpayıda paltar dolu açıq çamadan vardı, döşəməyə tikiləcək paltarla eyni rəngə çalan yay parçasının qalıqları səpələnmişdi. "Məşum" fotoşəkillər olan albom gözə dəymirdi; gərək o zəhrimar elə qeybətcil Sonka gələn günü göz qabağında olaydı?!

Qonşuların səs-küyü yatdı, Alya da tez qayıdıb gəldi.

– Sakitləşdilər... Kişi narazıdır ki, qadın uşağa pis baxır.

– Siz bunu nədən bildiniz?

– Əyləşin, mən onların dilini bilirəm... Öyrənmişəm, dalaşanda sakitləşdirmək üçün.

O, mənim inamsız baxışlarımı görüb güldü, əlləriylə bir neçə cəld hərəkət elədi.

– Bu nə deməkdi? Yəni indi sizə çay qoyacağam.

– Bəs necə demək olar ki, sağ ol, artıq içmişəm?

O lal dilini doğrudan da bildiyini bir daha nümayiş etdirdi və mən də heyranlığımı gizlətmədim.

– Əladı! Çox ifadəlidi!

– Moskvada ayrıca bir teatr var. Him-cim və hərəkət teatrı adlanır. Olmusunuzmu orda?

– Yox... Mən ümumiyyətlə, nadir hallarda evdən bir yana çıxıram.

– İşiniz çoxdu?

– Bəli.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Alik danışırdı. Mən isə Moskvada olanda, hər gün teatra gedirdim. Hətta Taqankaya da düşə bildim.

– Siz Moskvada olmusunuz?

– Hə, bir dəfə. Üçüncü kursdan sonra. – O ah çəkib kədərlə gülümsündü: amma bir an sonra üz-gözündə yenə məzəli bir ifadə yarandı. – İndi bütün ümidim yalnız Alikədir – toydan sonra aparmağa söz verib. Bu mənə hava kimi, su kimi, çörək kimi lazımdır.... Mən rejissoram axı, – bu sözləri deyəndə onun sifəti qəşəng bir tərzdə ciddiləşdi, hiyləgərcəsinə burnunu çəkdi, – düzdü, özfəaliyyət teatrıdı, amma rejissor elə rejissordu da...

Heç cür anlaya bilmirdim ki, Alik onu özünə necə, nə cür, nə ilə cəlb eləyə bilib, həm də çəkidə yüngül... Lap ağlagəlməz işdi – Alikin nişanlısı teatr rejissorudur! Amma keçmiş nişanlısı, hə, bax indi bunu ona elan etmək lazım idi! Daha uzatmağın mənası yoxdu...

– Mənə nəsə demək istəyirdiniz? – O yaranmış sükutu pozub, mənə kömək elədi.

Cibimdən fotoşəkli, daha doğrusu, onun dörd bölünmüş hissələrini çıxartdım.

– Təəssüf ki, gəlişimin məqsədi xoşagəlməzdir...

Qız fotoşəklin üstünə əyildi, ehtiyatla, səliqəylə şəkli birləşdirdi.

– Hardan alıbsınız bunu? – Başını qaldırıb mənə baxdı, gözlərində bircə damla da olsun çaşqınlıq yox idi.

– Alik verdi.

Bu məlumatdan sonra azacıq sıxılan alt dodaq yaranan gərginliyi büruzə verən yegano şeydi.

– Pis oldu, – o tam sakit bir səslə dedi. – Alik belə şeyləri bağışlayanlardan deyil...

– Bəli, elədir, – mən razılaşdım.

Hər şey mən fikirləşdiyimdən də asan oldu. Buna səbəb isə bu qızın heyrətamiz dərəcədə duyuq, anlaqlı olması, bir də ki, özünü ələ almaq bacarığı idi.

– Bu onun əlinə necə düşüb? Amma daha indi nə fərqi var? O, istehzayla gülümsünüb, fotoşəkli əlinə aldı. – Şəkil hoqiqidir. Günahların isə altı çəkilməlidir. Yazıq Alik! O çox fikir çəkir?

– Hə.

– İndi necə olacaq? Belə görürəm ki, bizim ailə səadətimiz zərbə altındadır?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli, belə çıxır.

– Sizi xüsusi göndərib ki, bunu mənə xəbər verəsiniz?

– Bəli.

– Sizə heç də həsəd aparmıram. Amma niyə məhz sizi seçiblər?

– Bilmirəm. Yəqin ona görə ki, sizi hamıdan az mən tanıyıram.

– Elə yox. Yəqin Alik düşünüb ki, bunu demək sizinçün daha asan olar.

– Niyə axı?

– Siz paytaxt xadimisiniz. Belə vəziyyətlərə yəqin çox düşmüsünüz.

– Məncə, siz məni incitmək fikrindəsiniz.

O çiyinlərini çəkdi:

– Mən yalnız güman elədiyimi deyirəm.

Biz susduq. Getmək vaxtıydı. Sadəcə olaraq ayağa qalxıb, qapıya yönəlmək lazımdı. Təbii ki, qız da bunu gözləyirdi. Çox güman ki, bu dəqiqə tək qalmaq istəyirdi...

Amma indi ağ parça altından tədricən üzə çıxan qan ləkəsi kimi onun üz-gözündən səylə gizlətdiyi daxili həyəcan bilinməyə başlayırdı; qəddi elə bil ki, əyildi, dodaqlarının qırağında qırışlar əmələ gəldi, sifətinin ağlığı qeyri-təbii oldu, elə bil pudralandı. Şübhəsiz ki, onun yaşı iyirmi beşdən çoxdu. Tanışlığın ilk anlarında isə o, çox gənc görünürdü. Qəribədir, axı Alik onu özünə necə məftun eləmişdi? Yəqin ki, sərhədçi Karasyupun qeyri-adi macəraları ilə yox?! Özümü saxlaya bilməyib qalxıb getmək əvəzinə Karasyupun adını çəkmədən və ümumiyyətlə, Aliki qətiyyən alçaltmadan düşündüyümü qızdan soruşdum. Bu, mənə müəyyən mənada müyəssər oldu; kimin kimdən üstün olduğunu dəqiqləşdirmək çox da vacib deyil, sadəcə olaraq ayrı-ayrı adamlardır, vəssalam! Axı, cəmi bir neçə dəqiqəlik ünsiyyət kifayətdir ki, bu qızla Alikin ayrı-ayrı adamlar olduğunu başa düşəsən, ya mən səhv edirəm?

Qız o saat cavab vermədi, bir neçə saniyə açıq-aşkar bir zəndlə mənə baxdı, elə bil özüyçün mənə etibar edib-etmədiyini müəyyənləşdirmək istəyirdi. Nəhayət, qərara gəldi: bu barədə indi, baş verən hadisədən sonra danışmaq gülüncdür, amma Aliki tanımaq üçün böyük psixoloqmu olmaq lazımdır? Aydındı ki, onlarınkı heç vaxt tutmaz – o bunu lap əvvəldən bilir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəs bilə-bilə də nə üçün Alikə ərə getməyə hazırlaşırdı? Mümkünsə, qoy o mənim nəzakətsizliyimi bağışlasın, amma adam özünü saxlaya bilmir, çünki buna oxşar bir şey bir müddət əvvəl öz başıma da gəlib. Düzdü, o adam Alikin tam əksidir; orda hər şey əksinə idi, amma bu artıq detaldır, başlıcası isə hər şeydəki bax belə bir uyğunsuzluqdaydı – həm zövqdə, həm adamları qiymətləndirməkdə, nə isə çox şeylərdə... Bu, necə qurtardı? Aydındı ki, yaxşı qurtarmadı. Ayrıldıq. O, başqasının yanına getdi. İndi danışdığım bu şeylərdən baş çıxaranda çox gec idi. O məni sevdiyinə and içməkdə davam edirdi və mən də inanırdım. Yalnız bu yaxınlarda illüziyalardan tamam xilas oldum, bizim nə dərəcədə müxtəlif adamlar olduğumuzu başa düşdüm.

Alya mənə maraqla qulaq asırdı, onu mənim Nina ilə münasibətlərimin tarixi həyəcanlandırmamışdı, – söhbətin özü alıb aparmışdı, nəyin barəsindəsə belə acıqla danışmaq imkanı onu ələ almışdı! Buna görə də mən sualımı bir də təkrar elədim: düzdü Alik yaxşı oğlandı, qəlbi təmizdi, amma məhz niyə görə o, Alikə ərə getmək istəyirdi? Onu məcbur edən nə idi? Sevgi ha deyildi!

Bəli, sevgi deyildi! Qız bunu gizlətmirdi. Həm də ki, bunu gizlətməyə ehtiyac da yox idi. Bu, kimi maraqlandırırdı ki! Özü də Alik kimi bir adamı; onunçün başqa şey vacibdi, ona elə bir qız lazımdı ki, gələcək uşaqlarına yaxşı ana olsun, həm də ki, sağlam, ağır, gözəgəlimli... Aydındı ki, gənc qızların razılığını almaq onunçün çətindi, buna görə də bir az yaşlılara göz qoyurmuş. Günlərin bir günündə onu gözü tutub. Camaata görə iyirmi beş yaş çoxdu: nəsə qarımış qız kimi bir şeydi, aydındı ki, ərə getməyi arzulayır, deməli, çox çək-çevir eləməyəcək. Elə-belə də oldu: o, təklifini elədi, qız da razılıq verdi. Çünki çətin bir də kimisə sevə bilə. Ürəyindən isə ailə, ev, uşaqlar keçirdi. O öz işini sevir, amma belə şəhərdə tək yaşamaq çətindir, tənha qadın hamının gözünə pis görünür, hərə bir söz deyir, girişir, xətrinə dəyir. Nə isə, tənhalıqdan bezibmiş, yorulubmuş.

Alya susdu, görünür, tamam-kamal tanımadığı bir adama ürəyindəkilərin hamısını belə asanlıqla açıb danışdığına heyrət edirdi. Baxmayaraq ki, bu, həmin adamın özünün elə bu cür açıq danışığına cavab da olsa belə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən isə qulaq asa-asa düşünürdüm ki, bizim həyatımızın müxtəlifliyinə baxmayaraq, oxşar cəhətlər nə qədər çoxdu. Şəhərlər müxtəlifdi, Moskva və Səngəçevir, paytaxt və ucqar şəhəri, duyğularımız isə eynidi, axı mən də Moskvada özüm ola bilmədim. O mənada yox ki, yaxşı dostlarım yox idi, ya çətin anlarımda kömək eləyən tapılmazdı – təkcə Olya isə Tanya nəyə desən deyərlər! – Sadəcə məni həqiqətən başa düşən adam yoxdur. Moskvada moskvalı dostlarımla müqayisədə öz baxışlarımda bir məhdudluq duyuram, hər halda mənə bunu tez-tez irad tuturlar, burda Səngəçevirdə isə əksinə, məni çox şey acıqlandırır, təəccübləndirir, – götürək elə bu fotoşəkil əhvalatını! Cəfəngiyatdı, qabalıqdı və bunu Alikə başa salmaq qeyri-mümkündü. Beləliklə də mən qəribə bir boşluq vəziyyətinə düşmüşdüm – burda da yadam, Moskvada da, ordan üzüb çıxmışam, burda üzülürəm.

Bütün bunları ona danışıb, məni anladıqlarına sevinə-sevinə, gec-tez burdan o lənətə gəlmiş avarçəkmə bazasına gedəsi olacağımı – bu qanqaraldan məcburiyyəti daha kəskin duyurdum, orda yenə yalan danışmalı olacaqdım, Özümün uydurduğum əfsanəyə uyğun gəlməkçün dəridən-qabıqdan çıxacaqdım. Söhbəti davam etdirməkçün Alyaya çox da dəxli olmayan bir sual verdim:

– Niyə sizə elə gəlir ki, daha heç kimi sevə bilməyəcəksiniz?

– Ona görə ki, boğazacan toxam... Ömrümün axırınadək bəsdi.

Şəklə nəzər saldığından, onun kimi nəzərdə tutduğu aydın oldu.

– Bu odur?

– Hə. Bir yerdə oxumuşuq.

– Sonrası?

– Gördüyünüz kimi.

– Bəs səbəbi?

O gülümsündü:

– Bəlkə, çay qoyum sizinçün?

Mən boyun qaçırmaq istədiyimi onun qonşularının “diliylə” göstərdim.

– Elə yox, – Alya gülüb səhvimi düzəltdi; sonra bir andaca ciddiləşdi – onun asanlıqla bir haldan başqa hala keçməsi məni təəccübləndirirdi – sonra sualıma cavab da verdi. – Səbəbi bayağı bir şeydi. Təsadüfən məlum oldu ki, Lənkəranda arvadı-uşağı var. – Dodaqlarında yüngül bir istehza gəzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Amma o axı bacarardı...

– Deməli bacarmayıb... ya da istəməyib... Sizin məncə iki uşağınız var?

– Mənim?

– Mənə Alik deyib. – O nəyisə dəyişik saldığını düşünüb, karıxdı.

Aydındı ki, uşaqların sayını təsdiq eləmək lazımdı; əslində, bunun nə əhəmiyyəti vardı, mənim uşaqlarım var ya yox? Burda, Səngəçevirdə, mənim həyatım qədər real olan bir şeyi inkar etmək mənasız idi. Amma nədənsə bütün bunları anlaya-anlaya, özümü çox qəribə apardım.

– Məsələ bundan da qəlizdir, – onun gözlərinə düz baxmağa çalışaraq qızardığımı da duyaraq dedim. – Bunu iki kəlməynən necə izah eləyəsən? O da var ki, sizin məlumatınız dəqiq deyil.

Onun cavabını elə-belə də gözləyirdim:

– Axırı ki, sizin uşaqlarınız var ya yox?

– Yox, – dedim. – Uşaqlarım yoxdu. Ümumiyyətlə, mən subayam.

Söhbətin bütün gözəlliyi o saat itdi: yenə də özümün həmişəki zəhlətökən vəziyyətimdə idim, yalanım çıxmasın deyə hər kəlməmi ölçüb-biçməliydim.

– Hə, mən gedim?

– Niyə belə birdən qalxdınız? – O gülümsəsə də, təəssüfünü gizlətmirdi. – Gəlib həyatımı alt-üst etdiniz, indi də durub qaçırsınız...

– Sizə hələ baş çəkəcəyəm, – dilimdən çıxdı.

– Gəlin, gəlin... Daha mən sərbəst adamam... – O, stolun üstündəki çantasını açdı. – Belə məsələlərdən mənim o qədər də başım çıxmır. Amma görünür, bunu qaytarmaq lazımdı, – o, çantasında nəyisə axtarırdı. – Siz bunu Alikə verərsinizmi?

– Nəyi?

– Üzüyü... üzüyü, bir də başqa şeyləri...

– Yox, bağışlayın, üzr istəyirəm, – mən etiraz etdim, – bunu özünüz... birtəhər... imkan taparsınız...

– Mən daha onu harda görəcəyəm ki?.. Amma siz haqlısınız... – O çantasını bağladı. – Nəsə qəribə bir haldayam. Bir tərəfdən əlbəttə kədərliyəm... Amma bir rahatlıq, yüngüllük də duyuram – elə bil nəsə vacib, lazımlı... amma xoşagəlməz bir şeydən azad ediblər məni... – O güldü. – Axır ki, iblisəm mən!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Düz deyil, – mən cavabında gülümsədim. – Əksinə, siz səmimi adamsınız.

Kimsə kobudluqla qapını itələdi. Diksinib boylandım. – Yarıaçıq qapıdan qonşu qadının qırmızı sarığı görünüb yox oldu. Qalxdım.

– Sizinlə bir yerdə çox maraqlıdı, – o açıq bir təəssüflə dedi.

– Mənə də həmçinin.

– Mən heç vaxt, heç kimlə bu cür açıq danışmamışdım.

– Elə mən də, lap çoxdan.

– Eh... siz, – o ah çəkdi, – sizin həyatınız tamam başqadı...

– Hamınınkı eyni cürdü, – əlimi yellədim. – Həyatının necəliyindən asılı olmayaraq, ən vacibi səni başa düşən bir adamın olmasıdır. Lap dövlət başçısı olsan belə, bu cür adamsız çətindir. Bunu sizə mən deyirəm.

– Hə, çox güman ki, elədir. – O fikrə getdi. – Adamların həyatı hardasa bir-birinə oxşayır, nəyəsə müvəffəq olanların da, uğursuzların da...

– Bəs nə vaxt görüşəcəyik? – Mən artıq qapının ağzındaykən soruşdum.

– Sizinçün nə vaxt münasibdi? Məni tapmaq asandı. Ya evdəyəm, ya da sarayda. Mədəniyyət sarayının yerini bilirsinizmi?

– Əlbəttə, Alikə nə deyim? Bəlkə onun başına ağıl qoya bildim.

– Deyin ki, onu başa düşürəm və ona yazığım gəlir...

– Onun hələ şansı var?

– Belə fikirləşirəm ki, var...

Mən onun səsində həzin bir çağırış duyub ürəyimdə sevindim.

– Deməli, bu əhvalat sizi əyməyib, siz əvvəlki kimi ona ərə getməyə hazırsınız? Sizi düzmü başa düşdüm?

– Bəli, düz başa düşmüsünüz.

– Bunu ona deyə bilərəm?

– Niyə təəccüblənirsiniz? Mən ki, dedim sizə. Ərə getmək istəyirəm. Alikdən yaxşısını isə burda tapmaq mümkün deyil...

– Birdən yaxşısı tapıldı?

– Təəssüf ki, artıq tapılmayacaq.

– Birdən tapıldı?

– Hələ ki, hər şey Alikin qərarından asılıdı... Amma o, qəti etiraz eləsə, mən hazıram. Nədi, olmaya kimsə var, yerini bilirsiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli.

– Kimdi o?

– Mən.

O güldü.

– Elə ilk dəfədən yaman dərinə getdiniz.

– Ona hələ baxarıq! Beləliklə, əgər Aliki döndərə bilməsəm, mən ümid eləyə bilərəm?

– Əlbəttə ki!

– Oldu, onda bu gün nə qədər gec də olsa sizə cavab verəcəyəm. Razılaşdıq?

– Razılaşdıq. – O başa düşürdü ki, mən nə qədər ciddi desəm də, zarafat edirəm.

– Əgər hətta gecə də olsa?

– Səhərədək dözə bilməzsiniz?

– Yox.

O, çiyinlərini çəkib əllərini yana açdı: demək istəyirdi ki, neyləmək olar, siz də belə səbirsiz adamsınız.

– Amma xəbərdarlıq edirəm, – mən pilləkənə doğru yönələndə o ardımca əlavə etdi, – amma gecə dinc durasınız ha... Böyük alim də olsanız, xoşuma da gəlsəniz, yadınızda saxlayın, – belə məsələlərdə heç bir vədə aldanan deyiləm...

O elə əvvəlki tərzdə zarafatyana danışırdı, amma aydınca başa saldı ki, gecə görüşünə bir elə də ümid bəsləmək gərək deyil.

– Vətən özünü göstərir, – ah çəkdim.

– Bəli, – o razılaşdı, – oyun qaydaları burda dəyişməyib...

– Bəs elmi-texniki inqilab, tərəqqi, şəxsiyyət azadlığı necə olsun?

– Bunlar hamısı gündüz... – O gülümsədi, – axşam səkkizədək qüvvədədir. Qaranlıq ki, düşdü – burda hər şey Şirvanşahlar dövründə olduğu kimidi... Nə isə, görüşənədək.

Qapı ehmalca, səssizcə örtüldü.

Günün ikinci yarısında işim bir az da çoxaldı. Əvvəlcə uşaqlıq dostlarımın təşəbbüsüylə Kür sahilində məxsusi bizim üçün qızdırılmış fin hamamının böyründəcə qaban kababı təşkil olundu. Yerimiz dalda idi; buğdan çıxıb stola elə alt paltarındaca yaxınlaşırdıq, hava qızmar olduğundan yaş mələfələrə bürünmüşdük.

Hərdənbir vunderkindin anası gəlirdi: uzaqdan hərlənir, bizim romalı ayağına oxşar çılpaq ayaqlarımızdan utanıb gedirdi. Növbəti



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hamam buğundan sonra çaya baş vuranda axır ki, Aliklə təklikdə danışmaq imkanı tapdım. Üzdən sakit görünən, amma görünməz güclü axın bizi kənara atdı, Alik də fürsətdən istifadə eləyib uşaqların yanında verə bilmədiyi sualı verdi:

– Alya nə dedi, özünə bəraət qazandırdımı?

– Heç özünə bəraət-zad qazandırmırdı, – dedim; hətta burda, sahildə də bizi yıxan güclü, görünməz axına qarşı güclə davam gətirərək, qurşağadək suyun içində durmuşduq. – Doğrudanmı anlamaq istəmirsən? Məgər o sənin qarşında günahkardımı ki, özünə bəraət də qazandırsın? Düzdü, bir yerdə oxuduğu oğlanla görüşürmüş... Burda dəhşətli nə var ki? Sənə münasibəti çox yaxşıdır. Sən hələ bir sevinməlisən ki, belə bir qız arvadın olmağa razıdır. Sənə düzünü deyirəm, mən hətta, təəccübləndim də...

– Mən özüm də təəccüblənirəm, – Alik qətiyyən incimədən razılaşdı. – Boyu da məndən ucadı... Onun dalınca çoxları düşürdü.

– Görürsən... Sənsə onun keçmişini eşələyirsən... Gülüncdür.

Alik köksünü ötürüb, gözlərini gözümdən yayındırdı.

– Necə bilirsən, – dedi, – üzük qalsınmı onda, ya geri götürüm? – Bununla da bildirdi ki, Alya ilə ayrılıq çox çətin olsa da, bu qərar artıq dəyişilməzdir.

– Bilmirəm. Mənlə yollamaq istəyirdi, amma mən boyun qaçırdım.

– Qoy ona qalsın... Mən isə təzəsini alaram...

– Deməli qərarın qətidir.

– Hə.

– Axmaqlıqdı. Toyu da təxirə salırsan?

– Yox. Dəvətnamələri paylamışam ki!

– Kimi alırsan?

Alik karıxdı.

– Birini nəzərdə tutmuşam... Amma... əlim hər yerdən üzülüb deyə, elə belə...

– Daha bundan da o yanası yoxdu ki? Sabah toydu axı...

– Axşamadək hələ vaxt var.

– O ehtiyatda olan nişanlın heç olmasa sənin planlarını bilirmi?

– Yox... Amma heç nə olmaz, o razı olacaq.

Aliki fikrindən döndərmək üçün bir də cəhd eləmək olardı, amma nə faydası, bu ki, heç kimi sevindirməyəcəkdi: Nə Alyanı, nə Aliki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə də hələ ehtiyatda olan, taleyin qarşıdakı dönüşündən xəbəri olmayan gizli nişanlını.

Süfrəyə qayıdanda Feliksin burda olmayan Oqtayın şərəfinə dediyi tostu dinlədik ("çox üzrlü səbəbdən o, indi burda yoxdur, – hamı aşkar gülümsündü, – öz ailəsinin içindədi, amma qəlbi isə bizimlədi, biz də onun sağlığını diləyib, uğurlarının, daha xoş günlərinin şərəfinə içməliyik...") badələri bir də boşaltdıq, bu arada Feliks elan etdi ki, təəssüflənsə də tamada vəzifəsindən əl çəkməlidi, çünki saat üçdə bizi redaksiyada gözləyirlər (bu gözlənilməzlikdən az qala çeçəmişdim), görüşdə şəhərin mətbu orqanlarının bütün əməkdaşları iştirak edəcəklər, ora gecikmək olmaz.

– Bəs niyə məni xəbərdar eləməmisən? – Acıqla nimçəni özümdən kənara itələdim. – Heç olmasa içməzdim!

– Əşi, boş şeydir. – Feliks çiyinlərimi qucaqladı. – Orda hamısı özümüzkülərdi... Özü də öyrəncəlidirlər, hələ şəhərimizin qonaqlarını ayıq görən olmayıb. Sən qaydasındasan, – ciddi tərzdə əlavə etdi. – Sənə göz qoyurdum, az içirdin.

– Yaxşı deyil, məndən araq iyi gəlir. Bir də ki, xahiş eləmişdim axı...

– O haqlıdır, Feliks, – Alik tərəfimi saxladı. – Kişi istirahət eləməyə gəlib...

– Eyibi yox, eyibi yox, belə lazımdı. – Feliksi hər belə sözlə fikrindən döndərmək olmazdı. – Xalq öz qəhrəmanlarını tanımalıdı. Bizə də xeyri var, qoy bilsinlər ki, necə görkəmli bir dostumuz var.

Moskvada yüksək mövqeyə nail olmuş yerliyə maraq konfranszala yalnız jurnalistləri yığmamışdı: zalda oturanlar arasında mətbuata heç bir dəxli olmayan tanış adamları da gördüm.

Birinci cərgədə şəhərin üç qəzet redaktoru və heç şübhəsiz ki, ən nüfuzu adamlardan da bir neçəsi əyləşmişdi.

Feliks söz verməzdən əvvəl məni çox məharətlə təqdim elədi. Konkret heç bir şey deməsə də, bu hadisənin böyük əhəmiyyəti olduğunu oturanlara təlqin edə bildi. O:

– Bizim şəhərin artıq qırx yaşı var, – dedi. – Bir insan ömrüdür... Amma şəhərin tərcümeyi-halında cəmi bircə andır, lap ilk addımdır, başlanğıcdır. Ona görə də şəhərimizin bəşər tarixini bir neçə görkəmli şəxsiyyətlə bəzəyə bildiyini düşünmək olduqca xoşdur. Ən xoş olan bir də budu ki, həyatlarının necə keçməsindən asılı olma-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaraq, onların heç biri öz doğma şəhərlərini unutmur. Məhz bugünkü görüş də buna tutarlı bir sübutdur. – Bu yerdə Feliks qəşəng bir tərzdə, məşhur sehrbazı səhnəyə dəvət edirmiş kimi mənə işarə elədi ki, kürsüyə qalxmalıyam.

Xoşbəxtlikdən, az içməyə çalışmağıma baxmayaraq, mənə azı üç yüz qram araq içirdə bilmişdilər və mən Moskvadakı görkəmli elmi fəaliyyətimdən danışmağa başlayanda, bu, vəziyyətimi xeyli yüngülləşdirdi. Bir də ki, sınaqdan çıxmış, köhnə, kimlərinsə tapdığı yarımhəqiqət üsulu kömək elədi – mən ayrı şeyi nəzərdə tuturdum, irəlicədən hazırlanmış dinləyicilər isə başqa şeyi başa düşürdülər: mən keçə çəkmələr fabriki barədə həqiqəti danışırdım, ehtiramla qulaq asan yerlilərim isə səmimiyyətlə inanırdılar ki, onları hansısa qapalı elmi istehsalatın sirlərindən agah edirlər.

– Mən indi... burda, sizin qarşınızda çıxış edərkən çox həyəcanlanıram, – dedim, – nəylə məşğul olmağından, öz işində hansı uğurlara nail olmasından asılı olmayaraq, doğma şəhərdə, səni uşaqlıqdan, məktəb skamyasından tanıyan adamların qarşısında çıxış eləmək, – bu sözü ona görə dedim ki, axırıncı cərgələrdə məktəbimizin bir neçə müəllimini gördüm – özü də o adamların ki, səni nəinki sadəcə tanıyır, həm də sənin əsl insan kimi böyüməyin üçün əllərindən gələni əsirgəməyiblər, – adamın qarşısına çox ağır vəzifələr qoyur. Bu sanki səni ciddi sorğu-suala tutmaq ixtiyarında olan adamlar qarşısında hesabatdır. Bu, dözülməz bürküdə bura gələnlərin hamısına minnətdaram. Mənə görə bura yığışdığınız üçün özümü son dərəcə xəcalətli hiss edirəm və səmimi bir qətiyyətlə deyə bilərəm ki, mən bu cür diqqətə layiq deyiləm. Dostlarım təsdiq edərlər ki, mən bura gələndə diqqəti cəlb eləməməyə çalışırdım. Neyləmək olar? Bunu mənim həyatımın bəzi cəhətləri məcbur edir. Təəssüf ki, ürəyim istəsə də açıq etirafa yol verə bilmərəm. Buna görə də bu gün çox şeylər barədə susmağa məcbur olacağam. Vaxt gələr, həqiqəti bütün təfərrüatı ilə bilərsiniz, hamı bilər. İndi isə hələlik az, çox az şeylər danışa bilərəm. Yeganə onu deyib sizi inandıra bilərəm ki, gecə-gündüz durmadan işləyirik, bizim istehsal etdiyimiz şeylər adamlara hava, su kimi lazımdır, xüsusən də ölkəmizin Uzaq Şimalında işləyənlərin gözləri bizə dikilib. Cəsarətlə deyə bilərəm: bizim fəal iştirakımız olmadan, məsələn, Tumen vilayətinin şimalında, Yamal yarımadasında, bir çox başqa şimal rayonlarında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iri neft-qaz yataqlarının mənimsənilməsi çox-çox çətinləşərdi. Məhsulumuzun keyfiyyətini dayanmadan təkmilləşdiririk, yaxşılaşdırırıq və bugünkü gün yenə də cəsarətlə deyə bilərəm ki, bu sahədə dünyanın bütün inkişaf etmiş ölkələrini xeyli qabaqlamışıq.

Bu yerdə zal həyəcana gəldi, coşqun alqış sədaları uzun müddət kəsilmədi; mənim çıxışımdan aldıqları təəssürat o qədər güclü idi ki, görüşdən sonra camaat ehtiramla bir neçə addım arxada gələrək, bizi maşınadək ötürdü.

Feliks təəccüb içində aydınlaşdırmaq istəyirdi ki, mən niyə bütün təltiflərimi sadalamadım – bunda ki məxfi bir şey yoxdur! Ona fikir vermirdim, bununla da guya bildirmək istəyirdim ki, təvazökarlıqdan belə eləmişəm. Doğrudan da, bu yerdə yalan demirdim – hətta o təltiflərim olsaydı belə, onlara görə özümü camaatın qarşısında yırtıb dağıtmazdım.

– Heç olmasa mükafat barədə deyərdin, – Feliks donquldanmağından qalmırdı.

– Medal ki, asılıb, daha danışmaq nəyə lazım? Əgər iş bundadırsa, onlara sən deməliydin.

Feliks etiraz etməyə imkan tapmadı – maşının yanında bizi iki qoca gözləyirdi. Əyinlərində şkafdan uzun muddət çıxarılmayan eyni cür zolaqlı, iki yanlı kostyumlar vardı – güclü naftalin iyi buna sübut idi.

– Bunlar sənin keçmiş qonşularındı, – Feliks hər ehtimala qarşı yadıma saldı. Amma mən onun köməyi olmadan da qocaları tanıdım, – bax bu uzun illər ərzində dəyişməyənlər bunlar idilər: neçə illər bundan əvvəl də onlar bax elə bu cür tökülmüş kimi görünürdülər, hərçənd biri digərindən yaşca çox böyük idi. Qocalar qardaş idilər, rəhmətlik atamla dostluq edirdilər, nə vaxtsa müharibədən sonra bura elektrik stansiyası tikintisinə gəlmişdilər. O vaxt şəhər hələ yox idi, orda, indi dəniz deyilən şeyin dalğalandığı yerdə isə pələnglərin cövlan etdiyi nəhəng meşələr vardı. Mənim – yeganə oğlunun – hələ səkkiz yaşı tamam olmamış, vərəmdən ölən atam belə deyərdi...

Feliks qocaların adını demək istədi. Onun sözünü kobudcasına kəsdim. Məgər unutmuşdum onları?! Qocaları sinəmə sıxdım. Gözlərimin yaşla dolduğunu hiss edəndə belə Feliksin yersiz işgüzar-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lığına heyrət etməkdəydim: qəzetdə işlədiyi uzun illər ərzində yəqin bu qənaətə gəlmişdi ki, həyatda azdan-çoxdan bir şeyə nail olan adamlar öz keçmişlərini də, onunla bağlı adamları da təmiz unudurlar.

Qocaların məndən xahişi vardı. Nədənsə şəhər su kəməri onların evindən yan keçib (əlbəttə, rəhmətlik anamın da evindən, axı biz çoxdanın qonşularıydıq). Hamının həyətinə su çəkiblər, onları isə unudublar, ya da nəsə səhv düşüb. Səbəb də, əlbəttə, bu evlərin bir qədər aralıda, dağ ətəyində yerləşməyi idi! Bəlkə də başqa bir şey mane olub, amma ya elə, ya belə – onları sudan məğmun ediblər, keçmişlərdə olduğu tək suyu quyudan daşıyıb gətirmək isə əməlli başlı dilxorçuluqdu. Dövlət ki, adamların həyatını yüngülləşdirmək qərarına gəlib, bəs niyə onların da həyətində su olmasın?! Qocalar şəhər sovetinə də müraciət ediblər, aydın olub ki, nədənsə onların evi heç smetada belə yoxdur, əgər belədirsə, onda deməli, heç pul da ayırmayıblar. Pulsuz isə kimdi su kəməri çəkən? Onlara belə izah ediblər. İndi bu təsadüfi səhvi yalnız böyük bir adamın işə qarışması ilə aradan götürmək olar. O böyük adam da mən! Elə bu ümidlə də məni narahat etmək qərarına gəliblər. Əlbəttə, nəyi harda deməyi mən onlardan yaxşı bilərəm! Amma susuz çox çətindi, suyu quyudan da daşımaq olar, yaş ötüb ey, gücümüz daha o güc deyil...

– Bu qocalara kim kömək edə bilər? – Feliksdən soruşdum.

– Yalnız şəhər sovetinin sədri. İş çoxdan görülüb qurtarıb... Niyə vaxtında deməmisiniz? – Feliks çox da təbii olmayan bir səslə qocaları məzəmmətlədi. – Redaksiyaya gələrdiniz. Biz çıxış edərdik, onlar da işi yoluna qoyardı.

– İndi çox gecdir? – Qocalar qorxdular.

– Bilmirəm. Hər halda cəhd eləmək lazımdı. Düzdü, ümid azdı... Birinci gün redaksiyaya gəlin, bir şey fikirləşərik.

Qocalar kədərli bir minnətdarlıqla Feliksə baş əyib, mənə elə acizanə inamla baxdılar ki, Feliksə acığım tutdu.

– Nə boş-boş danışırsan? – dedim. – Niyə ümid azdı? Niyə camaatı qorxudursan?

– Qorxutmuram... Sədrimizi yaxşı tanıdığım üçün...

– Nəyə lazımdı qəzetiniz onda? Bir halda ki, belə adi bir şeyi də həll edə bilmirsiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Biz heç nə həll eləmirik, Edik. Sən elə bil aydan gəlibsən. Biz yalnız çıxış edirik. Qərarı isə başqa təşkilatlar qəbul edirlər. Bu məsələdə inanmıram ki, bizim çıxışımızın bir təsiri ola.

– Bəs adamlar susuz qalsın?

– Bilmirəm... Dedim axı: çalışarıq, bir şey fikirləşərik. Sən sədrlə danış.

Qocalar elə bil cana gəldilər, onun sözünü ikiqat gümrahlıqla başlarıyla təsdiqlədilər, şəhər sovetinin sədri məni də eşitməyib daha kimi eşidəcəkdi?!

– Oldu, danışaram. Heç şübhəsiz! Amma nə vaxt?

Feliks saatına baxdı.

– Bu gün mənası yoxdu. Sabah toydu. Yaxşısı budu birisi gün səhər.

Qocalar mənə qızğın minnətdarlıq eləməyə başladılar, eyni zamanda tanrıdan mənə ömür dilədilər ki, belə bir insaniyyətliyi, xeyirxahlığı məndə daim hifz eləsin. Amma Feliks nədənsə onların xeyir-duasını kəsməli oldu, məni tələsik əyləşdirdi – sən demə o, vunderkindin həminki kimi əlvan geyimli kök anasının yelləmə gəldiyini görübmüş. Maşın tərpəndi. Mən Alikin toyundan sonra su kəməriylə mütləq məşğul olacağımı qocalara güclə deyə bildim.

Yolda Feliks işarə elədi ki, vəd etdiyin pulu Ramizə bacardıqca tez versən yaxşı olardı; əlbəttə, fikrimi dəyişməmişəmsə. Ramiz bu gün borca iki yüz cücə götürüb...

– Bu nə sözdü... Əlbəttə! Pullar axşam onda olacaq.

Pulu olmaya-olmaya toyuq bəsləmək istəyən Ramizin bu çoxillik arzusunda nəsə bir maniakallıq vardı...

Təzə görüşlərdən qaçmaq üçün axşam düşənədək nömrədə oturmaq cəhdi boşa çıxdı. Təzəcə içəri girmişdim ki, arxamca qapı elə o saat da döyüldü. Bəlkə də bu, on dəqiqə sonra olsaydı qapının döyülməsinə heç fikir də verməzdim, amma qapı elə həmin an, mən nömrəyə girən kimi döyüldüyünə görə əlacsız qaldım. – Bu adam, heç şübhəsiz ki, mənim bazaya qayıtdığımı görmüşdü.

Hay verməli oldum:

– Kimdir?

Gələnin vunderkind ya da anası olduğuna o qədər əmin idim ki, qapının dalından naməlum kişi səsi eşidəndə sevinən kimi oldum.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başı dazlaşmaqda olan, yastıalınlı, uzun bakenbardlarının onsuz da iri olan sifətini daha da dəyirmiləşdirdiyi bu kişi içəri keçməzdən əvvəl uzun-uzadı üzr istədi.

– Narahat elədiyimə görə bağışla məni, mən zəhlətökən adamlardan deyiləm. Çox vacib olmasaydı, mən burda nə gəzirdim?! Vaxtını çox almayacağam. – Nəhayət, bu yorğun, tamam yad kişi içəri girdi.

– Dincini alırdın?

– Bəli.

– Bağışla, bir də bağışla.... Əgər...

Bu üzrxahlıq yağışından canımı qurtarmaq üçün ona oturmağı təklif elədim.

– Amma mənə "siz" demə, – kişi məmnuniyyətlə əyləşdi – xahiş edirəm, adamın qəlbinə dəyir. Doğrudanmı məni tanımadın? Hə? Diqqətlə bax... Mən Tofiqəm də... Hə, tanıdın?

Bu adamı birinci dəfə gördüyümə and içməyə hazır idim, amma girdəsifət Tofiq bizim çoxdanın tanışı olduğumuza elə əmin idi ki, onu tanımamaq nəsə yaxşı çıxmazdı.

– Nəsə tanış gəlirsən...

– Tanış?! – Tofiq coşqunluqla çığırdı. – Mənə iki dənə yağlı şillə çəkmisən, hələ bir şübhə də edirsən!

– Mən?!

– Bəli, sən... Bir dəfə köhnə kinoteatrın yanında, altısaatlıq seansdan sonra. Düzdü, qaranlıq idi, bəlkə də onda məni yaxşı seçməmişdin, amma o saat vurdun. Dəqiq yadımdadı. Papağım düşdü. Hə, yadına düşdü?

– Niyə vurdum?

– Sən qızla gedirdin, biz isə arxanızca pis sözlər danışdıq... Sən sonra papağa da bir təpik ilişdirdin. Birinci dəfə isə sən hələ məktəbdə vurmuşdun məni...

– Məktəbdə?

– Səkkizinci sinifdə. Əşi, kefini pozma. Sən haqlıydın, boynuma alıram. Harda istəsən təsdiq edə bilərəm. Amma əlin yaman ağırdı. Yadıma düşəndə yanağım hələ də sızıldayır... Mineral suyun yoxdu ki?

– Var.

İki dəfə mənə görə pərt olmuş bu adamın qarşısında günahkarammış kimi hərəkətlərimdə nəsə yersiz bir tələsiklik vardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Soyuducudan su çıxarıb, münasib bir şey olmadığından onu xörək bıçağıyla açdım, az qala əlimi də kəsəcəkdim.

Tofiq stəkanı birnəfəsə başına çəkib, ani olaraq da alnındakı iri tər damcılarını sildi.

– Hə, günlər vardı, – o, həsrətli bir səslə dedi, – kişilər özlərini əsl kişi kimi aparırdılar, heç nədən qorxmurdular... Düzmü deyirəm?

– Sözsüz...

Görünür, mən onun uşaqlıq, yeniyetməlik aləmində elə mühüm yer tuturdum ki, indi onunla sözsüz razılaşmaq bir növ yaxşı düşmürdü.

– Ona görə də yanına gəldim, – Tofiq dedi. – Kişi kişi olaraq qalır, nə baş verirsə versin, dəyişmir. Bu cür kişiyə hər bir işdə arxalanmaq olar. Bəziləri kimi o adamı atmaz. Düzmü deyirəm?

Düzdür, bu mülahizələrin məqsədi çox da aydın deyildi, amma Tofiqə etiraz eləməkçün də əlimdə heç bir əsasım yox idi.

– Əhsən sənə, çox şeyə nail olmusan, – Tofiq davam elədi. – Sənə görə ürəkdən şadam. Mən özüm elmlər namizədiyəm, mövqeyim də əladır. Qoy açıq danışaq: biz ikimiz də belə hesab edə bilərik ki, həyatımız uğurludur! Haqlıyam ya yox? Amma təvazökarlıq eləmə! Gəl bunsuz keçinək! Bizim səninlə açıq danışmağa ixtiyarımız var! Biz istəyimizə çatmışıq! İndisə oyunu açıq davam etdirə bilərik. Mənim burda yaxşı vəzifəm var, ən yaxşı vəzifələrdən biridir. Şəhərdə məni tanımayan adam yoxdur, hamını bax belə saxlayıram! – O, yumruğunu sıxıb dişlərini qıcadı, iki cərgə təzə qızıl dişlərini göstərdi. Yəqin bu ağızın azı üç min qiyməti olardı. – Öz dostlarından soruş – onlara da köməyim dəyib, ziyalı uşaqlardır, əgər imkan varsa, niyə də kömək etməyəsən? Keçən il onların yanına Bakıdan bir qonaq gəlmişdi, onlar onu turist bazasına gətirdilər ki, rəqs eləsinlər, bizdə isə bu olmaz. Hə, təbii ki, qalmaqal düşdü, az qala onları tutmuşdular.

– Nəyə görə?

– Yanımıza kənardan heç kimi buraxmırıq. Göstəriş var. Kimə lazımdı, özümüz xidmət edirik, – dümdüz bığları altından yenə qızılın küt parıltısı göründü, – bizə köməkçilər lazım deyil, yerli camaatla hər cür əlaqə isə qadağan olunub. Bir şey olan kimi marşrutdan çıxarırıq. Yeri gəlmişkən deyim ki, orda indi bir sütül şey var –



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

doymaq olmur! Həvəsin varsa, təşkil edə bilərəm. Leninqraddandır. Etibarlı variantdır. Mənim qırmağımdadır. Bir dəfə qayıtma vaxtına gecikmişdi. Bizim müəllimlərdən biriylə kinoya gedibmiş. Uşaqlar onları darvazanın yanında tutmuşdular. Onlar yaxınlaşırlar. – Lya-lya-lya – söhbət edirlər, mən isə bu vaxt maşınla gəldim. Rejimin pozulmasaydı! Oğlanı evə, onu isə mənim kabinetimə göndərdilər. Bir az yüngülcə qorxuzdum, yəni lap azacıq, guya marşrutdan çıxarıram, instituta məktub yazaram və sairə. O, əlbəttə, göz yaşı tökdü, canına vəlvələ düşdü. Hə, sonrası yağ kimi getdi. Neyləyəcəkdi ki? Konfet kimi qızdı... Peşman olmazsan...

Bəlkə də bu Tofiq yalan deyirdi, yaxşı təəssürat oyatmaqçün belə yuxarıdan gedirdi, öyünməkçün başqa şey olmayanda, belə hallar da olur, amma hətta dəfələrlə şişirdilmiş olsa belə – turbazadakı vəziyyət çox ciddi tərzdə dəyişmişdi. Axı biz hələ onuncuda oxuyanda ora rəqsə qaçırdıq, adətən Tbilisi – Bakı marşrutu ilə gedən turistlərlə tanış olurduq və dadlı Tbilisi təəssüratları ilə bərabər Bakıyla qarşıdakı görüşün həyəcanıyla yaşayan qonaqların gözlərində layiqli görünməyə var gücümüzlə çalışırdıq. Biz başa düşürdük ki, şəhərimizə qısa müddətə gələn adamda çox şey istehza oyada bilər, buna görə də xoşa gəlmək, bu istehzanın qarşısını almaq üçün əlimizdən gələni eləməyi özümüzə borc sayırdıq...

İndi mən heç bir təfərrüata varmadan və şübhə eləmədən nə vaxtsa bu sifətə çəkdiyim şilləyə inanırdım – o buna layiq idi. Acı bir təəssüf hissi ilə duydum ki, heyif, bu bacarığı artıq itirmişəm, ürəyimə gələn ilk fəhmdəncə bu fəhm məni nadir hallarda aldadırdı, qızışıb, vurmaq bacarığını! Təəssüflər də olsa acı həyat təcrübəsi öyrətmişdi: *min dəfə haqlı olsan da, səni haradasa, nədəsə təəssüflənməyə məcbur edəcəklər, özü də sənin vurduğun adam nə qədər pis adam olsa, cəzan da bir o qədər ağır olacaq! O pis adam buna nail olmayınca dünyanı dağıdacaq...*

Tofiqin girdə sifətinə üçüncü şilləni ilişdirməkdən özümü güclə saxlayıb (bizim çoxillik münasibətlərimiz əla bir triptix sonluğuyla qurtardı), quru tərzdə soruşdum ki, gəlişiylə məndən nə istəyir.

– Sənə açığını deyəcəyəm... – Tofiq özünü şəhərin ən nüfuzlu adamlarından biri hesab eləsə də, məsələnin izahına keçməzdən əvvəl bir neçə dəfə əsəbiliklə ətrafa boylandı, elə bil ki, arxasında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir kimsənin olub-olmadığını yoxlayırdı. - Biz sənilə açıq danışa bilərik, eləmi? Sən belə şeyləri məndən yaxşı bilirsən. Moskvada yəqin ki, buradakından, bizdəkindən də çətindi, dost köməyi olmadan tamam batıb gedərsən. Düzmü deyirəm? Nə isə, bir yer var – elə bil mənimçün yaranıb. Bütün göstəricilərinə görə. Sənin köməyin lazımdı, ikicə kəlmə desən qardaşının işi düzələr. O yerin qiyməti otuz mindi, mən dəqiq bilirəm, o pullar da məndə hazırdı. Çoxdan hazırdı. Nə vaxt desən, hara desən gətirərəm. Onsuz da veriləsidir. Amma əgər sənə çatsa, mənimçün daha xoş olar, Moskvada xərcin çox çıxır, orda tez-tez oluram, bilirəm...

Əlbəttə, bax bu dəqiqə ona bir dənə ilişdirmək lazım idi, özü də münasib yerdə oturmuşdu – düz sağ əlimin altında. Ya da heç olmasa necə lazımdı söyüb, dəhlizə itələmək lazımdı, – bizim münasibətlərimizin uzanmış tarixçəsinin əvvəlki iki hissəsi özünə uyğun sonluq tələb edirdi: bu mənzərə beynimdə canlanırdı: əvvəlcə onu möhkəm söydüm, sonra sağ əlimlə, var gücümlə, amma üzünə yox, qarnına vurdum ki, əclaf ikiqat olsun, huşunu itirməzdən əvvəl ağrıdan qıvrılsın. Sonra isə, o, qəddini belə düzəltmədən qapıya tərəf götürüləndə, birini də çənəsindən ilişdirdim.

...*Əlbəttə, onu bax beləcə döyüb, nömrədən bayıra atmaq lazım* idi. Amma mən onu rədd etməklə kifayətləndim. Özü də cəmi bir neçə sözlə, çox nəzakətlə.

– Haydı, rədd ol burdan... – Hə, hə, cəld ol.

Elədiyim bu oldu.

O, əsl yeniyetmə qıvraqlığı ilə qapıdan əkildi.

Tək qalıb, çarpayıya uzandım və axşamadək qapının dəfələrlə döyülməsinə baxmayaraq, yerimdən durmadım. Bizimkilərdən heç kimi görmədən bazadan çıxmağa münasib vaxt gözlədim.

Neçə yarışın ağbaş qalibi evdə yox idi. Arvadı dili topuq çala-çala, qızara-qızara izah elədi ki, onu hansı bir yoxlamaya görəsə təcili torqa çağırıblar - ya onu yoxlamaqçün başının üstünü alıblar, ya da o özü kimisə yoxlayır.

– Evdə mənə veriləsi bir şey qoymayıb ki?

– Yox.

– Mən nə vaxt gəlim, onu da demədi?

Qadın lap utandı, ətli sifətini yaylığın altında gizlətdi; onu hələ qızlıq vaxtlarından tanıyırdım; məndən beş yaş kiçik idi, indi çəkisi sentnerdən az olmazdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ona deyərsən ki, mən səhər gələcəyəm.

– Yaxşı.

– Qoy məni gözləsin.

Aydın məsələ idi ki, əclaf məndən gizlənirdi. Amma niyə? Doğrudanmı fikrini dəyişib? Onda hər şey qurtardı! Bu dəfə məni hətta aradan çıxmaq da xilas etməyəcəkdi...

Alya mənim gəlişimi gözləyirdi, özü də bəzi başqa qadınlar kimi bunu gizlətməyə çalışmırdı. Lal qonşular məni daha səbirsizliklə gözləyirmişlər. Dəhlizdə onlar məni diqqətlə gözdən keçirdilər, razı qalıb gülümsündülər, başlarını təqdiredici tərzdə yellədilər. Ər həmin göy idman kostyumunun üstündən təzə pencək geymişdi. Alyanın baxışlarını tutub baş barmağını qaldırdı: yəni zövqünə əhsən!

– Hə, öyünə bilərsiniz. – otağa girəndə Alya dedi, – qəbul komissiyası sizin namizədliyinizi təsdiq etdi. Alik isə onların xoşuna gəlmirdi.

– Onlar bunu ona hər dəfə hiss etdirirdilər?

– İlk vaxtlar... Sonra öyrəşdilər. Əyləşin.

– Bəlkə gəzməyə gedək?

– Nə danışırsınız? Sonra heç söz-söhbəti yığışdırmaq olar? – Onun səsində səmimi bir qorxu vardı.

– Bu şəhərə nə olub belə? Heç nə anlaya bilmirəm. Hər şey yaman dəyişib.

– Dəyişən sizsiniz, – Alya üzbəüz oturaraq gülümsündü. – Burda isə hər şey əvvəlki kimi qalıb.

– Yox. Mən sizi gözəl başa düşürəm. Mən doğrudan da başqa adamam. Həyəcanla danışırdım. – Həmişə olduğu kimi belə hallarda səsim əvvəlkindən zəif çıxırdı, bu da xoşuma gəlmirdi. – Amma burda da hər şey başqalaşıb axı, belə.... əvvəlki kimi deyil... Siz bunu hardan biləsiniz? Siz bura sonradan gəlmiş adamsınız. Bu şəhərə ilk vaxtlar elə adamlar gəlirdi ki, hər yandan! Qorxmaz, güclü, cəsarətli adamlar!...

Adətləri də başqa cürdü onların. – O mənə inamsızlıqla qulaq asırdı. – Bəlkə çıxaq gəzməyə? Mən burda elə yerlər tanıyıram ki, bizi heç kəs görməz.

– Haradı ora?

– Kür qırağında.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kürə çatanacan bizim gəzintimizi bütün şəhər biləcək.

– Siz ömrünüz boyu bu şəhərdə yaşamaq fikrindəsiniz?

– Ayrı çıxış yolum yoxdur. Aliklə danışdınızmı?

– Bəli.

– Hə, nədi, bağışlayır?

– Yox.

O, gülümsəməkdə davam eləsə də, həqiqətən dilxor oldu. Görünür, ümidini hələ tamam üzməmişdi. Bu küləkdə işarıb qüssələnən işığa oxşar təbəssüm onu mənə daha da doğmalaşdırdı.

– Burdan çıxıb getmək istəmirsiniz?

– Hara?

– Heç olmasa Bakıya.

– Orda heç kimim yoxdu.

– Bura təyinat üzrə gəlmisiniz?

– Hə.

– Artıq üç il keçibmi?

– Keçib...

Bu sualları ona elə-belə vermədiyimi anlamışdı, sonrasını gözləyirdi.

– Moskvaya gedərdinizmi?

– Məni ələ salıbsınız, nədi? Orda kimə lazımam mən?

Birdən öz-özümə təsəvvür elədim ki, o, Moskvada yaşayır, mənim evimdə, nə adla vacib deyil, bu öz-özünə müəyyənləşəcək, vaxt keçdikcə, hələlik isə ondan çox xoşum gəlir, başlıcası isə doğrudan da – Alik əhvalatından sonra Alya burdan çıxıb getsəydi yaxşı olardı, özü də Moskva pis variant deyil, böyründə də ona hər vaxt kömək edə biləcək bir adam! Nəhayət, mən də kimisə öz himayəmə götürə bilərdim, özü də aldatmadan, özümü başqa cür qələmə vermədən. Çoxillik qeydiyyatı olan moskvalının ən sadə imkanlarından istifadə edərdim; bütün bu mülahizələrdən sonra qəlbim elə rahatlandı ki, həyatımdakı çətinliklər mənə bir su içimi qədər asan göründü.

– Siz narahat olmayın, – yalan olmadığı üçün özümə də ləzzət verən saf bir inamla dedim, – ev məsələsində mən sizə kömək edərəm...

Qızın üzündə dəfələrlə aldadılmış bir adamın ifadəsi vardı: yalan demirsən ki, əzizim? Sizin kimi söz ustaları çoxdu, bir aləm söz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

deyib, mümkün olan-olmayanların hamısını vəd eləyirlər, əllərinə ilk imkan düşən kimi də aradan çıxırlar.

– Yaxşı, bəs harda yaşayacağam?

– Mənim yanımda.

Həyəcandan onun burnunun ucu əsdi.

– Çay istəyirsiniz? – Burda bu sual göydəndüşmə deyildi, söhbətin mövzusunu dəyişmək üçün idi.

– İstəyirəm. Hə, nədi, danışdıq?

O qalxdı, qapıya yönəldi, astanada qanrılıb mənə gözəl qaşları altından, məhzunluqla baxdı... Baxışlarımız qarşılaşdı.

– Bir şeyi başa düşə bilmirəm, – dedi, – bütün bunlar sizin nəyinizə lazımdır?

– Nə?

– Bax bu söhbətlər, vədlər...

– Burda anlaşılmaz nə var ki? Sən mənim xoşuma gəlirsən. Sənə kömək etmək istəyirəm...

– Doğrudanmı hər şey yalnız ona görədi ki... yerli centlmenlərin belə işlərlə məşğul olması başqa məsələ... Siz ki Moskvada yaşayırsınız?! Orda sizin nəyinizə gərəyəm axı?..

Qalxıb ona yaxınlaşdım, əlimi çiyninə qoydum.

– Zavallı insan! – Təəssüflə dedim, – səni nə qədər aldadıblar! Sən mənə ona görə lazımsan ki, yaxşı adamsan. Sən də mənim kimi tənhasan, təksən. Bilmirəm sonra münasibətlərimiz necə olacaq, vəd də verə bilmərəm, amma sənə kömək eləmək imkanım var, niyə bu imkanı heçə çıxarım?..

Çay içəndən sonra, axır ki, gəzməyə çıxmağı qərara aldıq.

Şəhər çoxdan yatmışdı. Kürün axarı boyu aşağı bir neçə kilometr getdik. Mən elə hey ara vermədən danışır, danışırdım... Qazandığım etibarı pozmamaq üçün hətta onu qucaqlamağa belə cəhd eləmədim.

– Sabah görüşəcəyik? – Geri qayıdanda soruşdum.

– Səhər məşqim var.

– Nə vaxta kimi?

– On ikiyə qurtara bilərəm.

– Əla... Buramı gəlim?

– Necə istəyirsiniz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Biz danışdıq axı? – İnadla mənə “sən” demək istəmədiyi üçün onu məzəmmətlədim.

– Necə istəyirsən, – o gülümsədi.

– Yaxşısı budu çay qırağında görüşək...

– Yaxşı...

Axır ki, onu öpmək istədim, o, əlləriylə məni saxladı:

– Lazım deyil, xahiş edirəm. Tələsmə. Korlama hər şeyi....

Onu başa düşdüyümdən incimədim, – axı hələ dünənəcən o, başqa adamın nişanlısı idi.

– Sabah hər şeyi konkret danışarıq. – Əlimi mehribanlıqla onun saçlarında gəzdirdim, – amma sən də ləngimə, tərpənməlisən... Burdan üzülüşmək üçün sənə neçə gün bəs edər?

– Bilmirəm... Yəqin ki, on gün...

– Mən də elə bu vaxt ərzində Moskvada iş soraqlaşaram.

Teatr aləmində az-çox tanışlarım var.

Yalan demirdim. Olyanı nəzərdə tuturdum. Ümumiyyətlə, o axşam dediklərimin hamısı həqiqət idi və bu həqiqət mənə, çoxgünlük məcburi yataq rejimindən sonra ilk gəzinti kimi bir məmnunluq gətirmişdi.

– Sabaha qədər. – O, minnətdarlıqla dedi. – Bəs nə vaxt gedirsən?

– Toy qurtaran kimi. Hər şey barədə hələ danışacağıq...

Arxadan addım səsləri eşidildi. Alya təşvişə düşdü.

– Olarmı mən gedim?

– Get.

Axır ki, tələsə-tələsə bir neçə dəfə onu alnından, yanağından öpdüm. Çoxdankı, az qala unudulmuş xatirə kimi tutqun bir həyəcan duydum özümdə...

Bazaya qayıtmazdan əvvəl ağbaşın yanına bir də gəldim. Onu yatağından qaldırdım. Bu dəfə məni içəri dəvət eləmədi.

– Nə olub, hardasan? – Mən kobud bir səslə soruşdum. – Biz danışmışdıq axı!

– Yoxlama vardı. – Onun səsində mehribanlıq da yoxdu, çaşqınlıqdan da əsər-əlamət görünmürdü. – Bu nə tələsiklikdir belə?

– Bu artıq sənə qalmayıb. Biz səninlə danışmışdıq? Özün demişdin ki, mən gəlim!

– Məni qəfildən çağırdılar, neyləyə bilərdim ki?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Səni heç kim çağırmamışdı...

– Di bəsdi, bunun sənə dəxli yoxdu.

– Pulları ver!

– İndi?

– Hə.

– İndi baş tutmayacaq. Gecdir.

– Bunun nə əhəmiyyəti var ki?

– Var, – o sözünə ara verdi, – sonra da ki, məndə o qədər pul yoxdu. Dünən sənə söz verdim, bu günsə baxıram, heç cür alınmır... – O, nigarançılıqla susdu.

Hər şey aydın idi, o, qiyməti yenə aşağı salırdı; alverçi həssaslığı ilə duymuşdu ki, pul mənə son dərəcə vacib lazımdı və bu əlacsızlıqdan maksimum istifadə etmək istəyirdi.

– Nə qədər varındı?

– Üç.

– Yaxşı üç ver.

– Razısan yəni?! – O yenə heyrətə gəlmişdi.

– Bəli, razıyam...

Amma o pul dalınca getmədi.

– Sabah səhər, – o xahiş etdi, – xahiş edirəm, səhərədək gözlə.

Aydın məsələdi ki, razılaşmalı oldum, ayrı neyləyə bilərdim? Başdaşı da, toyuq hini də məcbur edirdi ki, onun hər bir şıltaqlığını qəbul edim...

Alik məni bazada gözləyirdi: darvazanın ağzında gözətçi ilə çay içirdi.

– Hər şey qaydasındadı. Adam tapdım – aparıb evinə verəcək.

– Sağ ol, Alik. Bu çox mühüm zərf idi.

Alikin rəngi açıldı: o, həmişə mənə də, elə hamımıza da qulluq eləyəndə ürəkdən şad olurdu.

– Sən haralardasan? Uşaqlar səni bütün axşam gözləyiblər.

– Moskvaya zəng edirdim... O dəqiq bu gün aparacaq?

– Bəli...

Bu o deməkdi ki, artıq səhər cavab üçün zəng eləmək olardı; Strijov bircə dəfə nəzər salsaydı o dəftərə, bu vunderkindin bacarığını qiymətləndirəcəkdi.

– Ramiz səni bütün axşamı gözlədi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə, hə! – Özümü elə göstərdim ki, guya Ramizə vəd elədiyim pul söhbətini unutmuşam... – Tamam huşumdan çıxmışdı... Heç yaxşı düşmədi! Eyibi yoxdu, sabah səhər... Sabah səhər o hamısını alar...

– O elə öz toyuq hinini də sənə sabah göstərmək istəyir.

– Saat neçədə?

– Onda...

Toy barədə danışmırdıq: Mən Alya ilə görüşlərimə görə, onun da yəqin ki, öz səbəbləri vardı. Amma hiss olunurdu ki, toy onsuz da olacaq...

Səhər çox erkən, səkkizin yarısında ayıldım. Həlledici gün gəlib çatmışdı, heç kimlə görüşmədən bazadan çıxmaq lazım idi. Amma yuyunmağa, üz qırxmağa düz iyirmi dəqiqə getdi, səkkizdə isə artıq vunderkindlə anası qapının dalını kəsmişdilər. Səsləri gəlirdi, yəqin məni belə tezdən narahat etməyin münasib düşüb-düşməyəcəyini müzakirə edirdilər.

– Məncə çoxdan durmuş olar! – Alimlərin iş gününün tezdən başlandığına istinad edən ana təkid edirdi.

– Dünən o, doqquza kimi yatırdı, – oğul anasının haqlı olduğuna ümid eləsə də, etiraz etdi.

– Mən əminəm ki, artıq oturub işləyir!

– Səhər yeməyi neçədədi?

– Səkkizdən doqquza kimi. Dörd-beş dəqiqə qalıb. Darıxma, oğlum, o bu saat çıxar.

Ayaqlarımın ucunda stola yaxınlaşdım. Uşaqlar yazıb külqabının altına kağız qoymuşdular: "Harda itib-batırsan? Gecə saat birə kimi gözlədik. Səhər yerində ol. Hər ehtimala qarşı, axşam saat beşdə bazarda yığışırıq. Toy altıdadır. Tost hazırla – tamada sən olacaqsan".

Kağızı oxuyub qapıya yaxınlaşdım, açar yerindən baxdım: ana-bala dəhlizin axırında yeganə pilləkənin yanında dayanmışdılar və bununla da binadan çıxmağa yol bağlanmışdı.

Pəncərə həyətin arxa tərəfinə çıxırdı. Adam-zad görünmürdü. İş günü gec başlanırdı. Ana-balanın mənə bazanı adam kimi tərk eləməyimə imkan verməyəcəyinə əmin olduğumdan, pəncərəyə dırmaşıb, təzə şumlanmış torpağa tullandım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vaxtım çox az idi. Alya ilə görüşməzdən əvvəl evin pulunu almalıydım, Moskvaya zəng eləməliydim və Ramizin toyuq hininə baxmalıydım.

"Pulları almaq! Pulları almaq! Pulları almaq!" Az qala qaça-qaça neçə yarışın ağbaş qalibinin evinə gedənəcən bu sözlər elə hey beynimi döyəcləyirdi. Maraqlıdı ki, o nədə və kimlə yarışırdı, kimə qalib gəlmişdi? Mənə dəqiq qalib gəlmişdi. Bunu onun arvadı ala-qapıya çıxıb, onun bir az əvvəl getdiyini deyəndə, daha aydın duydum.

– Necə getdi?

Əlim qeyri-ixtiyari ürəyimə uzandı: qıraqdan baxana elə gələrdi ki, pencəyimin döş cibində nəsə axtarıram.

Arvadı onun tez qayıdacağını deyib, mənim bir az gec, bir də baş çəkməyimi xahiş edə-edə diqqətlə əlimi izləyirdi, düşünürdü ki, indicə əlimi çıxaracağam, görsün ki, orda nə var?! Amma bunu görə bilmədi. Hətta poçta çatanadək belə, əlimi sinəmdən ayıra bilmədim, içəridə nəsə yandırmağa başlayırdı, hər dəfə nəfəs alanda ağrı daha da güclənirdi.

Strijovun telefon nömrəsini deyib, qadın və kişi adları onların görüşdükləri tarixlərlə yazılı skamyaya çökdüm və nömrənin cavab vermədiyi deyilənədək tərpənmədən oturdum. İndi Moskvada səkkizə az qalırdı. Strijov belə tezdən evdən gedə bilməzdi. Yəqin gecə telefonu çıxarıb, buna görə də xahiş elədim ki, danışığı bir saatdan sonra təkrar eləsinlər...

Anamın qəbri önündə bir az dayanandan sonra – qəbir, üstünə qara əyri-üyrü hərflərlə adı, atasının adı və familiyası yazılmış müvəqqəti dəmir lövhəcik basdırılmış torpaq qalağından ibarət idi – axtarıb, qəbiristanlığın uzaq küncündə ağ-boz qaya parçalarından başdaşları yonan daşyonanları tapdım. Dedilər ki, istənilən gün başlayıb, işi bir həftəyə qurtara bilərlər. Mənə görə ən qəşəng, sal qaya parçasını seçdim və danışdıq ki, günün axırında işə nə vaxt başlamaq barədə qəti cavab alacaqlar.

Ramizlə Feliks düz saat on birdə redaksiyanın "qazik"ində bazaya gəldilər. Mən öz nömrəmə qalxa bilmədim, dəqiq bilirdim ki, ikinci mərtəbədə vunderkindlə anası həmin dəqiqə məni yaxalayacaqlar; həyətdə dayanmağın da mənası yox idi, ana-bala hər dəqiqə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aşağı düşə bilərdilər. Ona görə də bazadan bir az aralı küçədə, çinar kölgəsində əyləşmişdim. Uşaqlar da məni burda gördülər.

– Burda niyə oturmusan?

– Sizi gözləyirəm.

– Bəs niyə burda?

– Orda vunderkindlə anası keşik çəkirlər! – Səsimdə qüssəli bir kinayə vardı.

– Əşi, cəhənnəm olsunlar onlar, – Feliks acıqlandı. – Nədi, hələ də dəftərə baxmağa imkan tapmamısan?

– Elə məsələ də ondadı ki, imkan tapmamışam...

– Elə-belə də deyərsən də! Qoy sabah gəlsinlər.

– Nəsə üzüm gəlmir, hə, getdik?

– Getdik.

– Onlara görə sənin pullarını da tələsdiyimdən götürə bilmədim. – Biz bazadan kifayət qədər aralanandan sonra Ramizə gileyləndim.

O dilxor oldu, amma bunu bizdən gizlətməyə çalışdı.

– Eyibi yox... Onlar axşamadək gözləyərlər... – O borc aldığı adamları nəzərdə tuturdu.

– Yolüstü poçta dəyə bilərikmi? – Feliksdən soruşdum. – Moskva ilə vacib danışığım var.

– Niyə əvvəldən deməmisən, səninçin düz nömrəyə sifariş verərdim... Döndər poçta, – o bizim məktəbi bitirən, öz balıqçılıq qabiliyyəti ilə məşhur olan sürücüdən xahiş etdi; o balığı çəngəllə vurmağı yaxşı bacarırdı, bununla da özünə "Qatil" ləqəbini qazanmışdı ki, bu da onun seyrəkbığ, arıq sifətinə qətiyyən uyğun gəlmirdi. Onda rus-alman-erməni qanlarının mürəkkəb bir qarışığı vardı, amma şəhərimizin bütün digər sakinləri kimi o da Azərbaycan dilini əla bilirdi...

Dəstəyi qaldırıb xışıltı, ciyilti arasından moskvalı telefonçu qızın səsini eşidəndə, yenə ürəyim sancdı.

– Nömrəniz cavab vermir, – dilotu yemiş kimi danışırdı. – Neyləyək?

– Bir də yığın, ay qız, çox xahiş edirəm, ola bilməz ki, o evdə olmasın...

Mən məhz bu sözləri deyəndə Strijov dəstəyi götürdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Allo, Strijov, mənəm, Edikdi! – Elə bağırdım ki, girişdə duran Felisklə Ramiz təəccüblə bəri boylandılar. Səsimi azaltdım.

– Aldın?

– Hə... – O görünür, təzəcə oyanmışdı.

– Oxudun?

– Hə.

– Necədi?

– Qaydasındadı.

– Necə yəni qaydasındadı? Ətraflı izah elə, xahiş edirəm.

– Oğlanda baş var.

– Ona kömək edə bilərsən?

– Hansı yolla?

– O anasıyla Moskvaya gələr. Sənin ünvanını verərəm.

– Olar!

– Çox sağ ol. Strijov!!!

Dəstəyi qoyandan sonra, dəftər yadıma düşdü. Amma əgər Strijov onu yubanmadan poçtla yollasaydı belə, bir həftədən tez gəlib çıxmayacaqdı. Əgər belədirsə, onda mən özüm onu üç gündən sonra göndərə bilərdim. Amma başlıcası başqa şeydir – indi mən cəsarətlə hamıya deyə bilərdim ki, dəftərin məzmunu ilə tanış olmuşam və vunderkində kömək etməyi boynuma götürürəm. Bizim torpağımızın istedadları azalmayacaq heç vaxt! Kefim yaman kökəlmişdi. Ən vacib də olmasa, hər halda bir işi adam kimi yarıtmışdım.

– Getdik!

Ramizin həyəti boğazlarını yırtan sarı cücə topalarıyla dolu idi. Adi anbara oxşayan hin qurulub başa çatmaqda idi. Ramiz sabahın toyuqlarına dən atır, Feliks gülümsəyə-gülümsəyə alimvari izahat verirdi:

– Toyuq saxlayıb artırmaq – ən az gəliri olan biznesdi. Dəqiq desək, bu heç biznes də deyil, – toyuq böyüyənəcən onun yediyi yemi hesablasan sonralar onun satıldığı pula bərabər olar. Yalnız yumurtadan qazanmaq olar, – Feliks qımışdı, eyhamlı bir pıçıltıya keçdi, – amma bu yazığın aldığının hamısı beçədi, fərə deyilən şey yoxdu...

Maşından çıxan Qatil də pıqqıldadı:

– O özü bilir bunu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox.

Səssizcə gülməkdən uğunub getdilər.

– Bəs niyə demədin ona?

– Niyə deyim axı? Qoy camaatın xoruzu çox olsun... Ramizə əsas o lazımdı ki, başını bir işlə qatsın.

Ramiz şadlığından bilmirdi neyləsin.

– Hər şey qaydasındadı, -- dedi. – Yaxşı ki, gəldiniz. İndi axşamadək tox olacaqlar. – Boylanıb, öz yetişdirmələrini mehribanlıqla süzdü. – Hə, necədir, xoşunuza gəlir? Qoşəngdilər, düzdümü?

– Çox qəşəngdilər... Getdik?

– Bəlkə çay içəydik?

Etiraz elədim: nəsə bir bəhanə tapmaq lazım idi ki, onlardan axşamadək ayrıla bilim.

– Bəlkə, bir özümüzü buğa verək? – Feliks maşında təklif etdi. – Mən bu günlük işlərimi görüb qurtarmışam. Hamam da yaxşıca qızdırılıb...

Özümü sirli-sehrli bir alim, səfərə çıxacaq Eynşteyn kimi göstərməli oldum.

– Gedə bilmərəm, uşaqlar. Mən tək qalmalıyam... Bir az beynimi işlətməliyəm...

– Beşdə bazada yığışırıq. – Mən maşından çıxanda, Feliks xatırlatdı. – Gecikmə...

Düz saat on iki tamamda Kürün qırağında, danışdığımız yerdə idim. Alya yox idi. Yəqin məşq uzanmışdı. Amma birə on dəqiqə işləmiş körpüdə Alyanın əvəzinə Oqtay göründü, onun hədə-qorxu yağan üz-gözü hər şeyi aydınca dedi, nəsə gözlənilməz çətinliklər çıxıb araya, bu görüşümüzü Alyadan başqa ayrı kim deyə bilərdi ona?! Bir də ki, Alyanı belə hərəkət etməyə məcbur edən nə idi axı?

Həqiqətpərəst Oqtayla isə daha danışmağın mənası yox idi, heç bir cəhd yaxşılığa gətirib çıxarmayacaqdı. Yalnız Alya hər şeyi izah edə bilərdi! Amma hardaydı Alya? Hardan tapa bilərdim onu bu dəqiqə?

Alya bu gün heç saraya da gəlməmişdi. Xoşqılıq, cavanca bir qadın olan gözətçi dedi ki, bu gün məşq-zad da olmayıb, uşaqlar Alyanı gözləyib-gözləyib dağılmışdılar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşam düşənədək yataqxanaya gedə bilməzdim, onsuz da bu gün özümü çox sərbəst aparmışdım.

Əlbəttə, Alyanın bu cür qəfildən yoxa çıxması məni dilxor elədi, amma bu tapmacanın yaxşı sonluğuna məndə qəribə bir inam var idi – bu hiss məni bütün günü tərk etmirdi, məni ən çox narahat edən isə evsatma əhvalatının uzanması idi.

Bu dəfə ucuz ev almaq istəyən ağbaş evdə idi. Amma məni elə bir üzlə qarşıladı ki, bütün cəhdlərimin boşa çıxdığı tamam-kamal aydın oldu!

– Çox pis vəziyyətdə qoydular məni, – dedi, – adamlara inanmaq olmaz. Öz pullarımı da vermək istəmirlər.

– Hansı pulları? Kimlər? – Əlim yenə sol döşümə tərəf getdi.

– Kim olacaq? Öz doğmalarım! Vermişdim saxlasın, indi beynimi aparır; bu gün gəl, sabah gəl. Öz pullarımı da ala bilmirəm... – O hardan biləydi ki, eşitdiklərimə məhəl qoymadan niyə dinməzcə sol döş cibimin altında eşələnirəm. – Mənimçün səndən ayıbdı axı, – o uzun sürən, ağır sükutdan sonra dedi: – Əgər iş belə getsə, mən yalnız iki verə bilərəm... Üçüncünü neyləyim. Hardan tapım...

– İki varındı?

– Saat altıda olacaq... – O da əlini pencəyinin döş cibinə saldı və iki qatlanmış bir vərəq çıxartdı. – Bəlkə dilimdən iltizam verim, hə!..

Dönüb alaqapıya tərəf yönəldim. Ona görə yox ki, onu cəhənnəmə vasil etmək istəyirdim, əfsus ki, belə bir imkanım yox idi, mən ondan çox asılı idim, – sadəcə olaraq deməyə sözüm yox idi. Göz yaşlarımı güclə saxlayaraq, alaqapıya tərəf gedirdim ki, o mənim ağladığımı görməsin.

– Hara gedirsən axı? – O arxadan ətəyimdən tutdu. – Uşaqlarımın canına and içirəm ki, düz altıda pullar olacaq... İki min, necə danışmışıqsa... Gələcəksən?

Ona baxmadan başımı yellədim və havası çatmırmış kimi küçəyə çıxdım.

İkinci mərtəbədəki geniş qəbul otağında əynində təzə neylon köynək olan tünd-qara qalstuk bağlamış pota bir oğlan qabağındakı kitabları lay vərəqlərə kip-kip bükürdü.

Heç başını qaldırıb mənə baxmadı da; ucadan verdiyim "salam"a isə başının cüzi bir hərəkətiylə cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sədrin kabinetinin qapısı açıq idi; stol arxasındakı baş yer boş idi. Üzbəüz müavinin kabineti yerləşirdi. Sədrin bu gün olub-olmayacağı ilə maraqlanıb, ona müraciət elədim.

– Məlum deyil nə vaxt olacaq, – oğlan peşəkar bir cəldliklə kitabları bükməkdə davam edərək cavab verdi.

– Axı mən sabah Moskvaya uçuram, yoldaş Talışovla da çox mühüm bir məsələ barədə danışmalıyam.

Moskvanı qəsdən araya atdım ki, təsir oyadım, axı lənət şeytana, moskvalılar gündə qəbula gəlmirlər ki! – Amma oğlan mənə tərəf baxmadı ki, baxmadı.

– Bağışlayın, – onun diqqətini cəlb etməkçün bir də cəhd elədim, – məni maraqlandıran məsələyə görə kimə müraciət edə bilərəm?

– Bilmirəm.

– Siz onun katibisiniz?

Axır ki, mənə çəpəki bir nəzər saldı: “katib” sözü xoşuna gəlməmişdi.

– Köməkçisiyəm.

– Çox yaxşı... Mən, əslində...

– Yoldaş, qulaq as, vicdanın olsun, – o acıqla sözümü kəsdi, – görürsən ki məşğulam... Səbrin olsun.

O, kitabları kağıza bükürdü, kitabsa çox idi – azı iki yüz dənə olardı, ən azı bir saata ancaq qurtarardı.

– Əzizim, – mən də acıqlandım, – mənim sən deyən qədər də vaxtım yoxdur. Doğrudanmı sadə bir suala cavab vermək bu qədər çətindir?

O mənə cavab verməyi heç lazım da bilmədi; öz işində idi! Möhkəm tərləmişdi. Hərdən burnunu çəkirdi.

– Səninlə deyiləmmi?! – Ona tərəf yeridim. – Eşitmirsənmi? Karsan, nəsən?!

İndi mən onunla lap yanaşı dayanmışdım, bir neçə santimetr aralı, amma o, inadla özünü elə göstərirdi ki, guya məni nə görür, nə də eşidir.

Bu yerdə iki son günün gərginliyi özünü göstərdi. Moskvada, ya Bakıda hər şey hökmən milislə qurtarardı, amma əyalət əyalətliyində qalır – burda mənim qışqırığım əvvəlcədən Moskvaya getməyim barədə verdiyim məlumatla birlikdə təhlükə siqnalı kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qəbul olundu: o sövq-təbii olaraq dik durdu, amma kağızı hələ də əlindən buraxmırdı.

– Səndən söz soruşanda cavab ver, axmaq! Əgər burda işləmək istəyirsənsə! Kağızla oynamağı da bir yana qoy!.. Sədr nə vaxt olacaq?!

– Tezliklə!

– Nədir onun adı?

– İbrahim Həsənoviç.

Müavinin kabinetindən iki nəfər çıxdı – biri hündürboy, kök, bozumtul gözləri olan kişiydi; yadıma düşdü ki, məktəbimizin keçmiş komsomol təşkilatı katibidir – həmin arıq, diribaş oğlan – yəqin elə buna görə də sədrin familiyası mənə tanış gəlibmiş. O biri isə biz futbol oynayanda həmişə bizi qabağına qatıb qovlayan həmin direktor idi – şəhər stadionunun qocalıb əldən düşmüş direktoru. Bu, demə şəhər sovetinin sədr müavinliyinədək böyümüşdü.

– Nə hay-küy salmısan? – Keçmiş komsomol lideri zarafatyana bir ciddiliklə məndən soruşdu. – Bura səninçün elmi-tədqiqat institutu deyil ha. Şəhər zəhmətkeş deputatları Sovetidir! – O mənə göz vurub, öz köməkçisinə tərəf çevrildi. – Yığışdır kitabları! Adamları tanımağı nə vaxt öyrənəcəksən? Bilirsənmi bu kimdir? Bu, bizim fəxrimizdir. – O yenə mənə göz vurdu. – Görkəmli alimdir. Dövlət mükafatı laureatıdır! Sən isə burda kitab bükməklə məşğulsan. Onu əsəbiləşdirirsən. Kağız xışıldadırsan. Heç vicdanın varmı? – O məni kabinetə dartıb, ərklə hədələdi. – Şəhərə gəlmisən, cürbəcür görüşlər təşkil edirsən, hətta zəng belə eləməmisən! Əzizim, Sovet hakimiyyətinə hörmət eləmək lazımdır. Elm öz yerində, tərəqqini irəlilədən isə bizik. Əyləş... Nə işin düşüb bizə sənin? İşin düşməsəydi, bura gəlməzdin! Hə, buyur görək! Utanma. Mən öyrəncəliyəm xahişlərə.

Qocaların xahişini dedim.

– Elə bu! – O, dəstəyi götürdü. – Ramiz Hüseynoviç, mənə baş çəkin. – Dəstəyi qoyub, hiyləgər bir təbəssümlə mənə baxdı. – Yaxşısan, maşallah! İndi səninlə elə bir yerə gedirik ki, o cür yer heç Moskvanın özündə də yoxdur! Düzdür, siz moskvalıları guya heç nəylə heyrətləndirmək olmaz, amma görərsən, burda ağzın açıla qalacaq, sənə təminat verirəm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Stadionun keçmiş direktoru daxil oldu.

– Sənin qocalarının ad-familiyası nədir? – sədr məndən soruşdu.

Mən dedim.

– Deməli belə, – o ciddiyyətlə müavininə baxdı, – qocalara mütləq kömək etmək lazımdır. Bu həftənin ərzində onların suyu olmalıdır. Aydınlaşdır, gör kimin günahı ucbatından ev ümumşəhər smetasına daxil olunmayıb.

Sədr müavini məlumatlı adam çıxdı.

– İbrahim Həsənoviç, mən işin içindəyəm. Orda heç bir şey eləmək mümkün deyil. Çox hündür nöqtədir, təzyiqin gücü çatmır. Baş plana əsasən isə bu evlər yerli-dibli söküləcəkdir.

– Nə vaxt?

– Gələn beşillikdə.

– Deməli adamlar beş il əziyyət çəkməlidirlər? Heç nə bilmirəm, ora su çəkilməlidir, vəssalam! Nasos qoyun... Nəsə bir yolla həll edin. Sabah məlumat verin.

Sədr müavini nəzərə çarpacaq dərəcədə təmkinləşib, kabineti tərk etdi.

– Hə, daha nə sözün var? – Sədr məndən soruşdu. – Nə qədər ki, gec deyil, elə xahişini. Məni çıxarırlar. Şəhər komitəsinin birinci katibiylə düz gəlmirik. Ondan əvvəlkiylə aramız çox yaxşıymış, ona görə.

– Hara gedəcəksən?

– Məktəbimizin direktorunun yerinə. Mənim axı pedaqoji təhsilim var, hə, getdik? – O qalxdı. – Dünyanın səkkizinci möcüzəsi, toxuculuq kombinatının profilaktoriyası. Düz şəlalənin üstündədir, bütün rahatlığı ilə qırx nömrədi; ayrıca kababxanası, idman kompleksi.

Bu səfərdən canımı güclə qurtardım – keçmiş məktəbin gələcək direktoru yaman inadkar imiş..

Altıya hələ üç saat yarım qalmışdı. Ramizin pullarını tapmadan bazada görünə bilməzdim...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Axın boyu iki kilometr enib, quzğun təsərrüfatına çatdım.

Yay olduğundan quzğunlar azadlığa buraxılmışdılar – qəfəs meydançalar boş idi. Təsərrüfat binasının alçaq, yarımqaranlıq otağında çirkdən parıldayan yorğanın altında sarışın bir oğlan yatmışdı. Belə isti havada pambıq yorğan təəccüb doğururdu, amma daha təəccüblüsü buydu ki, o, paslı çarpayı torunun üstünə köhnə-kültə sərib təkcə alt paltarında yatmışdı. (Şalvar-köynəyi çarpayının başına atılmışdı). Arxası üstə uzanıb, yorğanı düz gözlərinin üstünə çəkmişdi.

– Səndə sap var?

– Var...

– Qaradır?

– Ağdır.

– İynə necə?

– Var idi.

Gözə gəlməsin, coşqun fəaliyyətimdə tənəffüs idi, şalvarımın sökülən yerini tikə bilərdim.

Oğlan qımıldanmadan uzanmaqda davam edirdi: gözləri açıq olmasaydı, deyərdin ki, div yuxusuna gedib, – bax bu adama söz ola bilməz – gör, özüyçün necə sakit həyat qurmağı bacarıb!

Mən köhnə, yırğalanan kətilə əyləşib, şalvarımı çıxartdım. Oğlan yorğanı üstündən atdı. Çil-çil bədəni həddən ziyadə ağ idi. Dinməzcə mənə iynə-sap verib, yenə uzandı və yorğana büründü.

– Burda işləyirsən?

– Bəli, – o, yorğanı sinəsinə endirməyə məcbur oldu.

– Qışdadamı?

– Yox.

– Oxuyursan?

– Hə.

– Neçənci sinifdə?

– Onuncuya keçmişəm.

– Özün haralısan?

– Yerliyəm.

– Oxşamırsan.

– Niyə? – O, Azərbaycan dilinə keçdi.

– Dərin çox ağdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dərim gün altında qaralmır.

Adını soruşdum.

– Valera...

– Hə, Valera, necədi burda gün-güzəranın?

– Yaxşı.

– Darıxmırsan?

– Yox...

– Bütün günü beləcə uzanıb qalırsan?

– Niyə? Lazım olanda dururam...

Bir müddət susduq.

– Qəzetdə sizdənmi yazılmışdı? – nəhayət, onda nəsə bir maraq oyandı. – Siz alimsiniz?

– Bəli. – Mən nəsə çox asanlıqla "bəli" dedim: uzun illər ərzində hər gün yalan danışan adamda müəyyən vərdiş əmələ gəlməsəydi, bu, qəribə çıxardı. Amma hətta böyük təcrübən olsa belə, təzə tanış olduğun adama yalan demək nədənsə həmişə çətindi. Söhbəti uzatmayıb, ora-burası hasarlanmış həyətə çıxdım, qollu-budaqlı tut ağacının altındakı otluğa uzandım: son günlərin gərginliyi məni üzmüşdü, amma yenə yata bilmədim. İki saatdan sonra çox şey həll olunmalıydı. Mən hələ ümid edirdim ki, hər şey uğurlu olsa, alçalmalar, qurbanlar bahasına başa gəlsə də, öz uydurulmuş taleyimin bir hissəsini heç olmasa xeyirxah uşaqlıq dostlarımın xatirələrində qoruyub saxlaya bilərəm...

O məni notariusun təsdiq etdiyi yazılı iltizamnamənin altından qol çəkməyə məcbur etdi və yalnız bundan sonra qəzetə bükülmüş pulu evdən çıxartdı. O hələ bir üçüncü minlik barədə nəsə izah eləməyə çalışırdı, guya vaxt olar, onun etibarından sui-istifadə edən adamlardan alandan sonra onu da verər. Amma bu əclafa qulaq asmağa nə vaxtım, nə də həvəsim vardı: bu axşam məni dünyanın bir aləm işi gözləyirdi – Ramizə pul vermək, vunderkindin anası ilə danışmaq, daşyonanlarla işə başlamağı tapşırmaq, Alyanı axtarıb tapmaq lazım idi, – bütün bu işlər bacardıqca tez görülməli və mən Moskvaya uçmalıydım, çünki ortaya hər dəqiqə yeni bir əngəl çıxa bilərdi – ya təzə bir vunderkind, ya evinə su çıxmayan qocalar, ya da ki... Mənim isə daha heyim yox idi... Əldən düşmüşdüm.

Mən toya çatanda, artıq turbazanın girdəsifət direktoru Tofiq tamadalığa könüllü razı olaraq, həyəcan dolu bir səmimiyyətlə sev-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gidən, insanları cəmiyyətin monolit özəyində birləşdirəcək bu qüdrətli hissin böyüklüyündən, gözəlliyindən danışırdı. Heç şübhəsiz ki, bugünkü şadlığın günahkarlarının tərifi göylə gedirdi.

Alik ümumi qayda üzrə öz ehtiyat nişanlısı, əyriqıç Sonka ilə stolun başında oturmuşdu. Sonkanın üzü gülürdü. Bircə uçmağa qanadı yox idi: görünür, cəmiyyətin təzə özəyinin monolitliyinə elə indidən şübhə eləməyə başlamışdı.

Məndən az sonra Oqtay gəldi: tutulmuş halda qonaqların cərgələrinə göz gəzdirib, başının hərəkətiylə bizi stol arxasından durmağa çağırdı. Əlbəttə, toyun qızğın yerində stoldan bir dəstə adamın birdən durması pis çıxardı – birinci Ramiz durdu, onun arxasınca da qalanları, – amma gün kimi aydın idi ki, hətta səbirsiz, əsəbi olan Oqtay belə son dərəcə vacib səbəb olmasaydı, bizim hamımızı toydan çıxarıb, həyətin uzaq küncündə anbarın yanına yığmazdı.

Alik də arxamızca cummaq istədi. Amma Sonkanın dəmir barmaqları ona aman vermədi, şalvarından yapışıb saxladı.

Mən sövq-təbii duyurdum ki, ezamiyyətdən təzəcə qayıdan Elxanla nəsə narazı-narazı donquldayan Feliksin və Oqtayın bu qəribə hərəkətinin hökmən mənə bir dəxli var!

Gümanım məni aldatmamışdı. Biz anbarın tinini burulub dalda bir yerə çıxan kimi Oqtay nədənsə heç kimə mane olmayan Feliksi kənara itələdi. Mənə sarı gəldi. Mənsə zülmlə əldə etdiyim pulu çıxarıb Ramizə vermək istəyirdim. Təzəcə əlimi cibimə salmışdım ki, Oqtay özünü yetirib üstümə bozardı:

– Nədi, – dedi. – İndiyədək elədiklərin bəs olmayıb sənə? Özünü saxlaya bilmirsən?

– Nə olub? Nə olub? – bazada hər işdən xəbərdar olmağa öyrəşmiş Elxan söhbətə qarışdı, amma daha Oqtayın gözü yeri-göyü seçmirdi.

– Axı o özünü öldürə bilər! Heç bu barədə düşünübsənmi? Bəlkə sən elə hamıya bu cür baxırsan? Kim gəldi hamıya tüpürürsən? Qoy canı çıxsın, təki sən öz kefini görəsən? Hə! Ömrün boyu heç kimə yaxşılığın dəyməyib, Allahın uşağına da zəmanət vermək istəmirsən, – heç utanmırsan da? İndi də qadınlarımıza girişirsən? – Oqtay coşğunluğuna ara verib təzədən başladı, – siz isə adam yerinə qoyub ona ehtiram göstərirsiniz! – O sizə gülür, sizsə onun çamadanlarını daşımağa hazırsınız.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bir de görək nə olub axı? – Elxan səbirsizliklə soruşdu.

– O olub ki, hər oyundan çıxan bu əclaf, indi də namusunu, arını yeyib gecələr Alyanın yanına gedir... Bəli, bəli, Alyanın yanına. Özü barədə ağlına gələni uydurur ona. Nə bilim, subaydı, uşaqları yoxdu, tənhalıqdan əziyyət çəkir... Yazıq qızın ağlını başından alıb. Bir görün ki, artıq işdən də çıxırmış o... Bəs necə! Gör onunla kim – bu cür bir adam maraqlanır!.. Yaxşı ki, Nelli təsadüfən hər şeyi bilib. Qız bununla görüşə gəlirmiş... Əclaf... Mən Alyaya hər şeyi danışdım, nə varsa onu, bütün həqiqəti... Ailəsi barədə də. Uşaqlar barədə də. Qoy bilsin ki, kimə aldanırmış!.. – O yenə susdu. Yenə də yalnız təzə hücumqabağı nəfəsini dərmək üçün.

– Deyilən düzdümü? – Elxan soruşdu.

Deməli Alya səhər buna görə gəlməyibmiş! Onun gözlərində indi mən dünyanın ən əclaf adamıydım.

– Səninləyəm, deyilən düzdümü? – Elxan sualını bir də təkrar etdi.

Bu vaxt heç kimin gözləmədiyi bir hadisə baş verdi, Oqtay qolaylanıb, məni vurdu. Gendən hərlədiyi iri əliylə nəsə klassik bir şillə alındı...

İndiyədək yaşadığım ömrümü bütün təfsilatı, xırdalıqları, haşiyələri ilə özündə cəmləşdirən an yetişdi, elə bir an ki, doğulduğum saniyədən bu son saniyəyədək mövcud olduğum böyük bir vaxt onda əks olunmuşdu – belə ki, uzun illər ərzində başıma gələnlərin hamısı qəfil bir nöqtədə kəsişdi. Onların hamısına birlikdə də, tək-bətək də cavab verə bilərdim, sözüm də vardı deməyə! Oqtayın ittihamlarının hamısını asanca dəf edə bilərdim; son iki gündəki səylərimlə hər şeydə haqlı olduğumu sübut edə bilərdim: Ramiz üçün aldığım pullar cibimdə idi, vunderkindin dediyi həll olunmuşdu, qocalar su almışdılar... Alya barədə də bir şey fikirləşmək olardı; bundan da çətin vəziyyətlərdən çıxmışdım, heç nəyim olmasa da, axı yalan deməyi bacarırdım...

Amma girdəsifət əclafın sevginin böyüklüyündən və gözəlliyindən dəm vurduğu bu saxta və mənasız toy, hamı tərəfindən və mənim də aldatdığım zavallı Alyanın taleyi, mənim pullarıma görə uğursuzluğa məhkum olunmuş Ramizin "toyuq korluğu" – hər şey, hər şey çoxdan yığılan başqa şeylərlə birləşib, qəfil, gözlənilməz bir zərbəylə məni indiyəcən məlum olmayan, amma bu an yeganə mümkün olan bir nöqtəyə, bir istiqamətə tulladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli, bu həqiqətdi! – On dörd il ərzində öz yalanlarımla qurduğum dünyanı dağıdaraq qışqırdım. – Ailəm yoxdu! Uşaqlarım da yoxdu... Maşınım da yoxdu... Medalım da yoxdu... Heç bir adım-zadım yoxdu... Pulum da yoxdu! Heç nəyim yoxdu... Təkəm, tək... Fabrikdə keçə çəkmə hazırlayanam, başa düşürsüz, keçə çəkmə!.. Heç kimi də heç yana təqdim edə bilmərəm... Borc verməyə də imkanım yoxdu... Su kəməri də çəkə bilmərəm... Əlimdən heç nə gəlmir... Məni rahat buraxın!

Oqtay bir də qolaylandı və mənim burnum gəmirilmiş toyuq qanadı kimi xırçıldadı...

Onu döyə bilərdim, amma döymədim, buna heç bir ehtiyac da yox idi...

Bundan sonra necə yaşayacağımı bilmirdim, amma qeyri-adi bir yüngüllük hiss edirdim özümdə – ağır, neçə illik və özü də tamam mənasız olan bir yük axır ki, bütünlüklə, son qramına qədər mənim yorğun çiyinlərimdən atılmışdı. Bu yüngüllük elə şirin, elə xoş idi ki, daha mənə ayrı heç nə lazım deyildi.

Əlbəttə, uşaqlar məni buraxmaq istəmədilər, amma keçmiş ola! Ramizə söz verdiyim pulları qoyub, çıxıb getdim...

Altı dənə pəncərə idi – üçü bir tərəfdən, üçü o biri tərəfdən. Tələsik vurulmuş taxtalar asanlıqla qopurdular. Artıq mənə mənsub olmayan bu doğma ata evində heç olmasa bircə gecə nəfəs almaq istəyirdim.

Onu satmağıma peşman deyildim. Ümumiyyətlə, heç nəyə peşman deyildim. Qazandıqlarımdan da artıq mənə daha heç nə lazım deyildi. Bir daha yalan deməmək, çətin vəziyyətdən çıxmağa çalışmamaq, dildə bir şey deyib, ürəkdə ayrı şey düşünmək, mənim barəmdə azmı-çoxmu bildiyini, fürsət düşən kimi məni satıb-satmayacağını müəyyənləşdirmək üçün hər dəfə həmsöhbətimə diqqət kəsilib, onun hərəkətlərini ölçüb-biçmək – bütün bunlar və buna bənzər ağrılar, qorxular teleyimi üstələyən qara kabus kimi çəkilib getmişdi. Yalanlardan azad olmaq ümidi – mənə çox baha başa oturan bu ümid itirdiklərimin hamısına dəyərdi!

Nə vaxtsa öz əlimlə vurduğum taxtalar öz əlimlə də bir-birinin dalınca yerə tökülürdü...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KİTABIN İÇİNDƏKİLƏR

*İnsanda insanlığın tərənnümü* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *4*

POVESTLƏR

Hava məbədi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9
İntiqam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78
Park . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 119
Anın hökmü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 199



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**RÜSTƏM İBRAHİMBƏYOV**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ
1 CİLD

"AVRASİYA PRESS"
BAKI–2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piri* |
| Kompyuter operatoru: | *Günel Daşdəmirova* |
| Kompyuter səhifələyicisi: | *İslam Rzayev* |
| Korrektor: | *Elman Başirli* |

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional